AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ПЕДАГОГИЧЕСКИЙ УНИВЕРСИТЕТ

AZERBAIJAN STATE PEDAGOGICAL UNIVERSITY

**ISSN 2664-407X**

# Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri

# Актуальные проблемы музыкальной науки, культуры и образования

# Actual problems of the science, culture and education of music

**www.adpu.edu.az**

**2025 №1 (17)**

**Redaksiya şurasının sədri**

| | |
|---|---|
| C.M.Cəfərov | tarix elmləri doktoru, professor |

**Redaksiya şurasının sədr müavini**

| | |
|---|---|
| A.D.Zamanov | fizika-riyaziyyat elmləri doktoru, professor |

**Redaksiya heyəti**

| | |
|---|---|
| Fərəh Əliyeva | sənətşünaslıq doktoru, professor |
| Fərhad Bədəlbəyli | Bakı Musiqi Akademiyasının rektoru, professor |
| Firəngiz Əlizadə | Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti, professor |
| Səyavuş Kərimi | Azərbaycan Milli Konservatoriyasının rektoru, xalq artisti, professor |
| Zemfira Səfərova | sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Ceyran Mahmudova | ADMİU-nun rektoru, sənətşünaslıq doktoru, professor |
| Rəna Məmmədova | sənətşünaslıq doktoru, AMEA-nın müxbir üzvü, professor |
| Gülnaz Abdullazadə | fəlsəfə elmləri doktoru, professor |
| Rəna Abdullayeva | sənətşünaslıq doktoru, professor |
| Yuliy Əliyev | pedaqogika elmləri doktoru, professor (Rusiya) |
| İmruz Əfəndiyeva | sənətşünaslıq doktoru, professor |
| Çingiz Abdullayev | kulturologiya doktoru, professor |
| Vidadi Xəlilov | pedaqogika elmləri doktoru, professor |
| Vladimir Adişev | pedaqogika elmləri doktoru, professor (Rusiya) |
| Eduardas Balçitis | pedaqogika elmləri doktoru, professor (Litva) |
| Anatoliy Bolqarskiy | pedaqogika elmləri doktoru, professor (Ukrayna) |
| Anatoliy Qoremıçkin | pedaqogika elmləri doktoru, professor (Ukrayna) |
| Rauf Kadırov | pedaqogika elmləri doktoru, professor (Özbəkistan) |
| Yelena Nikolayeva | pedaqogika elmləri doktoru, professor (Rusiya) |

**Baş redaktor**

| | |
|---|---|
| Jalə Qədimova | pedaqogika elmləri doktoru, professor |

**Baş redaktorun müavini**

| | |
|---|---|
| Tamilla Kəngərli | pedaqogika elmləri doktoru, professor |

**Elmi redaktor**

| | |
|---|---|
| Fərrux Rüstəmov | pedaqogika elmləri doktoru, professor |

**Məsul redaktorlar**

| | |
|---|---|
| Həcər Hüseynova | filologiya elmləri doktoru, professor |
| Ülviyyə Hacıyeva | filologiya üzrə fəlsəfə doktoru, dosent |

**Məsul katib**

Sevinc Mamoyeva

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Elmi Şurasının 15 aprel 2016-cı il, 15 saylı qərarı ilə çap olunur.**
Təsisçi: **Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**

Jurnal ildə iki dəfə çıxır.
Azərbaycan Dövlət Pedaqoji Universiteti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri №1
Bakı, 2025, 156 s.
Ünvan: AZ 1000, Azərbaycan Respublikası, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68
Адрес: AZ 1000, Азербайджанская Республика, Баку, улица Узеира Гаджибейли 68
Address: AZ 1000, Azerbaijan Republic, Baku, Uzeyir Hajibeyli street 68
Tel.: (99412) 493-00-32 Fax: (99412) 598-10-35
e-mail: n_s_q@mail.ru

## Sahələr üzrə redaksiya komissiyaları:

- **Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi ixtisası üzrə:** pedaqogika elmləri doktoru, professor Tamilla Kəngərli (sədr), pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze, pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova, pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova;

- **Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (Musiqinin tədrisi metodikası) ixtisası üzrə:** psixologiya elmləri doktoru, professor Qızxanım Qəhrəmanova (sədr), pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova;

- **Musiqi sənəti ixtisası üzrə:** sənətşünaslıq doktoru, professor Ülkər Əliyeva (sədr), sənətşünaslıq doktoru, professor Kamilə Dadaşzadə, pedaqogika üzrə fəlsəfə doktoru, professor Nərminə Quliyeva, sənətşünaslıq doktoru, professor Nailə Rəhimbəyli, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Zemfira Abdullayeva;

- **Kulturologiya ixtisası üzrə:** tarix elmləri doktoru Fuad Məmmədov (sədr), fəlsəfə elmləri doktoru, professor Mübariz Süleymanlı, fəlsəfə elmləri doktoru, professor Niyazi Mehdi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Laçın Həsənova;

- **Məktəbəqədər təlim, tərbiyə ixtisası üzrə:** pedaqogika elmləri doktoru, professor Şəhla Əliyeva (sədr), pedaqogika elmləri doktoru, professor Museib İlyasov, pedaqogika üzrə fəlsəfə doktoru Sədaqət Əliyeva, pedaqogika üzrə fəlsəfə doktoru Pərişan Həsənova, psixologiya üzrə fəlsəfə doktoru Qəribə Rəhimova.

**11 may 2016-cı il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır.**

**Qeydiyyat №: 4050**

# MÜNDƏRİCAT

## ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**QƏDİMOVA J.**
Azərbaycanın professional musiqi təhsilinin təşəkkülündə Üzeyir Hacıbəylinin rolu............ 10
**ABDULLAYEVA Z.K.**
Müasir musiqi təhsilində ənənələr və innovasiyalar............ 22
**HÜSEYNOVA H.**
Musiqinin insan həyatında rolu və əhəmiyyəti............ 28
**QULİYEVA L.D.**
Müasir Azərbaycanda təhsil sisteminin bəzi aspektləri…………………... 34
**RZAYEVA F.İ.**
Azərbaycanın ilk qadın piano ifaçıları və onların maarifçilik fəaliyyətləri............ 44
**ƏLİXANOVA G.H.**
Yeniyetmələrin peşə seçiminə hazırlığının mahiyyəti............ 52
**İSMAYILOVA K.Q.**
Üzeyir Hacıbəyli və Azərbaycanda musiqi tənqidi............ 58
**CƏFƏROVA C.F.**
Konsertmeyster fəaliyyətinin spesifikası............ 66
**HƏSƏNOV H.R.**
Musiqi müəlliminə lazım olan ümumpedaqoji və xüsusi qabiliyyətlər....... 73
**MƏMMƏDLİ Ş.F.**
Mədəni irsin musiqi təhsilində rolu............ 80
**CABBAROV Ə.M.**
İnkişafedici pedaqoji texnologiyaların mahiyyəti............ 86
**ƏLİYEVA Z.F.**
Zəfər Gününün Azərbaycan musiqisində tərənnümü............ 93

## TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**ƏLİYEVA M.T.**
Musiqinin tədrisində şagirdlərin yaradıcı qabiliyyətlərinin inkişafı üçün sinektika metodundan istifadə............ 101

**ASLANOVA G.Ç.**
Azərbaycan bəstəkarlarının opera və baletlərində musiqi folklor nümunələrindən istifadənin tərbiyəvi əhəmiyyəti........................................ 108
**SÜLEYMANOVA Ə.B.**
Musiqi ifadəlik vasitələrinin tərbiyəvi imkanları............................................. 116
**VƏLİYEVA N.Ə.**
Musiqi dərslərində kiçik yaşlı məktəblilərin motivasiyasının formalaşması.......................................................................................... 123
**BABAYEVA F.İ.**
Xalq mahnılarının pedaqoji prosesdə rolu.................................................. 131
**BABAYEVA A.R.**
Şagirdlərin musiqi zövqünün formalaşmasında müəllimin rolu.................. 137

## MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

**QƏRİBOVA A.H.**
Məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsi problemləri 143
**Qaydalar**........................................................................................ 149

# СОДЕРЖАНИЕ

## ОБЩАЯ ПЕДАГОГИКА, ИСТОРИЯ ПЕДАГОГИКИ И ОБРАЗОВАНИЯ

**КАДИМОВА Ж.**
Роль Узеира Гаджибейли в становлении профессионального музыкального образования в Азербайджане........................................... 10
**АБДУЛЛАЕВА З.К.**
Традиции и инновации в современном музыкальном образовании….. 22
**ГУСЕЙНОВА Х.**
Роль и значение музыки в жизни человека........................................... 28
**ГУЛИЕВА Л.Д.**
Некоторые аспекты системы образования в современном Азербайджане................................................................................... 34
**РЗАЕВА Ф.И.**
Первые женщины-пианистки Азербайджана и их просветительская деятельность................................................................................... 44
**АЛИХАНОВА Г.Г.**
Сущность подготовки подростков к выбору профессии....................... 52
**ИСМАЙЛОВА К.Г.**
Узеир Гаджибейли и музыкальная критика в Азербайджане………… 58
**ДЖАФАРОВА Дж.Ф.**
Специфика концертмейстерской деятельности...................................... 66
**ГАСАНОВ Г.Р.**
Общепедагогические и специальные способности, необходимые учителю музыки................................................................................... 73
**МАММАДЛИ Ш.Ф.**
Роль культурного наследия в музыкальном образовании..................... 80
**ДЖАББАРОВ А.М.**
Сущность развивающих педагогических технологий........................... 86
**АЛИЕВА З.Ф.**
Прославление Дня Победы в азербайджанской музыке........................... 93

## ТЕОРИЯ И МЕТОДИКА ОБУЧЕНИЯ И ВОСПИТАНИЯ (МЕТОДИКА ПРЕПОДАВАНИЯ МУЗЫКИ)

**АЛИЕВА М.Т.**
Использование метода синектики для развития творческих способностей учащихся в преподавании музыки.................................. 101

**АСЛАНОВА Г.Ч.**
Воспитательное значение использования образцов народной музыки в операх и балетах азербайджанских композиторов.............................. 108
**СУЛЕЙМАНОВА А.Б.**
Воспитательные возможности средств музыкальной выразительности 116
**ВЕЛИЕВА Н.А.**
Формирование мотивации младших школьников на музыкальных занятиях........................................................................................... 123
**БАБАЕВА Ф.И.**
Роль народных песен в педагогическом процессе……………………... 131
**БАБАЕВА А.Р.**
Роль учителя в формировании музыкального вкуса учащихся............ 137

**ДОШКОЛЬНОЕ ОБУЧЕНИЕ И ВОСПИТАНИЕ**
**ГАРИБОВА А.Г.**
Проблемы музыкального воспитания в дошкольных учреждениях...... 143
**Правила оформления статей**……………………………………...….. 151

# CONTENTS

## GENERAL PEDAGOGICS, HISTORY OF PEDAGOGICS AND EDUCATION

**GADIMOVA J.**
Uzeyir Hajibeyli's Role in the Establishment of Professional Music Education in Azerbaijan........................................................................ 10
**ABDULLAYEVA Z.K.**
Traditions and Innovations in Modern Music Education…………………… 22
**HUSEYNOVA H.**
The Role and İmportance of Music in Human Life.................................... 28
**GULIYEVA L.D.**
Some Aspects of the Education System in Modern Azerbaijan…………... 34
**RZAYEVA F.I.**
The  First Pianists of Azerbaijan and their Educational Activities….……… 44
**ALIKHANOVA G.K.**
The Essence of Preparing Adolescents for a Career Choice....................... 52
**ISMAYILOVA K.G.**
Uzeyir Hajibeyli and Music Criticism in Azerbaijan.......................................... 58
**JAFAROVA J.F.**
The Specifics of Concertmaster Activity.................................................... 66
**HASANOV H.R.**
All-Pedagogical and Special Abilities that a Music Teacher Needs........... 73
**MAMMADLI Sh.F.**
The Role of Cultural Heritage in Music Education..................................... 80
**JABBAROV A.M.**
The Essence of Pedagogical Developmental Technologies........................ 86
**ALIYEVA Z.F.**
The Glorification of Victory Day in Azerbaijani Music…………………….. 93

## THEORY AND METHODS OF TRAINING AND EDUCATION (METHODS FOR TEACHING OF MUSIC)

**ALİYEVA M.T.**
The Use of the Synectics Method for the Development of Students' Creative Abilities in Music Teaching……………………………………... 101
**ASLANOVA G.Ch.**
Educational Importance of Using Folk Music Samples in the Operas and Ballets of Azerbaijani Composers………………………………………… 108

**SULEIMANOVA A.B.**
Educational Potential of the Means of Musical Expression……….………… 116
**VELIYEVA N.A.**
Formation of Motivation of Younger Schoolchıldren in Musıc Lessons..... 123
**BABAYEVA F.I.**
The Role of Folk Songs in the Pedagogical Process……………………… 131
**BABAYEVA A.R.**
The Role of the Teacher in Shaping Students' Musical Tast……………... 137

## PRESCHOOL EDUCATION AND UPBRINGING

**GARIBOVA A.H.**
Problems of Music Education in Preschool Institutions.............................. 143
**Rules**…………………………………………………………………… 153

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 10-21**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 10-21**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 10-21**

# ÜMUMİ PEDAQOGİKA, PEDAQOGİKANIN VƏ TƏHSİLİN TARİXİ

**UOT 37.033(479.24)**

**Jalə Qədimova**
pedaqogika elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: jala.gadimova@mail.ru

## AZƏRBAYCANIN PROFESSİONAL MUSİQİ TƏHSİLİNİN TƏŞƏKKÜLÜNDƏ ÜZEYİR HACIBƏYLİNİN ROLU

***Açar sözlər:*** *cəmiyyət, musiqi, təhsil, məktəb, demokratik incəsənət, tərəqqi, pedaqoji baxış, maarif*

XX əsrin əvvəllərində Azərbaycan mütərəqqi hərəkatın ümumi axınında iştirak edir və buna görə də, təbii ki, cəmiyyətin daha irimiqyaslı, demokratik incəsənətə ehtiyacı var idi. XIX əsrin 90-cı illərinin ortalarınadək musiqi təhsili ocaqları ümumtəhsil orta məktəbləri idi. Həmin vaxta yaxşı musiqi təhsili olan müəllimlərin sayı artmışdı, lakin şəxsi dərslər kimi "qeyri-məcburi" məktəb dərsləri də artıq artmaqda olan mədəni ehtiyacı, xüsusən də Bakı əhalisinin ehtiyacını, ödəyə bilmirdi.

O dövrün görkəmli maarif nümayəndələri Azərbaycan xalqının estetik tərbiyəsi, o cümlədən də musiqi tərbiyəsi məsələləri üzrə elmi və bədii faktiki material şəklində tarixi əhəmiyyətini itirməyən çox böyük irs qoyublar.

Üzeyir Hacıbəylinin musiqi tərbiyəsinə, xüsusən də Azərbaycan məktəbinin musiqi tədrisinə cəlb edilməsində və Azərbaycanın professional musiqi təhsilinin təşəkkülündə və inkişafında rolunu qiymətləndirməmək mümkünsüzdür.

Böyük bəstəkar, Azərbaycanın görkəmli maarifçi-pedaqoqu nəinki nəzəri mülahizələri, həm də bədii-praktik və ictimai fəaliyyəti ilə öz böyük töhfəsini vermişdir.

Ü.Hacıbəyli Azərbaycan incəsənətinin inkişafına, həm də bütövlükdə bir çox musiqi tərbiyəsi, xüsusən də musiqi tədrisi və təhsili məsələlərinin həllinə yeniliklər gətirmişdir. Onun konsepsiyasına əsasən, musiqi uşaqlarda mərhəmət, hünər, mərdlik kimi yüksək mənəvi-əxlaqi keyfiyyətləri tərbiyə etmək imkanlarına malikdir, onlarda təhsil və biliyə meyl yaradır. Oxşar pedaqoji mülahizələr H.Zərdabi və A.Səhhətin ideya-estetik baxışlar sistemində də mövcud idi.

Bu cür islahatlar, təbii ki, Azərbaycanda musiqi tərbiyəsinin inkişafına yardım edirdi. Bir daha qeyd edək ki, Ü.Hacıbəyli özünün bədii-estetik konsepsiyasında musiqi tərbiyəsi problemlərini məktəb təhsilinin hüdudlarından kənara çıxarırdı.

Beləliklə, yuxarıda deyilənlər bir daha təsdiq edir ki, Ü.Hacıbəyli milli musiqinin inkişafı məsələlərini millətlərarası musiqi əlaqələri və təsirləri məsələlərindən ayırmır, sonuncu isə Azərbaycan musiqi pedaqogikası üçün həlledici əhəmiyyət kəsb edirdi.

**Ж.Кадимова**

# РОЛЬ УЗЕИРА ГАДЖИБЕЙЛИ В СТАНОВЛЕНИИ ПРОФЕССИОНАЛЬНОГО МУЗЫКАЛЬНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *общество, музыка, образование, школа, демократическое искусство, прогресс, педагогический взгляд, просвещение*

В начале XX века Азербайджан участвовал в общем потоке прогрессивного движения, и поэтому, естественно, общество нуждалось в более масштабном, демократическом искусстве. До середины 90-х годов XIX века центрами музыкального образования были общеобразовательные средние школы. К тому времени число учителей с хорошим музыкальным образованием увеличилось, но «необязательные» школьные уроки, такие как частные уроки, уже не могли удовлетворить растущие культурные потребности, особенно населения Баку.

Выдающиеся представители просвещения того периода оставили очень большое наследие в виде научных и художественных фактических материалов по вопросам эстетического воспитания азербайджанского народа, включая музыкальное воспитание, которое не потеряло своего исторического значения.

Роль Узеира Гаджибейли в музыкальном образовании, особенно в привлечении азербайджанской школы к преподаванию музыки и в формировании и в развитии профессионального музыкального образования в Азербайджане, невозможно переоценить.

Великий композитор, выдающийся просветитель-педагог Азербайджана, внес свой большой вклад не только теоретическими размышлениями, но и художественно-практической и общественной деятельностью.

У.Гаджибейли внес новшества в развитие азербайджанского искусства, а также в решение многих вопросов музыкального образования, особенно преподавания музыки и образования в целом. Согласно его концепции, музыка обладает возможностью воспитывать в детях высокие морально-этические качества, такие как сострадание, мастерство и мужество, и создает

в них склонность к образованию и знаниям. Подобные педагогические соображения также присутствовали в системе идейно-эстетических взглядов Х.Зардаби и А.Саххата.

Такие реформы, естественно, способствовали развитию музыкального образования в Азербайджане. Отметим еще раз, что У.Гаджибейли в своей художественно-эстетической концепции выводил проблемы музыкального образования за пределы школьного образования.

Таким образом, вышесказанное еще раз подтверждает, что У.Гаджибейли не отделял вопросы развития национальной музыки от вопросов международных музыкальных связей и влияний, последние из которых имели решающее значение для азербайджанской музыкальной педагогики.

**J.Gadimova**

## UZEYIR HAJIBEYLI'S ROLE IN THE ESTABLISHMENT OF PROFESSIONAL MUSIC EDUCATION IN AZERBAIJAN

***Key words:*** *society, music, education, school, democratic art, progress, pedagogical view, enlightenment*

At the beginning of the 20th century, Azerbaijan was part of the broader progressive movement, and as a result, society naturally required larger-scale, democratic art. Until the mid-1890s, music education was primarily offered in general education secondary schools. By that time, the number of teachers with solid music education had grown, yet "non-compulsory" lessons, such as private instruction, could no longer satisfy the increasing cultural demands, particularly those of the Baku population.

Prominent educational figures of that era left behind a substantial legacy of scientific and artistic materials related to the aesthetic education of the Azerbaijani people, including music education – materials that retain their historical importance to this day.

Uzeyir Hajibeyli's role in music education cannot be overstated, especially in integrating Azerbaijani schools into music instruction and in shaping and advancing the country's professional music education. This great composer and distinguished Azerbaijani educator-pedagogue made significant contributions not only through theoretical insights but also through practical artistic endeavors and social initiatives.

U.Hajibeyli introduced innovations to the development of Azerbaijani art and addressed numerous challenges in music education, particularly in teaching and the broader educational framework. According to his philosophy, music has the power to instill lofty moral and ethical qualities in children – such as compassion, skill, and courage – while fostering a passion for learning and

knowledge. Similar pedagogical ideas were also present in the aesthetic and intellectual frameworks of H.Zardabi and A.Sahhat.

These reforms undoubtedly supported the growth of music education in Azerbaijan. It is worth emphasizing that U.Hajibeyli, through his artistic-aesthetic vision, extended the scope of music education beyond the confines of formal schooling.

Thus, the points above reaffirm that U.Hajibeyli did not isolate the development of national music from international musical relationships and influences, the latter of which played a decisive role in shaping Azerbaijani music pedagogy.

XX əsrin əvvəllərində musiqinin ictimai rolu daha da artır. “Bu dövrdə incəsənət azərbaycanlıların, xüsusən də gənclərin mədəni həyatında və milli özünüdərkinin inkişafında daha da böyük əhəmiyyət kəsb edirdi. Azərbaycan gənclərinin mədəniyyətə yaxınlaşması bədii ədəbiyyat, teatr, mədəni-maarif müəssisələri, cəmiyyətlər və dərnəklər, mütərəqqi nəşrlər, rus-tatar məktəbləri vasitəsilə baş verirdi” [8, s. 210].

Bu zaman Azərbaycan mütərəqqi hərəkatın ümumi axınında iştirak edir və buna görə də, təbii ki, cəmiyyətin daha irimiqyaslı, demokratik incəsənətə ehtiyacı var idi. Musiqi təhsilinin ilk cücərtiləri zamanın mütərəqqi ənənələrinin təbii təzahürü oldu.

XIX əsrin 90-cı illərinin ortalarınadək musiqi təhsili ocaqları ümumtəhsil orta məktəbləri idi. “...Məcburi fənlər sırasına yalnız xorla oxuma daxil idi, digər musiqi dərslərinə görə isə əlavə haqq alınırdı, buna görə də hamı üçün əlçatan deyildi... Qızlar gimnaziyalarında əlavə dərs qismində fortepianoda ifa, bəzən isə solo oxuma daxil edilirdi. Oğlan gimnaziyalarında və məktəblərdə simli və nəfəsli alətlərdə çalmağı öyrədirdilər, bu, kiçik orkestrlər yaratmağa imkan verirdi ki, onlar da məktəb xorları ilə birlikdə ildə iki-üç dəfə keçirilən şagirdlərin ədəbi-musiqili gecələrində iştirak edirdi” [9, s. 26].

Baxmayaraq ki, həmin vaxta yaxşı musiqi təhsili olan müəllimlərin sayı artmışdı, lakin şəxsi dərslər kimi “qeyri-məcburi” məktəb dərsləri də artıq artmaqda olan mədəni ehtiyacı, xüsusən də Bakı əhalisinin ehtiyacını, ödəyə bilmirdi.

Bakı şəhərində müntəzəm musiqi təhsilinin təməlini Tiflis musiqi məktəbini bitirmiş gənc pianoçu A.N.Yermolayevanın təşəbbüsü ilə 1900-cü ildə açılan birinci şəxsi musiqi məktəbi qoymuşdur. Məhz A.N.Yermolayevanın məktəbi Azərbaycanın musiqi təhsili tarixində mühüm rol oynamışdır.

Yüksək təhsil haqqı RMC yanında musiqi siniflərinə və ya məktəbə (1916-cı ilin noyabrında musiqi sinifləri Musiqi Məktəbinə çevrilmişdi) yalnız varlı ailələrin uşaqlarına daxil olmaq imkanı verirdi. Beləliklə, bu siniflər geniş kütlələr

üçün əlçatan deyildi. Musiqi siniflərini bitirən şəxslər əsasən həvəskar musiqiçi kimi çalır, yalnız bəziləri professional musiqiçi olurdu.

Musiqi siniflərinin daha bir səciyyəvi xüsusiyyəti onlarda Azərbaycan millətinin nümayəndələrinin tamamilə olmaması idi. Bu fakt heç də təsadüfi deyildi, çünki rus çarizminin məqsədyönlü şovinist siyasəti buna təsir etmişdi. Məhz buna görə azərbaycanlıların musiqi təhsilindən süni olaraq ayrılması, millətin dünya musiqi sənətinə yiyələnməsi maarifçiləri, Azərbaycanın bütün mütərəqqi xadimlərini narahat edirdi.

O dövrün görkəmli maarif nümayəndələri Azərbaycan xalqının estetik tərbiyəsi, o cümlədən də musiqi tərbiyəsi məsələləri üzrə elmi və bədii faktiki material şəklində tarixi əhəmiyyətini itirməyən çox böyük irs qoyublar.

Üzeyir Hacıbəylinin musiqi tərbiyəsinə, xüsusən də Azərbaycan məktəbinin musiqi tədrisinə cəlb edilməsində və Azərbaycanın professional musiqi təhsilinin təşəkkülündə və inkişafında rolunu qiymətləndirməmək mümkünsüzdür. Bəstəkar, publisist, Azərbaycanda ilk musiqi truppasının rəhbəri, ictimai xadim – bütün bunlar Azərbaycanın bədii ziyalılarının parlaq nümayəndəsi Üzeyir Hacıbəylidə təbii və bölünməz olaraq birləşmişdir.

Böyük bəstəkar, Azərbaycanın görkəmli maarifçi-pedaqoqu nəinki nəzəri mülahizələri, həm də bədii-praktik və ictimai fəaliyyəti ilə öz böyük töhfəsini vermişdir.

Üzeyir Hacıbəylinin (1885-1948) yaradıcılıq yolu Azərbaycanın musiqi mədəniyyətinin təşəkkül tarixini əks etdirir. Bütün yaradıcılığı ərzində Ü.Hacıbəylinin fikir və mülahizələrində ziddiyyətin olmaması onun iki ictimai-tarixi dövrdə yaşamasına baxmayaraq, heyrətləndiricidir. Azərbaycan klassikinin ideya-estetik məqsədlərinin (istiqamət, direktiv, göstəriş) fövqəladə bütövlüyü bundan ibarətdir.

Milli opera sahəsində ilk yaradıcı təcrübələrə başlayana qədər Ü.Hacıbəyli bir çox səbəb üzündən musiqi təhsili almamışdır. Nə Üzeyir Hacıbəylinin, nə də onun silahdaşlarının xüsusi musiqi təhsili yox idi. Üzeyir Hacıbəyli şəxsi musiqi məktəblərindən heç birində oxumamış, RMC-nin Bakı bölməsinin tələbəsi olmamışdır. Doğrudur, onun Qori müəllimlik seminariyasında təhsil aldığı dövrdə yiyələndiyi musiqi nəzəriyyəsinə aid müəyyən bilikləri var idi və bir sıra Avropa musiqi alətlərində ifa etməyi bacarırdı.

Musiqi təhsilindəki boşluqları doldurmaq üçün Ü.Hacıbəyli 1911-ci ildə Moskvaya gedir və orada A.A.İlyinskinin şəxsi musiqi kurslarına daxil olur. Burada onun pedaqoqları tanınmış mütəxəssislər N.A.Laduxin və İ.N.Sokolov olur. Maddi vəziyyət üzündən o, müvəqqəti olaraq, təhsilini dayandırmağa məcbur olur və müəyyən vaxtdan sonra Peterburq Konservatoriyasına professor V.P.Kalafatinin sinfinə daxil olaraq təhsilini davam etdirir.

Bununla yanaşı, Üzeyir Hacıbəyli nəinki özünün biliyini təkmilləşdirmiş, həm də tez bir zamanda Peterburq məktəbinin mütərəqqi ənənələrinin bələdçisi oldu.

Ü.Hacıbəyli müəllimləri tərəfindən təsadüfən məharətli və istedadlı pedaqoq adlandırılmamışdır. Məktəb təhsilinin mövcud köhnə sisteminə tənqidi yanaşan Ü.Hacıbəyli tədricən özünün yeni mütərəqqi sistemini yaratdı. Pedaqoji baxışlarında Ü.Hacıbəyli dünyəvi təhsil prinsiplərinə söykənirdi.

Bizi maraqlandıran problemin dərk edilməsində başlıca məqam kimi xüsusi qeyd etmək lazımdır ki, Ü.Hacıbəylinin pedaqoji klassikanı, xüsusilə də görkəmli Azərbaycan və rus pedaqoqlarının ənənələrini davam etdirməsinə baxmayaraq, məhz o, nəinki Azərbaycan incəsənətinin inkişafına, həm də bütövlükdə bir çox musiqi tərbiyəsi, xüsusən də musiqi tədrisi və təhsili məsələlərinin həllinə yeniliklər gətirmişdir. O, “Üzeyirə qədərki” dövrün musiqi pedaqogikasının yaradıcılığı və özündə topladığı ən yaxşı cəhətlərin bir növ “birləşdiricisi” olmuş və onu milli orijinallıq ənənələri prizmasından keçirərək genişləndirmiş, özünün şəxsi, yeni dövrün diktə etdiyi tələb və yenilikləri əlavə etmişdir.

Fəaliyyətinin ilk addımlarından Üzeyir Hacıbəyli musiqi və nəğmə dərslərinə böyük əhəmiyyət vermiş, onları dərs dediyi məktəblərin tədris proqramlarına daxil etmişdir.

Üzeyir Hacıbəylinin pedaqoji baxışları sistemi M.F.Axundovun, H.Zərdabi-nin, N.Nərimanovun, VC.Məmmədquluzadənin, M.Ə.Sabirin və başqalarının pedaqoji ideyalarının təsiri altında və onlarla qarşılıqlı əlaqədə inkişaf edirdi.

Özünün maarifçi sələfləri kimi Ü.Hacıbəyli də musiqinin uşaqların tərbiyəsində və inkişafında böyük və hərtərəfli rolunu etiraf edirdi. O, melodiyaların oxumasının uşaqların həmişə şən tonusuna, ruh yüksəkliyinə və əhval-ruhiyyələrinə faydalı təsirini qeyd edirdi.

Bununla yanaşı, Ü.Hacıbəyli musiqinin təkcə emosional tərəfi ilə kifayətlənməməyə çağırırdı. O qeyd edirdi ki, "dərk edilmiş ağıllı musiqi insan orqanizminin mənəvi-estetik və intellektual-əqli cəhətlərinin inkişafında çox böyük rol oynayır..." [7, s. 326].

Onun konsepsiyasına əsasən, musiqi uşaqlarda mərhəmət, hünər, mərdlik kimi yüksək mənəvi-əxlaqi keyfiyyətləri tərbiyə etmək imkanlarına malikdir, onlarda təhsil və biliyə meyl yaradır. Oxşar pedaqoji mülahizələr H.Zərdabi və A.Səhhətin ideya-estetik baxışlar sistemində də mövcud idi.

Ü.Hacibəylinin, başlıca olaraq, sovet dövründə yaratdığı konsepsiyasının əsas müddəaları "Elmimizin vəzifələri barədə suallar" məqaləsində şərh edilmişdir. Bu məqalədə Ü.Hacibəylinin iyirminci illərin müvafiq xalq maarifi orqanlarını hər vasitə ilə orta məktəblərin musiqi müəllimləri ilə təmin olunmasının qayğısına qalmağa çağırırdı.

Məktəbdə musiqi tərbiyəsinin müntəzəm və düşünülmüş olması, nəğmənin uşaqlara təsirinin dərk edilməsi və dərin olmasının qayğısına qalan Ü.Hacıbəyli, məktəblərdə notların öyrənilməsinin tərəfdarı və təşəbbüskarı kimi çıxış etmişdir. Beləliklə, bu aspektdə də H.Zərdabi və A.Səhhət xəttinin davamçısı olan Ü.Hacıbəyli məktəblərin tədris planlarına nəğmə dərslərinin salınması ilə

kifayətlənməmiş, Azərbaycanda yeni musiqi təhsilinin təşəkkülünün və inkişafının yaradıcısı olmuşdur.

Pedaqoji baxışlarının nəzəri cəhətlərini Ü.Hacıbəyli şəxsi pedaqoji fəaliyyəti, bədii praktikası əsasında təsdiq edirdi. O, şagirdlərin musiqi tərbiyəsini yalnız məktəbin hüdudları ilə məhdudlaşdırmırdı, müxtəlif formalı sinifdənxaric və məktəbdən kənar tədbirlər vasitəsilə onu daha geniş və əhatəli inkişaf etdirməyə çalışırdı. Bu, səhər tamaşaları, baxış-müsabiqələr, olimpiadalar, musiqili gecələr, mühazirə və söhbətlər, musiqili tamaşa tədbirlərinə - teatrlara, konsertlərə gedişlər və s. idi.

Azərbaycanın musiqi təhsili tarixində ilk dəfə olaraq 10 fevral 1923-cü ildə (o zaman Ü.Hacıbəyli Azərbaycan dövlət türk musiqi texnikumunda işləyirdi) baş tutan "Uşaq səhər tamaşası"nın təşkil olunması buna misal idi.

Səhər tamaşasının açılışında respublikanın görkəmli dövlət xadimləri - N.Nərimanov, S.Ağamalıoğlu, A.Qarayev, M.Quliyev, S.Əfəndiyev və başqaları iştirak edirdi.

Ü.Hacıbəylinin digər yeniliyi məktəb xorunun yaradılması idi - bu, not üzrə oxuyan çoxsəsli xor idi. Xorun böyük bədii əhəmiyyəti, Ü.Hacıbəylinin özünün fikrincə, uşaqlara incə zövqün aşılanması, professional musiqi parçalarını oxumaq qabiliyyətinin inkişaf etdirilməsi və onlarda yüksək əxlaqi mənəvi keyfiyyətlərin - kollektivçilik, dostluq və yoldaşlığın tərbiyə edilməsində idi.

Bu cür islahatlar, təbii ki, Azərbaycanda musiqi tərbiyəsinin inkişafına yardım edirdi. Bir daha qeyd edək ki, Ü.Hacıbəyli özünün bədii-estetik konsepsiyasında musiqi tərbiyəsi problemlərini məktəb təhsilinin hüdudlarından kənara çıxarırdı. Bu, xüsusən musiqili səhnə əsərləri vasitəsilə kütlələrin musiqi tərbiyəsi məsələsinə aid idi. Ü.Hacıbəylinin yaradıcılıq fəaliyyətində teatra verdiyi əhəmiyyəti inkar etmək çətindir. Axundov ənənələrinin davamçısı, Ə.Haqverdiyevin tamaşaları əsasında tərbiyə almış, Azərbaycan musiqisinin inkişafında köklü dəyişikliklərin zəruriliyi məsələsində C.Məmmədquluzadənin silahdaşı olan Ü.Hacıbəyli, nəinki bu mütərəqqi istiqaməti öz yaradıcı axtarışlarında davam etdirmiş, həm də onu öz estetik baxışları ilə zənginləşdirərək, əsl milli operanın yaradılması ilə əlçatmaz yüksəkliyə qaldıra bilmişdir.

Sovet quruluşundan əvvəlki dövrün əsərlərinə xas olan sosial yönümlülüklə yanaşı, Ü.Hacıbəyli bədii əsərlərin böyük əxlaqi tərbiyəvi, mədəni maarifləndirici əhəmiyyətini də qeyd edirdi.

Onun musiqili tamaşalarında uyğunlaşmayan cəhətlər: yüksək və alçaq, əzəmətli və dəyərsiz, ideal-ruhi və maddi-məişət müvəffəqiyyətlə uyğunlaşır. Ən əhəmiyyətlisi də odur ki, səhnə tamaşaçıdan heç bir xüsusi hazırlıq, xüsusi eruditsiya tələb etmədən onu zəmanə ilə, dövrlə, insanlarla, münasibətlərlə yaxınlaşdırır. Bəstəkarın "ixtirası" da bundan ibarətdir: yenilikçi olmaqla, o, ənənələr çərçivəsində özünü qəbul olunmuş sistemin təzyiqindən azad edir və beləliklə, özünü təsdiq edir. Ü.Hacıbəylinin yenilikçilik və qeyri-adiliklə dolu

bədii-estetik konsepsiyasının tərkib hissəsi olan ideya-əxlaqi, bədii və maarifçilik baxışları məhz musiqili səhnə tamaşalarının yaradılması ilə ifadə olunurdu.

Maarifçinin insanpərvərliyi, Qərb və Şərq ənənələrinin birləşdirilməsi vasitəsi ilə bəstəkarın yaradıcılığında aşkara çıxan beynəlmiləlçiliyi və bütün bunlarla yanaşı – Ü.Hacıbəylinin əsərlərinin xəlqiliyi ilə müəyyən olunan əsl vətənpərvərliyi ilə özünü göstərdi. Ü.Hacibəylinin Nizami Gəncəvi və Məhəmməd Füzulinin poeziyasına Azərbaycan xalqının görkəmli humanistlərinin vəsf etdiyi əbədi xeyir və sevgi mövzularına müraciəti bununla izah olunur. Özünün ilk operası "Leyli və Məcnun" və son operası "Firuzə" üçün seçdiyi mövzu da bununla izah olunur.

Qeyd etmək lazımdır ki, Ü.Hacıbəyli həm də gözəl psixoloq idi, o, Azərbaycan xalqının ruhunu hiss edir, xalqın emosionallığına, təfəkkürünün itiliyinə inanırdı. Teatr tamaşaları təbii şəkildə, yavaş-yavaş Azərbaycan xalqının gündəlik həyatına daxil olur, onun dünya ilə ünsiyyətində iştirak edir, xalqın mənəvi və sosial həyatını ifadə edən həyat eşqinin coşması üçün təsirli alətə çevrilir.

Şübhəsiz ki, dünya musiqi ədəbiyyatını diqqətlə öyrənmədən heç bir sənətkarın yaradıcılıq inkişafı mümkün deyil. Dünya musiqi təcrübəsinin qiymətləndirilməməsi, dünyagörüşünün məhdudluğu “boz”, yarıdiletant operaların yaranmasına gətirib çıxarır. Musiqi mədəniyyəti tarixində elə əsərlərə rast gələ bilərik ki, onlar tamamilə yenidən işlənməmiş, yaradıcılıq baxımından dəyişdirilməyən xalq havaları ilə bolluca “doldurulub”. Bu cür mexaniki, son dərəcə formal yanaşma xalq musiqisinin təhrif olunmasına gətirib çıxarır [2, s. 70-85].

Ü.Hacibəyli, zəmanəsinin yeni estetik ehtiyaclarını duyaraq, ənənəvi-milli formaların yeni formalarla “calaq edilməsi”nin sadə və son dərəcə özünəməxsus üsulunu tapmışdır: milli və Avropa musiqisinin çox mürəkkəb qarşılıqlı təsiri bədii prosesində əsas kimi şifahi xalq yaradıcılığı xəzinəsini istifadə etmişdir. “Leyli və Məcnun” operasının yaradılmasında Ü.Hacıbəylinin estetik prinsipi sadəcə xalq musiqi yaradıcılığının istifadə edilməsi deyil, onun əhəmiyyətli dərəcədə yenidən işlənməsi olmuşdur.

Azərbaycan tədqiqatçılarının fikrincə, Ü.Hacıbəylinin musiqi folkloruna bədii yanaşması ondan ibarətdir ki, “Hacıbəyli muğamı seçərkən, xalq musiqi fikrinin meyarları ilə hesablaşırdı. Bu, folklorun nəinki material, həm də düşüncə tərzi kimi yeni, daha dərindən dərkinin toxumları idi. İncəsənətin xəlqiliyinin, xalq və professional yaradıcılığının qarşılıqlı anlaşmasının və s. Hacıbəylisayağı izahı məhz bu istiqamətdə təkamül etmişdir.

Beləliklə, yuxarıda deyilənlər bir daha təsdiq edir ki, Ü.Hacıbəyli milli musiqinin inkişafı məsələlərini millətlərarası musiqi əlaqələri və təsirləri məsələlərindən ayırmır, sonuncu isə Azərbaycan musiqi pedaqogikası üçün həlledici əhəmiyyət kəsb edirdi.

Milli özünüdərk hissi, bəstəkarın öz milli mədəniyyətini beynəlxalq səhnəyə, dar milli çərçivələrdən kənara çıxarmaq, onu hamının mülkiyyəti etmək, Avropa və rus musiqisini isə öz xalqına çatdırmaq, əsl dəyərləri dərk etmək kimi daxili ehtiyacı Ü.Hacıbəylinin maarifçi və pedaqoq kimi başlıca və mütərəqqi mövqeyi idi.

Üzeyir Hacıbəyli, Zaqafqaziyanın digər ilk yenilikçi bəstəkarları kimi, Şərq və Qərbin musiqi mədəniyyətləri arasındakı sanki sarsılmaz "divar"ın aradan qaldırılmasına yardım etmişdir... O, dinləyicilərin dərk etdiyi formaları tapdı. Avropa incəsənətinin ifadə vasitələrini istifadə etməklə, o, başlıca olaraq, metodikada özünü göstərən millilik hissinin bütövlüyünü pozmamışdır.

Lakin Ü.Hacıbəylinin musiqi pedaqogikası sahəsində Şərq və Qərb ənənələrinin birləşdirilməsi barədə ideyaları onun teatrın tərbiyəvi əhəmiyyətinə baxışları ilə məhdudlaşmır.

Bu müddəalar təfsilatı ilə əsasən onun iki məqaləsində: "Səhnənin tərbiyəvi əhəmiyyəti haqqında" və "Opera və dramın tərbiyəvi əhəmiyyəti haqqında" eyniadlı iki digər məqalədə şərh edilmişdir. Müəllif bu məqalələrdə teatr sənətinin yüksək ictimai və tərbiyəvi əhəmiyyəti barədə özünün ilk nəticələrini çıxarmışdır.

Professional musiqi təhsilində yeni mərhələ 1920-ci ildə RMC-nin musiqi məktəbi Azərbaycan xalq konservatoriyasına çevrildikdən sonra başlandı.

O vaxtlar "Kommunist" qəzeti yazırdı: "Lakin xalq konservatoriyası anlayışını ümumilikdə konservatoriya anlayışı ilə qarışdırmaq olmaz. Xalq konservatoriyasının əsas məqsədi professional musiqi təhsili deyil, geniş zəhmətkeş kütlələrinin musiqinin bütün inkişaf formaları ilə tanış edilməsidir. Xalq konservatoriyasının dinləyicilərinin onun istənilən sinfinə qəbul olunması üçün nə ibtidai bilik, nə hazırlıq, nə də xüsusi qabiliyyət tələb olunmur. Yalnız incəsənətlə tanış olmağa, onu dərk etməyə, onun tarixini öyrənməyə, ona yiyələnməyə şüurlu istək olmalıdır...".

Xalq konservatoriyasının ilk şübhəsiz və həqiqi uğurlarına baxmayaraq, tezliklə musiqi maarifi və musiqi təhsilinin inkişafını ləngidən bəzi təşkilati və struktur çatışmazlıqları daha aydın görünməyə başladı [9, s. 24-32].

Ümumi və musiqi inkişafına görə son dərəcə müxtəlif olan kontingent, sabit tədris planları və proqramlarının olmaması, konservatoriyanın bütövlükdə qeyri-mükəmməl pedaqoji tərkibi – bütün bunlar ona gətirib çıxardı ki, xalq konservatoriyası qarşıya qoyulan məqsədlərə cavab verə bilmədi. Tamamilə aydın oldu ki, geniş musiqi maariflənməsi və kütləvi musiqi təhsili işini təkcə "aşağıdan" həll etmək olmaz, yalnız əsl professional musiqi təhsili ilə birgə və onun əsasında həll edilməsi mümkündür. Yaranan vəziyyəti nəzərə alaraq, o vaxtlar fəaliyyət göstərən Azərbaycan Xalq maarifi komitəsinin Siyasi şöbəsi Xalq konservatoriyası və onun şöbələrini ləğv etmiş, onun əsasında isə iki - Azərbaycan və Avropa musiqisi şöbəsi, adi standart nizamnaməsi və qanuniləşdirilmiş tədris planı olan Azərbaycan Dövlət konservatoriyasını yaratdı".

Azərbaycan Dövlət konservatoriyası 26 avqust 1921-ci ildə Az.SSR XKŞ-nin xüsusi dekreti ilə təsis edilmişdir (16 avqust 1921-ci il tarixli dekret).

Xalq konservatoriyasının ali musiqi məktəbinə çevrilməsi barədə məruzə Üzeyir Hacıbəyli tərəfindən hazırlanmışdır. Onun çoxillik fəaliyyəti ilə əsaslandırılan məruzənin nəzəri aspektləri Ü.Hacıbəylini Azərbaycanın əsl professional musiqi təhsilinin banisi hesab etmək hüququ verir. O, konservatoriyada musiqi təhsilinin üç pilləsinin birləşdirilməsi prinsipini irəli sürmüşdür.

Azərbaycan Dövlət konservatoriyasının fəaliyyətinin elə ilk günlərindən Ü.Hacıbəyli onun nəzdində Şərq musiqisi şöbəsi açmış, muğamların ifası üçün yeni not sistemini tərtib etmişdir. Bununla "ənənəvi Azərbaycan musiqisi Azərbaycan musiqi mədəniyyətinin inkişaf yolunun müəyyən edən müasir professional təhsil prosesinə cəlb edilmişdir".

Konservatoriyada təhsil pullu idi. 1921-1922-ci illərdə konservatoriyanın rektoru İ.L.Presman təyin olunmuşdur.

Konservatoriyanın təsis edilməsi Azərbaycan musiqi mədəniyyəti sahəsində kəskin ideoloji mübarizə dövrü ilə üst-üstə düşdü. Diskussiyalar yeni ictimai-siyasi şəraitdə milli musiqinin inkişaf problemləri ətrafında aparılırdı. O zaman ziddiyyətli, eyni dərəcədə əsaslandırılmış iki ideya irəli sürülürdü. Onlardan biri – dünya musiqi mədəniyyətindən ayrılması, keçmişdə yaranan yaradıcı və ifaçı ənənələrinin toxunulmazlığını irəli sürən konservativ-mühafizəkar ideya idi. Digəri isə inqilabdan əvvəlki musiqi irsinin bədii əhəmiyyətini inkişaf edən nihilist ideyası idi.

Ü.Hacıbəyli və onu prinsipial mövqedən dəstəkləyən M.Maqomayev hər iki zərərli tendensiya ilə barışılmaz mübarizə aparır, öz xəzinəsində dünya əhəmiyyətli yüksək dəyərləri toplamış milli-xalq və Avropa musiqisinin bir-birini zənginləşdirməsi problemini əsas problem kimi irəli sürürdülər. Başqa sözlə, söhbət iki – Şərq və Qərb musiqisinin paralel mövcudluğundan deyil, müxtəlif xalqlarda spesifik inkişafını tapmış musiqi sənətinin təbiətinin ümumiliyinə əsaslanan eyni keyfiyyətdə sintezindən gedirdi.

Musiqi pedaqogikasının əsasını qoymuş bu proqram müddəanı Ü.Hacıbəyli "Azərbaycanda musiqi-maarif məsələləri haqqında" məqaləsində əsaslandırmışdı.

Ü.Hacıbəyli musiqi sənəti haqqındakı fikrini nəinki məqalə və məruzələri ilə, həm də müxtəlif təşkilati-yaradıcı işləri ilə də müdafiə və mühafizə edirdi [2, s. 81-82].

Azərbaycan dövlət konservatoriyasının fəaliyyətinin ilk günlərindən o, başa düşdü ki, milli musiqi kadrları məsələsi vaxtında qaldırılmasa və həll edilməsə, orada təşkil edilmiş musiqi tədris prosesi lazımı nəticələri verməyəcək. Konservatoriyada azərbaycanlı tələbələrinin sayı çox az idi. Onların musiqi təhsilinə cəlb edilməsi xüsusi tədris-tərbiyə metodlarını tələb edirdi. Bununla əlaqədar olaraq, Ü.Hacıbəylidə xüsusi Azərbaycan türk musiqi məktəbinin

(ATMM) yaradılması ideyası yaranır və 1922-ci ildə təşkil edilən məktəb 1924-cü ildən Türk musiqi texnikumu adlandırılır.

Türk musiqi texnikumu müxtəlif ixtisaslı musiqiçilər hazırlayan, nizamnaməyə malik son dərəcə nümunəvi təhsil müəssisəsi idi. Texnikum o dövrdə milli kadrları – orta qəbildən musiqiçiləri hazırlayan mühüm ocağa çevrildi. Türk musiqi məktəbinə çox böyük əhəmiyyət verən Ü.Hacıbəyli və onun silahdaşları (bəstəkar Müslüm Maqomayev, musiqişünas Qubad Qasımov, tarzənlər Qurban Primov və Mansur Mansurov və b.) hesab edirdilər ki, Avropa musiqi mədəniyyətinin nailiyyətlərindən və Azərbaycan musiqisinin milli xüsusiyyətlərindən ibarət pedaqoji mövqenin, şübhəsiz ki, gələcəyi var.

Belə ki, sırf Azərbaycan alətləri olan tar və kamançada ifanın öyrədilməsi metodikasını işləyib hazırlayan Ü.Hacıbəyli Avropa not sistemini məcburi tətbiq etməklə əsl inqilab törətdi.

Azərbaycanda professional musiqi təhsili sahəsində fəaliyyətinin məntiqi sonluğu o dövrdə daha bir musiqi tədris müəssisəsinin yaradılması oldu. Söhbət A.Zeynallı adına dövlət musiqi məktəbindən gedir. 2000-ci ildə 100 illik yubileyini qeyd edən bu məktəb (1900-cü ildə musiqi sinifləri ilə İmperator rus musiqi cəmiyyətinin (İRMC) təşkil olunduğu gündən hesablanır) respublikanın musiqi sənətinin inkişafında xüsusi xidmətlərinə görə Azərbaycan Dövlət Musiqi Kolleci statusunu almışdır.

Musiqi tədris müəssisələrinin formalaşması tarixi Ü.Hacıbəylinin irəli sürdüyü professional musiqi təhsilinin əsas prinsiplərinə tamamilə uyğundur. Məhz böyük maarifçinin həmişə axtarışda olan düşüncəsi, onun Azərbaycan xalqının zəngin mənəvi irsinə söykənməsi Azərbaycanda musiqi təhsilinin təməlini qoymuşdur.

**Mövzunun aktuallığı.** Azərbaycanda musiqi tərbiyəsi və təhsilinin ən mühüm problemlərinin həlli yollarını yalnız o halda müəyyən etmək mümkün olar ki, Azərbaycanda musiqi təhsilinin başlıca ideyaları düzgün dərk edilsin, musiqi pedaqogikasının başlanğıcdan tam formalaşana qədər keçdiyi yol hərtərəfli araşdırılsın.

## ƏDƏBİYYAT


1. Aslanov D. İncəsənət və tərbiyə. Bakı: Elm, 1967.
2. Qədimova J. Musiqi pedaqogikası: tarixilik və müasirlik. Bakı: "MBM", 2012, 224 s.
3. Аббасова Э.А. Узеир Гаджибеков. Баку: Азернешр, 1975, 142 с.
4. Абдуллаева Р.Г. Проблема художественного стиля в информационной культуре. Баку: Элм, 2003, 256 с.

5. Актуальные проблемы музыкального воспитания и образования: история, теория, практика. Вып. 1 / Под ред. Г.М.Цыпина. Тамбов: 1999, с. 56-62.
6. Алекперова Н.И. Музыка в контексте культуры Азербайджана VIII-XVI веков. Баку: Азернешр, 1996. 139 с.
7. Антология педагогической мысли Азербайджана / Сост. А.А.Агаев, А.Ш.Гашимов. М.: Педагогика, 1989, 589 с.
8. Ахмедов Г. История развития школы и педагогической мысли Азербайджана. Баку: Техсил, АБУ, 2002, 360 с.
9. Гаджибеков У. Музыкально-просветительские задачи Азербайджана // Искусство, 1921, №1, с. 24-32.
10. Зардаби Г. Избранные произведения. Баку: Азернешр, 1960.
11. Искусство Азербайджана / Под ред. М.А.Усейнова. Т. VI. Баку: АН Азерб. ССР, 1959, 321 с.
12. Касимов К. Музыкальная культура Азербайджана XVI-XVII / Искусство Азербайджана. Т. VIII. Баку: АН Азерб. ССР, 1982, с. 5-35.
13. Культура и этнос. Баку: Элм, 1995, 119 с.
14. Мамедов М. Сабир и школа. Баку: Маариф, 1968.
15. Нариманов Н. Избранные сочинения: в 3-х томах, т. 1. Баку: Азернешр, 1988, 376 с.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika elmləri doktoru, professor Tamilla Kəngərli**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78:373.5:004 + 37.091.3:78**

**Z.K.Abdullayeva**
sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor,
Əməkdar müəllim, "Humay" mükafatı laureatı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: zemfira_abdullayeva@yahoo.com

# MÜASİR MUSİQİ TƏHSİLİNDƏ ƏNƏNƏLƏR VƏ İNNOVASİYALAR

***Açar sözlər:*** *innovativ fəaliyyət, musiqi-pedaqoji təhsildə innovasiyalar, ənənələr, texnologiyalar, mediatexnologiyalar, musiqi təhsili*

Məqalədə müasir musiqi-pedaqoji təhsildə innovativ proseslərin əsas xüsusiyyətləri araşdırılır. İnnovasiyalarla ənənələr arasında qarşılıqlı əlaqə göstərilir. Musiqi-pedaqoji təhsilin innovativliyini təmin edən tədris texnologiyaları təqdim olunur. Pedaqoji innovasiyalar fəaliyyət növlərinə, dəyişikliklərin xarakterinə və miqyasına, yaranma mənbəyinə və yenilik əlamətinə görə təsnif edilir.

Müasir musiqi pedaqogikasının irəli sürdüyü problemlərin həllinin istiqamətləndirilməsinə ehtiyac yaranır. 2013-cü ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ümumtəhsil məktəbləri üçün musiqi fənni üzrə təhsil proqramı ölkədə musiqi təhsilinin inkişafı üzrə yeni bir proqram təsdiqlənir.

Elmi ədəbiyyatda "innovasiya fəaliyyəti" və "innovasiyalar" anlayışlarına dair vahid bir yanaşma olmasa da, bir çox tədqiqatçılar tərəfindən musiqi təhsilində innovasiyalarla ənənələrin bir-biri ilə qarşılıqlı əlaqədə olduğu qeyd edilir.

Ənənəvi musiqi təhsilinin yenidən dəyərləndirilməsi və yeni multimedia texnologiyalarının tətbiqi musiqi-pedaqoji təhsildə innovativlik qazandıracaq və bütövlükdə təhsil sisteminin inkişafına töhfə verəcəkdir.

**З.К.Абдуллаева**

# ТРАДИЦИИ И ИННОВАЦИИ В СОВРЕМЕННОМ МУЗЫКАЛЬНОМ ОБРАЗОВАНИИ

***Ключевые слова:*** *инновационная деятельность, инновации музыкально-педагогического образования, традиции, технологии, медиатехнологии, музыкальное образование*

В статье рассмотрены сущностные характеристики инновационных процессов в современном музыкально-педагогическом образовании. Показана

взаимосвязь инноваций с традициями. Представлены технологии обучения, обеспечивающие инновационность музыкально-педагогического образования. Классифицированы педагогические инновации по видам деятельности, характеру и масштабу вносимых изменений, источнику возникновения и по признаку новизны.

Необходимо направить усилия на решение проблем, выдвигаемых современной музыкальной педагогикой. В 2013 году Министерством образования Азербайджанской Республики была утверждена новая учебная программа по музыке для общеобразовательных школ в рамках развития музыкального образования в стране. Хотя в научной литературе нет единого подхода к понятиям «инновационная деятельность» и «инновации», многие исследователи отмечают, что в музыкальном образовании инновации и традиции взаимодействуют друг с другом.

Переоценка традиционного музыкального образования и применение новых мультимедийных технологий придаст инновационный характер музыкально-педагогическому образованию и внесет вклад в развитие всей системы образования.

**Z.K.Abdullayeva**

## TRADITIONS AND INNOVATIONS IN MODERN MUSIC EDUCATION

***Key words***: *innovative activity, innovations of music and pedagogical education, traditions, technologies, media technologies, music education*

The essential characteristics of innovative processes in modern music and pedagogical education are defined in the article. The relationship between innovations and traditions is shown. Training technologies that ensure the innovation of music and pedagogical education are presented. Pedagogical innovations are classified according to the types of activities, the nature and scale of changes made, the source of occurrence, and the novelty.

Efforts must be directed toward addressing the challenges posed by contemporary music pedagogy. In 2013, the Ministry of Education of the Republic of Azerbaijan approved a new music curriculum for general education schools as part of the country's initiative to develop music education. Although there is no unified approach to the concepts of "innovative activity" and "innovation" in academic literature, many researchers note that in music education, innovation and tradition interact with one another.

A reassessment of traditional music education and the application of new multimedia technologies will lend an innovative character to music pedagogy and contribute to the development of the entire education system.

Azərbaycanda peşəkar musiqiçilərin hazırlanması üçün təhsil sistemi artıq bir əsrdən çoxdur ki mövcuddur. Bu sistemin təməlini tarix boyu formalaşmış və özünü doğrultmuş təlim-tərbiyə ənənələri təşkil edir. Uşaqların və gənclərin musiqi sahəsində təhsil almaları üçün bu sistem uzun illər ərzində davamlı şəkildə təkmilləşdirilmişdir. XXI əsrdə dəyişən tələblərə görə uşaqların musiqi tərbiyəsi üçün tədris planlarının, proqram və metodlarının daha da təkmilləşdirilməsinə, onların müasir musiqi pedaqogikasının irəli sürdüyü problemlərin həllinin istiqamətləndirilməsinə ehtiyac yarandı. Hazırda musiqi təhsili sisteminin qarşısında təkcə musiqi pedaqogikasının ən yaxşı ənənələrini qorumaq deyil, həm də ən səmərəli müasir texnologiyaların ümumiləşdirilməsi və təcrübəyə tətbiqi vəzifəsi durur [4]. Bu gün Azərbaycanda musiqi sənəti və pedaqogikası sahəsində təhsil proqramlarını həyata keçirən geniş və güclü bir müəssisə və təşkilatlar şəbəkəsi formalaşıb. Bu şəbəkə musiqi təhsilinin hər bir səviyyəsində yüksək keyfiyyətin təmin edilməsinə xidmət edir.

2013-cü ildə Azərbaycan Respublikasının Təhsil Nazirliyi ümumtəhsil məktəbləri üçün musiqi fənni üzrə təhsil proqramı ölkədə musiqi təhsilinin inkişafı üzrə yeni bir proqramı təsdiqlədi. Bu proqram müasir dövrün sosial, peşəkar, hüquqi və maddi-texniki tələblərinə cavab verəcək şəkildə hazırlanmışdır. Belə bir proqram musiqi təhsil sistemində dərin islahatların aparılmasını və onun innovativ yanaşmalar əsasında inkişaf etdirilməsini nəzərdə tutur.

Müasir dövrdə musiqi mədəniyyətində baş verən dəyişikliklər, təhsilin məzmununa və onun təşkili üsullarına ciddi şəkildə yenidən baxılmasını zəruri edib. Bu dəyişikliklər isə təbii olaraq innovativ yanaşmaların tətbiqini, yəni tədris prosesinə yeni texnologiyaların, metodların və formaların daxil edilməsini tələb edir.

Elmi ədəbiyyatda "innovasiya fəaliyyəti" və "innovasiyalar" anlayışlarına dair vahid bir yanaşma olmasa da, bir çox tədqiqatçılar musiqi təhsilində innovasiyalarla ənənələrin bir-biri ilə qarşılıqlı əlaqədə olduğunu qeyd edirlər. Məsələn, Rusiya Dövlət Pedaqoji Universitetinin dosenti Qalina Adamovna Praslova hesab edir ki, musiqi-pedaqoji təhsildə innovasiyalar – təhsil sisteminin strukturunda, məzmununda və formasında radikal dəyişikliklərə, pedaqoji fəaliyyətin yeni şərtlər daxilində həyata keçirilməsinə və ənənələrə əsaslanan sistemli yanaşmalara səbəb olur.

Digər tanınmış tədqiqatçı, Rusiya Təhsil Akademiyasının baş elmi işçisi Yuri Bağırovic Əliyev qeyd edir ki, musiqi təhsilinin inkişaf proqramında innovasiya ilə ənənə arasında ayrılmaz səbəb-nəticə əlaqəsi və qarşılıqlı təsir müşahidə olunur [1].

Bu yanaşmalardan çıxış edərək, innovasiya anlayışı tədqiqatçıların əsərlərində ya yeni şərtlər daxilində fəaliyyət, ya da mövcud şərtlərdə yeni üsullar, metodlar və vasitələrin tətbiqi kimi izah olunur.

- **İnnovativ fəaliyyət bir neçə istiqamətdə təsnif oluna bilər:**
- **Texnoloji innovasiyalar** – yeni tədris metodlarının və texnologiyaların tətbiqi;
- **Təşkilati innovasiyalar** – musiqi təhsil müəssisələrinin strukturunun dəyişməsi ilə bağlı yeniliklər;
- **İdarəetmə innovasiyaları** – işçilərin səriştələrinin, davranışlarının və təşkilati mədəniyyətlərinin dəyişməsi ilə əlaqədar olan yeniliklər.
- **Pedaqoji innovasiyalar aşağıdakı meyarlara görə təsnif edilə bilər:**
- **Retroinnovasiya** – unudulmuş ənənələrin modifikasiya olunmuş formada bərpası;
- **Analog innovasiya** – mövcud ənənələrin müəyyən dərəcədə dəyişdirilərək istifadəsi;
- **Kombinator innovasiya** – tanınmış ideyaların birləşdirilməsi nəticəsində keyfiyyətcə yeni təhsil məhsulunun yaradılması;
- **Sübutlu (söhbət baxımından əsil) innovasiya** – tamamilə yeni bir hadisənin nəticəsi kimi meydana çıxan yenilik.

Musiqi təhsilindəki innovativ nailiyyətlərin nümunəsi olaraq informasiya və media texnologiyalarının tətbiqini qeyd etmək olar. Xüsusilə musiqi müəllimlərinin hazırlanmasında media texnologiyalarının istifadəsi artıq zərurətə çevrilmişdir. Müasir texnoloji inkişaf musiqi-kompüter yönümlü yeni kadrların hazırlanmasına ehtiyac yaradıb. Bu gün musiqi təhsili müəssisələrində multimedia texnologiyalarını bilən, internet mühitində işləyə bilən, distant tədris üsullarına yiyələnmiş müəllimlərə ehtiyac var. Bu müəllimlər təkcə ənənəvi dərsləri keçməklə kifayətlənməməli, həm də musiqi kompozisiyaları yarada, aranjimanlar edə və tədris prosesində musiqi-kompüter texnologiyalarından səmərəli istifadə etməlidirlər.

Eyni zamanda, musiqi alətləri də dəyişir və təkmilləşir. Musiqiçilər öz əsərlərində unikal səslər yaratmaq, konsert proqramlarına yenilik qatmaq üçün daim eksperimentlər aparırlar. Bu baxımdan, yeni texnologiyaların imkanları onlara geniş meydan verir.

Hər il texnoloji tərəqqi cəmiyyətin müxtəlif sahələrinə yeniliklər gətirir. Musiqi sahəsi də bu prosesdən kənarda qalmır. Yeni musiqi janrları formalaşır, high-tech səslərlə zənginləşən musiqilər yaranır.

Yeni nəsil innovativ musiqi alətlərindən biri – nəfəsli midi-kontrollerdir. Bu alət sayəsində bir nəfər musiqiçi təkbaşına orkestrin funksiyasını yerinə yetirə bilir: burada həm hava ilə ifa olunan saksofon, etnik fleytalar, elektro gitara, truba, sintezator səsləri, harmonika və digər 300-dən çox tembr mövcuddur. Bu unikal alətin üstünlüyü ondadır ki, dünyada onunla ifa etməyi bacaran çox az sayda musiqiçi mövcuddur.

Texnoloji proseslər və kompüter texnologiyalarının tətbiqi nəticəsində musiqidə yeni janrlar və istiqamətlər yaranmağa başladı. Hələ XX əsrin 80-ci illərində musiqi sənayesində “yeni musiqi”nin yaranmasına səbəb olan bir bum baş verdi. Analog elektron texnologiyaların inkişafı ilə neoklassika, new age, fusion kimi janrlar musiqi dünyasında geniş yayılmağa başladı. Bu cərəyanlar instrumental musiqiyə yeni nəfəs verdi, onu dinamikləşdirdi və müasir dövrə uyğunlaşdırdı. Sonradan tamamilə elektron musiqi növləri meydana çıxdı, hansı ki bu janrlarda canlı musiqi alətləri ya çox az istifadə olunurdu, ya da ümumiyyətlə yox idi.

1990-cı illərin ortalarında proqram təminatının və kütləvi kommunikasiya vasitələrinin inkişafı musiqidə radikal ideyaların meydana gəlməsinə səbəb oldu. İnnovativ texnologiyalar musiqinin rəqəmsal formaya keçməsini təmin etdi [5]. CD-lər, sərt disklər və daha sonra flash yaddaşlar kasetləri tamamilə əvəz etdi. Musiqi artıq rəqəmsal siqnalların emalı vasitəsilə yaranan məhsula çevrildi. Elektron musiqi ekspansiyası bütün musiqi janrlarına və hətta ali musiqi təhsil müəssisələrinə də yayıldı – 1990-cı illərin sonlarında konservatoriyalarda elektroakustik musiqi ixtisası fəaliyyətə başladı.

Bu gün bu məsələ **aktuallığını** hələ də qoruyur**.** Klassik musiqi təhsil sistemi hələ də tam, keyfiyyətli və universaldır. O, həm ənənələri, həm də dövrün tələblərinə uyğun innovasiyaları özündə birləşdirir. Müasir çağırışlar musiqi təhsilində yeni texnologiyaların tətbiqini, innovativ yanaşmalarla yanaşı milli ənənələrin qorunmasını zəruri edir. Ənənəvi musiqi təhsilinin yenidən dəyərləndirilməsi və yeni multimedia texnologiyalarının tətbiqi musiqi-pedaqoji təhsildə innovativlik qazandıracaq və bütövlükdə təhsil sisteminin inkişafına töhfə verəcəkdir.

## ƏDƏBİYYAT

1. Алиев Ю.Б. Инновационные аспекты современной дидактической системы художественного образования школьников / М.: Изд-во СГУ, 2012.
2. Бондаренко О.В. Современные инновационные технологии в образовании / О.В.Бондаренко. – Текст: электронный // Инновации: поиски и исследования. – 2012.
3. Горбунова И.Б. Феномен музыкально-компьютерных технологий как новая образовательная творческая среда / И.Б.Горбунова. – Текст: непосредственный // Известия РГПУ им. А.И.Герцена. – 2004.
4. Qədimova J. Musiqi fənninin tədrisi metodikası / Dərslik – “Müəllim nəşriyyatı, Bakı, 2023.

5. Немыкина И.Н. Традиции и инновации в современном музыкальном образовании / И.Н.Немыкина. – Текст: электронный // Современные проблемы науки и образования. – 2015. – No 1-1.
6. Программа развития системы российского музыкального образования на период с 2015 по 2020 годы. – Текст : электронный // Законы, кодексы и нормативно-правовые акты Российской федерации: [сайт]. – URL: https://culture.gov.ru/documents/programma-razvitiya-sistemy-rossiyskogo-muzykalnogo-obrazovaniya-na-period-s-2015-po-2020-gody-i-pla/

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 28-33**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 28-33**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 28-33**

**UOT 78.01:159.954**

**H.Hüseynova**
filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: hacerhuseynova@mail.ru
https://orcid.org/0000-0002-3223-427X

# MUSİQİNİN İNSAN HƏYATINDA ROLU VƏ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *musiqi, insan psixologiyası, emosional təsir, musiqi terapiyası, sosial funksiya, mədəniyyət*

Məqalədə musiqinin insan həyatında oynadığı mühüm rol və onun psixoloji, sosial və mədəni təsirləri təhlil olunur. Musiqi yalnız estetik zövq yaratmaqla kifayətlənmir, eyni zamanda insan ruhuna müsbət təsir edir, emosiyaları tənzimləyir və zehni fəaliyyəti stimullaşdırır. Müxtəlif dövrlərdə və cəmiyyətlərdə musiqinin terapiya vasitəsi kimi istifadəsi, eləcə də onun fərdi və ictimai həyatdakı rolu nümunələrlə izah edilir. Musiqinin təhsildə, sağlamlıqda və gündəlik həyatda yaratdığı təsirlər elmi baxımdan əsaslandırılır.

Bu məqalədə musiqinin insan psixologiyasına, mənəviyyatına və sosial həyatına təsiri araşdırılır. Musiqinin tarixi inkişafı, ilahi və bəşəri yönləri, müalicəvi və estetik funksiyaları qeyd olunur. Həmçinin Qurani-Kərim və dini yanaşmalarda musiqiyə münasibətə diqqət yetirilir. Musiqinin zərif sərhədləri-nin aşıldığı hallarda mənfi təsirləri də vurğulanır.

**Х.Гусейнова**

## РОЛЬ И ЗНАЧЕНИЕ МУЗЫКИ В ЖИЗНИ ЧЕЛОВЕКА

***Ключевые слова:*** *музыка, психология человека, эмоциональное воздействие, музыкальная терапия, социальная функция, культура*

В статье анализируется важная роль музыки в жизни человека, а также её психологическое, социальное и культурное влияние. Музыка не только дарит эстетическое наслаждение, но и оказывает положительное воздействие на человеческую душу, регулирует эмоции и стимулирует умственную активность. На примерах раскрывается использование музыки как средства терапии в различные исторические периоды и в разных обществах, а также её значение в индивидуальной и общественной жизни. Научно обоснованы эффекты влияния музыки в сфере образования, здравоохранения и

повседневной жизни.

В данной статье исследуется влияние музыки на психологическое состояние человека, его духовность и социальную жизнь. Отмечаются историческое развитие музыки, её божественные и человеческие аспекты, лечебные и эстетические функции. Также уделяется внимание отношению к музыке в Коране и религиозных подходах. Подчёркиваются и негативные последствия, возникающие при нарушении тонкой грани в восприятии музыки.

**H.Huseynova**

## THE ROLE AND IMPORTANCE OF MUSIC IN HUMAN LIFE

***Key words:*** *music, human psychology, emotional influence, music therapy, social function, culture*

This article explores the significant role of music in human life, focusing on its psychological, social, and cultural impacts. Music not only provides aesthetic pleasure but also positively affects the human soul, regulates emotions, and stimulates mental activity. The use of music as a therapeutic tool throughout history and its influence in personal and social spheres are explained with examples. The impact of music in education, health, and daily life is also supported by scientific evidence.

This article explores the impact of music on human psychology, spirituality, and social life. It covers the historical development of music, its divine and secular aspects, as well as its therapeutic and aesthetic functions. The article also touches on the perspective of the Quran and religious views on music. The negative effects of music are also discussed when it crosses moral boundaries.

Musiqi insan cəmiyyətinin ayrılmaz bir parçası olaraq, insanların psixoloji, sosial və mədəni həyatına dərin təsir göstərmişdir. Musiqi həm fərdi duyğuların ifadə vasitəsi, həm də kollektiv kimliyin formalaşdırıcısı kimi çıxış edir. Elmi araşdırmalar musiqinin beyinə, emosiyalara, yaddaşa və davranışlara olan təsirini dəfələrlə sübut etmişdir [1].

Musiqi insan həyatının ayrılmaz bir hissəsidir və tarix boyunca fərqli mədəniyyətlərdə müxtəlif funksiyaları yerinə yetirmişdir. O, emosional ifadə vasitəsi olmaqla yanaşı, sosial əlaqələrin qurulmasında, psixoloji vəziyyətin tənzimlənməsində və kognitiv inkişafda mühüm rol oynayır. Müasir elmi tədqiqatlar musiqinin insan beyninə və davranışlarına olan təsirini daha dərindən araşdıraraq, onun sağlamlıq və rifah üzərindəki müsbət təsirlərini ortaya

qoymuşdur.

1. Musiqinin psixoloji və fizioloji təsiri

Musiqi dinləmək və ya ifa etmək beynin müxtəlif sahələrini aktivləşdirir. Bu proses zamanı dopamin və oksitosin kimi neyrotransmitterlərin sərbəst buraxılması müşahidə olunur ki, bu da insanın əhval-ruhiyyəsinin yaxşılaşmasına və sosial bağların güclənməsinə səbəb olur .

Musiqinin insan psixikasına təsiri nevrologiya və psixologiya sahələrində geniş şəkildə tədqiq olunmuşdur. Nevroloq Daniel Levitin qeyd edir ki, musiqi insan beynində bir neçə bölgəni eyni anda aktivləşdirərək, xoş emosiyalar yaradır [1]. Stresin azalmasında, depressiyanın yüngülləşməsində və motivasiyanın artırılmasında effektiv vasitədir [2].

Eyni zamanda, musiqi stresin azalmasına və emosional sabitliyin təmin olunmasına kömək edir. Araşdırmalar göstərir ki, musiqi dinləmək kortizol səviyyəsini azaldaraq, insanın rahatlamasına və emosional vəziyyətinin yaxşılaşmasına səbəb olur [2].

2. Musiqinin sosial və mədəni əhəmiyyəti

Musiqi milli kimliyin və mədəni irsin daşıyıcısıdır. Mədəniyyətlərarası musiqi təcrübələri müxtəlif xalqlar arasında anlaşmanı və empatiyanı gücləndirir. Azərbaycanda muğam musiqisi UNESCO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilərək musiqinin təkcə estetik yox, həm də mədəni rolu təsdiqlənmişdir [4].

Musiqi sosial əlaqələrin qurulmasında və mədəni kimliyin formalaşmasında mühüm rol oynayır. O, insanlar arasında empatiyanın və qarşılıqlı anlaşmanın inkişafına kömək edir. Musiqi vasitəsilə insanlar öz duyğularını ifadə edir və başqalarının hisslərini daha yaxşı anlayırlar.

Bundan əlavə, musiqi müxtəlif mədəniyyətlər arasında körpü rolunu oynayaraq, fərqli xalqların bir-birini daha yaxşı tanımasına və anlaşmasına şərait yaradır. Musiqi festivalları və beynəlxalq musiqi layihələri bu baxımdan əhəmiyyətlidir.

3. Musiqinin kognitiv inkişafa təsiri

Musiqi ilə məşğul olmaq, xüsusilə də musiqi alətlərində ifa etmək, insanın kognitiv bacarıqlarının inkişafına təsir edir. Musiqi təhsili alan uşaqlarda yaddaş, diqqət və məntiqi düşünmə qabiliyyətlərinin daha yüksək olduğu müşahidə olunmuşdur.

Eyni zamanda, musiqi dil bacarıqlarının inkişafına da müsbət təsir göstərir. Musiqi ritmləri və melodiyalar dilin ritmik və intonasiyalı xüsusiyyətlərini gücləndirərək, dil öyrənmə prosesini asanlaşdırır.

4. Musiqinin sosial və mədəni aspektləri

Elmi tədqiqatlar göstərir ki, musiqi ilə məşğul olan uşaqlarda dil bacarıqları, məntiqi düşüncə və sosial adaptasiya daha inkişaf etmiş olur [3]. Bu səbəbdən bir çox ölkələrin təhsil sistemində musiqi dərsləri vacib komponent sayılır.

Musiqi həm fərdi, həm də ictimai səviyyədə insan həyatına çoxşaxəli təsir göstərən bir fenomendir. Onun emosional sabitlik, sosial inteqrasiya və şəxsiyyətin formalaşmasında əhəmiyyəti müasir elmi tədqiqatlarla da təsdiq olunur.

5. Musiqinin insanın sağlamlığına təsiri, müalicəvi əhəmiyyəti

Musiqi terapiyası müxtəlif sağlamlıq problemlərinin müalicəsində effektiv vasitə kimi istifadə olunur. Xüsusilə, xroniki ağrılar, depressiya və autizm spektr pozuntuları olan şəxslərdə musiqi terapiyasının müsbət təsirləri müşahidə edilmişdir [1].

Musiqi həmçinin fiziki sağlamlığa da təsir edir. Məsələn, musiqi ilə müşayiət olunan fiziki məşqlər insanların motivasiyasını artırır və məşq zamanı daha çox enerji sərf etmələrinə səbəb olur [5].

6. Musiqinin yaddaşa və emosional xatirələrə təsiri

Musiqi yaddaşın güclənməsində və emosional xatirələrin canlanmasında mühüm rol oynayır. Araşdırmalar göstərir ki, musiqi müəyyən xatirələri və duyğuları yenidən yaşamağa səbəb ola bilər. Bu xüsusiyyət, xüsusilə də “alzheimer” xəstəliyi olan şəxslərdə musiqi terapiyasının effektivliyini artırır [1].

Musiqi insan həyatının müxtəlif sahələrində – emosional, sosial, kognitiv və fiziki – mühüm rol oynayır. Onun psixoloji vəziyyətin yaxşılaşdırılmasında, sosial əlaqələrin qurulmasında, kognitiv bacarıqların inkişafında və sağlamlığın qorunmasında əhəmiyyəti elmi tədqiqatlarla sübut olunmuşdur. Bu səbəbdən, musiqinin gündəlik həyatımıza inteqrasiyası və təhsil sistemlərində daha geniş yer alması tövsiyə olunur.

Müqəddəs Kitabımız “Qurani-Kərim”də musiqi açıq şəkildə nə haram, nə də halal olaraq qeyd edilməmişdir. Lakin bəzi ayələr və islam alimlərinin təfsirləri əsasında bu mövzuda müəyyən mənəvi və əxlaqi yanaşmalar formalaşıb.

Dolayısı ilə musiqiyə və digər məsələlərə münasibət bildirilir.işarə edilən ayələr Məsələn; Loğman surəsi, 6-cı ayədə yazılır: “İnsanlardan eləsi də vardır ki, heç bir biliyi olmadan insanları Allah yolundan azdırmaq üçün əyləncə məqsədilə boş sözləri (lahvəl-hədis) satın alar…”, - burada "lahvəl-hədis" (boş söz, faydasız əyləncə) ifadəsi bəzi təfsirçilər tərəfindən qadağan olunmuş mahnı və musiqi kimi də təqdim edilmişdir.

Din xadimlərinin münasibətləri isə bir qədər fərqlidir. İmam Qəzaliyə görə, musiqiyə müəyyən şərtlərlə icazə verilir. Əgər musiqi insanlada ruhani yüksəlişə, Allaha yaxınlaşmağa və insanın mənəviyyatına xidmət edirsə, həmin musiqi haram deyil, əksinə, müstəhəb (vacib) ola bilər.

Başqa bir din xadimi İbn Teymiyyə və İmam Məliki kimi bəzi alimlər isə musiqini daha sərt şəkildə dəyərləndirərək, onu dinə zidd hesab ediblər, xüsusilə nəfsi oyadan, əxlaqsızlığa, vəhşiliyə çağıran növləriniqadağan etməyi məsləhət bilmişlər.

Quranda açıq qadağa olmamaqla yanaşı, israf, fəsad, günaha təşviq və mənəvi zərər daşıyan hər şeyin haram olması prinsipi tətbiq edilir. Musiqi də bu

çərçivədə dəyərləndirilməlidir.

Çünki "Qurani-Kərim" özü musiqili ahəngə malikdir. Quranın tilavəti//oxunuşu xüsusi intonasiya və təcvid qaydaları ilə mümkündür. Bu oxunuş forması melodikdir, lakin onu musiqi kimi qəbul etmək düzgün deyil, bu ibadət niyyəti ilə edilən ilahi kəlamın tilavətidir.

Quranda musiqi barədə açıq hökm yoxdur. Ancaq məzmununa, təsirinə və istifadə məqsədinə görə musiqinin icazəli və ya qadağan olmasına dair fərqli yanaşmalar var. İslamda əsas meyar – niyyət, məzmun və təsiridir. Mənəviyyatı artıran, əxlaqı pozmayan musiqi islam alimlərinin bir hissəsi tərəfindən qəbul olunur.

Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir o da (Nizami Gəncəvi).

Musiqi də digər nemətlər kimi Ölçülü, qədərində, məqsədli olduqda gözəllik və ruhun qidası dəyərləndirilir. Azanın, Qurani-Kərimin oxunuşundakı o həzin, qəlbi oxşayan, rahatlandıran ahəng ilahi musiqi kimi ruhumuzu tərbiyə edir. Həddini aşan. Mənəviyyatımızı korlayan, insanı qəddarlığa, azğınlığa təhrik edən musiqi isə həyata, ibadətə, gözəlliyə, mənəvi tərbiyəyə deyil, cinayətə qulluq edir və günahdır, elə qadağan edilməsi məsləhətdir.

**Nəticə:** Əslində, musiqinin məqsədi və məzmunu əsasdır. Musiqinin özünün yaranmasında insanlara təbiət, təbiətdəki müxtəlif səslər ilham vermişdir ki, bütün bunları da yaradan Allahdır. Çayların, yağışın şırıltısı, quşların, bülbüllərin cəh-cəhi, dənizin dalğalanma sının ahəngi, yarpaqların küləkdən xışıldaması, ayaq altında qalan qarın xırıltısı və s. nə qədər təbii səslər vardır ki, onların hər biri musiqidir.

## ƏDƏBİYYAT


1. Levitin, D.J. (2006). This Is Your Brain on Music: The Science of a Human Obsession. Dutton.
2. Thoma, M. V., Ryf, S., Mohiyeddini, C., Ehlert, U., & Nater, U. M. (2013). Emotion regulation through listening to music in everyday situations. Cognition and Emotion, 27(3), 534-543.
3. Schellenberg, E.G. (2004). Music lessons enhance IQ. Psychological Science, 15(8), 511–514.
4. UNESCO (2003). Proclamation of Masterpieces of the Oral and Intangible Heritage of Humanity – Mugham (Azerbaijan).
5. Chanda, M. L., & Levitin, D. J. (2013). The neurochemistry of music. Trends in Cognitive Sciences, 17(4), 179-193.
6. Blood, A.J., & Zatorre, R.J. (2001). Intensely pleasurable responses to

music correlate with activity in brain regions implicated in reward and emotion. Proceedings of the National Academy of Sciences, 98(20), 11818-11823.
7. Sarkamo, T., Tervaniemi, M., Laitinen, S., et al. (2008). Music listening enhances cognitive recovery and mood after middle cerebral artery stroke. Brain, 131(3)

*Internet resursları:*

8. NCCIH: www.nccih.nih.gov/health/music-and-health-what-you-need-to-know? utm_ source=chatgpt.com
9. Verywell Mind: www.verywellmind.com/surprising-psychological-benefits-of-music-4126866?utm_source=chatgpt.com
10. PMC: pmc.ncbi.nlm.nih.gov/articles/PMC5964593/?utm_source=chatgpt.com
11. Australian Psychological Society: psychology.org.au/for-members/ publications/ inpsych/2019/february-issue-1/why-music-moves-us?utm_source=chatgpt.com
12. Wikipedia: en.wikipedia.org/wiki/Exercise_and_music?utm_source=chatgpt.com
13. New York Post: nypost.com/2024/12/22/lifestyle/music-can-change-how-we-remember-the-past-psychology-researcher-says/?utm_source=chatgpt.com

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 34-43**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 34-43**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 34-43**

**УДК 316.7**

**Л.Д.Гулиева**
доктор философии по философии, доцент
Азербайджанский Государственный
Педагогический Университет
AZ 1000, г. Баку, ул.У.Гаджибейли, 68
e-mail: Leyli.Quliyeva@adpu.edu.az

# НЕКОТОРЫЕ АСПЕКТЫ СИСТЕМЫ ОБРАЗОВАНИЯ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *независимый Азербайджан, образование, личность педагога, информационно-коммуникативные технологии в образовании, цифровое образование*

Статья посвящена некоторым проблемам образования в Азербайджане.

Подчеркивается, что обязательным условием человеческого прогресса является человеческий потенциал, его знания, практические навыки и образовательные способности. Развитие науки и образования обуславливают достижения страны в различных сферах развития общества. Приводится тот факт, что во всём мире используются показатели и коэффициенты образования, причём в нашей стране этот показатель достаточно высок и находится на уровне стран и государств, продемонстрировавших в развитии высоких результатов.

Автор отмечает, что в современном обществе в воспитательно-образовательной сфере применяются цифровые, социальные, гуманитарные технологии, используемые во всех профилирующих направлениях образовательного процесса.

Создание в этой области цифрового образования, цифровой системы – является прогрессивным новшеством. В статье внимание уделяется личности педагога, его квалификации, личностным и профессиональным качеством. Одним из самых больших успехов реформ в системе образования является введение новых методов отбора педагогов и прозрачная оценка их деятельности.

Научная новизна данной статьи заключается в том, что автор на примере АГПУ рассматривает применение цифрового образования, информационно-коммуникативных технологий как важного фактора улучшения качества учебного процесса, а также автор уделяет внимание новшеству, согласно

которому родители при выборе педагога будут иметь доступ к системе, в которой будет отражаться сертификационный балл педагогов. Этот шаг является началом пути к индивидуальному финансированию, когда педагоги продемонстрировавшие высокие результаты во время сертификации, получат процентную надбавку к заработной плате.

**L.D.Quliyeva**

## MÜASİR AZƏRBAYCANDA TƏHSİL SİSTEMİNİN BƏZİ ASPEKTLƏRİ

***Açar sözlər***: *müstəqil Azərbaycan, təhsil, pedaqoqun şəxsiyyəti, təhsildə informasiya-kommunikasiya texnologiyaları, rəqəmsal təhsil*

Məqalə Azərbaycanda təhsildə bəzi problemlərin olmasına həsr olunub.

Qeyd olunur ki, bəşəriyyətin inkişafının mütləq şərti – insan potensialı, onun bilikləri, praktiki təcrübələri və təhsil bacarığıdır. Elm və təhsilin inkişafı ölkə ictimaiyyətinin ayrı-ayrı sahələrdə nailiyyətlər əldə etmək üçün zəmin yaradır. O fakt təqdim olunur ki, bütün dünyada təhsilin göstəriciləri və əmsalından istifadə olunur. Bizim ölkədə bu göstəricələr kifayət qədər yüksəkdir və yüksək nəticələr nümayiş etmiş bir çox xarici ölkələr səviyyəsindədir.

Müəllif qeyd edir ki, tərbiyə-təhsil sferada rəqəmsal, sosial, humanitar bütün profilli istiqamətlərdə istifadə olunan texnologiyalar tətbiq olunur. Bu sahədə yaranan rəqəmsal təhsil sistemi proqressiv yenilik deməkdir. Məqalədə pedaqoqun şəxsiyyətinə, onun peşəkarlıq səviyyəsinə, şəxsi və professional göstəricilərinə diqqət ayrılır. Təhsil sistemində pedaqoqların seçimində tətbiq edilən yeni metodların və onların fəaliyyətinin şəffaf qiymətləndirilməsi bu sistemin ən yüksək müvəffəqiyyətidir.

Bu məqalənin elmi yeniliyi ondan ibarətdir ki, müəllif Azərbaycan Dövlət Pedaqoji Universitetinin misalında rəqəmsal təhsilin, informasiya-kommunikativ texnologiyaların tətbiq olunması təhsil prosesinin keyfiyyətinin yaxşılaşdırmasının vacib faktoru kimi nəzərdən keçirir. Eləcə də müəllif ona diqqət yetirir ki, tezliklə valideynlər müəllimi seçim zamanı onların kvalifikasiya bağlı almış sistemə daxil olaraq, pedaqoq seçimini edə biləcəklər. Keçirilən islahatlar müəllimlərin maliyyələşmə yolunun başlanğıcıdır. Yeni sertifikasiya zamanı yüksək nəticələr göstərmiş pedaqoqlar faizli üstəlik olacaqlar.

**L.D.Guliyeva**

## SOME ASPECTS OF THE EDUCATION SYSTEM IN MODERN AZERBAIJAN

***Keywords:*** *Independent Azerbaijan, education, teacher's personality, information and communication technologies in education, digital education*

The article is dedicated to certain issues in the education system of Azerbaijan.

The author emphasizes that human potential — including knowledge, practical skills, and educational abilities — is a fundamental condition for human progress. The development of science and education determines the country's achievements in various areas of societal advancement. It is noted that around the world, educational indicators and coefficients are widely used. In many countries, these indicators are quite high and are at the level of states that have demonstrated strong achievements in development.

The author notes that in modern society, digital socio-humanitarian technologies are being applied in the educational and upbringing sphere, and are used across all areas of the educational process.

The creation of a digital system in this area of digital education is a progressive innovation in the field of education. The article focuses on the personality of the teacher, their qualifications, and professional competencies. One of the most significant reforms in the education system is the introduction of new methods for selecting teachers and ensuring transparency in the evaluation of their performance.

The scientific novelty of this article lies in the fact that the author, using the example of Azerbaijan State Pedagogical University, examines the use of digital education and information and communication technologies as an important factor in improving the quality of the educational process. The author also highlights an innovation according to which parents, when choosing a teacher, will have access to a system that displays the certified rating scores of educators. This step marks the beginning of a path toward individual funding, where educators who demonstrate high performance during certification will receive a percentage-based bonus.

«На протяжении всей истории развития и совершенствования общества – образ жизни человека и человечества были связаны с накоплением навыков, знаний, представлений о мире, о себе и о своём окружении. Процесс адаптации к природе и обществу, общественным процессам и экстремальным ситуациям во все времена человеческой

цивилизации вырабатывал потребность поиска новых знаний и выработке непреходящих духовных и материальных ценностей, созданных и воссоздаваемых в человеческом обществе» [5, с.9].

Альберт Эйнштейн говорил: «Будущее страны зависит от образования, которое получают её жители». Президент ЮАР Нельсон Мандела в свое время сказал: «Образование – это самое мощное оружие, которым вы можете изменить мир». Эти верные слова дают краткий, но исчерпывающий ответ на вопрос, что такое образование для общества.

Институт образования во все периоды развития человеческого общества был направлен на социализацию, прогресс и адаптацию личности во все сферы позитивной жизни общества. Процессы глобализации, происходящие в мире, определяются не только взаимосвязями политических, экономических и культурных процессов, но и характеризуются непосредственно информационно-образовательной сферой современного общества. Не случаен тот факт, что глобализационные процессы затронули и специфику образования в Азербайджанской Республике. Устойчивое развитие нашей страны во многом зависит от качества образования и просвещения. Правильное решение этих проблем и обуславливает верную постановку целей и выбора управленческих технологий, способствующих принятию эффективных решений, соответствующих потребностям национального развития, вызовам и требованиям времени. Универсальные знания и системное мышление влекут за собой аналитический анализ и принятие во внимание всех политических, экономических и культурно-образовательных трендов мировой цивилизации, которые открывают новые возможности для сближения народов и продуктивного сотрудничества. Образование, универсальные знания, наука способствуют повышению социальной активности граждан и производительности общественного труда, благоприятствуют росту социальной справедливости в обществе, оказывающей огромное влияние на мотивацию труда и рост патриотизма людей, обеспечение высокой культуры государственного управления на всех уровнях, помогающих принимать эффективные решения, отвечающие национальным интересам [4, с.25]. Направленность образовательного процесса на глубокое и органичное усвоение профессиональных, конкурентноспособных знаний, требует от современной молодёжи внутренней психологической и моральной подготовки.

«Новые шаги на пути к творчеству неизбежно, и в основном лежат через систему образования, которую выстраивает общество в соответствии с тактическими и стратегическими соображениями государства, функционирующего на тот момент» [5, с.93]. Принимая во внимание растущие потребности в устойчивом развитии общества, в условиях глобализирующегося мира, необходимо повысить свой вклад в развитии

образованной молодежи страны и прогрессивные социальные трансформации общества.

О роли молодежи в системе образования говорится в обращении Президента страны Ильхама Алиева к участникам I Глобального Форума «Для успешного осуществления этой политики в нашей стране были созданы благоприятные социально-экономические и общественно-политические условия» [2].

Эти процессы необходимы для служения интересам опережающего развития в нашем обществе – образовательной, интеллектуальной, управленческой культуры, повышаются творческий потенциал и рейтинг общества. Как верно отметил известный культуролог Ф.Мамедов, образование позволяет поднять уровень динамичного национального развития государства за счет повышения социального роста ученых и педагогов, соответствия специалистов международным стандартам культуры труда, производства и сервиса, культуры профессионализма, ответственности и коммуникации, социально-бытовой, медицинской и экологической, правовой и поведенческой культуры [4, с.124-125].

Известно, что обязательным и важным условием прогресса является человеческий потенциал, его знание, практические навыки и образовательные способности. Это демонстрирует анализ факторов, обуславливающих успешное развитие различных государств. Развитие науки и образования определяют достижения развитых и развивающихся стран в различных сферах функционирования общества. Поэтому образование, как важный фактор прогресса, играет особую роль в оценке человеческого развития. В связи с этим используются различные показатели образования, которые являются коэффициентами, характеризующими развитие человека. В соответствии с коэффициентами, применяющими для оценки человеческого развития и определения устойчивости этого процесса, используются различные показатели образования. Не останавливаясь подробно на этом аспекте, приведем слова академика У.Алакбарова, который отмечает, что «в настоящее время во всём мире, в особенности в странах, достигших высоких результатов в развитии, пожизненное образование является одним из основных направлений государственной политики и принимается как главный фактор инновативного развития. У нас этот показатель довольно высокий и находится на уровне стран, добившихся в развитии высоких результатов» [3, с.109].

Общенациональный лидер азербайджанского народа Гейдар Алиев отмечал важную роль педагогов и учёных, обращал внимание на роль критического анализа, важность соединения науки с практикой в целях получения реальной пользы для народа, общества, страны. Подчеркивая

роль науки и образования в социально-культурном, гуманитарном развитии общества, он видел в этих флагманах духовной культуры пусть к безопасности и счастью нашего народа, к его лучшему будущему [1, с.7].

Как же наша страна смогла построить национальную систему образования? Как видятся перспективы будущего Азербайджана с нынешним образованием?

Следует отметить, что некоторый застой в сфере образования в первые годы нашей независимости сменился серьезными реформами в этой области, приводимыми руководством нашей страны в сторону усиления этой сферы развития и обеспечении достижений общества.

Одним из больших успехов реформ в нашей системе образования стало введение новых принципов отбора учителей и оценки их отбора. Следует отметить, что долгое время свершалась несправедливость в сфере образования, когда выплачивалась равная заработная плата образованным, квалифицированным специалистам, а также в равной мере малоквалифицированным и даже неграмотным педагогам. Теперь ситуация поменялась. Проведенные прогрессивные реформы привели к том, что на первый план вышли высокообразованные и способные педагоги, а не умеющие работать над собой, неквалифицированные педагоги были отсеяны.

Современный педагог – это специалист, в полной мере овладевший знаниями, как в своей области, так и усвоивший все богатства, созданные человечеством. Это человек, находящийся в постоянном творческом поиске, работающий над собой, постоянно повышающий свои знания и квалификацию. Именно наличие этих качеств в личности педагога обусловит подъем на уровень современных требований в образовательной системе. Как отмечает азербайджанский психолог Бахтияр Алиев, учет педагогом психологической ситуации в процессе образования – это целый набор вовлечения учащихся в учебный процесс. «В современных условиях гуманистическая парадигма предполагает вариативность использования педагогических технологий, стимулирующих процессы самообучения, самовоспитания, саморазвития, развития навыков самостоятельной творческой деятельности» [5, с.49].

Современный тип педагога, его профессиональные качества, его подготовка обуславливают проведение соответствующих реформ внутри самой воспитательно-образовательной структуры. Ведь именно этот социальный институт несет ответственность и отвечает за подготовку зрелых, духовно богатых, и высокообразованных и высококвалифицированных кадров для информационного общества.

Одним из нововведений в системе образования является то, что скоро при выборе школьного педагога родители будут иметь возможность знать об уровне его квалификации и подготовки. Заместитель заведующего

отделом организации общего образования государственного агентства по дошкольному и общему образованию Н.Исмаилбейли на брифинге, посвященном сертификации учителей, сообщил, что при зачислении учащихся в 1-й класс в компьютерной системе будут отражаться сертификационный балл учителей. Этот шаг стимулирует конкуренцию между педагогами, они будут стараться повышать уровень своих знаний и квалификации, чтобы показать высокие баллы на экзамен по своей сертификации. По словам эксперта, в сфере образования Эльчина Эфенди, это начало пути к индивидуальному финансированию в образовании. Также он отметил, что скоро родители смогут отдавать врученные им ваучеры (ценные бумаги, предусмотренные для индивидуального финансирования в образовании и которые можно вложить только в образование) лучшей школе и лучшему преподавателю.

Отметим, что с 1 мая начался прием учащихся в первые классы общеобразовательных учреждений на 2025/2026 учебный год. Процесс приема осуществляется в электронном виде через портал министерства науки и образования www.mektebeqebul.edu.az. система электронной регистрации охватывает все города и регионы страны. Традиционно при регистрации детей через портал родители также могут выбрать учителя начальных классов [6, с.16].

Добавим так, что с 18 июня начался тестовый этап сертификации учителей государственных общеобразовательных учреждений, который продлился до 25 июня. Он прошел в 39 экзаменационных центрах в 19 городах страны, включая Нахчыван. На этапе тестового экзамена в течение 120 минут необходимо ответить на 60 вопросов, связанных с общеобразовательными программами, методиками преподавания и стратегиями обучения по предмету. Каждый правильный ответ оценивается в 1 балл. Педагоги, набравшие не менее 30 баллов на тестовом экзамене, приглашаются на собеседование. Учителям государственных общеобразовательных учреждений, показавшим хорошие результаты, на этапе тестовых экзаменов, устанавливаются надбавки к должностным окладам в соответствие с результатами сертификации.

Среднемесячная заработная плата учителей составляет 965 манатов. Об этом сказал министр науки и образования Эмин Амруллаев на мероприятии в Университете ADA на тему «Сертификация 2025: профессиональный учитель – качественное образование». По его словам, среднемесячная зарплата учителей, показавших высокие результаты в процессе сертификации (набравших 51 и более баллов, получивших 35-процентную надбавку), составляет 1320 манатов: «Те, кто набрал от 30 до 50 баллов, получают 10-процентную надбавку, их среднемесячная зарплата составляет 1010 манатов. Учителя, не принимавшие участие в

сертификации, получают в среднем 765 манатов в месяц» [6, с.16].

Известно, что наиболее характерной особенностью информационного общества является рост и постоянное воспроизводство информационно-коммуникативных, цифровых, гуманитарных технологий. «Гуманитарные технологии (методы, средства) как основа и в известном смысле как альтернатива информационно-коммуникативном технологиям – это своего рода педагогический инструментарий и гарант эффективности и целенаправленности влияния на полноценную социализацию становящегося человека», на процессы образования [5, с.46].

Социологические опросы и мониторинги дают основания считать, что методы и средства воспитания и передачи знаний в полной мере отвеют требованиям и запросам современного общества. В воспитательно-образовательной среде с успехом используются цифровые, социальные, гуманитарные технологии, для всех профилирующих аспектов образования.

Одним из прогрессивных новшеств в сфере образования является создание цифровой системы в этой области. Причем этот шаг будет служить не только для оценки деятельности общеобразовательных школ и высших учебных заведений посредством электронных дневников. Данная система будет способствовать тому, что родители смогут оперативно получать доступ к верной информации об успеваемости своих детей, а также об их поведении в учебных заведениях. Благодаря этой системе родители смогут прослеживать активность детей на уроках, их поведение и посещаемость занятий. В то же время оценку работы преподавателей не следует доверять только родителям. Соответствующие структуры и организации должны участвовать в этом процессе. Это сможет сыграть позитивную роль при сертификации педагогов, при определении уровня их знаний и квалификации.

Эксперты по образованию считают, что предоставление родителям возможности свободно высказывать свое мнение об учителях, о школе является положительным фактором. В некоторой степени это своего рода оценивание деятельности всего учебного заведения, что послужит повышению качества образования в стране. Внедрение этого новшества создаст возможность удаленно контролировать учебные процессы, предотвращать нежелательные ситуации, которые могут возникнуть между учащимися в будущем. Благодаря цифровой системе образования будет создана система, которая будет обуславливать контроль за всем учебным процессом.

Также создание цифровой системы для оценки школ и педагогов родителями улучшит процесс обработки обращений граждан и таким образом увеличит их удовлетворенность услугами в сфере образования.

Что же касается применения данной системы в высших учебных заведениях, то она уже с успехом последние несколько лет функционирует в вузах нашей страны, и в частности в АГПУ. У каждого преподавателя имеется mudl-stol, где они размещают свои лекции, публикации, учебные пособия для студентов.

У каждого преподавателя имеется свой электронный журнал, в котором сконцентрирована обширная информация – начиная от оценок до фиксации посещаемости уроков.

Применение цифровой системы в сфере образования имеет очень большое значение. Она в первую очередь, обеспечивая прозрачность в этой области, позволяет получить доступ преподавателей, учащихся, а также различных структур и организаций к получению достоверной информации об учебном процессе, адекватно определить знания учащихся, выявить их таланты и способности, обнаружить неуспевающих студентов и школьников.

**Заключение.** Система образования в нашем обществе направлена на дальнейший рост духовной жизни и высокой производительности общественного труда, креативности и социальной, политической стабильности нашего общества. Она подразумевает интеллектуализацию, гуманизацию национальных культурных ценностей, гармоничное развитие процессов культурогенеза азербайджанского народа, совершенствование жизнеспособности, возвышение и конкурентоспособности нашей страны, дальнейшее развитие и усиление ее рейтинга на международной арене и плодотворного сотрудничества с другими странами и государствами [4, с.128].

Генеральной парадигмой систем образовательного процесса является возвышение и реализация ценности человеческой личности. При этом креативно внедряются достижения мировой системы образования, стандарты, образцы и современные технологии науки и образования, управления и производства развитых стран мира, а также собственные новшества, объединяющие традиционные ценности национального менталитета, достижения образования.

## ЛИТЕРАТУРА

1. Гейдар Алиев. Избранные идеи и высказывания /http://open.az/2008/05/10/
2. Ильхам Алиев. У Азербайджана прекрасное будущее. http://ru.oxu.az/politics/49612
3. Алакбаров У. Основы человеческого развития. Учебник для высших учебных заведений. Баку: Aspoliqraf, 2017, 280 с.

4. Ф.Мамедов. Культурологическое образование и устойчивое развитие человека, общества и государства // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə, №4(84). – 2024. – с.121-131.
5. Müasir Azərbaycanda təhsil sosiologiyası. Социологическое образование в современном Азербайджане. Bakı: Təknur, 2014. 156 с.
6. Неделя. Газета от 04.07.2025. https://nedelia.az/ru/news/

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 44-51**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 44-51**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 44-51**

**UOT 372.8:78**

**F.İ.Rzayeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: firangiz-rzayeva@mail.ru

# AZƏRBAYCANIN İLK QADIN PİANO İFAÇILARI VƏ ONLARIN MAARİFÇİLİK FƏALİYYƏTLƏRİ

***Açar sözlər:*** *maarifçilik missiyası, milli ziyalılar, fortepiano ifaçılığı, milli mədəniyyət, xeyriyyəçilik, musiqi məclisləri*

Məqalə müəllifi qeyd edir ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ictimai, siyasi, sosial durum ağır olduğuna baxmayaraq Azərbaycan xalqı özünün mədəni inkişafını dayandırmamışdı. Bu dövrdə əsas aparıcı və məsuliyyətli iş milli ziyalıların, maarifpərvər və xeyriyyəçilərin üzərinə düşürdü. Məqalədə azərbaycan millətindən olan ilk qadın piano ifaçılarının və xüsusilə X.Qayıbova və K.Səfərəliyevanın bu sahədə olan fəaliyyətləri tədqiq olunur. Qeyd olunur ki, X.Qayıbova ifaçılıq fəaliyyəti ilə yanaşı bir sıra tədris ocaqları yaradır, uşaq xoru, musiqi-dramatik studiya-teatr təşkil edir. O, xalq dastanları, mahnı və muğamların toplanması ilə məşğul olur. K.Səfərəliyeva pianoçu-pedaqoq, metodist, musiqi redaktoru, təbliğatçı və ictimai xadim kimi çoxşahəli fəaliyyət göstərir. Məqalədə xüsusi ilə vurğulanır ki, biz müəllimlərin əsas vəzifəsi gənc nəslə millətimizin görkəmli nümayındələrinin həyat və yaradıcılıqları ilə yanaşı, onların maarifçilik fəaliyyətləri haqqında geniş məlumat verməyimiz vacibdir.

**Ф.И.Рзаева**

# ПЕРВЫЕ ЖЕНЩИНЫ-ПИАНИСТКИ АЗЕРБАЙДЖАНА И ИХ ПРОСВЕТИТЕЛЬСКАЯ ДЕЯТЕЛЬНОСТЬ

***Ключевые слова:*** *просветительская миссия,национальная интеллигенция, фортепианное исполнительство, национальная культура, благотворительность, музыкальные вечера*

Автор статьи отмечает, что несмотря на сложную общественно-политическую и социальную обстановку в Азербайджане в конце XIXначале

XX веков азербайджанский народ не прекратил своего культурного развития. В этот период основная руководящая и ответственная работа легла на плечи отечественной интеллигенции,просветителей и меценатов. В статье рассматривается деятельность первых женщин-пианисток азербайджанской национальности, в частности Х.Гаибовой и К.Сафаралиевой. Отмечается, что помимо исполнительской деятельности Х.Гаибова создала ряд образовательных учреждений, организовала хор, музыкально-драматическую студию-театр. Занималась собранием народных эпосов, песен и мугамов. К.Сафаралиева многогранный педагог, методист, музыкальный редактор, пропогандист, общественный деятель. В статье подчёркивается,что главная задача педагогов – предоставить подрастающему поколению обширную информацию о жизни и творчестве выдающихся представителей нашего народа, а также об их просветительской деятельности.

**F.I.Rzayeva**

## THE FIRST PIANISTS OF AZERBAIJAN AND THEIR EDUCATIONAL ACTIVITIES

***Key words:*** *educatinol mission, national intelligentsia, piano playing, national culture, charity, musical evenings*

The author of the article notes that, despite the difficult socio-political and social situation in Azerbaijan in the late 19th - early 20th centuriels, the Azerbaijan people did not stop their cultural development. During this period, the main leadership and responsibility fell on the shoulders of the domestic intelligentsia, educators and philanthropists. The article examines the activities of the first female pianists of Azerbaijan nationality, in particular Kh.Gaibova and K.Safaraliyeva in this area. It is noted that, in addition to performing activities, Kh.Gaibova created a number of educational institutions, organized a children s choir a musical and dramatic studio – theater. She was engaged in collecting folk epics, songs and mugams. K.Safaraliyeva is a multifaceted artist and teacher, methodologist, music editor, propagandist and public figure. The article emphasires that the main tast of teachers is to provide the younges generation with extensive information about the life and work of outstanding representatives of our people, as well as their educational activities.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ictimai, siyasi və sosial durum ağır olduğu üçün əsas vəzifə Azərbaycanlı ziyalı, maarifpaəvərlərinin üzərinə düşürdü. Qeyd etdiyimuz bu dövrdə Azərbaycan mədəniyyəti böhranlı,

çox çətin dövr keçirmişdir. XIX əsrin sonlarında genişlənən neft sektorunun inkişafını görən rus çarizm siyasəti və ermənilərin apardıqları "antimüsəlman" siyasəti Azərbaycan mədəniyyətinə, maarifinə, ədəbiyyatına, bir sözlə, elmin və iqtisadiyyatın bütün sahələrinə təsirsiz keçməmişdir. Bütün qeyd etdiklərimizə baxmayaraq, Azərbaycan xalqı özünün mədəni inkişafını dayandırmamışdı. Bu dövrdə (1918-ci ilə qədər) azərbaycanlıların milli-mənəvi maraqlarını, elmin inkişafını, mədəniyyətini, iqtisadiyyatını yönləndirəcək Azərbaycan dövləti yox idi. Azərbaycan torpaqları çar Rusiyasının idarəsi altında idi. Bu dövrdə əsas aparıcı və məsuliyyətli iş milli ziyalıların, maarifpərvər və xeyriyyəçilərin üzərinə düşürdü. Təbii ki, ziyalılar üzərilərinə düşən bu məsuliyyətin ağırlığını dərk edirdilər. Lakin onların da hər istədikləri yerinə yetirilmirdi və ya yarı yolda dayandırılırdı.

XIX əsrin II yarısında Azərbaycanda musiqi salonları, musiqi dərnəkləri geniş fəaliyyətə başlamışdı. 1895-ci ildə Bakıda ilk dəfə olaraq Avropa üslubunda fortepiano musiqi liseyi açılmışdı. Bu lisey Azərbaycanda klassik Avropa üslubunda musiqiçi kadrların yetişməsində mühüm rol oynamışdı. 26 avqust 1921-ci ildə Azərbaycanda musiqi təhsilinin mərkəzi olan Dövlət Konservatoriyası yarandı. 1922-ci ildə dahi bəstəkar Üzeyir Hacıbəylinin yaratmış olduğu "Türk musiqi məktəbi" milli musiqi kadrların yetişməsində çox əhəmiyyətli rol oynadı.

Qeyd etdiyimiz tarixi dövrdə xalqın içərisindən çıxmış ziyalıların milli dirçəliş haqqında olan təlimlərində mədəniyyətə aid ideyaları, kulturoloji arqumentlər prioritet kimi mühüm əhəmiyyət kəsb etdi. Azərbaycan mədəniyyətinin məhz bu dövrünün daxili dinamikası bir daha sübüt etdi ki, bu tarixi mərhələdə ən müxtəlif, hətta bir-birini inkar edən bədii mövcudluqlar bəzən də paralel olaraq meydana çıxmışlar.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ziyalılarının dar çərçivəsində olan musiqi sevərlərini Avropa mənşəyli alətlər sırasında fortepiano daha çox maraqlandırırdı. Ev şəraitində fortepianoda olan ifaçılıq həvəskar səviyyədə olmasına və repertuar məhdudluğuna baxmayaraq (əsasən müxtəlif Azərbaycan xalq mahnı, rəqsləri, aşıq melodiyaları əsasında improvizasiya), getdikcə yüksələrək, konsert ifaçılığı səviyyəsinə çatdı. Bu improvizəli ifaçılığın təkmilləşməsi gələcəkdə Firuzə xanım Qacar, Kişvər Əliyeva, Xədicə Qayıbova, Nəzirə Şah Mirzə kimi istedadlı ifaçıları irəli çəkdi. Təsadüf nəticəsində, Azərbaycanın ilk qadın piano ifaçıları müxtəlif qohumluq münasibətində idilər və fortepiano ifaçılığı üzrə professional akademik təhsil almış birincilər idilər. Tədqiqatçı G.Mirzənin qeyd etdiyi kimi bu sıraya Köykəb xanım Səfərəliyevanı və Nigar xanım Usubovanı da daxil etməliyik [6].

Piano ifaçılarının yaşca ən böyüyü olan Firuzə xanım Tiflisdə, əvvəl çar, sonra isə Azərbaycan Respublikası ordusunun polkovniki Seyfulla Mirzə Qacarın

ailəsində anadan olmuşdur. Polkovnikin həyat yoldaşı Qafqaz Müsəlman Qadın Xeyriyyə cəmiyyətinin üzvü idi. O bir neçə dil bilir, ədəbiyyat və incəsənətin öyrənilməsinə böyük əhəmiyyət verirdi. Eyni zamanda, fortepiano musiqisi, ifaçılığı ilə maraqlanır və qızına bu sevgini aşılaya bilmişdi. Musiqi ilə əvvəl Tiflisdə, sonra isə Peterburq Konservatoriyasında məşğul olur. Konservatoriyanı bitirdikdən sonra isə Tiflisə qayıdır. Onun gələcəyə aid çox sayda arzuları var idi. Lakin tale onların həyata keçməsinə imkan vermədi və Firuzə xanım vəfat etdi.

Onun qohumu olan Nəzirə xanım Şah Mirzə, eyni ilə Tiflisdə hərbçi ailəsində anadan olmuşdur. Kiçik yaşlarından biliyə maraq göstərir və ev şəraitində mükəmməl musiqi, ümumi təhsil almış idi. Bu səbəbdən “Müqəddəs Nina məktəbinə” birdən yeddinci sinfə qəbul olunur. 1910-cı ildə Tiflis musiqi texnikumuna daxil olur və texnikumu bitirdikdən sonra xeyriyyə konsertlərində çıxış edir. Tədqiqatçı G.Mirzə qeyd edir ki, onun konsertlərinin afişaları bu günə qədər ailəsində saxlanılır [6]. 1914-ci ildə Nəzirə xanım Peterburqa gedir və iki tədris müəssisəsi – Konservatoriya və qadın tibb institutuna daxil olur. Pianoçu xatirələrində qeyd edir ki, onun repertuarı çox zəngin idi. Ən sevimli əsərləri sırasında Bethovenin Sonataları, Listin, Şopenin əsərləri, həmçinin azərbaycan milli rəqsləri, muğamları əsasında özünün improvizələrini qeyd etməliyik.

Xüsusi olaraq Xədicə xanım Qayıbovanın maarifçi fəaliyyəti üzərində dayanmaq istərdik. Xədicə Osman qızı Qayıbova 1893-ci ildə Tiflisdə məşhur müsəlman dininə xidmət edən Müftizadələr ailəsində anadan olmuşdu. Ana tərəfindən o Terequlovlar nəslindən idi. Atası qızına mükəmməl təhsil vermək arzusunda idi. Ona görə də ailənin maddi vəziyyətinin imkan verdiyi vasitədən istifadə edilir. Qafqaz canişinliyinə yazılmış ərizəyə əsasən Xədicə xanım püskatma üsulu ilə Tiflisdə “Müqəddəs Nina” qızlar məktəbinə daxil olur. Uşaq yaşlarından musiqi istedadı ilə fərqlənən Xədicə xanım ilk musiqi təhsilini elə bu məktəbdə alır.1911-ci ildə məktəbi bitirdikdən sonra mühəndis Nadir Qayıbovla ailə qurur. Bir müddət Xədicə xanım Tiflisdəki tatar (yəni Azərbaycan) məktəbində dərs demişdir. 1919-cı ildə Qayıbovlar Bakıya köçür. Xədicə xanım artıq bu dövrdən konsertlərdə çıxış etməyə başlayır. Sovet dövründə, yəni 1920-ci ildən sonra, X.Qayıbova Azərbaycanın musiqi mədəni həyatında daha fəal iştirak edir. Pedaqoji sahədə bir sıra proyektlərlə çıxış edir. Şübhəsiz, onun bu sahədə olan fəaliyyəti maarifçilik missiyalı idi. Xədicə xanım Xalq Maarif Komissarlığında Şərq musiqi şöbəsinin müdiri təyin edilir. Onu təşəbbüsü ilə “Qısa müddətli Şərq musiqi kursları” təşkil olunur, uşaq xoru yaradılır. Bu kurslar ləğv edildikdən sonra X.Qayıbova 1927-ci ildə ali musiqi təhsili almaq üçün Azərbaycan Dövlət Konservatoriyasında nəzəriyyə və bəstəkarlıqdan dərs alır. 1933-ci ildə casusluqda ittiham edilərək həbs olunan Xədicə xanım tezliklə heç bir sübut, dəlil olmadığına görə həbsdən azad edilir.

Xədicə xanım Bakıda dinləyicilər qarşısında fortepianoda Azərbaycan muğamları əsasında mürəkkəb variasiuyalar ifa edən birinci azərbaycanlı idi. Məsələn, onun konsertlərinin afişalarında Şikəsteyi-Fars, Bayatı-Kürd, Bayatı-Qacar kimi muğamlar qeyd olunmuşdu. Xədicə xanım tez-tez Zeynalabdin Tağıyevin evində fortepianoda ifa edirdi. Hacı onun parlaq improvizatorluq istedadına valeh idi və təşəkkür əlaməti olaraq Xədicə xanıma "Rönish" markalı royal hədiyyə etmişdi.

Qeyd etdiyimiz kimi, Xədicə xanım mütərəqqi görüşlərə malik olan insan idi və fəal həyat mövqeyində dururdu. "Şərq musiqi kursları", adətən, "Şərq konservatoriyası"da adlandırırdılar. Onların məqsədi şərq musiqisi müəllimlərinin hazırlanması və eyni zamanda, Azərbaycan xalqının, bütün şərqin melodiyalarının nota salınmasından, tədqiq olunmasından ibarət idi. Tələbələrin sayı 750 nəfərə çatırdı. Kurslara rəhbərlik edən X.Qayıbova inamla qeyd edirdi ki, şərq musiqisini ayrı öyrənmək lazımdır. Avropa və Şərq musiqisinin inkişaf qanunlarını bir–birinə qarışdırmaq mümkün deyil. Çünki onların nəzəriyyələrini yaxınlaşdırmaq mümkün deyil. Bu məsələdə Xədicə xanımla Üzeyir bəy arasında fikir ayrılığı yaranır. Bu mövzuda olan diskussiya və mübahisələr milli mədəniyyətimiz üçün müsbət nəticələr verdilər. Xədicə xanım müəyyən müddət Marif Komissarlığının Şərq musiqisi şöbəsinə rəhbərlik edir, qadın musiqi-dramatik studiya-teatrını təşkil edir. Burada Azərbaycan səhnəsi üçün ilk aktrisalar hazırlanırdı.

1934-ci ildən istedadlı musiqiçinin professional fəaliyyəti ADK nəzdində Elmi-Tədqiqat Musiqi Kabinəsi ilə bağlı olmuşdur. O, xalq dastanları, mahnı və muğamların toplanması ilə məşğul olur. Xədicə xanım enerjili, nikbin, təşəbbüskar bir qadın idi. Onun evində, mütəmadi olaraq, keçirilən musiqi məclislərinə, salonun sahibi kimi, ziyalılar, musiqiçilər, şair və yazıçılar, elm xadimləri, aktyorlar dəvət olunurdu. Bu salonun qonaqları arasında dövlət xadimləri, Bakıya qastrola gələn ifaçılar, müxtəlif tədbirlərdə iştirak edən xarici qonaqlar, xüsusilə Türkiyədən alimlər, şairlər daxil idi. Bu axşamlara Üz.Hacıbəyli, R.Qliyer, L.Rudolf, M.Pressman, H.Sarabski, Bülbül, V.Qorovits, N.Milşteyn, F.Köprülüzadə, İsmayıl Hikmət və başqaları təşrif buyururdular.

1937-ci ildə Xədicə xanım yenidən xalq düşməni kimi həbs olunur. Bu dəfə həyat yoldaşı Rəşid Qayıbov da satqın kimi həbs edilir. Xədicə xanımı Türkiyə lehinə casusluqda, musavatçılara rəğbət bəslədiyinə görə ittiham edirlər. Musiqişünas F.Əliyevanın qeyd etdiyi kimi, onun həbsinə rəvac verən bəhanə (səbəb deyil, məhz bəhanə) XDİK-da saxlanılan, döyülərək insanların cinayətkar kimi adına imza atmağa vadar edilən Ə.Fərəczadənin ifadələri oldu [2]. 1937-ci ildə "satqın və casus ovunda" Xədicə xanım ideal hədəf idi. Xasiyyəti etibarı ilə fəal, ünsiyyətsevər bir insan olduğundan Xədicə xanımin evində Cumhuriyyət dövründə, sovet illərində də türk zabitləri, xarici qonaqlar cox olurdu. 1937-ci ildə

musiqi axşamları siyasi kontekstdə yad edilməyə başlandı. Xədicə xanımın adı müstəntiqlərin diktəsi ilə başqa tutulanların da "yadına düşür".

Xədicə xanım ona qarşı sürülən qondarma ittihamlara görə cəzalandırılacağını bilirdi. Lakin inana bilmirdi ki, onu güllələcəklər. Tədqiqatçı F.Əliyevanın məqaləsindən bir məlumatı qeyd etmək istərdik: "Xalq düşməni"nin həyat yoldaşı kimi həbs olunmuş S.M.Əfəndiyevin həyat yoldaşı Zivər xanım onu belə xatırlayırdı: "Dustaqxana qadınlarla dolu idi. Onlaq ərlərinə görə tutulmuş vəzifəli şəxslərin, hərbçilərin arvadları idilər. Mənim olduğum kamerada gözəl musiqiçi Xədicə xanım Qayıbova və başqa 30 nəfərdən çox qadın var idi. Xədicə xanım çox iradəli, şux qadın idi. Özünü şux aparır, hərdən mahnı zümzümə edir, rəqs edirdi. Bir dəfə o, dedi: "Mən incəsənət adamıyam. Eybi yoxdur, lap sürgünə də göndərsələr, məhv olan deyiləm, lap orada da musiqi klubu düzəldib rəqs edəcəyəm, oxuyacağam, çalacağam... Qoy onlar sevinməsinlər" [2].

Xədicə xanımın məhkəməsi cəmi 15 dəqiqə çəkdi və ona güllələnmə hökmü kəsildi. Hökm 1938-ci il oktyabr ayının 27-də icra edildi. 1956-cı ildə repressiyanın qurbanlarından olan Xədicə xanım bəraət aldı. Onun günahı olmadığı elan olundu.

Azərbaycanın musiqi mədəniyyətinin inkişafının 60 ilə yaxın dövrü respublikanın xalq artisti, professor Köykəb Kamil qızı Səfərəliyevanın həyat və fəaliyyəti ilə bağlıdır. Professional sahədə fədakarlıq, təcrübə və tədrisə olan canlı maraq onda əsil pedaqoji istedad ilə uzlaşırdı. Köykəb xanım tələbələrində fortepiano alətinə qarşı böyük məhəbbət hissi tərbiyə edirdi. Onun pianoçu-pedaqoq, metodist, musiqi redaktoru, təbliğatçı və ictimai xadim kimi çoxşahəli fəaliyyəti geniş məşhurluq qazanmışdı. Köykəb xanımı ifaçı və pedaqoq kimi fərqləndirən əsas keyfiyyətlər – incəsənət problemlərinə olan çox ciddi, prinsipial münasibəti idi. Bu münasibət musiqiçilərin gənc nəsli üçün ixtisasına, pedaqoji – tərbiyəçi vəzifəsinə qarşı olan professional münasibətin yüksək nümunəsi rolunu daşıyırdı. Tələbəsi olan A.Mailovanın xatirəsinə görə, "Pianoçunun tərbiyə və tədrisinin kompleks xarakterini dərk edərək, Köykəb xanım, tələbənin əqli və yaradıcı qabiliyyətlərinin inkişafına istiqamətlənən, özünün gündəlik fəaliyyətində, bilavasitə praktiki ifadəsini tapan müvafiq fortepiano – pedaqoji prinsiplərini hazırlayıb" [5]. Tələbəsinin dediyi kimi,tədrisə olan kompleks yanaşma onların dünyagörüşü dairəsini genişləndirib, musiqi əsərlərinin müxtəlif redaksiyalarının, görkəmli pianoçuların ifa interpretasiyalarının təhlili, əsərlərin dəqiqliklə öyrənilməsinə yol açıb.

Piano aləti üçün yazılan repertuarda hərtərəfli erudisiyaya malik olan, dərin musiqiçi K.Səfərəliyeva gənc mütəxəssislərin ifaçı simasının formalaşmasında milli fortepiano repertuarına xüsusi əhəmiyyət verirdi. Tələbələrinin bir çox konsertlərinin proqramını milli musiqi nümunələri təşkil edirdi. Bura Ə.Əzizov,

A.Dadaşov, S.İbrahimova, A.Əzimov və başqalarının əsərləri daxil olunurdu. Köykəb xanımın tələbələri çox vaxt azərbaycan fortepiano əsərlərinin ilk ifaçıları kimi çıxış edirdilər və müəllimlərinin köməyi ilə böyük konsert estradasına vəsiqə qazanırdılar. Proqramlarını bütövlükdə azərbaycan müəlliflərinin əsərlərindən tərtib edərək qastrol turnerlərində geniş xarici auditoriyanı bu əsərlərlə tanış edirdilər.

Bəstəkarlarla daim təmasda olan, bəzən isə onları bir çox fortepiano əsərlərinin yazılmasında stimullaşdıran Köykəb xanım bu əsərlərin tərtibatçısı və redaktoru olurdu. Onun redaksiyası və tərtibatında Qara Qarayevin fortepiano əsərləri məcmuəsi, azərbaycan bəstəkarlarının pyesləri, balet parçalarının və simfonik musiqinin konsert transkripsiyaları və s. çapdan çıxmışdır.

Pianoçu kadrların milli repertuarda tərbiyə olunmasında xüsusi əhəmiyyət verərək, milli musiqi işləmələrinə əsaslanan Üz.Hacıbəyli, M.Maqomayev və digər bəstəkarların əsərlərinin işləmələrindən ibarət uşaq pyesləri albomu tərtib edir. Hamma və arpedjio məcmuəsinin tərtib olunması və hazırlığı, L.Yeqorova və R.Siroviçin “Fortepianoda ibtidai təlim üçün vəsait”in metodiki cəhətdən redaksiya olunması da böyük əhəmiyyət kəsb edir.

Professor K.Səfərəliyevanın, onu yaradıcılıq maraqlarının genişliyinə sübut olan elmi-tədqiqat fəaliyyəti haqqında danışmaq vacibdir.Ən iri həcmli elmi iş kimi “Azərbaycanda musiqi təhsili” məqaləsini, “Üz. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası” adlı monoqrafiyanı (E.Abasova, D.Danilov və L.Karaqiçeva ilə birlikdə) qeyd edə bilərik. Üz. Hacıbəyli K.Səfərəliyevaya “Azərbaycan xalq musiqisinin əsasları” adlı monoqrafiyasının redaktəsini etibar edir. Köykəb xanıma hədiyyə etdiyi nümunənin üzərində Üzeyir bəy yazır: “Sizin sonsuz enerjiniz və yorulmaz qayəniz bu əsərin hazırlanmasında, tamamlanmasında və nəşrə təqdim olunmasında sistematik iş üçün bütün imkanlarla məni təmin etmişdir. Kitabın hər bir səhifəsi mənə Sizin işıqlı şəxsiyyətinizi yada salır”.

Beləliklə, yekun olaraq qeyd etmək istərdik ki, Azərbaycanın ziyalı, mədəni elitasının görkəmli nümayəndələri olan Xədicə xanım Qayıbova və Köykəb xanım Səfərəliyeva Azərbaycanın mədəni həyatına və inkişafına qiymətsiz töhfələr verməlkə yanaşı, onun maarif sahəsində yuksək nailiyyətlər əldə etmək siyasətində dəyərli, qiymətli fəaliyyət göstərmişlər. Biz müəllimlərin əsas vəzifəsi və borcu gənc nəslə millətimizin görkəmli nümayəndələrinin həyat və yaradıcılıqları ilə yanaşı, onların maarifçilik fəaliyyətləri haqqında geniş məlumat verməyimiz vacibdir.Bu da, öz növbəsində, gənclərdə milli–mənəvi dəyərlərin formalaşmasına yardım edəcək.

## ƏDƏBİYYAT

1. Bunyadov Z. Qırmızı terror. - Bakı, Azərnəşr, 1993, 331 s.
2. Əliyeva F. XX əsr Azərbaycan musiqi tarix-totalitar zaman kəsiyində // Musiqi dünyası, 3-4/17, 2003, s. 13-33
3. Gəncəli S. Qadın, gözəllik və ülviyyət - Bakı, Azərnəşr, 2001, 171 s.
4. Hüseynov R. Vaxtdan uca. - Bakı, İşıq, 1987, 165 s.
5. Маилова А. Становление и развитие музыкально-исполнительского творчества К.К.Сафаралиевой. – Баку, Адильоглу, 2003, 160 стр.
6. Мирза Г. Первые пианистки Азербайджана // Azərbaycan – İrs, 2000, №2, s. 12-14

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 371.4:159.922.7**

**G.H.Əlixanova**
psixologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: gülnare.alixanova@mail.ru

# YENİYETMƏLƏRİN PEŞƏ SEÇİMİNƏ HAZIRLIĞININ MAHİYYƏTİ

***Açar sözlər:*** *peşə yönümü, yüksək təlabatlı, fəaliyyət profili, təcrübə çatışmazlığı, peşəkarlıq, müqəddərat, təyinetmə*

Məqalədə peşə seçiminin insanın həyatında ən vacib və məsuliyyətli qərarlardan biri olduğu haqda danışılır. Bununla belə, verilmiş qərarın dəyişilməsi də mümkün olan proseslərdəndir. Bu gün orta məktəb şagirdinin üstünlük verdiyi peşə sadəcə onun cari ehtiyaclarını və maraqlarını əhatə edir. İdeal olaraq seçilmiş istiqamət onilliklər ərzində tələbatlı və maraqlı olaraq qalacaqdır. Üstünlük verdiyin peşənin dəyişdirilməsi heç də faciəvi sayılmamalıdır. Vaxt keçdikcə onun yeni normaya çevrilmə ehtimalı da yüksəkdir.

Peşə sahəsinin mütəxəssisləri müasir dövrlə əlaqədar olaraq həyat üçün peşə seçiminin getdikcə keçmişin yadigarına çevrilməsini və praktiki olmadığını qeyd edirlər. Tərəqqi nəticəsində həyatda yaranan ciddi düzəlişlərin nəticəsində insan bəzən pensiya yaşına qədər bir neçə iş yerini dəyişə bilir.

Müasir dövrdə dünyada əmək bazarında sürətli dəyişikliklər baş verir. Mütəxəssislərin fikrinə görə, məsələn, 10 - 20 ildən sonra əmək bazarının necə olacağını proqnozlaşdırmaq kifayət qədər çətinlik yaradır. Bu gün daha tələbatlı və yüksək maaşlı peşələrin gələcək zamanda öz aktuallığını itirmək ehtimalı da mümkün yarana bilər. Bununla belə bu, insanlar tərəfindən çaşdırıcı və ya qorxulu hal kimi qarşılanmamalıdır. Hər kəs yaşından və mövcud bilik, bacarıq və qabiliyyətindən asılı olmayaraq öz fəaliyyət profilini dəyişmək və ya hər şeyi yenidən başlamaq imkanı əldə etməyə çalışacaqdır.

**Г.Г.Алиханова**

# СУЩНОСТЬ ПОДГОТОВКИ ПОДРОСТКОВ К ВЫБОРУ ПРОФЕССИИ

***Ключевые слова:*** *профессиональное направление, востребованность, профиль деятельности, отсутствие опыта, профессионализм, судьба, назначение*

В статье говорится о выборе профессии как об одном из самых важных и ответственных решений в жизни человека. Однако изменение данного решения является одним из возможных процессов. Сегодня предпочитаемая профессия старшеклассника просто покрывает его текущие потребности и интересы. В идеале выбранное направление останется востребованным и интересным на протяжении десятилетий. Смену предпочитаемой профессии не следует считать трагедией. Со временем это, вероятно, станет новой нормой.

Профессиональные эксперты отмечают, что выбор профессии на всю жизнь становится пережитком прошлого и непрактичным в связи с современностью. В результате серьезных корректировок в жизни в результате прогресса человек до пенсионного возраста иногда может сменить несколько мест работы.

В настоящее время на мировом рынке труда происходят стремительные изменения. По мнению экспертов, довольно сложно спрогнозировать, каким будет рынок труда через 10-20 лет. Также возможно, что сегодняшние более требовательные и высокооплачиваемые профессии в будущем потеряют свою актуальность. Однако это не должно восприниматься людьми как смущающее или пугающее. Каждый, независимо от возраста и имеющихся знаний, навыков и умений, постарается получить возможность изменить профиль своей деятельности или начать все сначала.

**G.K.Alikhanova**

## THE ESSENCE OF PREPARING ADOLESCENTS FOR A CAREER CHOICE

***Key words:*** *professional orientation, high demand, activity profile, lack of experience, professionalism, destiny, appointment*

The article discusses the fact that choosing a profession is one of the most important and responsible decisions in a person's life. However, changing the decision is also a possible process. Today, the profession preferred by a high school student simply covers his current needs and interests. Ideally, the chosen direction will remain in demand and interesting for decades. Changing your preferred profession should not be considered a tragedy. Over time, it is also likely to become the new norm.

Professional experts note that in connection with the modern era, choosing a profession for life is increasingly becoming a relic of the past and impractical. As a result of serious adjustments in life as a result of progress, a person can sometimes change several jobs before retirement age.

In modern times, rapid changes are taking place in the labor market around the world. According to experts, it is quite difficult to predict what the labor market will be like in 10-20 years. It is also possible that today's more demanding and highly paid professions will lose their relevance in the future. However, this should not be perceived by people as confusing or frightening. Everyone, regardless of age and existing knowledge, skills and abilities, will seek the opportunity to change their activity profile or start everything over.

Peşə seçimi haqqında kifayət qədər məlumatlara rast gəlmək olar. Bu mövzu ilə bağlı internet resurslarında bir çox məlumat əldə etmək mümkündür. Yeniyetməlik dövründə uşaqlar üçün hətta təcrübəli valideynlərin fikirləri çox vaxt arxa plana keçir. Bu dövrdə yeniyetmələrə yad adamların, yaşıdlarının fikirləri, inandıqları və təqlid etməyə çalışdıqları idealın mövqeləri daha önəmli olur. Bu da çox vaxt peşə seçimində səhv addımların atılmasına gətirib çıxarır. Yeniyetmə təcrübə çatışmazlığı səbəbindən bunu dərk etmir və ya başa düşmür. Əslində insan bu yolla şəxsi həyatında sınaq və səhvdən istifadə edərək təcrübə qazanır. Düzdür, səhv mənfi nəticədir, lakin o, müsbət nəticədən heç də az əhəmiyyət kəsb etmir [4, s.15-18].

Roma filosofu, şairi və dövlət xadimi L.A.Senecanın peşə seçimi haqqında belə bir deyimi var: "Əgər insan hansı estakadaya tərəf getdiyini bilməsə, heç bir külək onun üçün əlverişli olmayacaqdır".

Yeniyetməlik dövrünün özəlliyi ondan ibarətdir ki, uşaqlar çox vaxt valideynlərinin məsləhətlərini özlərinə qarşı təzyiq kimi qəbul edirlər. Bu da onların arasında münaqişələrə səbəb olmaqla bərabər mövcud problemləri həll etmir. Yeniyetmə oğlan və ya qızların adekvat peşə seçimində motivasiya xarakteri, peşəkar yetkinliyi, hazırlığı onların həyatı boyu formalaşan beş əsas parametrin inkişaf səviyyəsindən təsirlənir: muxtariyyət, peşə dünyası haqqında məlumatlılıq və məlumatı onların xüsusiyyətləri ilə əlaqələndirmək bacarığı, qərar qəbul etmək bacarığı, öz peşə həyatını planlaşdırmaq bacarığı və uyğun bir seçim etmək bacarığı. Hər bir parametrin ayrıca açıqlanması və başa düşülməsi valideynlərə metodlar, tərbiyə tərzi və uşaqla münasibətlərə dair fikirlərini yenidən nəzərdən keçirməyə kömək edə bilər [3, s.40-43]:

1. Muxtariyyət bir tərəfdən insan dünyasına mənsub olmaq, digər tərəfdən isə fərdilik və təkrarolunmaz olmaqdır. Bu, insanın özünün güclü və zəif tərəflərini başa düşməsidir; onları özündə müəyyən etmək və onlardan ən yaxşı şəkildə istifadə etmək bacarığıdır. Onları idarə etmək bacarığı; yalnız insanın özünün taleyinin sahibi olduğunu başa düşmək, yalnız özünü xoşbəxt və müvəffəqiyyətli etmək, ağlına gələn hər şeyə nail ola bilməkdir. İstənilən şəxs öz peşə qərarından (peşə, təhsil yeri, iş yeri, ixtisaslaşma, yenidənhazırlanma və s. seçmək və ya dəyişmək) yalnız bu öz şəxsi qərarı kimi qəbul etdikdə və kənardan məcburi olaraq

qəbul etmədikdə qane olur. Muxtariyyətin formalaşması ən çox erkən yeniyetməlik dövründə baş verir və yetkinlik dövründə başa çatır.

2. Peşə dünyası haqqında məlumatlılıq və məlumatı öz fərdi xüsusiyyətləri ilə əlaqələndirmək bacarığı (sağlamlıq, xarakter, sinir tipi və s.). Peşə seçmək üçün insan iki səviyyədə əhəmiyyətli məlumatlara sahib olmalıdır:

a) Bütövlükdə peşə dünyası haqqında: ayrı-ayrı peşələr barədə biliklər; bir peşə əldə etmək üçün bilik və ya praktik bacarıq; iş tapmaq və müraciət etmək haqqında; müxtəlif peşələr üzrə tələb olunan təhsil səviyyəsi haqqında; bir işi necə saxlamaq, peşəkarlığı necə artırmaq və peşəkarlıq pillərinə yüksəlmək haqqında məlumat.

Araşdırmalara görə, yeniyetmə məktəblilər peşə aləmi ilə əlaqədar axtarışlarını genişlənməyə başlayanda artıq bütövlükdə peşə dünyası haqqında müəyyən məlumatlara malik olmalıdırlar. Artıq 5-ci sinif şagirdlərində: hər hansı bir iş növünə müsbət münasibət; əsas kütləvi peşələr haqqında məlumatlılıq; peşələr arasında əlaqələri ayırd etmək bacarığı; peşənin insan üçün əsas tələblərini müəyyən etmək bacarığı özünü göstərir. Bir qayda olaraq, yeniyetmələrin təxmini olaraq 13-16 peşə növü ilə tanışlıqları olur [5, s.21-30].

b) Ayrı-ayrı peşələr və ya peşə qrupları haqqında məlumat. Peşə məsləhəti təcrübəsində adətən: yeniyetmənin müxtəlif peşələrlə tanışlıq səviyyəsi (iş şəraiti, təhsil səviyyəsinə tələblər, peşəkar yüksəliş perspektivləri və s.); üstünlük verdiyi peşəyə yiyələnmək yolları haqqında biliyi; cəmiyyətin, konkret regionun sosial-iqtisadi ehtiyaclarını və ayrı-ayrı müəssisələrin kadr tələbləri bilgisi diaqnostika edilir.

Bundan əlavə, peşəkar məlumatların əldə edilməsi mənbələri məsələsi də vacibdir. Peşə seçimində əsas çətinliklər və səhvlər informasiya mənbələrindən xəbərsizliklə bağlıdır. Ancaq yenə də maarifləndirmənin adekvat peşə seçiminə təsirini müzakirə edərkən ortaya çıxan əsas problem insanın daxil olan məlumatları necə mənimsəməsi və onun xüsusiyyətləri ilə əlaqələndirməsidir.

3. Qərar qəbul etmək bacarığı. Bir insanın peşəkar həyatında bütün böyük və vacib addımlarını o birləşdirir. Qiymətləndirmək və bu əsasda qərar vermək üçün həmişə alternativ var.

Bu vəziyyətdə bir insanın müstəqil qərar verməsi tələb olunduğunu başa düşmək kifayət deyil. Qərar qəbul etmək bacarığının vacib şərti, insanın qərar və onun nəticələrinə görə məsuliyyəti öz üzərinə götürdüyü zaman, müstəqil olaraq alternativ irəli sürə və qiymətləndirə bildiyi zaman onun sərbəstliyi və müstəqilliyi məsələsidir.

Bundan əlavə, qərar qəbul etmə alqoritmini bilmək vacibdir. Peşə ixtisasına aid nəzəriyyələrdə oxşar alqoritmlərin bir neçə modeli vardır. Beləliklə, qərar qəbuletmə prosesi hansı mərhələlərdən ibarətdir? Psixoloq, karyera məsləhəti və karyera istiqaməti üzrə mütəxəssis J.Krumboltz 1965-ci ildə altı əsas mərhələni müəyyən etmişdir:

• Mümkün həll variantlarının toplanması. Bu mərhələdə insanın vəzifəsi qlobal və özəl, real və qeyri-real, əsası olan və olmayan həll variantlarını mümkün qədər çox toplamaqdır. Bütün fikirləri yazılmalı və ilkin təhlillə fərqləndirilməlidir.

• Hər bir həll variantı üçün məlumatların toplanması. Toplanmış məlumat nə qədər dolğun olarsa, insan problem həllinin qəbulunda daha inamlı olur. Məlumat toplama mərhələsində bəzi ideyalar artıq rədd edilir.

• Hər bir alternativdə uğur şanslarını araşdırılır. Bu mərhələdə insan "Mən bu variantı həqiqətən həyata keçirə bilərəmmi?" sualına cavab axtarır.

• Hər bir alternativin insanın məqsəd və dəyərləri ilə əlaqəsi. Bəzən konkret problemi həll etməyin ən uğurlu yolu insanın ümumi prinsiplərinə, onun etik standartlarına və ya həyat məqsədlərinə, sağlamlıq vəziyyətinə uyğun gəlmir. Ona görə də mövcud mərhələdə bütün bu amillərin nəzərə alacaq həlli yolu axtarılır.

•Xüsusi fəaliyyət planının hazırlanması və problemin həlli üçün bu variantı təşviq edən və ya mane olan amillərin müəyyən edilməsi.

• Yeni imkanlar və inkişaf üçün fəaliyyət planının formalaşdırılması. Bu, çox mühüm qərar qəbul etmə mərhələsidir. İnsanın həmişə uzunmüddətli məqsədləri olmalıdır. Yalnız bu halda onun inkişafı dayanmayacaqdır [1, s.10-14].

4. Peşəkar həyatı planlaşdırmaq bacarığı. Peşəkar yoldan danışarkən, zaman baxımından müəyyən ölçüyə malik olan yol nəzərdə tutulur. Müvafiq olaraq, insan bu yolun səmtindən birində olmaqla keçmişdəki inkişafının nəticəsini və gələcəkdəki müəyyən inkişafı (əlaqəli peşə əldə etmək, təkmilləşmə və s.) nəzərdə tutur.

5. Peşə seçimi vəziyyətinə emosional münasibət. Qərar vermə dövrü, peşəkar yol kimi, həmişə emosiyalarla əlaqələndirilir. Emosional münasibət və ya emosional iştirak qərarların qəbuluna böyük təsir göstərir. Bu amil seçim zamanı təkcə müxtəlif variantlara münasibət deyil, həm də planlaşdırmaya münasibət, hansısa qərarın qəbul edilməli olması, qərarlara və planlaşdırma məsuliyyətinə münasibət, fəal olmaq, güzəştə getmək və s. kimi amilləri əhatə edir. Beləliklə, peşəkar yetkinliyin emosional komponenti insanın ümumi əhval-ruhiyyəsində özünü göstərir. Müsbət emosional əhval-ruhiyyədə, həyatda nikbinlikdə, emosional tarazlıqda və uğursuzluqlara dözümlülükdə özünü göstərən bütövlükdə fərdin yetkinliyinin emosional komponenti ilə sıx bağlı olur. Böyük məktəblilər üçün seçimdə emosional iştirak peşəkar yetkinliyin ən mühüm göstəricilərindən biridir.

Beləliklə, valideynlər uşağın tərbiyəsini düzgün qurmaqla, tədricən müstəqil şəkildə uşağın asan, sadə və hamar olacaq bir peşə seçməyə hazırlığını formalaşdıra bilərlər. Övladına peşə seçimində kömək etmək istəyən qayğıkeş valideynlərə aşağıdakılar məsləhət görülə bilər [2, s.25-30].

- seçiminizdə israr etməyin və nə edəcəyini yeniyetmə özü qərar versin;
- övladınızı indi hansı peşələrə ehtiyac olduğu haqqında məlumatlandırın;
- dərs jurnalındakı imtahan və ya gündəlik qiymətlərə uyğun gələni deyil, uşağa maraqlı görsənəcək peşələri təklif edin;

- müxtəlif peşələr haqqında mümkün qədər çox məlumat verin;
- aşkar olmayan qərarlar təklif edin, məsələn, nadir ixtisaslar və ya digər bölgələrdə tələbat olan ixtisaslar haqqında danışın;
- ideal peşəyə çatmağın yollarını göstərin.

Məsləhətlər nəticəsizdirsə və ya qərar qəbuluna çox az vaxt qalıbsa, bu prosesi yeniyetmə üçün əyləncəli və təsirli edə biləcək mütəxəssis peşə məsləhətçisi ilə əlaqə saxlamaq daha məqsədəuyğundur.

**Məqalənin aktuallığı.** Yeniyetmələrin peşə seçiminə hazırlığının mahiyyəti probleminin hərtərəfli öyrənilməsində əsas məqsəd müasir cəmiyyətdə peşə seçiminin insanın həyatında ən vacib və məsuliyyətli qərarlardan biri olduğu probleminin təhlilindən ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Yeniyetmələrin peşə seçiminə hazırlığının mahiyyətinin müasir psixoloji xarakterik xüsusiyyətlərinin müəyyənləşdirməsi və mövcud problemlə əlaqədar valideynlərə bir sıra faydalı tövsiyyələrin irəli sürülməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən elmi yaradıcılıq işində bu mövzu ilə maraqlananlar, psixoloq və pedaqoqlar, valideynlər eləcə də ali və orta ixtisas məktəblərinin tələbə və magistrləri istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003. 356 s.
2. Bəylərov E.B., Kərimova E.M. və b. Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətinin təşkili. Bakı, 2021, 78 səh.
3. İlyasov M.İ. Peşə, ixtisas seçimi. Yeniyetmə və gənclər üçün elmi-metodik vəsait / Bakı: ADPU, 2015.100 s.
4. Павлютенков Е.М. Основные мотивы выбора профессии. Киев: Радянская школа, 2021. 314 с.
5. Пряжников Н.С. Методы активизации профессионального и личностного самоопределения: учеб.-метод. Пособие. М: МОДЭК, 2018. 392 с.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 58-65**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 58-65**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 58-65**

**UOT 78.071.1:78.03**

**K.Q.İsmayılova**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: kamalaismayilova@yandex.ru

# ÜZEYİR HACIBƏYLİ VƏ AZƏRBAYCANDA MUSİQİ TƏNQİDİ

***Açar sözlər:*** *Azərbaycan musiqisi, musiqi tənqidi, musiqişünaslıq, janr təsnifatı, muğam, xalq musiqisi, aşıq sənəti, alətşünaslıq*

Məqalədə Azərbaycan musiqi tənqidinin təşəkkülü və inkişafı tarixi-konseptual aspektdə təhlil edilir. Məqalənin əsas məqsədi Azərbaycan musiqi-şünaslıq elmində xalq musiqisi, peşəkar və şifahi ənənəli musiqinin janr təsnifatı, musiqi irsinin tədqiqi və nəzəri əsaslarının müəyyənləşdirilməsində görkəmli musiqişünasların, xüsusilə Üzeyir Hacıbəylinin və onun davamçılarının – M.S.İsmayılov, R.Zöhrabov, Ə.Babayev və başqalarının rolunu aydınlaşdır-maqdır. Məqalədə xalq mahnı və rəqslərinin, muğam sənətinin, aşıq və dini musiqinin janr, forma və məzmun baxımından elmi təhlili aparılır. Həmçinin Azərbaycan musiqi tənqidində istifadə olunan təsnifat meyarları və onların tarixi mənbələrlə əlaqəsi göstərilir. Musiqi tənqidində xalq musiqisinin sənətkarlıq səviyyəsində qiymətləndirilməsi, janrlar üzrə bölgü, musiqi risalələrinin və alətşünaslığın rolu geniş şəkildə şərh olunur.

**К.Г.Исмайлова**

# УЗЕИР ГАДЖИБЕЙЛИ И МУЗЫКАЛЬНАЯ КРИТИКА В АЗЕРБАЙДЖАНЕ

***Ключевые слова:*** *азербайджанская музыка, музыкальная критика, музыкознание, жанровая классификация, мугам, народная музыка, ашугское искусство, инструментоведение*

В статье анализируется становление и развитие азербайджанской музыкальной критики в историко-концептуальном аспекте. Основная цель статьи — выявить роль выдающихся музыковедов, в частности Узеира Гаджи-бейли и его последователей — М.С.Исмаилова, Р.З.Зохрабова, А.Бабаева и других — в разработке жанровой классификации народной, профессио-нальной и устной традиционной музыки, исследовании музыкального насле-дия и формировании теоретических основ азербайджанского музыкознания.

В статье проводится научный анализ жанров, форм и содержания народных песен и танцев, мугама, ашугской и религиозной музыки. Также рассматриваются критерии классификации, используемые в азербайджанской музыкальной критике, и их связь с историческими источниками. Особое внимание уделяется оценке уровня художественного мастерства в народной музыке, жанровому делению, роли музыкальных трактатов и инструментоведения.

**K.G.Ismayilova**

## UZEYIR HAJIBEYLI AND MUSIC CRITICISM IN AZERBAIJAN

***Key words:*** *Azerbaijani music, music criticism, musicology, genre classification, mugham, folk music, ashugh art, organology*

This article analyzes the formation and development of Azerbaijani music criticism from a historical and conceptual perspective. The main goal of the study is to clarify the role of prominent musicologists – especially Uzeyir Hajibeyli and his successors such as M.S. Ismayilov, R. Zokhrabov, A. Babayev, and others – in the classification of genres of folk, professional, and orally transmitted music traditions, in the study of the musical heritage, and in establishing the theoretical foundations of Azerbaijani musicology.

The article presents a scholarly analysis of the genres, forms, and content of folk songs and dances, the art of mugham, ashugh and religious music. It also explores the classification criteria used in Azerbaijani music criticism and their relation to historical sources. Special attention is paid to the evaluation of the artistic level of folk music, genre-based categorization, and the role of musical treatises and organology.

Azərbaycan musiqi mədəniyyətinin tarixi qədim dövrlərdən hesablanır. Azərbaycan musiqi mədəniyyətinə dair bir sıra məlumatlar arxeoloji qazıntılar zamanı aşkar edilmişdir. Eləcə də bəzi musiqi alətlərinin də mövcudluğu, yarandığı tarixi şərait belə qazıntılar zamanı öz əksini tapmışdır. Müxtəlif dövrlərdə yaşamış Azərbaycan musiqişünasları milli musiqimizin yaranması və tədqiqat sahəsində çox işlər görmüşlər.

Dövrün hadisələri daima musiqiyə öz müsbət təsirini göstərirdi. Şifahi xalq yaradıcılığı səbəbli bir çox maraqlı məlumatlar Azərbaycan musiqi mədəniyyətinin tarixini zənginləşdirmişdir.

Zaman keçdikcə Azərbaycan musiqi mədəniyyəti öz inkişafını intensiv şəkildə davam etdirirdi. Aşıq mahnıları, xanəndələr ansambllarının çıxışları, xalq mahnı və rəqsləri, tədricən peşəkar bəstəkarlar tərəfindən yaranmış musiqi əsərləri daha da

geniş yayılmağa başlamışdır. Lakin bu əsərlər haqqında dolğun, geniş məlumatların açıqlanması tədqiqatın bilavasitə musiqişünasların öhdəsinə düşür.

Azərbaycan musiqişünaslığında xalq musiqisinin, eləcə də peşəkar bəstəkarlar tərəfindən yazılmış əsərlərin öyrənilməsi, tədqiqatı və təhlili vacib hesab edilən məsələlərdəndir. Musiqi tənqidi sahəsində xalq və peşəkar musiqinin janr təsnifatı, onlara həsr olunmuş elmi əsərlər, ifaçılıq və alətşünaslığa dair bir sıra məsələlər açıqlanmalı, araşdırılmalıdır.

Azərbaycan musiqişünaslığınm inkişafı sahəsində görkəmli bəstəkarımız Ü.Hacıbəylinin çox böyük xidmətləri olmuşdur. O, daima xalq musiqisinə, həmçinin xalq çalğı alətlərinə qayğı ilə yanaşmış və bir sıra müddəaların mülahizələrini açıqlamışdır. Bu sahədə, xalq yaradıcılığı sahəsində görülən işin sistemləşdirilməsini əsas tutaraq janr təsnifatında oxşar və fərqli cəhətlərin aşkar edilməsinə üstünlük vermişdir. Müxtəlif xalq mahnıların, rəqslərin, aşıq yaradıcılığının, dini musiqinin, muğam dəsgahının təhlil edilməsi, xarakterizə olunması və əsas istiqamətlərinin müəyyənləşdirilməsi musiqişünaslıqda əsas məsələlərdəndir [1].

Azərbaycan musiqişünaslığında xalq və şifahi ənənəli peşəkar musiqinin tədqiqi əhəmiyyət kəsb edir.

Azərbaycanda musiqi tənqidi sahəsində görkəmli alim, tədqiqatçı və musiqişünaslar Səfiəddin Urməvi, Əbdül Qadir Marağayi, Mir Möhsün Nəvvab, Ü.Hacıbəyli çox böyük işlər görmüşlər. Onlar müxtəlif dövrlərdə yaşayıb fəaliyyət göstərmələrinə baxmayaraq, hər biri Azərbaycan musiqi mədəniyyəti tarixinə öz qiymətli töhfələrini daxil etmişlər. Alimlərin musiqi risalələrində irəli sürülmüş müddəa və mülahizələri, nəzəri və estetik problemlərin şərhi əhəmiyyət kəsb edir. Onların musiqinin inkişafında yaradıcılıq yolu keçmiş Azərbaycan musiqi elminin mühüm mərhələlərinin müəyyənləşdirilməsi, istiqamətləndirilməsi, həmçinin qiymətləndirilməsi sahəsindəki zəhmətləri əvəzolunmazdır.

Azərbaycan xalq musiqisinin folklor nümunələrinin tədqiqatı işlənməsi, tərtibi böyük bir dövrü əhatə edir. Bir çox xalq mahnı və rəqslərinin not yazısı olmadığından onlar ya unudulmuş ya da musiqi tarixində başqa xalqlara məxsus kimi yer tutmuşdur. Bu səbəbdən Azərbaycan xalq mahnı və rəqslərinin nota salınması, folklor nümunələrinin qələmə alınması əhəmiyyət kəsb edir. Lakin iş bununla bitmir. Nota salınmış hər bir mahnı, hər bir instrumental musiqi əsəri janr, forma, məzmun və xarakterinə görə təhlil edilməli, yaranma tarixi və şəraiti tədqiq edilməli, vokal əsəridirsə solo və xor üçün tərtib edilməli və elmi nəticələr çıxarılmalıdır. Bu zaman Azərbaycan musiqişünaslarının əsərlərində janr, forma və s. ilə əlaqədar olaraq irəli sürülən elmi müddəalar və nəticələrin müqayisəli şərhi verilməlidir. Beləliklə, hər bir mövzuya musiqişünasların müxtəlif baxışları, münasibətləri ola bilər. Beləliklə, müəyyən bir elm sahəsinin ümumi vahid mənzərəsini yaratmaq üçün onun inkişaf yolu və perspektivi nəzərə alınır.

Ü.Hacıbəyli xalq musiqi yaradıcılığını sənətkarlıq səviyyəsinə görə peşəkar ifaçılar və qeyri-peşəkar ifaçılar tərəfindən yaranmış musiqi əsərləri kimi qarşı-

qarşıya qoyaraq fərqli və oxşar cəhətlərin açılması fikrini irəli sürmüşdür. Peşəkar musiqi sənətinin yaradıcıları xanəndə və sazəndələr dəstəsi, aşıq və zurnaçılar dəstəsi saray və şəhər mühitində, eləcə də kənd həyatı ilə əlaqədar olaraq təşəkkül tapmışlar. Onlar tərəfindən muğam dəsgahları, təsnif və rənglər, həmçinin dastanlar, şikəstələr yaranırdı. Mətnləri isə əruz vəznində yazılmış qəzəllər yaxud da heca vəzninə əsaslanan şer nümunələri təşkil edirdi [1].

Qeyri-peşəkar musiqiyə, musiqi sənətinə malik olmayan musiqi aiddir. Folklor nümunələrinə aid olan toy, bayram, yas mərasimlərində həmçinin əmək prosesi ilə bağlı olan mahnı və rəqslər bu qəbildəndir. Beləliklə, artıq peşəkar musiqi ilə şəhər sənətkarlarının və kənd əhlinin əməyi sayəsində yaranan mahnıların təhlili, tədqiqatı, fərqi və s. musiqi tənqidçilərinin əsərlərində öz əksini tapır.

Ü.Hacıbəyli öz tədqiqatında musiqi janrlarını iki yerə bəhrsiz və bəhrli janrlara ayırır. Muğamlar aşıq sənəti nümunələri olan şikəstə və bayatılar bəhrsiz janra, mahnı və rəqslər, rənglər və təsniflər isə bəhrli janra aiddir. O, həmçinin milli musiqi üslubuna da iki mövqedən yanaşmışdır. Janr və forma rəngarəngliyi ilə seçilən, çalğı alətlərinin müşayiətilə ifa olunan xalqın səyi və istəyi ilə yaranmış peşəkar musiqi dini mərasimlərin ayrılmaz hissəsi olan dini musiqi.

Azərbaycan musiqişünaslıq elminin inkişafında Ü.Hacıbəyli təsnifatlarının genişləndirilməsi və zənginləşdirilməsinin əhəmiyyəti musiqişünaslarımız tərəfindən yüksək qiymətləndirilmişdir. Bu sahədə M.S.İsmayılov, R.Zöhrabov, E.Babayevin elmi fəaliyyətləri təqdirə layiqdir.

M.S.İsmayılov öz tədqiqatlarında Hacıbəylinin təsnifatlarına əsaslanaraq metroritmik xüsusiyyətlərə görə bölgü prinsipini irəli sürür: bəhrli janr qrupu - xalq mahnıları, təsniflər, aşıq havalan, rənglər, rəqslər; bəhrsiz janr qrupu - muğamlar; qarışıq bəhrli janr qrupu - şikəstə və ritmik muğamlar [2].

R.Zöhrabov Ü.Hacıbəylinin təsnifatlarının genişləndirərək Azərbaycan xalq musiqi yaradıcılığını üç təbəqəyə bölür: xalq musiqi yaradıcılığı mahnı və rəqslər; xalq peşəkar musiqisi - aşıq musiqi yaradıcılığı; şifahi ənənəli peşəkar musiqi janrları - muğam dəsgahları, zərbi muğamlar, rəng və təsniflər [8].

E.Babayev şifahi ənənəli musiqi irsini iki hissəyə ayırır: ənənəvi musiqi - aşıq, xanəndə və sazəndələr sənəti; xalq musiqisi [9].

Azərbaycan musiqişünaslarının əsərlərində xalq musiqi yaradıcılığının təsnifatına müxtəlif mövqelərdən yanaşmaları diqqəti cəlb edir. Onların bu müddəaları musiqi elminin, musiqi tənqidinin inkişafında mühüm addım qiymətləndirilir.

Azərbaycan musiqi tənqidi sahəsində bir sıra musiqişünasların fəaliyyəti əhəmiyyət kəsb edir. M.S.İsmayılov, S.Qasımova, Ə.Eldarova, S.Seyidova musiqi tənqidi sahəsində çox maraqlı iddialar irəli sürmüşlər.

M.S.İsmayılovun Azərbaycan xalq musiqisinin janrları mövzusunda yazdığı tədqiqat əsər böyük mararaq doğurur. Onun tədqiqatında mahnıların mətninə, mövzusuna görə bölgü prinsipi diqqəti cəlb edir. Xalq mahnılarının - əmək, qəhrəmanlıq, lirik, yumorlu, uşaq, məişət, mərasim mahnıları kimi hər biri janr

etibarilə olunaraq araşdırılır.

Bu sahədə R.İsmayılzadə və S.Qasımova da öz fərdi münasibətlərini bildirərək tədqiqat aparmışlar. Bu tədqiqatçıların irəli sürdükləri mülahizələr vahid bir fikrin yaranmasını təmin edir.

R.İsmayılzadə xalq mahnılarını dörd janr qrupuna - əmək, mərasim, məişət, tarixi mahnılara bölmüş və hər birinin mahiyyətini ayrı-ayrılıqda təhlil edərək araşdırmışdır [4].

S.Qasımova isə xalq mahnı yaradıcılığında olan ümumi janrlarla yanaşı "Haxışta", "Gülümcan" növlü mahnılarını da öz tədqiqatına əlavə edərək janr təsnifatını bir qədər genişləndirmişdir.

Azərbaycan musiqi tənqidində mahnılarla yanaşı folklor nümunələrinin, rəqslərin təhlili, araşdırılması da əhəmiyyət kəsb edir. Bu sahədə B.Hüseynli apardığı tədqiqatlar böyük məna daşıyır. O, xalq rəqs musiqisinin təsnifatını iki mövqedən müşayiətinə və mövzu əsasına görə açıqlayır [10].

Müşayiətinə görə o, rəqslərin vokal, vokal-instrumental və instrumental qruplara bölünməsini iddia edir. B.Hüseynlinin fikrincə, vokal müşayiətli rəqslərin yaranması qədim dövrə təsadüf edir.

Vokal-instrumental müşayiətli və instrumental rəqslərin isə bir qədər sonra yarandığını tarixi faktlar bildirir.

Mövzu əsası baxımından o, rəqsləri ənənəvi, məişət, zəhmət, qəhrəmani, hərbi və idman-oyun rəqslərinə, yallı, oyun rəqslərinə ayırır. Azərbaycan musiqişünaslığı tarixində B.Hüseynli ilk dəfə olaraq oyun - rəqs, mahnı - rəqs kimi terminlərdən istifadə etmişdir. Belə terminologiyaya istinad etməsi isə rəqslərin janr və ifaçılıq xüsusiyyətlərinin dolğun xarakterizə olunması ilə əlaqədardır.

Musiqi tədqiqatçılarının xalq mahnı və rəqslərinin ayrı-ayrı janrlar üzrə araşdırmaları musiqişünaslıq tarixində perspektiv məsələ hesab olunur.

Azərbaycan tənqidi tarixində aşıq sənəti üzrə daha geniş açıqlama Ə.Eldarova tərəfindən irəli sürülmüşdür. Xalq peşəkar musiqi sənəti olan aşıq yaradıcılığına dair Ə.Eldarovun tədqiqatları musiqi elmində aşıqşünaslığın yaranmasını təmin etmişdir. Aşıq sənətinin əsas xüsusiyyətləri sinkretik sənətin təmsilçiləri kimi aşıqların ərazi üzrə xarakterizə olunması, aşıq musiqisi janrlarının aşkar edilməsi və təsnifatın verilməsi Ə.Eldarovanın bu sahədəki fəaliyyətini əsasını təşkil edir.

Azərbaycan musiqişünaslığında xalqımızın həyat və məişətilə bağlı olan dini musiqi – ağı, bayatı, mərsiyə və s. haqqında S.Seyidova tərəfindən aparılmış tədqiqat əsəri əhəmiyyət kəsb edir. O, bir sıra xüsusiyyətlərinə görə dini oxumaları xalq peşəkar sənət nümunəsi kimi qələmə verir. S.Seyidova dini oxumaları məna və mahiyyətinə görə iki qrupa – Quran və namaz oxumaları və dini mərasimlərdə oxunan qəsidə, mərsiyə, şəbih tamaşalarının oxumaları – ayırır. Birinci qrupdakı oxumaları da əsrlər boyu müəyyən dəqiq vaxta uyğunlaşan qanun normaları çərçivəsinə daxil olan oxuma üsulu formalaşmışdır. İkinci qrupda isə dini məzmuna və müəyyən dini ifa normalarına əsaslansa da belə oxumalarda dünyəvi elementlər

həm musiqidə, həm də poetik mətndə özünü nümayiş etdirir.

Azərbaycan musiqi tənqidi sahəsində muğamla bağlı tədqiqatlar xüsusi əhəmiyyət kəsb edir. Bu sahədə M.S.İsmayılov, R.Zöhrabov tərəfindən çox qiymətli işlər görülmüşdür.

Muğamla bağlı tədqiqatlarda muğam dəsgahları müxtəlif mövqelərdən araşdırılmışdır. M.S.İsmayılov "Rast" və "Segah" ailəsinə daxil olan muğamların yalnız lad – tonallıq xüsusiyyətlərini, R.Zöhrabov isə bütün mövcud muğam dəsgahlarının məzmun və kompozisiya - quruluş xüsusiyyətlərini səciyyələndirməklə yanaşı, həmçinin "Rast" və "Çahargah" muğam dəsgahlarının tam şəkildə nəzəri əsaslarım - lad, melodika, tematizm, çoxsəslilik, ritm, quruluş prinsiplərini təhlil etmişdir.

Ümumiyyətlə, muğam sənəti Azərbaycan musiqişünaslığının aktual problemlərindəndir.

Azərbaycan musiqişünaslığında zərbi muğam janrına dair Ü.Hacıbəyli, M.S.İsmayılov, Ə.Bədəlbəyli, R.Zöhrabov öz tədqiqatların çoxmaraqlı açıqlamalar vermişlər.

Ü.Hacıbəylinin fəaliyyətini davam etdirərək M.S.İsmayılov janr təsnifatında "Qarabağ şikəstəsi", "Kəsmə şikəstə", "Arazbarı", "Kərəmi", "Ovşarı", "Mənsuriyyə", "Mani", "Simayi Şəms", "Heyrati" ritmik muğamlarında metro - ritmik xüsusiyyətləri əsas götürərək çox qiymətli tədqiqatlar aparmışdır. O, zərbi çalğı alətlərinin müşayiəti ilə ifa olunan muğamların həm bəhrli və həm də bəhrsiz musiqi ünsürlərini geniş araşdırmışdır.

R.Zöhrabov dörd zərbi-muğamın vokal-instrumental not yazısı ilə təhlil etmiş, onları araşdırmış və janr xüsusiyyətlərini tədqiq etmişdir. O, həmçinin zərbi-muğam sistemində müşayiətin aparıcı rol kimi əhəmiyyətini qiymətləndirmişdir. R.Zöhrabov öz tənqidi araşdırmalarında zərbi-muğamı bir hissəli vokal-instrumental kompozisiya adlandırmışdır. O, bunu vokal-instrumental əsər adlandıraraq instrumental hissələrin üstünlük təşkil etməsilə, eləcə də vokal-instrumental epizodlarda ostinat tərzli xanəndəni müşayiət etməsilə izah edir.

R.Zöhrabovun musiqişünas kimi tənqidi yaradıcılığında təsnif janrının da araşdırılması xüsusi yer tutur. Musiqişünasın "Azərbaycan muğamının nəzəri problemləri" əsərində təsniflər şifahi ənənəli professional musiqi janrı kimi xarakterizə edilir. Təsniflər müəllif tərəfindən peşəkar musiqinin əsas janrlarından biri kimi ilk dəfə araşdırılmış, onun janr xüsusiyyətləri, kompozisiya quruluşu, lad əsası, melodik və metroritmik cəhətləri təhlil edilmişdir. Əsası, melodik və metroritmik cəhətləri təhlil edilmişdir.

1960-cı ildən etibarən, xüsusilə, 1970-1980-ci illərdə Azərbaycanda musiqişünaslıq tədqiqatlarının yönümü dəqiqləşdirilməyə və müəyyən bir janrın öyrənilməsi istiqamətində aparılmağa başlamışdır. Xalq musiqisinin, xalq peşəkar və şifahi ənənəli peşəkar musiqinin bütün janrları - xalq mahnı və rəqsləri, aşıq havaları, dastanlar, dini musiqi nümunələri, muğam dəsgahlar, zərbi muğamlar,

təsnif və rənglər araşdırılmışdır.

Azərbaycan musiqi tənqidi tarixində musiqişünas S.Abdullayeva xalq çalğı alətləri sahəsində maraqlı tədqiqatlar aparmışdır. Onunla yanaşı V.Əbdülqasımov, A.Məmmədov, K.Kərimov, Q.Quliyev, Ə.Rəhmətov Azərbaycan xalq çalğı alətləri orkestrinin tarixi və inkişaf yoluna dair elmi-tədqiqat əsərləri yazmışlar.

Xalq çalğı alətlərinin tədqiqinə dair əsərlərdə xalq çalğı alətlərinin yaranma tarixi, inkişaf mərhələləri, ədəbi mənbələrdə, orta musiqi risalələrində, təcəssümü, təsnifat məsələləri öz əksini tapmışdır. Burada qədim musiqi alətlərinin təşəkkülü və inkişaf tarixinə dair tədqiqatlar, milli alətşünaslığın inkişafında klassik poeziyanın rolu, Azərbaycan musiqişünaslığında xalq çalğı alətlərinin təsnifatı araşdırılmışdır.

**Mövzunun aktuallığı.** Azərbaycanda musiqi tənqidi yeni mərhələdə müasir tələblərə uyğun aparılaraq musiqişünaslıq elminin inkişafında xüsusi rol oynayır.

Azərbaycan musiqi mədəniyyəti zəngin tarixi və estetik dəyərləri ilə dünya musiqi irsində özünəməxsus yer tutur. Bu mədəni irsin elmi şəkildə təhlili və sistemləşdirilməsi isə əsasən musiqi tənqidi və musiqişünaslıq sahələrinin inkişafı ilə bağlıdır. Musiqi tənqidi yalnız musiqi əsərlərinin bədii dəyərləndirilməsi ilə məhdudlaşmır, eyni zamanda ictimai-estetik fikrin formalaşmasına və musiqi təfəkkürünün inkişafına da xidmət edir.

Bu baxımdan, Azərbaycan musiqi tənqidinin əsasını qoymuş və onu elmi-nəzəri səviyyəyə yüksəltmiş Üzeyir Hacıbəylinin irsi xüsusi əhəmiyyət daşıyır. Onun musiqi publisistikası, tənqidi baxışları və nəzəri əsərləri milli musiqi tənqidinin elmi məktəbə çevrilməsində həlledici rol oynamışdır. Lakin müasir mərhələdə bu irsin sistemli şəkildə öyrənilməsi və dəyərləndirilməsi zərurəti qalmaqdadır.

Təqdim olunan məqalə Üzeyir Hacıbəylinin Azərbaycan musiqi tənqidinin təşəkkülündəki rolunu yenidən nəzərdən keçirmək, bu sahədə yaranmış elmi ənənələri araşdırmaq və müasir musiqişünaslıq kontekstində onların davamlılığını müəyyənləşdirmək baxımından aktuallıq kəsb edir.

## ƏDƏBİYYAT


1. Hacıbəyli, Ü. Azərbaycan xalq musiqisinin əsasları. Bakı: Yazıçı, 1985.
2. İsmayılov, M.S. Azərbaycan xalq musiqisinin janrları - Bakı, 1960.
3. Qasımova, Q. XII əsr Azərbaycan musiqi mədəniyyəti tarixindən oçerklər. Bakı, 2005.
4. İsmayılzadə, R. Azərbaycan xalq mahnılarının janr təsnifatı. Bakı: Şərq-Qərb, 2002
5. Atakişiyeva, K.Ə. Şifahi ənənəli Azərbaycan professional musiqisi: aşıq və xanəndə yaradıcılığı. Bakı, Elm və təhsil, 2020, -136 s.
6. Abdullayeva, S. Azərbaycan xalq çalğı alətləri. Bakı: Musiqi Nəşriyyatı, 2005

7. Керимов, К. Оркестр Азербайджанских народных инструментов Баку, 1959
8. Zöhrabov, R. Azərbaycan muğamının nəzəri problemləri. Bakı: Maarif, 2001
9. Babayev E. Musiqi irsimiz və müasirlik. Bakı: Yazıçı, 1986.
10. Hüseynli B. Azərbaycan xalq rəqs musiqisi. — Bakı: Elm, 1983.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Firəngiz Rzayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 66-72**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 66-72**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 66-72**

**UOT 78.072.2**

**C.F.Cəfərova**
konsertmeyster
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: t.jafarov134@mail.com

# KONSERTMEYSTER FƏALİYYƏTİNİN SPESİFİKASI

***Açar sözlər:*** *konsertmeyster, yaradıcılıq, pedaqoq, musiqi ustalığı, mədəniyyət*

Məqalədə konsertmeyster fəaliyyətinin spesifik xüsusiyyətləri, həmçinin onun bilik, bacarıq və qabiliyyətləri təhlil olunur. Burada qeyd olunur ki, konsertmeysterlik musiqiçilər arasında peşəkar fəaliyyətin ən mürəkkəb növlərindən biri olmaqla yanaşı, musiqi yaradıcılığının ən çətin növlərindən də biri hesab olunur. Konsertmeysterin fəaliyyəti yaradıcı, pedaqoji və psixoloji funksiyaları özündə birləşdirir. Heç də hər pianoçu müşayiət etməyi bacarmır. Eləcə də yaxşı konsertmeyster olmaq üçün pianoçu aşağıdakı keyfiyyətlərə malik olmalıdır: həm əla texnikaya, həm də incə musiqi duyumuna, zövqünə. Pis pianoçu heç vaxt yaxşı müşayiətçi olmayacaq. Lakin yaxşı pianoçu da ansambl münasibətlərinin qanunlarına yiyələnməyincə, partnyora qarşı həssaslıq inkişaf etdirməyincə, solistlərin və müşayiətin partiyalarının ayrılmazlığını və qarşılıqlı təsirini hiss etmədikcə, müşayiətdə yüksək nəticələr əldə edə bilməz. Məqalənin sonunda belə nəticəyə gəlinir ki, konsertmeysterə məsuliyyətli bir vəzifə həvalə olunur – öyrənəni müxtəlif musiqi üslubları ilə tanış etmək, onun musiqi zövqünü tərbiyə etmək. Bütün yuxarıda dediklərimiz məqalənin aktuallıq kəsb etdiyinə işarədir.

**Дж.Ф.Джафарова**

## СПЕЦИФИКА КОНЦЕРТМЕЙСТЕРСКОЙ ДЕЯТЕЛЬНОСТИ

***Ключевые слова:*** *концертмейстер, творчество, педагог, музыкальное мастерство, культура*

В статье анализируются специфические особенности концертмейстерской деятельности, а также знания, способности и умения, которыми он должен обладать. Здесь отмечается, что концертмейстерство считается одним из самых сложных видов профессиональной деятельности среди музыкантов, а также одним из самых трудных видов

музыкального творчества. Концертмейстерская деятельность включает в себя творческую, педагогическую и психологическую функции. Далеко не каждый пианист может быть хорошим аккомпаниатором. А также, чтобы стать хорошим концертмейстером, пианист должен обладать следующими качествами: обладать отличной техникой и тонким музыкальным вкусом. Плохой пианист никогда не станет хорошим аккомпаниатором. Однако даже хороший пианист не сможет добиться высоких результатов в аккомпанементе, пока не овладеет законами ансамблевых взаимоотношений, не разовьет чуткость к партнеру, не почувствует неразрывность и взаимовлияние партий солистов и аккомпанемента. В статье делается вывод о том, что на концертмейстера возлагается ответственная задача — знакомить обучающегося с различными музыкальными стилями и воспитывать у него музыкальный вкус. Все вышесказанное указывает, что статья представляет актуальность.

**J.F.Jafarova**

**THE SPECIFICS OF CONCERTMASTER ACTIVITY**

***Key words**: accompanist, creativity, teacher, musical skill, culture*

The article analyzes the specific features of the accompanist's activity, as well as the knowledge, abilities and skills that he must possess. It is noted here that the accompanist work is considered one of the most difficult types of professional activity among musicians, as well as one of the most difficult types of musical creativity. The accompanist's activity includes creative, pedagogical and psychological functions. Not every pianist can be a good accompanist. And also, to become a good accompanist, a pianist must have the following qualities: have excellent technique and a subtle musical taste. A bad pianist will never become a good accompanist. However, even a good pianist will not be able to achieve high results in accompaniment until he masters the laws of ensemble relationships, develops sensitivity to the partner, and feels the continuity and mutual influence of the soloists' and accompaniment's parts. The article concludes that the concertmaster is entrusted with a responsible task - to introduce the learner to various musical styles and to cultivate his musical taste. All of the above indicates that the article is relevant.

Konsertmeysterlik musiqiçilər arasında peşəkar fəaliyyətin ən mürəkkəb növlərindən biri olmaqla yanaşı, musiqi yaradıcılığının ən çətin növlərindən biri hesab olunur. Konsertmeystersiz musiqi və ümumtəhsil məktəbləri, yaradıcılıq sarayları, klublar, musiqi və pedaqoji texnikumlar və ali məktəblər keçinə

bilməz. Heç də hər pianoçu müşayiət etməyi bacarmır. Bu bacarıq xüsusi istedad, yüksək musiqi ustalığı və bədii mədəniyyət tələb edir. Bir çox məşhur bəstəkarlar və solist-pianoçular müşayiətlə məşğul olmuşdular və müşayiətçi-ansamblist kimi çıxış etməyi faydalı hesab edirdilər: S.Raxmaninov, N.Metner, M.Mussorgski, K.İqumnov, A.Qoldenveyzer, S.Rixter, Q.Neyqauz, S.Qinzburq və başqaları.

Konsertmeysterlər üçün bir çox praktiki məsləhətlər Cerald Murun "Müğənni və müşayiətçi" kitabında verilmişdir: "Konsertmeyster instrumentalistlərə partiyalarını öyrənməyə kömək edən, məşğələlərdə və konsertlərdə onları müşayiət edən pianoçudur. Müşayiətçinin fəaliyyəti yalnız konsert işini nəzərdə tutur, konsertmeyster anlayışına isə daha çox şey daxildir: solistlərlə onların partiyalarını öyrənmək, onların ifa keyfiyyətinə nəzarət etmək, onların ifa xüsusiyyətlərini bilmək və çatışmazlıqları düzəltmək üçün çıxış yolu təklif etmək." [2, s.28].

Konsertmeysterin fəaliyyəti yaradıcı, pedaqoji və psixoloji funksiyaları özündə birləşdirir. Yaxşı konsertmeyster olmaq üçün pianoçu aşağıdakı keyfiyyətlərə malik olmalıdır: həm texniki, həm də musiqi cəhətdən fortepianoda yaxşı ifa etməlidir. Pis pianoçu heç vaxt yaxşı müşayiətçi olmayacaq, necə ki, yaxşı pianoçu ansambl münasibətlərinin qanunlarına yiyələnməyincə, partnyora qarşı həssaslıq inkişaf etdirməyincə, solistlərin və müşayiətin partiyalarının ayrılmazlığını və qarşılıqlı təsirini hiss etmədikcə, müşayiətdə yüksək nəticələr əldə etməyəcək. Yaxşı konsertmeysterin ümumi musiqi istedadı olmalıdır: yaxşı musiqi eşitmə qabiliyyəti, təxəyyülü, artistizmi və müəllifin niyyətini təcəssüm etdirmək bacarığı. Konsertmeyster musiqi mətnini tez mənimsəməyi öyrənməlidir, bütün partituranı əhatə etməyi, əsas məqamları daha əhəmiyyətsiz olanlardan ayırd etməyi bacarmalıdır.

Konsertmeysterin fəaliyyətinin əsas hissələrindən birini vokal əsərlər üzərinə iş təşkil edir. Bununla əlaqədar o, öz repertuarını müxtəlif milli məktəblərə mənsub olan aparıcı bəstəkarların bədii cəhətdən yüksək səviyyəli əsərləri ilə zənqinləşdirməlidir. Proqramı tərkib edərkən konsertmeyster əsəri müxtəlif üslub, forma və məzmununa ğörə seçməlidir. Bu zaman incə bədii zövqüformalaşdıran Qərbi Avropa, Azərbaycan və rus klassik musiqi əsərlərinə xüsusi yer ayırmaq lazımdır. Bu əsərlərdə müşayiət partiyası olduqca ifadəlidir və poetik mətnlə yanaşı melodiya ilə bərabər hüquqa malikdir. Müşayiət partiyası bu əsərlərin bədii obrazının yaranmasında və dinləyiciyə çatdırmasında, həmçinin vokal partiya və poetik mətnə bir dayaq olaraq çıxış edir. Bu prosesdə konsertmeysterin rolu əvəzsizdir.

Konsertmeysterin qarşısına böyük tələblər qoyulur. O aşağıdakı keyfiyyətlərə malik olmalıdır:

– ümumi musiqi istedadına;

– artistizm keyfiyyətinə;

– yaxşı eşitmə qabiliyyətinə və təxəyyülə;
– əsərin obrazını və formasını əhatə etmək bacarığına;
– müəllifin niyyətinin həyata küçirmək bacarığına.

Buna görə də konsertmeyster daima öz ifaçılıq ustalığını təkmilləşdirməlidir, yəni üzdən oxuma, tez, savadlı və şüurlu şəkildə mətni qavrama, yeni əsərlərlə tanış olma, onların üslub məqzini anlama, repertuarını yaratma və yeniləmə bacarıqlarını özündə yetişdirməlidir. Bu bacarıqlar həm sinifdə ifaçılarla öyrənilən əsərlər üzərində iş zamanı, həm də imtahan, müsabiqə və ya konsert tədbirlərində özünü biruzə verir. "Konsertmeyster işinin mahiyyəti ifaçını çıxışlara hazırlamaqdan ibarətdir və bir növ pedaqoji işə bənzəyir." [4, s.10].

Konsertmeyster fəaliyyəti aşağıdakı elementlərdən ibarətdir:

I. *Üzdən oxuma.* Müxtəlif üslublu və formalı əsərləriüzdən oxumaq, notlarda təcəssüm olunan səslərin mənasını, onların bütövün quruluşundakı rolunu başa düşmək, yəni öz ifaçılıq təcrübəsinə əsaslanıb, musiqi əsərini dəqiq ifa etmək, onun bədii obrazını açıqlamaq bacarığı müəllimin fəaliyyətində böyük əhəmiyyət kəsb edir. Notu üzdən oxuma prosesini iki mərhələyə ayırmaq olar: alətsiz oxuma (eşitmə vasitəsilə) və alətin müşayiətilə (oxuma-ifa). Konsertmeyserin notu üzdən oxumada qarşısına qoyulduğu vəzifələrin özünəməxsus cəhətləri var. Üçxətli və çoxxətli partituranı üzdən oxuyan mütləq solisti, ansamblı və ya xoru görüb və eşidib diqqət edərək, öz ifasını onlara görə uyğunlaşdırmalıdır. Konsertmeyster ifaçının niyyətini (fikirlərini) cəld və dəqiqliklə dəstəkləyərək onunla birgə əsərin vahid konsepsiyasını yaratmalı, kulminasiya məqamında da dəstəkləməli, bununla bərabər gözəçarpmadan solistin həssas köməkçisi olmalıdı

II. *Transpozisiya.* Müəllim vokal əsərlərini kvarta çərçivəsində, xor əsərlərini yarım və 1 ton yuxarı və aşağı transpozisiya etməyi bacarmalıdır. Transpozisiya – konsertmeyster ifaçılığının mütləq vərdişlərindən biridir. Professional təcrübədə musiqi müəllimləri çox vaxt vokal və xor əsərlərinin müşayiətində transpozisiyaya müraciət edirlər. İfaçılar hətdən müvafiq tələblərə uyğun olan səs diapazonuna malik olmadığından, onlara ifada çətinlik törədən ilkin, orjinal tonallıqda olan əsərin transpozisiyası lazım gəlir.

III. *Müşayiət qurma.* Konsertmeyster melodiyaya eşitmə vasitəsilə müşayiət qurmağı bacarmalıdır. Notsuz müşayiət etmə –yaradıcı prosesdir və burada konsertmeyster fakturanın öz şəxsi variantını yaradır. Bu da təbii olaraq müstəqil musiqili-yaradıcı yanaşmanı tələb edir. Bu məsələləri öyrənən gələcək musiqi müəllimləri pedaqoji prosesdə əldə etdikləri bilik və bacarığları səmərəli istifadə edə bilərlər.

Konsertmeysterlik fəaliyyətini həyata keçirmək üçün aşağıdakı bilik və bacarıqlar tələb olunur:

- müşayiəti ifa edərkən solistin partiyasını təsəvvür etmək, onun təfsirinin (traktovkasının) fərdi orijinallığını qabaqcadan tutmaq, bütün ifaçılıq vasitələri ilə onun ən parlaq ifadəsinə kömək etmək;
- ansamblda ifa bacarığına malik olmaq;
- vokalın əsasları (səsin quruluşu, oxu nəfəsi, artikulyasiya, nüanslar) haqqında biliklərə sahib olmaq;
- çox ayıq və həssas olmaq ki, lazım olanda tez sözləri xatırlatmaq, lazımi vaxtda tempi, əhval-ruhiyyəni, xarakteri kompensasiya etmək, həmçinin lazım gəldikdə melodiyanı dinləyicilərə hiss etdirmədən ifa etmək;
- musiqini dinləmə üçün məktəb repertuarına daxil olan repertuarın ifa spesifikasını bilmək (əsərlərin epizodlarını, fraqmentlərini çalmaq) bacarığı.
- orta çətinlikdə olan musiqi mətnini kvarta daxilində transpozisiya etmək bacarığı.

Sadə romansların müşayiətini transpozisiya edərkən heç də onun bütün fakturasını ifa etmək lazım deyil, əsas komponentləri seçməyi bacarmaq lazımdır. Harmonik əsası, ritmik quruluşu və bas xəttinin mütləq qoruyub saxlayarkən bir qədər sərbəstliyə icazə verilir. Düzgün transpozisiya üçün əsas şərt parçanın yeni tonallıqda zehni reproduksiyasıdır. Yarım tona transpozisiya zamanı digər açar işarələrini zehni olaraq qeyd etmək kifayətdir. Transpozisiya bacarıqlarının təlimi aşağıdakı ardıcıllıqla həyata keçirilir: əvvəlcə artırılmış prima, sonra kiçik və böyük sekunda, sonra tersiya üçün. Tersiya yuxarı transpozisiya edərkən, sanki kaman açarının bütün notları bas açarında iki oktava yuxarı yazılmış kimi oxunur. Tersiya aşağı transpozisiya etdikdə, bas açarındakı bütün notlar sanki iki oktava yuxarı kaman açarında yazılmış kimi oxunur.

Üzdən oxuma zamanıkonsertmeysterin vəzifələri, solistin (və ya xorun) mövcudluğunu nəzərə alaraq, özünəməxsus xüsusiyyətlərə malikdir. Konsertmeyster solisti (və ya xoru) tez və dəqiq dəstəkləməli, əsərin ifası üçün vahid konsepsiya yaratmalı, kulminasiyalarda dəstək olmalı, lakin həssas və həmişə gözə çarpmayan köməkçi olaraq qalmalıdır. Bu bacarıqların inkişafı yaxşı ritm hissi və ansamblın bütün üzvləri üçün eyni olan ritmik pulsasiya hissi ilə mümkündür. Eyni zamanda, iştirakçılar (trio, kvartet və s. ansambllar, məktəb xoru və ya orkestri) nə qədər çox olarsa, müşayiətçi dirijor funksiyasını öz üzərinə götürərək ansamblın təşkilatçısı kimi çıxış edir.

Müşayiəti üzdən cəld və səlis oxumaq üçün müəllim müxtəlif növ fortepiano fakturasını ifa etməyi mükəmməl bacarmalıdır. Vokal partiyanı ehtiva edən müşayiət xüsusi diqqət tələb edir, çünki solistin vokal partiyasının azad interpretasiyasını nəzərə almaq lazımdır.

Konsertmeyster müxtəlif üslublu musiqini hiss etmək üçün böyük musiqi repertuarı toplamalıdır. Yaxşı konsertmeyster yeni musiqi öyrənməyə, müəyyən bəstəkarların notları ilə tanış olmağa, onları səs yazılarında və konsertlərdə dinləməyə maraq göstərməlidir. Konsertmeysterin çalğısının özəlliyi ondan ibarətdir ki, o, solist yox, musiqi aksiyasının iştirakçılarından biri, üstəlik, ikinci planın iştirakçısı olmaqda məna və həzz tapmalıdır. Pianoçu-solist öz yaradıcı fərdiliyini ifadə etməkdə tam sərbəstliyə malikdir, konsertmeyster isə solistin və ya ifaçılar qrupunun, xorun ifa tərzinə uyğunlaşmalıdır.

Konsertmeyster bir sıra müsbət psixoloji keyfiyyətlərə malik olmalıdır. Onun diqqəti çoxqatlı olmalıdır, çünki o, diqqətini təkcə öz iki əli arasında paylaşdırmalı deyil, həm də solistin, xorun,yəni baş qəhrəmanın özünə aid etməlidir.

Eşitmədiqqəti ansambl musiqisinin yaradılmasının əsasını təşkil edən səs balansı ilə məşğul olur: barmaqların nə və necə etməsi vacibdir.

Ansambl diqqəti musiqi ideyasının vəhdətinin təcəssümünü izləyir. Belə bir diqqət gərginliyi fiziki və əqli qüvvələrin böyük xərclənməsini tələb edir.

Konsertmeyster fəaliyyətini peşəkar səviyyədə yerinə yetirmək üçün mobillik, hərəkətlilik, reaksiya sürəti çox vacibdir. Müəllim ifasını dayandırmadan vokalçı və ya xora musiqi mətnini xatırlatmaq,onların temp cəhətdən vaxtında tuta bilmək və əsəri məntiqi sonluğa çatdırmağa borcludur. İradə və özünə nəzarət konsertmeyster üçün vacib keyfiyyətlərdir. Musiqi problemləri yarandıqda, o, dəqiq bilməlidir ki, nə dayanmaq, nə də səhvləri düzəltmək yolverilməzdir, həmçininüz mimikası və ya jestlərlə qıcıqlandığını ifadə etmək də olmaz.

Təhsil müəssisələrində işləyən konsertmeyterin funksiyaları əsasən pedaqoji xarakter daşıyır, çünki onlar tez-tez yeni repertuarın öyrənilməsinə, tələbələrin ifasında intonasiya dəqiqliyi və digər incəlikləri baxımından korrektəsinə (düzəlişinə) xidmət edir. Konsertmeyster işinin bu pedaqoji tərəfi spesefik bacarıq və bilikləri, pedaqoji intuisiyanı və nəzakəti tələb edir. Konsertmeysterfəaliyyətində onun daxili eşitmə qabiliyyətinin rolu artır. N.Kryuçkov haqlı olaraq qeyd edir: “Müğənninin intonasiyasında sarsılmaz səs meyarının qiymətini almaq üçün konsertmeysterin intonasiyanı fikrində zehni təsəvvürü çox güclü olmalıdır.” [1, s. 36].

İfaya başlayanda konsertmeyster çox qabağı görməli və eşitməlidir ki, real səslənmə not mətninin vizual və daxili qavrayışı arxasınca getsin. Vokalçı ilə işləyərkən konsertmeyster musiqili-poetik mətnin daxilinə, dərinliklərinə varmalıdır, çünki vokal əsərinin emosional və obrazlı məzmunu təkcə musiqi vasitəsilə deyil, həm də söz vasitəsilə açılır. Müşayiətin kobud gurultulu səsi vokalisti “forsirovka” adlanan nöqsana duçar olmasına səbəb olur. Pianonun yumşaq “oxuması” solisti qışqırtılı oxumadan ayıraraq düzgün səs axıcılığına öyrədir. Konsertmeyster müəllimin rəhbərliyi altında müğənniyə mahnı və ya

romans boyunca səsin gücünü düzgün paylaşdırmağı öyrədir. Tədrisə yeni başlayan vokalçı üçün *piano* oxumaq çətindir, həm dayaqlı nəfəslə, həm də pianoda oxumaq çətindir. Vokalçının tipik bir səhvi – çox vaxt vurğusuz olması tələb olunan sözün və ya cümlənin son hecasını forte ilə oxumaqdır.

**Nəticə.** Beləliklə, konsertmeysterə məsuliyyətli bir vəzifə həvalə olunur – öyrənəni müxtəlif musiqi üslubları ilə tanış etmək, onun musiqi zövqünü tərbiyə etmək. Vokalçı ilə yaradıcı, işlək əlaqə qurmaq asan deyil, lakin insani və mənəvi təmas lazımdır. Konsertmeyster ilə işləmək üçün tam etibar tələb olunur. Solist üçün konsertmeyster yaradıcı işinin sirdaşı, köməkçisi, dostu, məsləhətçisi, məşqçisi və müəllimidir. Heç də hər bir konsertmester belə bir mövqeyi qazanmaq nəsib olmur. O, möhkəm biliklərin nüfuzu, yaradıcı təmkinin, iradənin, əzmkarlığın, solistlərlə birgə işdə və özünün musiqi təkmilləşdirməsində arzu olunan bədii nəticələrin əldə edilməsində məsuliyyətin nəticəsi kimi qazanılır.

## ƏDƏBİYYAT


1. Крючков Н. Искусство аккомпанемента как предмет обучения. Москва: “Музыка”, 1961, 72 с.
2. Мур Джеральд. Певец и аккомпаниатор. Москва: Радуга, 1987, 432 с.
3. Садырханова К.Р. Роль концертмейстера-пианиста в профессиональном становлении солистов. Автореферат дис. на соискание уч. ст. доктора философии по искусствоведению. Баку, 2010, 28 с.
4. Садырханова К.Р. Искусство концертмейстерского мастерства в музыкальной культуре Азербайджана. / Учебное пособие, Баку, 2015, 110 с.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Kəmalə İsmayılova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 37.013.42 + 78.071.1**

**H.R.Həsənov**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: hesenhesenov8583@gmail.com

# MUSİQİ MÜƏLLİMİNƏ LAZIM OLAN ÜMUMPEDAQOJİ VƏ XÜSUSİ QABİLİYYƏTLƏR

***Açar sözlər:*** *musiqi müəllimi, xüsusi qabiliyyətlər, tədris metodları, yaradıcı təhsil, müasir texnologiyalar, sinif idarəçiliyi*

Musiqi müəllimliyi yalnız notların və akordların ötürülməsi deyil, eyni zamanda yaradıcılıq, tənqidi düşüncə və emosional dəstək kimi ümumpedaqoji qabiliyyətlərin inkişaf etdirilməsini tələb edən kompleks bir peşə sahəsidir. Məqalədə musiqi müəllimlərinin uğuru üçün əsas olan ünsiyyət bacarıqları, sinif idarəçiliyi və psixoloji motivasiya vurğulanır. Bundan əlavə, musiqi nəzəriyyəsi, ifa qabiliyyətləri və rəqəmsal texnologiyalar kimi xüsusi bacarıqların da əhəmiyyəti qeyd edilir. Müasir tədris metodları, interaktiv dərs yanaşmaları və multimedia vasitələrinin tətbiqi aktual təhsil trendləri arasında yer tutur. Həmçinin, müəllimlərin davamlı peşəkar inkişafı və təlim seminarları vasitəsilə yenilikləri izləmələri vurğulanır. Bu yanaşma, həm sinifdə həm də fərdi inkişafda yüksək keyfiyyətli təhsil təmin edərək, gələcək nəsillərin musiqi təhsilinə olan marağını artırır və yaradıcılıq potensialını genişləndirir. Bu yanaşma vasitəsilə müəllimlər şagirdlərin fərdi qabiliyyətlərini ön plana çıxararaq, onların musiqiyə olan maraq və yaradıcılıq səviyyəsini artırır. Əlavə olaraq ümumi baxımdan, müasir metodlar dərslərdə interaktivliyi və praktikanı təmin edir, şagirdlərin aktiv iştirakını təşviq edir və gələcək uğurlara zəmin yaradır.

**Г.Р.Гасанов**

# ОБЩЕПЕДАГОГИЧЕСКИЕ И СПЕЦИАЛЬНЫЕ СПОСОБНОСТИ, НЕОБХОДИМЫЕ УЧИТЕЛЮ МУЗЫКИ

***Ключевые слова:*** *учитель музыки, специальные способности, методы обучения, творческое воспитание, современные технологии, управление классом*

Преподавание музыки – это сложная профессиональная область, требующая не только передачи нот и аккордов, но и развития таких

общепедагогических способностей, как творчество, критическое мышление и эмоциональная поддержка. В статье подчеркиваются коммуникативные навыки, управление классом и психологическая мотивация, которые являются ключевыми для успеха учителей музыки. Кроме того, отмечается важность специальных навыков, таких как теория музыки, исполнительские способности и цифровые технологии. Современные методы обучения, интерактивные подходы к обучению и внедрение мультимедийных инструментов занимают место среди актуальных образовательных тенденций. Кроме того, учителя должны следить за инновациями посредством непрерывного профессионального развития и обучающих семинаров. Такой подход, обеспечивая качественное образование как в классе, так и в личностном развитии, повышает интерес будущих поколений к музыкальному образованию и расширяет их творческий потенциал. Благодаря такому подходу Учителя выдвигают на первый план индивидуальные способности учеников, повышая их интерес и творческий потенциал к музыке. Кроме того, с общей точки зрения современные методы обеспечивают интерактивность и практичность на уроках, способствуют активному участию учащихся и закладывают основу для будущих успехов.

**H.R.Hasanov**

## ALL-PEDAGOGICAL AND SPECIAL ABILITIES THAT A MUSIC TEACHER NEEDS

***Keywords:*** *music teacher, special abilities, teaching methods, creative education, modern technologies, classroom management*

Music teaching is a complex professional field that requires not only the transmission of notes and chords, but also the development of generalist capacities such as creativity, critical thinking and emotional support. The article highlights communication skills, classroom management and psychological motivation, which are fundamental to the success of music teachers. In addition, the importance of special skills such as music theory, performance abilities and digital technologies is also noted. Modern teaching methods, interactive lesson approaches and the introduction of multimedia tools occupy a place among the actual educational trends. It also emphasizes the continuous professional development of teachers and their follow-up to innovation through training seminars. This approach, providing high-quality education both in the classroom and in personal development, increases the interest of future generations in music education and expands their creative potential. Through this approach, teachers bring students' individual abilities to the fore, increasing their level of interest and creativity in music. In addition, from a general point of view, modern

methods ensure interactivity and practice in classes, encourage active participation of students and lay the foundation for future success.

**Mövzunun aktuallığı:** Musiqi müəllimliyi təkcə nəzəri materialın ötürülməsi deyil, həm də şagirdlərə yaradıcılıq, özünütənqid və intellektual inkişafı aşılayan kompleks bir tədris prosesidir. Bu sahədə uğur qazanmaq üçün müəllimlər həm ümumpedaqoji, həm də xüsusi qabiliyyətlərlə təchiz olunmalıdırlar. Aşağıdakı məqalədə musiqi müəllimlərinin gündəlik fəaliyyətində əhəmiyyət daşıyan əsas bacarıqlar və müasir tədris metodları ətraflı şəkildə müzakirə olunur.

Effektiv təhsil prosesinin təməli ümumpedaqoji və xüsusi qabiliyyətlərdən asılıdır. Ümumpedaqoji qabiliyyətlər özünü kommunikasiya və ünsiyyət bacarıqları, sinif idarəçiliyi, motivasiya və psixoloji dəstək, tənqidi düşüncə və problemlərin həlli ilə, xüsusi qabiliyyətlər isə özünü musiqi nəzəriyyəsi və tarixi bilik, ifa bacarıqları və texniki tərübə, rəqəmsal texnoloiyalar və proqram təminatı bilik və bacarıqları ilə göstərir. Musiqi müəllimləri üçün bu bacarıqların inkişaf etdirilməsi çox vacibdir.

Ümumpedaqoji qabiliyyətlərə nəzər salaq:

Kommunikasiya və ünsiyyət bacarıqları: Hər bir müəllimin sinifdə və valideynlərlə uğurlu dialoq qura bilməsi tələb olunur. Açıq və anlaşılan ünsiyyət şagirdlərin məlumatı düzgün mənimsəməsinə şərait yaradır və dərs prosesində motivasiyanı artırır. Bu bacarıqlar vasitəsilə müəllim şagirdlərlə effektiv dialoq qurur, aydın, anlaşılan və motivasiyaedici şəkildə fikirlərini ifadə edir, suallara cavab verir və şagirdlərin fikirlərini dinləyir; Valideynlərlə və həmkarlarla əlaqə saxlayır, təhsil prosesində bütün iştirakçılar arasında koordinasiyanı təmin edir və qarşılıqlı etimadı artırır; Emosional dəstək verir, şagirdlərin sosial və emosional ehtiyaclarını nəzərə alaraq, onlara dəstək olur və onların yaradıcılığını inkişaf etdirir; Problem həll etmə bacarıqlarını gücləndirir, sinifdə yaranan hər hansı problemlərin həllinə dair açıq dialoq aparır və konstruktiv təkliflər verir. Musiqi müəllimləri üçün bu bacarıqlar, dərsin interaktiv və motivasiyaedici şəkildə aparılmasına, həmçinin sinif mühitində qarşılıqlı hörmət və inamın yaradılmasına töhfə verir. Beləliklə, effektiv ünsiyyət bacarıqları həm tədris keyfiyyətini yüksəldir, həm də şagirdlərin peşəkar və şəxsi inkişafını dəstəkləyir [9, s 42].

Sinif idarəçiliyi: Sinif idarəçiliyi musiqi müəllimliyi sahəsində çox önəmli bir bacarıqdır. Effektiv sinif idarəçiliyi, dərs prosesinin nizamlı və səmərəli şəkildə keçməsini təmin edir, müəllimin sinifdə qarşılaşdığı müxtəlif problemləri vaxtında və uyğun şəkildə həll etməsinə kömək edir. Bu bacarıq sayəsində müəllim, şagirdlərin fərdi ehtiyaclarına uyğun olaraq dərs planlarını və metodlarını təyin edir, sinif daxilində müsbət və əməkdaşlıq yönümlü mühit yaradır. Sinif idarəçiliyində müəllimin təşəbbüskarlığı, tənqidi düşüncə və analitik bacarıqları, həmçinin texnoloji vasitələrdən istifadəsi ön plandadır. Bu yanaşmalar sinifdə nizam-intizamın qorunması, şagirdlərin aktiv iştirakı və sosial-emosional inkişafının dəstəklənməsi üçün zəruridir. Nəticə etibarilə, sinif idarəçiliyi, musiqi

müəllimlərinin həm tədris prosesində, həm də peşəkar inkişaflarında əsas amillərdən biridir.

Motivasiya və psixoloji dəstək: Motivasiya və psixoloji dəstək, müəllimlərin və şagirdlərin təhsil prosesində qarşılaşdıqları çətinlikləri aşmaq və yaradıcılığı stimullaşdırmaq üçün əsas rol oynayır. Musiqi müəllimləri öz şəxsi motivasiyalarını yüksək səviyyədə saxlayaraq, sinifdə müsbət və ilhamverici atmosfer yaradırlar. Psixoloji dəstək isə müəllimlərin şagirdlərlə empatiya qura bilmə, onların emosional ehtiyaclarını anlama və problemlərin qarşısını alma kimi bacarıqları ilə birbaşa əlaqədardır.

Tənqidi düşüncə və problemlərin həlli: Tənqidi düşüncə və problemlərin həlli, musiqi müəllimliyində dərs prosesinin səmərəli və yaradıcı şəkildə aparılması üçün əsas bacarıqlardır. Müəllimlər, sinifdə yaranan müxtəlif çətinlikləri və problemləri analitik yanaşma ilə qiymətləndirərək, ən uyğun həll yollarını tapmağa çalışırlar. Bu bacarıq, müəllimlərin şagirdlərin fərdi ehtiyaclarını və potensialını dərindən anlamağa, onların yaradıcılığını stimullaşdırmağa və müstəqil qərarvermə qabiliyyətlərini inkişaf etdirməyə kömək edir. Eyni zamanda, tənqidi düşüncə müəllimə problemləri erkən mərhələdə müəyyən edib, dərs planını yenidən formalaşdırmağa və interaktiv metodlardan istifadə etməyə imkan yaradır. Bu yanaşma sayəsində, sinifdə yaranan problemlər daha konstruktiv şəkildə həll olunur və şagirdlər arasında daha sağlam, əməkdaşlıq yönümlü mühit formalaşır. Nəticə etibarilə, tənqidi düşüncə və problemlərin həlli bacarıqları, həm müəllimlərin, həm də şagirdlərin uğurlu tədris və öyrənmə prosesinin təmin edilməsində mühüm rol oynayır.

Bu qabiliyyətlər müəllimə yalnız dərsi keçərkən deyil, həm də fərdi inkişaf və peşəkar yüksəliş üçün zəmin yaradır.

Xüsusi qabiliyyətlərə nəzər salaq:

Musiqi nəzəriyyəsi və tarixi bilik: Musiqi nəzəriyyəsi və tarixi bilik musiqi müəlliminin peşəkar təməlidir. Bu biliklər vasitəsilə müəllimlər not sistemləri, harmoniya, ritm, melodiya və kompozisiya prinsiplərini dərindən öyrənir, əsərlərin strukturunu və funksionallığını anlamağa kömək edir. Eyni zamanda, musiqinin inkişaf tarixi, fərqli dövrlərin üslubları və bəstəkarların yaradıcılığı barədə məlumat sahibi olmaq, sinifdə şagirdlərə musiqinin mədəni və elmi əsaslarını çatdırmaq üçün vacibdir. Beləliklə, musiqi nəzəriyyəsi və tarixi bilik, müəllimə həm ənənəvi, həm də müasir musiqi tendensiyalarını şagirdlərə təqdim etmək, onların yaradıcı potensialını inkişaf etdirmək və musiqi dilini dərinləşdirmək imkanı yaradır [4, s 32].

İfa bacarıqları və texniki təcrübə: Musiqi müəllimlərinin ifa bacarıqları və texniki təcrübəsi onların sinifdə nümayiş etdirə bildikləri canlı performansın əsasını təşkil edir. Bu bacarıqlar təkcə öz musiqi alətində və ya vokal ifasında mükəmməllik qazanmaqla məhdudlaşmır, həm də şagirdlərə düzgün texnika, intonasiya və ritm hissinin necə inkişaf etdirilməli olduğunu praktiki şəkildə göstərməklə özünü göstərir. Texniki təcrübə isə, müasir rəqəmsal vasitələrdən istifadə, audio-video

materialların tətbiqi, musiqi not proqramlarının və digər texnoloji alətlərin səmərəli idarə olunması ilə müəllimə dərs prosesini interaktiv və maraqlı etmək imkanı yaradır. Beləliklə, ifa bacarıqları və texniki təcrübə müəllimlərin öz yaradıcılıq və praktiki biliklərini şagirdlərə ötürərək onların musiqi dilini və yaradıcı potensialını inkişaf etdirməsində əsas rol oynayır.

Rəqəmsal texnologiyalar və proqram təminatı: Rəqəmsal texnologiyalar və proqram təminatı müasir musiqi tədrisinin ayrılmaz hissəsidir. Bu alətlər sayəsində müəllimlər dərsləri daha interaktiv və vizual şəkildə təqdim edə, şagirdlərin diqqətini cəlb edə bilirlər. Məsələn, interaktiv lövhələr, onlayn tədris platformaları, video dərs materialları və virtual musiqi alətləri sinifdə canlı performans və praktiki məşğələlər aparmağa şərait yaradır. Eyni zamanda, musiqi notlarının yazılması, kompozisiya və aranjeman üçün nəzərdə tutulmuş proqram təminatı (məsələn, Finale, Sibelius, GarageBand və s.) müəllimlərin öz bilik və təcrübələrini daha sistemli şəkildə şagirdlərə çatdırmasına kömək edir. Bu rəqəmsal vasitələr şagirdlərin yaradıcılıq potensialını artırmaqla yanaşı, müasir musiqi dünyasının innovativ yanaşmalarını da dərs prosesinə inteqrasiya edir. Nəticədə, rəqəmsal texnologiyalar və proqram təminatı musiqi müəllimlərinin tədris metodlarını zənginləşdirərək, şagirdlərin musiqi dilini və ifa bacarıqlarını inkişaf etdirməkdə mühüm rol oynayır[10, s 206].

Bu xüsusi qabiliyyətlər, müəllimlərin şagirdlərə musiqinin incəliklərini daha effektiv və maraqlı şəkildə öyrətmələrinə şərait yaradır.

İnteraktiv dərs metodları: İnteraktiv dərs metodları şagirdlərin passiv dinləmə yerinə, dərs prosesinə aktiv qatılmalarını təmin edən, onların bilikləri tətbiq edərək öyrənmələrinə imkan yaradan üsullardır. Bu metodlar aşağıdakı vasitələrlə həyata keçirilə bilər: İnteraktiv Lövhələr və Multimedia Təqdimatlar - Dərs mövzularının vizual və audio-vizual elementlərlə izah edilməsi, qrafik və videoların istifadə olunması; Real Vaxtda Qrup Müzakirələri və Fikir Mübadiləsi - Şagirdlər arasında interaktiv müzakirə, layihə və problemlərin həlli fəaliyyətləri; Onlayn Testlər və Anketlər - Sualların dərhal cavablandırılması və nəticələrin dərhal analiz edilməsi yolu ilə dərs materialının möhkəmləndirilməsi; Simulyasiya və Virtual Reallıq Proqramları - Təcrübə əsaslı öyrənmə, məsələn, musiqi proqramları vasitəsilə not yazılması, kompozisiya və ifa təcrübələrinin virtual mühitdə aparılması.

Bu yanaşmalar müəllimə dərsi daha maraqlı, interaktiv və praktik formada təqdim etməyə, şagirdlərin isə dərs materialını daha dərindən mənimsəməyə imkan verir.

Fəlsəfi və tətbiqi yanaşmalar: Fəlsəfi yanaşmalar musiqi tədrisində əsərin estetik və dərin mənasını anlamağa, həmçinin yaradıcılıq prosesində şagirdlərin öz dəyərlərini və mədəni irsi qavramağa kömək edir. Bu yanaşmada musiqi yalnız səs və ritm deyil, həm də insanın həyat fəlsəfəsi, ictimai dəyərlər və mədəniyyətlə əlaqəli bir vasitə kimi qiymətləndirilir. Müəllimlər şagirdlərlə dialoq apararaq, əsərlərin yaradılış kontekstini, bəstəkarların şəxsi dünyasını və musiqinin insan ruhuna təsirini araşdırır, bununla da şagirdlərdə tənqidi düşüncə və dərin duyğu inkişaf etdirirlər;

Tətbiqi yanaşmalar isə musiqi biliklərinin praktik sahədə öyrənilməsi və tətbiqinə yönəlib. Burada dərs prosesinə ifa, kompozisiya, improvizasiya və rəqəmsal texnologiyaların inteqrasiyası kimi praktik elementlər daxil edilir. Müasir metodlarla, məsələn, interaktiv dərs vasitələri, virtual musiqi alətləri və audio-vizual resurslardan istifadə edilərək, şagirdlərin texniki bacarıqları və yaradıcılıq qabiliyyətləri inkişaf etdirilir. Bu yanaşma, nəzəri biliklərlə praktikanın sintezini təmin edərək, şagirdlərin həm akademik, həm də ifa sahəsində öz potensialını maksimum dərəcədə ortaya qoymasına imkan yaradır.

Beləliklə, fəlsəfi və tətbiqi yanaşmaların birgə tətbiqi musiqi tədrisinin həm dərin, həm də praktiki səviyyədə inkişafına zəmin yaradır.

Bu yeniliklər, musiqi müəllimlərinə dərs prosesində daha effektiv alətlər təqdim edərək, həm şagirdlərin öyrənmə prosesini, həm də müəllimlərin peşəkar inkişafını dəstəkləyir.

Təcrübənin və davamlı inkişafın rolu musiqi müəllimlərinin peşəkar həyatında və tədris prosesində əsas amildir. Müəllimlər əldə etdikləri təcrübəni paylaşaraq, həm öz biliklərini, həm də praktiki bacarıqlarını artırırlar. Davamlı inkişaf isə, yeni metod və texnologiyaların, rəqəmsal vasitələrin tədrisə inteqrasiyası yolu ilə şagirdlərin müasir musiqi trendləri ilə tanış olmalarını təmin edir. Bu yanaşma çərçivəsində müəllimlər: Seminarlar, master-klasslar və konfranslara qatılaraq elmi və tədris biliklərini dərinləşdirir; Peşəkar şəbəkələr vasitəsilə təcrübə mübadiləsi aparır; İnnovativ tədris metodlarını tətbiq edərək sinifdə yaradıcılıq və motivasiyanı artırır; Fərdi və kollektiv tədqiqatlarla musiqi təlim proqramlarını təkmilləşdirir.

Beləliklə, təcrübənin və davamlı inkişafın rolu yalnız şəxsi bilik və bacarıqların artırılmasında deyil, həm də musiqi təhsilinin keyfiyyətinin yüksəldilməsində, şagirdlərin potensialının maksimum dərəcədə ortaya qoyulmasında mühüm rol oynayır.

**Nəticə:** Musiqi müəllimliyinin uğurlu həyata keçirilməsi üçün tələb olunan ümumpedaqoji və xüsusi qabiliyyətlər, eləcə də texnoloji və metodoloji yeniliklərin tətbiqi, təcrübənin və davamlı inkişafın əhəmiyyətini göstərir. Müasir təhsil mühitində musiqi müəllimləri yalnız biliklərini ötürməklə kifayətlənməyərək, şagirdlərin yaradıcılıq potensialını inkişaf etdirmək, onların musiqi dilini dərinləşdirmək və tənqidi düşüncələrini formalaşdırmaq kimi vəzifələri də yerinə yetirməlidirlər. Bunun üçün interaktiv dərs metodları, rəqəmsal texnologiyaların inteqrasiyası və tətbiqi, həmçinin fəlsəfi yanaşmalar və praktik təcrübələr bir araya gətirilməlidir.

Müəllimlər, texniki biliklərini və ifa bacarıqlarını daim təkmilləşdirərək, sinifdə canlı performansın və praktiki məşğələlərin keçirilməsinə şərait yaradırlar. Bu, şagirdlərin həm yaradıcı, həm də analitik qabiliyyətlərini inkişaf etdirməyə, müasir musiqi trendləri ilə ayaqlaşmağa və öz biliklərini tətbiq etməyə imkan verir. Təcrübənin və davamlı inkişafın rolu, müəllimlərin seminarlar, master-klasslar və elmi konfranslarda iştirak etməklə, elmi və texnoloji yenilikləri dərs prosesinə daxil

etməklə daha da artmaqdadır.

Nəticədə, müasir musiqi təhsili yalnız klassik metodların tətbiqindən ibarət olmayıb, həm də innovativ, rəqəmsal və interaktiv yanaşmaların uğurla tətbiqi ilə formalaşır. Bu, müəllimlərin peşəkar bilik və təcrübələrini daim artırmaq, şagirdlərin musiqi dünyasına olan marağını oyatmaq və onların yaradıcı potensialını maksimum səviyyəyə çatdırmaq üçün vacibdir. Beləliklə, musiqi müəllimliyi həm ənənəvi dəyərlərin qorunması, həm də müasir texnologiyalar və metodların tətbiqi vasitəsilə gələcək nəsillərin yüksək keyfiyyətli musiqi təhsilini təmin edir.

## ƏDƏBİYYAT


1. Qədimova J. Musiqi müəlliminin hazırlığında təhsilin humanitarlaşması məsələlərinin əhəmiyyəti // Müəllim hazırlama siyasəti və problemləri. Beynəlxalq Konfrans, Bakı, 2007, s. 347–352.
2. Qədimova J. Musiqinin tədrisi metodikası, Dərslik, Bakı, 2023, 482 s.
3. Qədimova J. Musiqi təhsilinin məzmununun yeniləşdirilməsində musiqi mentallığının formalaşdırılması. "Musiqi elmi, mədəniyyəti və təhsilin aktual problemləri" jurnalı№ 1 (3). Bakı, ADPU 2017
4. Qəribova A. Musiqi müəlliminin peşə kompetensiyaları // Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri, № 1 (9), Bakı, ADPU, 2021
5. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Monoqrafiya. Bakı, 2018, 208 s.
6. Əsgərova S. Musiqi müəllimi. Bakı, 1993, 184 s.
7. Rəcəbov O., Hidayətova F. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. Bakı, 2013, 258 s.
8. Qədirova R. H. Ünsiyyət psiologiyası. Dərs vəsaiti. Bakı, 2016, 152 s.
9. Новиков А.М. Профессиональная педагогика. М.: «Эгвес», 2009, 456 с.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 80-85**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 80-85**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 80-85**

**UOT 37.035:78**

**Ş.F.Məmmədli**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: sebnem.memmedli.2001@gmail.com

# MƏDƏNİ İRSİN MUSİQİ TƏHSİLİNDƏ ROLU

***Açar sözlər:*** *mədəni irs, musiqi təhsili, milli musiqi, musiqi irsi, tədrisdə istifadə,milli musiqi ənənələri*

Bu məqalədə mədəni irsin musiqi təhsili alan şagirdlərin həyatındakı rolu araşdırılır. Məqalə mədəni irsin musiqi təhsilindəki vacib rolunu və mühüm əhəmiyyətini özündə əks etdirir. Burada qeyd olunur ki, şagirdlərdə mədəni irsi formalaşdırmaq onları nəinki bir musiqi sevər kimi inkişaf etdirir, hətta şəxsiyyət kimi formalaşdırır. Məqalədə maddi mədəni irs ilə qeyri-maddi mədəni irsin fərqi açıq şəkildə qeyd olunmuşdur. Həmçinin məqalədə mədəni irsin qorunması və inkişafına musiqiçilərin dəstək olması, eləcə də cəmiyyətin bütün üzvlərinin bu prosesdə iştirak etməsi xüsusi vurğulanmışdır. Bu məqalədə şagirdlərə musiqi dinlətməyin, xüsusən də milli musiqi dinlətməyin faydaları qeyd olunmuşdur. Məqalədə musiqi dərslərində şagirdlərə milli musiqi alətlərimizin öyrədilməsinin həm onların şəxsiyyət kimi formalaşmasına, həm də mədəni irsimizin inkişafına olan töhfələrindən söhbət açılır. Belə ki, mədəni irsin musiqi müəllimi üçün əhəmiyyətinin bütün aspektləri tam şəkildə araşdırılmış, musiqi təhsilindəki mədəni irsin dörd əsas funksiyası da tam aydın şəkildə açılmışdır. Həmçinin bu məqalədə muğam janrının musiqi dərslərində şagirdlərə öyrədilməsinin vacibliyi və əhəmiyyəti qeyd olunub.

**Ш.Ф.Маммадли**

# РОЛЬ КУЛЬТУРНОГО НАСЛЕДИЯ В МУЗЫКАЛЬНОМ ОБРАЗОВАНИИ

***Ключевые слова:*** *культурное наследие, музыкальное образование, национальная музыка, музыкальное наследие, использование в обучении, национальные музыкальные традиции.*

В данной статье рассматривается роль культурного наследия в жизни учащихся, получающих музыкальное образование. В статье отражена важная роль и значение культурного наследия в музыкальном образовании.

Здесь отмечается, что формирование культурного наследия у учащихся не только развивает их как любителей музыки, но и формирует их как личностей. В статье четко прописана разница между материальным культурным наследием и нематериальным культурным наследием. В статье также подчеркивается поддержка музыкантами деятельности по сохранению и развитию культурного наследия, а также участие всех членов общества в этом процессе. В этой статье подчеркивается польза приобщения учащихся к музыке, особенно национальной. В статье рассматривается вклад обучения школьников игре на наших национальных музыкальных инструментах на уроках музыки как в их личностное развитие, так и в развитие нашего культурного наследия. В данной статье подробно рассматриваются все аспекты важности культурного наследия для учителя музыки. В статье также четко разъясняются четыре основные функции культурного наследия в музыкальном образовании. В статье также подчеркивается важность и значимость преподавания жанра мугам учащимся на уроках музыки.

**Sh.F.Mammadli**

## THE ROLE OF CULTURAL HERITAGE IN MUSIC EDUCATION

***Key words***: *cultural heritage, music education, national music, musical heritage, use in teaching, national musical traditions*

This article examines the role of cultural heritage in the life of students' music education. The article reflects the important role and importance of cultural heritage in music education. It is noted that forming cultural heritage in students not only develops them as music lovers, but also shapes them as personalities. The article clearly highlights the difference between tangible cultural heritage and intangible cultural heritage. The article also emphasizes the support of musicians in the preservation and development of cultural heritage, as well as the participation of all members of society in this process. This article highlights the benefits of teaching students to listen to music, especially national music. The article discusses the contributions of teaching students our national musical instruments in music lessons to both their personality formation and the development of our cultural heritage. This article fully examines all aspects of the importance of cultural heritage for a music teacher. The article also clearly outlines the four main functions of cultural heritage in music education. The article also highlights the importance and importance of teaching students the mugham genre in music lessons.

Mədəni irsin musiqi təhsilində rolu şagirdlərin mədəni inkişafı baxımından bütün dövrlərdə aktualdır.

Mədəni irs bir xalqın tarix boyunca yaratdığı və nəsildən-nəslə ötürdüyü maddi və qeyri-maddi dəyərlərin məcmusudur. UNESCO-ya görə, mədəni irs tarix, dil, incəsənət, musiqi, adət-ənənələr, folklor və digər mədəni dəyərləri özündə cəmləşdirir.

Mədəni irs iki əsas kateqoriyaya bölünür: maddi mədəni irs və qeyri-maddi mədəni irs.

Maddi mədəni irs dedikdə, bir millətin və ya cəmiyyətin tarixi, mədəni və estetik dəyərlərini əks etdirən, fiziki (maddi) formada mövcud olan abidələr, binalar, sənət əsərləri, arxeoloji tapıntılar, qədim əlyazmalar, musiqi alətləri, geyimlər və digər maddi dəyərlər nəzərdə tutulur. Bu irs nəsildən-nəslə ötürülərək qorunur və milli kimliyin formalaşmasında mühüm rol oynayır. Azərbaycan kontekstində maddi mədəni irsə misal olaraq Qız qalası, Şirvanşahlar sarayı, İçərişəhər, Qobustan qayaüstü rəsmləri, Karvansaraylar, xalçalar, milli geyimlər və musiqi alətləri (tar, kamança, balaban və s.) kimi dəyərləri göstərmək olar. Maddi mədəni irsə qısaca memarlıq abidələri, muzey eksponatları, musiqi alətləri, xalçalar və digər fiziki dəyərlər daxildir.Qeyri-maddi mədəni irsə isə – Musiqi, rəqs, folklor, milli adət-ənənələr, aşıq sənəti, muğam, xalq nağılları və s. daxildir. Qeyri-maddi mədəni irs dedikdə, bir xalqın mənəvi və mədəni kimliyini əks etdirən, lakin fiziki (maddi) formaya malik olmayan dəyərlər nəzərdə tutulur. Bu irs əsasən biliklər, bacarıqlar, ənənələr, folklor, musiqi, rəqslər, şifahi ədəbiyyat, mərasimlər, inanclar, mətbəx ənənələri və xalq sənətkarlığı kimi sahələri əhatə edir. Azərbaycan kontekstində qeyri-maddi mədəni irs nümunələri bunlardır: Muğam və aşıq sənəti; Novruz bayramı və onunla bağlı adət-ənənələr; Yallı, kosa-kosa, meydan tamaşaları; Məsnəvi, bayatı, nağıllar, dastanlar; Milli mətbəx ənənələri (plov, dolma, paxlava və s.); Xalq təbabəti və qədim müalicə üsulları və s. Bu irs UNESCO tərəfindən də qorunur və xalqın kimliyinin, mənəvi zənginliyinin ayrılmaz hissəsidir. Azərbaycan zəngin mədəni irsə malikdir. Muğam sənəti, aşıq yaradıcılığı, xalq mahnıları və rəqsləri bu irsin ən mühüm elementlərindən sayılır və UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Mədəni irsin musiqi təhsilində rolu çox böyükdür. Mədəni irs musiqi təhsilinin ayrılmaz hissəsidir. Gələcək musiqi müəllimi üçün milli musiqi irsinin öyrənilməsi və şagirdlərə düzgün şəkildə ötürülməsi vacibdir. Musiqi təhsilində mədəni irsin 4 əsas funksiyası vardır və bunlar aşağıdakılardır.

1. Milli identikliyin formalaşması – Şagirdlər milli musiqini öyrənərək Azərbaycan mədəniyyətini daha dərindən dərk edirlər.
2. Bədii-estetik zövqün inkişafı – Milli musiqi nümunələri vasitəsilə şagirdlərdə estetik duyum və yaradıcılıq qabiliyyəti formalaşır.
3. Musiqi təhsilinin keyfiyyətinin artırılması – Azərbaycan musiqisinin

öyrənilməsi təhsil proqramını zənginləşdirir və şagirdlərin marağını artırır.

4. Mədəni irsin qorunması və gələcək nəsillərə ötürülməsi – Müəllimlər vasitəsilə milli musiqi dəyərləri yeni nəsillərə çatdırılır.

Azərbaycan musiqi irsinin tədrisdə istifadəsi çox vacibdir. Çünki muğam dərsləri vasitəsi ilə şagirdlər muğamın melodik quruluşunu və onun hissiyyat dərinliyini öyrənirlər. Həmçinin orta məktəblərdə həm xalq mahnıları və aşıq sənəti həm də milli musiqi alətlərinin tarixi və ifaçılı haqqında biliklər tədris olunur. Musiqi festivalları, konsertər, yarışmalar və tədbirlər keçirtmək məktəblərdə şagirdlərin marağının artmasına səbəb olan amillərsən biridir. Hər dərs musiqi dərsi zamanı bir neçə dəqiqəni mütləq şəkildə musiqi dinləməyə ayırmalıyıq ki, şagirdlərin həm bədii mədəniyyəti həm də musiqi zövqü inkiçaf etsin.

Mədəni irsin musiqi müəllimi üçün əhəmiyyəti danılmazdır. Mədəni irsin musiqi müəllimi üçün əhəmiyyəti dedikdə, musiqi müəlliminin həm öz peşəkar inkişafı, həm də şagirdlərinin bədii-estetik dünyagörüşünün formalaşması üçün mədəni irsin rolunu nəzərdə tuturuq. Bu əhəmiyyət aşağıdakı aspektlərdə özünü göstərir:

1. Milli kimliyin formalaşması – Musiqi müəllimi milli musiqi irsini bilməklə şagirdlərində vətənpərvərlik hissini gücləndirir və milli dəyərləri təbliğ edir.
2. Peşəkar bacarıqların inkişafı – Mədəni irsi dərs proqramına daxil etmək müəllimin musiqi biliklərini zənginləşdirir və onu daha yaradıcı edir.
3. Musiqi təhsili və bədii zövqün formalaşması – Şagirdlər mədəni irs vasitəsilə musiqi janrlarını, ənənəvi musiqi formalarını və klassik irsi mənimsəyərək daha geniş musiqi dünyagörüşü qazanırlar.
4. Mədəni dəyərlərin nəsildən-nəslə keçməsi – Musiqi müəllimi mədəni irsi tədris etməklə ənənəvi musiqi biliklərini gələcək nəsillərə ötürmək missiyasını yerinə yetirir.
5. Yaradıcı tədris və motivasiya – Mədəni irsə əsaslanan tədris üsulları şagirdlərin dərsə marağını artırır və onları musiqi sahəsində daha fəal olmağa həvəsləndirir.
6. Qlobal və lokal mədəniyyət arasında bağ qurma – Musiqi müəllimi milli mədəni irsi beynəlxalq musiqi kontekstində izah etməklə şagirdlərə həm yerli, həm də qlobal musiqi anlayışlarını müqayisə etməyi öyrədir.

Bu baxımdan, mədəni irs musiqi müəlliminin pedaqoji və bədii mədəniyyətinin ayrılmaz hissəsidir və onun tədris prosesində mühüm yer tutur.

Mədəni irsin musiqi təhsildə rolu yalnız musiqi biliklərinin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərin şəxsiyyət kimi formalaşmasına, estetik dəyərlərinin inkişafına və musiqiyə dərin yanaşmalarına da təsir göstərir.

“Məlum olduğu kimi, şəxsiyyətin hər tərəfli inkişafı mürəkkəb bir

prosesdir. O, elmlərin əsaslarına yiyələnməyi, geniş biliklər diapazonu onların tətbiq edilməsi, hər hansı bir sahədə yüksək ixtisaalaşmanın müəyyən məqsədə uyğunluğunu və bu kimi keyfiyyətləri nəzərdə tutur.” [1, s.6].

Mədəni irsi yalnız musiqiçilər deyil, cəmiyyətin bütün üzvləri inkişaf etdirməlidir. Mədəni irs bir xalqın kimliyini, tarixini və dəyərlərini əks etdirən ən dəyərli sərvətlərdən biridir. Onun qorunması və inkişaf etdirilməsi müxtəlif sahələrdə çalışan insanların birgə səyləri ilə mümkündür.

Tədqiqatçılar və alimlər – Mədəni irsin dərin araşdırılması, sənədləşdirilməsi və akademik müstəvidə inkişaf etdirilməsi üçün vacibdir.

Təhsil işçiləri və müəllimlər – Şagirdlərə və tələbələrə mədəni irsi öyrətmək, onları bu mövzuda məlumatlandırmaq və maraq oyatmaq üçün mühüm rol oynayırlar.

Dizaynerlər və sənətkarlar – Mədəni elementləri müasir incəsənətdə, geyimdə, memarlıqda və digər sahələrdə yenidən təqdim edərək onun yaşamasına töhfə verə bilərlər.

Dövlət və qeyri-hökumət təşkilatları – Mədəni irsin qorunması və inkişafı üçün proqramlar hazırlayır, hüquqi və maddi dəstəklə təmin edirlər.

İT mütəxəssisləri və media nümayəndələri – Rəqəmsal platformalar, sosial media və texnologiya vasitəsilə mədəni irsi geniş auditoriyaya çatdırmaqda mühüm rol oynayırlar.

İqtisadiyyat və turizm sahəsində çalışanlar – Mədəni irsi qoruyaraq turizmin inkişafına töhfə verir və onu gələcək nəsillərə ötürmək üçün iqtisadi imkanlar yaradırlar.

Musiqiçilər mədəni irsin qorunması və inkişafında mühüm rol oynayırlar lakin cəmiyyətin hər bir üzvü bu prosesdə iştirak etməlidir. Bu fikri şagirdlərimizə musiqi dərslərində təbliğ etməliyik ki, istər gələcəkdə musiqiçi olsunlar istərsə də olmasınlar yenə də mədəni irsimizi qorumağa çalışsınlar.

Gələcək musiqi müəllimi üçün mədəni irsin öyrənilməsi və tədrisdə tətbiqi də çox vacibdir. Milli musiqini öyrədən müəllimlər şagirdlərdə milli şüurun inkişafına kömək edir. Musiqi müəllimləri şagirdlərin yaradıcılığını və ifaçılıq qabiliyyətini inkişaf etdirməlidirlər və bunun üçün də milli musiqi elementlərindən istifadə edə bilərlər. Həmçinin müasir musiqi müəllimi mədəni irsi şagirdlərə tədris edən zaman innovativ təlim metodlarından istifadə edərək dərsi daha maraqlı, əyləncəli, aktiv və yadda qalan edə bilər.

Mədəni irs, xüsusilə də milli musiqi irsi, musiqi təhsilində mühüm yer tutur. Bu dəyərlərin qorunması və təbliği üçün musiqi müəllimlərinin bu irsi dərindən mənimsəməsi və müasir təhsil metodları ilə şagirdlərə ötürməsi vacibdir. Beləliklə, gələcək musiqi müəllimləri yalnız peşəkar biliklərə yiyələnmir, həm də milli dəyərlərin qoruyucusu kimi çıxış edirlər.

Şagirdlərimizdə mədəni ətraf mühit formalaşdırmaq üçün ənənəvi musiqiyə gündəlik təmas etmək lazımdır. Şagirdlərin Azərbaycan xalq

musiqisini və xüsusi ilə Azərbaycan muğamını dinləməsi, onları gündəlik musiqi repertuarına daxil etmələri lazımdır.

"Muğamlar Azərbaycan musiqisinin janrları içərisində ən əhəmiyyətli və əsas yerlərdən birini tutur. Muğam Azərbaycan musiqi təfəkkürünün ən ali və parlaq yaradıcılıq təzahürüdür." [2, s.61].

**Nəticə.** Gələcək musiqi müəllimləri üçün müasir və elmi əsaslı dərsliklər, metodik vəsaitlər və musiqi antologiyaları hazırlanmalıdır. Gələcək musiqi müəllimlərinin Azərbaycan mədəni irsi ilə bağlı biliklərinin artırılması üçün akademik təhsil, praktiki məşğələlər, mədəni tədbirlər, texnologiyadan istifadə və kurikulum yenilikləri kimi müxtəlif yanaşmalardan istifadə olunmalıdır. Bu prosesdə universitetlər, mədəniyyət müəssisələri və dövlət qurumları əməkdaşlıq etməli, müəllimlərə musiqi irsini qorumaq və inkişaf etdirmək üçün geniş imkanlar yaradılmalıdır.

**Aktuallıq.** Mədəni irsin musiqi təhsilində rolu təkcə tədris aspekti ilə məhdudlaşmır, bu amil həm də milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi baxımından əvəzsiz əhəmiyyət kəsb edir. Bu səbəbdən musiqi təhsili sistemində mədəni irsə əsaslanan yanaşmaların genişləndirilməsi zəruridir.

## ƏDƏBİYYAT

1. Əsgərova S. Musiqi müəllimi. Bakı, işıq, 1993, 184 s.
2. Əfəndiyev T. Azərbaycan mədəniyyəti və incəsənəti. Kitab-ensiklopediya. Bakı 2003, 208 s.
3. Qədimova J. Musiqinin tədrisi metodikası. Dərslik, Bakı,2023, 484s.
4. Rəcəbov O., Hidayətova F. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. Bakı, 2013, 258 s.
5. Məmmədova S. Mədəniyyətşünaslıq. Dərslik. Bakı: Kooperasiya, 2001, 202 s.
6. Aslanov A.M. Estetika aləmində. Bakı, 1988, 248 s.
7. Quliyev S. Musiqi və onun tədrisi metodikası. Bakı,1978,128 s.
8. Nəcəfzadə A. Azərbaycan incəsənət tarixi. Bakı: Şərq-Qərb, 2018, 327 s.
9. İsmayılov M. Azərbaycan xalq musiqisinin janrları. Bakı: Mütərəccim, 2023, 136 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nelli Abutidze**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 86-92**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 86-92**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 86-92**

**UOT 37.018.43**

**Ə.M.Cabbarov**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: aladdin.cabbarov.2000@gmail.com

# İNKİŞAFEDİCİ PEDAQOJİ TEXNOLOGİYALARIN MAHİYYƏTİ

***Açar sözlər:*** *texnologiya, tədris metodları, problemli təlim, evristik, interaktiv*

Məqalədə tədris prosesi və onun həyata keçiriliməsində inkişafedici texnologiyaların tətbiqindən bəhs olunur. Son illərdə təhsilin keyfiyyətinin artırılması, qarşıya qoyulan məqsədə nail olmaq, dövrün tələblərinə uyğun olaraq gənc nəslin - öyrənənlərin daha effektiv üsullarla tərbiyə edilməsi, bilik və bacarıqlarının artırılması təhsilin aktual elmi-praktik problemlərindən birinə çevrilmişdir. Təhsil prosesinin iştirakçıları zamanın və cəmiyyətin tələbləri ilə ayaqlaşmaq üçün müasir təhsil texnologiyalarından yararlanmalı və ondan istifadə etməyi bacarmalıdır. Texnologiyadan düzgün istifadə edən hər kəs öyrənmə təcrübəsini artıra, təhsil resurslarına daha asan çıxış edə, əməkdaşlığı gücləndirə və fərqli öyrənmə üslublarına uyğunlaşa bilər. Təhsil texnologiyaları isə daha güclü və inkişaf etmiş bir cəmiyyət qurmağa dəstək olur. Məqalədə tədris zamanı istifadə olunan metodların çatışmazlığları və inkişafedici texnologiyaların üstünlükləri xarakterizə olunur. Həmçinin, məqalədə problemli, evristik və interaktiv təlim texnologiyaları haqqında qısa məlumat verilir. Bu texnologiyalar şagirdlərin yaradıcılığını, tənqidi təfəkkürünü və müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirməyə yönəlib. Müasir təhsil yanaşmalarının tətbiqi, həm də müəllimlərin peşəkar fəaliyyətini zənginləşdirir, onlara təcrübə qazandırır.

**А.М.Джаббаров**

# СУЩНОСТЬ РАЗВИВАЮЩИХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ

***Ключевые слова:*** *технология, методы обучения, проблемное обучение, эвристический, интерактивный*

В статье рассматривается учебный процесс и применение развивающих технологий в его реализации. Повышение качества образования, достижение

поставленной цели, более эффективное воспитание подрастающего поколения - учащихся в соответствии с требованиями времени, углубление их знаний и умений стали в последние годы одной из актуальных научных и практических проблем образования. Участники образовательного процесса должны использовать современные образовательные технологии и уметь эффективно применять их, чтобы соответствовать требованиям времени и общества. Правильное использование технологий позволяет каждому улучшить свой учебный опыт, получить более легкий доступ к образовательным ресурсам, укрепить сотрудничество и адаптироваться к различным стилям обучения. Образовательные технологии способствуют построению более сильного и развитого общества. В статье характеризуются недостатки применяемых методов обучения и преимущества развивающих технологий. Кроме того, дается краткая информация о проблемном, эвристическом и интерактивном обучении. Эти технологии направлены на развитие у студентов творческих способностей, критического мышления и навыков самостоятельного обучения. Применение современных образовательных подходов также обогащает профессиональную деятельность педагогов и позволяет им накапливать опыт.

**A.M.Jabbarov**

## THE ESSENCE OF PEDAGOGICAL DEVELOPMENTAL TECHNOLOGIES

***Key words:*** *technology, teaching methods, problem-based learning, heuristic, interactive*

The article discusses the teaching process and the application of developmental technologies in its implementation. In recent years, improving the quality of education, achieving the set goal, educating the younger generation – learners – in more effective ways in accordance with the requirements of the time, and increasing their knowledge and skills have become one of the current scientific and practical problems of education. To keep up with the demands of time and society, participants in the education process must utilize modern educational technologies and be able to use them effectively. Proper use of technology allows individuals to enhance their learning experience, gain easier access to educational resources, strengthen collaboration, and adapt to different learning styles. Educational technologies contribute to building a stronger and more developed society. The article characterizes the shortcomings of teaching methods and the advantages of developmental technologies. Additionally, it provides a brief overview of problem-based, heuristic, and interactive teaching technologies. These

technologies are aimed at developing students' creativity, critical thinking, and independent learning skills. The application of modern educational approaches also enriches the professional activities of teachers and provides them with experience.

Şəxsiyyətin inkişafı və tərbiyəsi məsələləri bütün dövrlərdə pedaqogikanın tədqiq etdiyi problemlərin mərkəzində olmuşdur. Amma inkişaf anlayışının məzmununun necə dərk edilməsindən asılı olaraq, məsələyə yanaşma tərzi həmişə öz müxtəlifliyi ilə fərqlənmişdir. Pedaqogika elmi uşaqların tərbiyəsi, təhsili və inkişafı ilə məşğul olan nəzəri və praktik yanaşmalar sistemidir. O, uşaqların şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır və onların cəmiyyətə uyğun fərdlər kimi yetişməsini təmin edir. Müasir dövrdə şagirdlərin fərdi qabiliyyətləri, maraqları və öyrənmə sürətləri nəzərə alınaraq fərdiləşdirilmiş yanaşmaya ehtiyac artır.

Bu gün tədris prosesində müasir inkişafedici təlim texnologiyaların (problemli, evristik, interaktiv və s.) və onlara daxil olan metodların tətbiqi, kompüter texnikasından, innovasiyalardan, elektron lövhələrdən, elektron dərslik və dərs vəsaitlərindən istifadə heç şübhəsiz tədrisin keyfiyyətini xeyli dərəcədə yüksəldir, biliklərin daha səmərəli mənimsənilməsinə, uzun müddət yadda qalmasına, şagirdlərin texniki bacarıq və qabiliyyətlərinin, yaradıcı və məntiqi təfəkkürünün inkişafına səbəb olur.

Təhsildə inkişafedici texnologiyaların əhəmiyyətini araşdırmadan öncə bu anlayışın nə olduğuna nəzər yetirək. Texnologiya yunan sözü olub, "texno" – sənət, "logiya" – elm deməkdir və sənətə sistemli yanaşma kimi başa düşülür. Yəni, müəyyən sahələrdə biliklərdən istifadə edərək tapşırıqları xüsusi metodlarla yerinə yetirmə üsuludur. Təhsillə əlaqəli olan "texnologiya" sözü mütəxəssislərin diqqəti uşağın şəxsiyyətinə təsir etməyə yönəldiyi andan pedaqoji elmin leksikonuna daxil olmuşdur.Bespalkonun tərifinə görə, "pedaqoji texnologiya" anlayışı təhsil prosesinin həyata keçirilməsi üçün bir texnikadır. Pedaqoji elmdəki texnologiyalar ilk növbədə tədris prosesinin təkmilləşdirilməsinə yönəlib. Uğurla yerinə yetirilən pedaqoji texnologiya keçirilən fənlərin tədrisinə bir çox müsbət təsir göstərə bilər. Müasir texnologiyaların və innovativ tədris metodlarının tətbiqi, həm şagirdlərin marağını artırır, həm də onların müəyyən bacarıqlarının inkişafına kömək edir.Texnologiya insanın təhsil vasitəsilə qazandığı bilik və bacarıqlardan daha effektiv və daha səmərəli şəkildə faydalanmasına, onları daha sistemli və şüurlu şəkildə tətbiq etməsinə kömək etmişdir. Beləliklə, texnologiya və təhsil birlikdə uğura nail olmağa şərait yaradır.

Bu gün ənənəvi pedaqogikada "tədris texnologiyası" anlayışı ümumiyyətlə qəbul edilmir. YUNESKO sənədlərində təhsil texnologiyası, təhsil formalarının optimallaşdırılması məqsədi ilə texniki və insan resursları və onların qarşılıqlı əlaqəsi nəzərə alınmaqla bütün tədris və təlim prosesinin yaradılması, tətbiqi və

müəyyənləşdirilməsinin sistemli metodu kimi nəzərdən keçirilir. Bir tərəfdən, tədris texnologiyası təhsil məlumatlarının işlənməsi, təqdim edilməsi, dəyişdirilməsi üsulları və vasitələrinin məcmusudur, digər tərəfdən, müəllimin zəruri olan texniki və ya informasiya vasitələrindən istifadə edərək təlim prosesi zamanı şagirdlərə göstərilən təsir üsulları haqqında elmdir. Tədris texnologiyasında tədrisin məzmunu, metod və vasitələri bir-biri ilə əlaqəli və bir-birindən asılıdır. Müəllimin pedaqoji məharəti lazımi məzmunu seçmək, proqrama və qarşıya qoyulmuş təhsil məqsədlərinə uyğun olaraq optimal metod və dərs vəsaitlərini tətbiq etməkdən ibarətdir.

Problemli təlim – şagirdin yaradıcı potensialını inkişaf etdirmək üçün effektiv bir sistemdir və təhsil prosesinin təkmilləşdirilməsi, mükəmməlləşdirilməsi və modernləşdirilməsi üçün əla imkanlar yaradır. Problemli təlimin mahiyyəti problemli situasiya (tapşırıq) qurmaq və bu vəziyyətdən çıxmaq üçün optimal həll yolu tapmaq bacarığını öyrətməkdir. Eyni zamanda şagirdlər dərsdə fəal iştirak edirlər. Onlar artıq hazır bilik almırlar, lakin təcrübə və bacarıqlarına əsaslanaraq yeni problemin həlli yolunu tapmalıdırlar.Həmçinin, problemli vəziyyət zamanı uşaqlar öz biliklərinin qeyri-adekvatlığını dərk edir və onları yeni bilik və bacarıqlar axtarışına sövq edir.Problemli təlim prosesində şagirdlər müstəqil şəkildə düşüncə fəallığı üsullarından istifadə edir, eksperiment aparır, müşahidələr keçirir, əldə etdikləri nəticələri təhlil edir, fikir yürüdür və müzakirələr aparırlar. Onlar qaydaları, qanunları və teoremləri özləri üçün kəşf edirlər. Bu yanaşma dərsə marağı artırır, şagirdlərin təşəbbüskarlığını inkişaf etdirir və hadisələrin daxili mahiyyətini, eləcə də onların qarşılıqlı əlaqələrini anlamağa kömək edir.

Axtarış isə yaradıcı təfəkkürün inkişafı üçün ən vacib şərtlərdən biridir. Problemli təlimdə müəllim təcrübəli bir dirijor kimi tədqiqat prosesini təşkil edir. Bəzi hallarda müəllim bu axtarışı şagirdlərin köməyi ilə özü idarə edə bilər. Problemi qoyaraq, onun həlli yolunu müəyyənləşdirir, şagirdlərlə birlikdə müzakirələr aparır, fərziyyələr irəli sürür, onları birgə müzakirə edir, etirazları rədd edir və həqiqəti sübut edir. Başqa sözlə, müəllim şagirdlərə elmi düşüncə yolunu nümayiş etdirir və şagirdləri elmi axtarış prosesinin iştirakçılarına çevirir. Başqa bir halda müəllimin rolu minimal ola bilər — o, şagirdlərə problemlərin həlli yollarını tamamilə müstəqil şəkildə axtarmaq imkanı verir. Lakin burada da müəllim passiv mövqe tutmur, əksinə, lazım gəldikdə şagirdlərin düşüncəsini gizlicə istiqamətləndirir ki, bəhrəsiz cəhdlərdən və vaxt itkisindən qaçsınlar. Şagirdlər problemi həll etmək üçün müxtəlif mənbələrdən istifadə edərək məlumat toplayır, analiz edir və fərziyyələr irəli sürürlər. Bu prosesdə onlar həm nəzəri biliklərini, həm də praktiki bacarıqlarını tətbiq edirlər.Şagirdlər əldə etdikləri nəticələri sinifdə təqdim edir, müzakirə edir və müəllimin rəhbərliyi ilə düzgün nəticəyə gəlirlər.

Dərslərdə uğurla tətbiq oluna bilən texnologiyalardan biri evristik təlimdir. Evristik təlim, şagirdlərin yaradıcı şəxsiyyət kimi inkişafını dəstəkləyir, onların

universal bacarıq və vərdişlərini formalaşdırmağa imkan verir. Bu yanaşma, şagirdlərdə öyrənmə bacarığının əsaslarını və təlimə marağını yaradır, həmçinin özünütəşkil və özünüinkişaf üçün şərait yaradır.Praktik baxımdan, evristik təlimin bir neçə xüsusiyyəti vardır. Birincisi, şagirdlərdə qeyri-intellektual amillərin inkişafına diqqət yetirir. Ənənəvi təhsil məlumatın çatdırılmasına fokuslanır, şagirdlərə müəllimin şifahi təlimatları ilə müvafiq bilik və bacarıqları mənimsətməyə kömək edir. Evristik təlim isə təlim rəhbərliyinə önəm verir, şagirdlərin psixoloji fəaliyyətlərinin qanunlarını nəzərə alaraq müvafiq təlim metodları və məzmunu tətbiq edir. İkincisi, şagirdlərin maraqlı şəkildə öyrənməsinədiqqət yetirir. Maraq ən yaxşı müəllimdir, xüsusilə canlı, fəal və diqqətini cəmləməkdə çətinlik çəkən uşaqlar üçün. Üçüncüsü, evristik təlim şagirdlərin öyrənmə prosesində təşəbbüslərinə diqqət yetirir. Ənənəvi təlimdə müəllimlərin rolu daha çox ön planda olur və müəllim mərkəzli təlim fəaliyyətlərinə üstünlük verilir. Bu, uzun müddət ərzində şagirdlərin öyrənməyə olan marağını azalda bilər. Evristik təlim isə şagirdlərin öyrənmə subyektinə hörmət edir, onları həqiqətən öyrənən və düşünən fərdlərə çevirir. Xüsusilə, öyrənmə prosesində müəllimlər şagirdlərin fərdi öyrənmə vəziyyətinə və fərqliliklərinə əsaslanaraq müvafiq təlim rəhbərliyi təqdim etməli, şagirdlərin müxtəlif öyrənmə ehtiyaclarını daha yaxşı qarşılamalıdır.

Qabaqcıl müəllim və alimlər tərəfindən bu gün əllidən yuxarı evristik metod işlənib-hazırlanmışdır. Onlardan bir neçəsinə nəzər salaq:

**TRIZ** – ixtiraçılıq məsələlərinin həlli nəzəriyyəsidir, sovet mühəndisi Genrix Altşuller tərəfindən yaradılmış bir metodologiyadır. Bu metod problemlərin yaradıcı və sistemli həlli üçün nəzərdə tutulub və xüsusilə mühəndislik, dizayn və pedaqogika sahələrində tətbiq olunur. Onun mahiyyəti ixtiraçılıq məsələsinin və ya vəziyyətinin müəyyən edilməsi, əsas ziddiyyətlərin aşkar olunması, mövcud informasiya bazasından istifadə edilməsi, texniki sistemlərin inkişaf prinsiplərinə əsaslanması və problemin həlli üçün alqoritmin qurulmasından ibarətdir.

**İnsayt** (ingilis dilində insight – mahiyyətə nüfuz etmə, ilham, qəfil dərk etmə) – dərketməyə əsaslanan bir metoddur. Problemin həlli qəfil dərk etmə yolu ilə tapılır.Tapşırıqların xüsusi şəkildə təqdim olunması insaytın baş verməsini sürətləndirir.

İnsayt metodunun tətbiqi ilə öyrənənlərdə tənqidi və yaradıcı düşünmə bacarıqlarını, müstəqil düşünmə və analiz etmə qabiliyyətini inkişaf etdirmək olar. Həmçinin biliklərin daha dərin və uzunmüddətli yadda saxlanılmasına kömək edir.

**Assosiativ** nəzəriyyə – bu zaman tədris duyğu ilə qavrama prosesinə söykənir. Tədrisin təşkilində əsas şərt öyrənənin praktikaya, tapşırıqlara cəlb olunmasıdır ki, bu da məsələnin həlli üçün assosiasiyaların formalaşmasına imkan yaradır.Evristik təlimdə assosiativ metod, xüsusilə yaradıcı təfəkkürü və məntiqi əlaqələndirmə bacarıqlarını inkişaf etdirmək üçün istifadə olunur.

İnkişafedici pedaqoji texnologiyalar arasında yer alan evristik təlim, dərsləri

daha maraqlı və interaktiv edir. Bu yanaşma şagirdlərin yaradıcı qabiliyyətlərini inkişaf etdirməklə yanaşı, onların təhsil məzmununu daha dərindən mənimsəməsinə kömək edir. Eyni zamanda, müstəqil düşünmə, tədqiqat aparmaq və analitik təfəkkürü inkişaf etdirmək baxımından mühüm rol oynayır.

İnkişafedici təlim texnologiyalarından danışarkən interaktiv təlimin də mahiyyətini vurğulamalıyıq. Təhsildə interaktiv təlim, əməkdaşlıqla öyrənmə səviyyəsidir, çünki müəyyən edilmiş təhsil məqsədləri və tapşırıqları şagirdlərin birgə işi vasitəsilə uğurla yerinə yetirilir. Buna görə də, aktiv - interaktiv fenomeni, müasir təlimin təşkilində və bütün tədris işinin formalarının saxlanılmasında əsas hissədir. Bu yanaşma, şagirdlərin dərs prosesində passiv dinləyici kimi deyil, bilavasitə iştirakçı kimi rol almasını təmin edir. İnteraktiv termini "dialoq, qarşılıqlı fəliyyət göstərmək" kimi izah olunur. Bu təlimin əsas məqsədi yalnız şagirdlərin yaddaşını yeni elmi biliklər və informasiyalarla zənginləşdirmək deyil, eyni zamanda onların düşüncə tərzinin davamlı inkişafını təmin edərək, bilikləri müstəqil şəkildə əldə etmə və mənimsəmə bacarıqlarını formalaşdırmaqdır. Həmçinin, bu yanaşma şagirdlərin əsas bacarıq və vərdişlərini, şəxsi keyfiyyət və qabiliyyətlərini inkişaf etdirməyə yönəlir. Bu prosesdə şagirdlər müəllimin rəhbərliyi altında xüsusi seçilmiş, asan anlaşılan və yadda qalan əsas tədris materiallarını öyrənirlər.

Müəllimlər getdikcə daha çox interaktiv tədris metodlarına (təqdimat, beyin həmləsi, BİBÖ, Venn diaqramı və s.) üstünlük verirlər ki, bu da şagirdlərin diqqətini cəlb etmək və onlarda öyrənməyə həqiqi maraq yaratmaq məqsədi daşıyır. Bu metodlar dərslərdə fəallığın ən yüksək səviyyəyə çatmasına və nəticədə tədrisin inkişaf yönünün gücləndirilməsinə kömək edir.

**Aktuallıq.** Beləliklə, inkişafedici təlim texnologiyalarının təlim prosesində tətbiqi, problemli təlim, evristik, interaktiv yanaşmalardan istifadə təlim nəticələrinin uğurlu olmasına şərait yaradır. Bu yanaşmalar ənənəvi təlim modellərindən fərqli olaraq, biliklərin şagirdə hazır şəkildə verilməsini deyil, onun özünün axtararaq, araşdıraraq və əmək sərf edərək öyrənməsini təşviq edir. Sözügedən metodlar öyrənənləri passiv dinləyicidən fəal iştirakçıya çevirir, onların öyrənmə prosesində motivasiyasını və məsuliyyət hissini artırır. Bu baxımdan, müasir təlim texnologiyalarının təhsildə məqsədyönlü və sistemli şəkildə tətbiqi kompetent və yaradıcı mütəxəssislərin formalaşmasında mühüm rol oynayır, cəmiyyətin sosial-iqtisadi inkişafına töhfə verə biləcək insan resurslarının hazırlanmasına imkan yaradır.

## ƏDƏBİYYAT

1. Nəzərov A.M. Müasir təlim texnologiyaları. Dərs vəsaiti. ADPU-nəşriyyatı. Bakı, 2012, 103 s.
2. Хуторской А.В. "Дидактическая эвристика", Москва, 2003, 416 s.

3. Bünyatova F., Bəhlul Abdulla. Təlim və tərbiyədə interaktiv texnologiya. Bakı: “Ozan”, 2000
4. Axundova G. Musiqi dərslərində evristik texnologiyanın tətbiqi. / Məqalə. Bakı, ADPU, 2018
5. Veysova Z. Fəal təlim texnologiyaları: psixoloji mexanizmləri və quruluşu./ Kurikulum, № 1, Bakı, 2008

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.036(479.24):94(100)"2020"**

**Z.F.Əliyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: zulfiyyeliyeva8@gmail.com

# ZƏFƏR GÜNÜNÜN AZƏRBAYCAN MUSİQİSİNDƏ TƏRƏNNÜMÜ

***Açar sözlər:*** *vətənpərvərlik, Zəfər günü, mədəniyyət, musiqi tədbirləri, Şuşa*

44 günlük Vətən müharibəsindən sonra əldə olunan zəfər, Azərbaycanın musiqi və mədəni həyatında dərin iz qoyaraq, yeni festival və konsertlərin yaranmasına səbəb oldu. Xüsusilə Şuşada keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı və 8 Noyabr Zəfər Gününə həsr olunmuş tədbirlər, qələbənin ruhunu musiqi vasitəsilə yaşatdı. Keçirilən festival və tədbirlər Azərbaycanın Zəfər gününü qeyd etmək və müharibənin qəhrəmanlarını yad etmək məqsədi daşıyır. Müxtəlif janrlarda – simfonik, estrada, muğam və marşlarda Qarabağ mövzusu tərənnüm olundu. "Şuşa İli" çərçivəsində keçirilən musiqi, teatr və poeziya tədbirləri isə mədəni dirçəlişin simvoluna çevrildi. Həmçinin Azərbaycan diaspor təşkilatları tərəfindən Şuşa mədəni irsinin tanıdılması aksiyaları təşkil olundu.

**З.Ф.Алиева**

# ПРОСЛАВЛЕНИЕ ДНЯ ПОБЕДЫ В АЗЕРБАЙДЖАНСКОЙ МУЗЫКЕ

***Ключевые слова:*** *патриотизм, День Победы, культура, музыкальные мероприятия, Шуша*

Победа, одержанная Азербайджаном в 44-дневной Отечественной войне, оставила глубокий след в музыкальной и культурной жизни страны и стала стимулом для появления новых фестивалей и концертов. Особенно важными стали Международный музыкальный фестиваль «Харыбюль-бюль», проходящий в Шуше, и мероприятия, посвящённые Дню Победы 8 ноября. Эти события передают дух победы через музыку. Фестивали и концерты направлены на то, чтобы отметить День Победы и почтить память героев войны. Темы Карабаха звучали в различных жанрах — от симфонической и эстрадной музыки до мугама и маршей. Мероприятия, организованные в рамках «Года Шуши», включая музыкальные, театральные и поэтические вечера, стали символом культурного возрождения. Также

азербайджанские диаспорские организации провели акции по популяризации культурного наследия Шуши.

**Z.F.Aliyeva**

## THE GLORIFICATION OF VICTORY DAY IN AZERBAIJANI MUSIC

***Key words:*** *patriotism, Victory Day, culture, musical events, Shusha*

The Victory achieved after the 44-day Patriotic War left a profound impact on Azerbaijan's musical and cultural life, leading to the emergence of new festivals and concerts. Notably, the "Khari Bulbul" International Music Festival held in Shusha and the events dedicated to the Victory Day on November 8 have kept the spirit of the triumph alive through music. These festivals and events aim to commemorate Azerbaijan's Victory Day and honor the heroes of the war. The theme of Karabakh was expressed across various genres including symphonic, pop, mugham, and marches. Musical, theatrical, and poetic events organized within the framework of the "Year of Shusha" became a symbol of cultural revival. Additionally, Azerbaijani diaspora organizations conducted initiatives to promote the cultural heritage of Shusha internationally.

**Mövzunun aktuallığı:** Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı qələbə yalnız ölkənin siyasi və coğrafi bütövlüyünün yenidən bərpası ilə məhdudlaşmırdı, həmçinin onun mədəni və mənəvi sərhədlərinin yenidən üzə çıxarılması baxımından əlamətdar hadisə kimi qəbul olunurdu. Müharibədən sonrakı dövrdə keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı, "Zəfər Günü"nə həsr olunmuş konsert proqramları və "Şuşa İli" çərçivəsində gerçəkləşdirilən müxtəlif mədəni tədbirlər təkcə milli irsin dirçəldilməsinə xidmət etməmiş, eyni zamanda yeni musiqi nümunələrinin ərsəyə gəlməsinə zəmin yaratmışdır.

Mövzunun elmi baxımdan aktuallığı ondadır ki, bu proseslər musiqi sənətində vətənpərvərlik ruhunun güclənməsinə, simfonik və estrada janrlarında Qələbə mövzusunda əsərlərin yaranmasına səbəb olmuşdur. Eyni zamanda, Zəfər Günü münasibətilə təşkil olunan musiqi tədbirləri Azərbaycanın mədəni diplomatiyasının əhəmiyyətli alətlərindən birinə çevrilmiş, xalqın qələbə ruhunu və milli həmrəyliyini ifadə edən bədii məkanlar yaratmışdır. Bu sahədə aparılan elmi tədqiqatlar həm müasir musiqi tarixinin araşdırılması, həm də milli identikliyin formalaşma proseslərinin təhlili baxımından böyük elmi və praktik əhəmiyyət daşıyır.

Hər bir xalqın tarixində elə mühüm günlər mövcuddur ki, bu tarixlər zamanla sadəcə təqvim üzərindəki qeydlərdən ibarət olmaqdan çıxır, milli kimliyin, qürurun və dirənişin simvoluna çevrilir. Azərbaycan xalqı üçün 8 Noyabr

– Zəfər Günü məhz belə bir önəmli ictimai-siyasi və mənəvi mahiyyətə malik tarixi bir gündür.  Otuz ilə yaxın bir dövrü əhatə edən həsrətin sonunda əldə olunan bu parlaq qələbə yalnız hərbi-siyasi sahədə deyil, eyni zamanda kollektiv yaddaşda və milli-mədəni kimliyində dərin izlər buraxmışdır.

Bu qələbə Azərbaycan Respublikasının Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli rəhbərliyi nəticəsində əldə olunub. Qarabağ — uzun illər işğal altında qalmış və nəhayət azad edilmiş bu qədim diyar — milli-mədəni yaddaşımızın və musiqi irsimizin fundamental dayağı kimi, Azərbaycan xalqı üçün ən önəmli mənəvi sərvətlərdəndir. Qarabağ bölgəsi Azərbaycan musiqi mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır. Bu diyar əsrlər boyu xalq musiqisi, muğam, klassik və peşəkar yaradıcılığın inkişaf etdiyi bir mədəniyyət ocağı olmuşdur. Bu zəngin irsin ən görkəmli təmsilçilərindən biri Üzeyir Hacıbəylidir. Onun dəyərli yaradıcılıq irsi, operaları, romansları və Dövlət Himninin musiqisi milli kimliyimizin bədii ifadəsinə çevrilmişdir. Eyni zamanda, Qarabağ muğam məktəbinin parlaq nümayəndəsi olan Xan Şuşinski özünəməxsus ifa tərzi ilə bu irsin canlı daşıyıcısına çevrilmişdir. Mənim fikrimcə “Qarabağ şikəstəsi”nnionu kimi təsirli oxuyan olmamışdır. Xan Şuşinskinin adı çəkiləndə qeyri- ixtiyari olaraq Səməd Vurğunun “Azərbaycan” şeirindən bu misralar yada düşür.

Könlüm keçir Qarabağdan
Gah o dağdan, gah bu dağdan
Axşamüstü qoy uzaqdan
Havalansın xanın səsi
Qarabağın şikəstəsi.

44 günlük Vətən müharibəsində qazanılan tarixi qələbənin şərəfinə təsis edilmiş Zəfər Günü ilə bağlı təşkil olunan konsert proqramları və musiqi festivalları xüsusi diqqətə layiqdir. Bu tədbirlər çərçivəsində səsləndirilən əsərləri qeyd etmək, onların sənət və mənəvi dəyərini vurğulamaq mənim üçün həm mənəvi məsuliyyət, həm də elmi araşdırmanın vacib istiqamətlərindən biridir.

2021-ci ildən etibarən Azərbaycan Respublikasında qeyd olunmağa başlanan Zəfər Günü, yalnız siyasi və hərbi qələbənin deyil, eyni zamanda mədəni dirçəlişin təcəssümünə çevrilmişdir. Bu kontekstdə keçirilən musiqi festivalları və konsert proqramları təkcə əyləncə xarakteri daşımayıb, həm də milli kimlik, musiqi irsi və mədəni diplomatiyanın ifadə vasitəsi olmuşdur.

İlk olaraq “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı – Şuşa (9–11 May 2023) qeyd etmək istəyirəm. Festivalın təşkilatçıları, Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyi, keçirildiyi yer Şuşa şəhəri, Cıdır düzü.  Həmçinin fesivalda iştirak edənlər arasında, Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan,

Türkmənistan, Macarıstan, Moldova, Özbəkistan, Rusiya, Tatarıstan, Şimali Kipr Türk Cümhuriyyəti var idi.

2023-cü ildə "Zəfər Günü" münasibətilə təşkil olunmuş Musiqi və Teatr Festivalı, Azərbaycanın mədəni həyatında əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutan bu genişmiqyaslı festival, həm paytaxt Bakını, həm də müxtəlif bölgələri əhatə etmişdir. Festival çərçivəsində 8–10 noyabr tarixlərində Bakı, Gəncə, Sumqayıt, İsmayıllı, Biləsuvar, Sabirabad, Xaçmaz və digər şəhər və rayonlarda müxtəlif musiqi və teatr tədbirləri həyata keçirilmişdir.

8 noyabrda Azərbaycan Dövlət Filarmoniyasının səhnəsində təşkil olunan konsert proqramı ölkənin klassik musiqi irsini əks etdirən əsərlərlə yadda qalmışdır. Tədbirdə Üzeyir Hacıbəyli, Fikrət Əmirov, Müslüm Maqomayev, Vasif Adıgözəlov kimi dahi bəstəkarların yaradıcılığına müraciət edilmiş, onların əsərləri canlı ifada səsləndirilmişdir. 9 və 10 noyabrda isə ölkənin müxtəlif bölgələrində konsertlər və teatr tamaşaları ilə zəngin proqram təqdim olunmuşdur.

Festivalda tanınmış sənətkarlar – Xalq Artisti Tural Ağasıyev, Anton Verstandt, Nigar İsmayılova, Nasibə Bədəlbəyli, Adil Baxışlı, Safura Aslanova, İntiqam Allahverdiyev kimi ifaçılar çıxış etmiş, eyni zamanda Azərbaycan Dövlət Xoru (bədii rəhbər: Xalq Artisti Gülnaz İmanova) yüksək səviyyəli ifaları ilə tədbirin bədii məzmununu zənginləşdirmişdir.

Festivalın əsas ideyası yalnız musiqi sənətini təbliğ etmək deyil, eyni zamanda Zəfər Gününün ictimai-siyasi əhəmiyyətini mədəni müstəvidə təqdim etmək, həmçinin Vətən müharibəsinin qəhrəmanlarını yad etməklə onların əziz xatirəsinə ehtiram göstərmək idi. Bu baxımdan festival yalnız bədii proqram deyil, həm də mədəni yaddaşın canlandırılması baxımından mühüm rol oynamışdır.

Zəfər Günü münasibətilə keçirilən konsert və teatr proqramlarında vətənpərvərlik ruhu ön planda olmuş, musiqi sənəti bu ruhun təbliğində güclü vasitəyə çevrilmişdir. Müharibədən sonra bəstəkarlar tərəfindən yaradılmış yeni əsərlər, qəhrəmanlıq və birlik ideyasını musiqi vasitəsilə geniş auditoriyaya çatdırmağı hədəfləmişdir.

1. Yeni Vətənpərvər Musiqi Nümunələri – 44 günlük Vətən müharibəsi dövründə və sonrasında bəstəkarlar bir çox yeni musiqi əsərləri təqdim etmişdir. Simfonik poema, marş, vokal-instrumental əsərlər və estrada janrında mahnılar bu dövrün əsas musiqi formaları olmuşdur. Franghiz Əlizadənin "Zəfər nəğməsi" və Elmir Nəzərovun "Qarabağ Azərbaycandır!" simfonik poeması bu istiqamətdə seçilən nümunələrdəndir. Bu əsərlər həm emosional gücü, həm də musiqi dili ilə milli ruhun yüksəldilməsinə xidmət etmişdir.
2. Əsgər və Qəhrəmanlıq Marşları – Qələbənin rəmzinə çevrilmiş marş janrı bu dövrdə xüsusi əhəmiyyət kəsb etmişdir. Müharibə dövründə və sonrasında yazılmış Azad Əliyevin "Qəhrəman əsgər" marşı, Zülfiyyə

Sadıqovanın "Zəfər Marşı" kimi nümunələr əsgər ruhunun qaldırılmasına yönəlmişdir və müxtəlif tədbirlərdə təkrar-təkrar ifa olunmuşdur.

3. Populyar İfaçıların Töhfələri – Tanınmış estrada müğənniləri də bu prosesə fəal şəkildə qoşulmuşdur. Onların ifa etdiyi vətənpərvər mahnılar televiziya, sosial media və konsert platformalarında geniş yayılmışdır.
4. Konsertlər və Festivallar – Zəfər Gününə həsr olunmuş musiqi tədbirləri sırasında "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı (Şuşa) xüsusi əhəmiyyət daşıyır.
5. Gənc Bəstəkarların Layihələri – Yaradıcı gənclər də bu dövrdə fəallıq göstərmiş, "44 günə 44 bəstə" kimi layihələr çərçivəsində yeni əsərlər ərsəyə gətirmişdir. Bu kompozisiyalar həm ənənəvi, həm də müasir musiqi elementlərini özündə birləşdirməklə aktual mövzuya yaradıcı yanaşmanı əks etdirmişdir.
6. Musiqi Klipləri və Sosial Platformalar – Müharibəyə həsr olunmuş bir çox musiqi əsəri vizual formatda təqdim edilmiş, musiqi klipləri çəkilmiş və sosial media platformalarında geniş şəkildə yayılmışdır. Bu videolar milli emosiyaları oyatmaqla yanaşı, həm də gənc nəsil arasında vətənpərvərlik ruhunun təbliğində əhəmiyyətli rol oynamışdır.

Vətən müharibəsindən sonra yaranan musiqi əsərləri yalnız emosional ifadə vasitəsi deyil, eyni zamanda tarixi yaddaşın musiqi dilində sənədləşməsi kimi çıxış etmişdir. Bu dövrün musiqi nümunələri arasında aşağıdakı əsərlər xüsusi önəm daşıyır:

- Firəngiz Əlizadə – "Zəfər nəğməsi": Simfonik-vokal janrında yazılmış bu əsər qələbənin fəlsəfi və emosional çalarlarını özündə əks etdirir.
- Elmir Nəzirov – "Qarabağ Azərbaycandır!": Simfonik poema janrında yazılmış bu kompozisiya Qarabağın azadlığına həsr olunmuş yüksək səviyyəli musiqi əsəridir.
- Cavanşir Quliyev – "Şəhidlər", "Zəfər yolu": Vətənpərvərlik mövzusunda yazılmış bu mahnılar xalqın mübarizə və qürur hisslərini melodik dillə ifadə edir.
- Azad Əliyev – "Qəhrəman əsgər": Marş janrında yazılmış bu əsər döyüş ruhunu və əsgərlərin qəhrəmanlığını musiqi ilə ifadə edir.
- Zülfiyyə Sadıqova – "Zəfər Marşı": Simfonik marş üslubunda yazılmış bu əsər bayram tədbirlərində və rəsmi mərasimlərdə tez-tez səsləndirilir.
- Tünzalə Ağayeva – "Qarabağ Azərbaycandır!": Pop janrında ifa olunan bu mahnı geniş auditoriya tərəfindən qəbul olunaraq sosial media və konsert platformalarında böyük rezonans doğurmuşdur.

Bu nümunələr göstərir ki, Zəfər mövzusu müxtəlif musiqi janrlarında əks olunmuş, həm klassik, həm də müasir üslublarda işlənərək geniş ictimai təsir gücünə malik əsərlər meydana çıxmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 yanvar 2021-ci il tarixli sərəncamı ilə 2022-ci ilin **“Şuşa İli”** elan olunması, işğaldan azad edilmiş ərazilərdə mədəni həyatın bərpası və milli-mədəni kimliyin möhkəmləndirilməsi istiqamətində atılmış mühüm addımlardan biri kimi qiymətləndirilə bilər. Bu qərar, Şuşanın təkcə tarixi və strateji əhəmiyyətini deyil, həm də onun Azərbaycan xalqının mədəni yaddaşındakı simvolik yerini bir daha təsdiq etmişdir.

Bu tədbirlər arasında “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı (2022) xüsusi yer tutur. 12–14 may tarixlərində, Şuşanın Cıdır düzü ərazisində keçirilən festivalda həm canlı konsert proqramları, həm muğam gecələri, həm də etno-folklor ifaları yer almışdır. Festivalda “Xarıbülbül səsi ilə gələn zəfər” devizi altında təşkil olunan proqramlar vasitəsilə zəfər ovqatı ilə musiqi ifadəsi vəhdətdə təqdim olunmuşdur. Tədbirdə yalnız yerli ifaçılar deyil, eyni zamanda Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Macarıstan kimi ölkələrin musiqi kollektivləri də iştirak etmişdir. Bu isə festivalın beynəlxalq xarakterini və Türk dünyası ilə mədəni əlaqələrin gücləndirilməsinə verdiyi töhfəni göstərir.

2022-ci il 8 Noyabr tarixində Şuşada təşkil edilən bayram konserti bu baxımdan əlamətdar hadisə olmuşdur. Konsert proqramında tanınmış solistlər, Azərbaycan Dövlət Simfonik Orkestri, hərbi orkestr, eləcə də gənc ifaçılar çıxış etmişdir. Tədbirdə səsləndirilən “Qarabağ Azərbaycandır!”, “Zəfər Marşı”, “Xarıbülbül” kimi əsərlər həm emosional gücü, həm də simvolik yükləri ilə dinləyicilərdə vətənpərvərlik hisslərini gücləndirmişdir.

Zəfər ovqatı yalnız musiqidə deyil, poeziyada da öz təzahürünü tapmışdır. Eyni ilin Vaqif Poeziya Günləri çərçivəsində yenidən bərpa olunmuş Molla Pənah Vaqifin məqbərəsi önündə keçirilən tədbirlər musiqi ilə poeziyanın estetik vəhdətini nümayiş etdirmişdir.

**“Şuşa İli” çərçivəsində elmi, mədəni və beynəlxalq təşəbbüslər**

2022-ci ilin “Şuşa İli” elan olunması ilə əlaqədar olaraq təkcə ölkə daxilində deyil, beynəlxalq müstəvidə də çoxsaylı mədəni və elmi tədbirlər həyata keçirilmişdir. Bu təşəbbüslər, azad edilmiş ərazilərin mədəni reabilitasiyasına yönəlməklə yanaşı, həm də Azərbaycan mədəniyyətinin dünya ictimaiyyətinə tanıdılması baxımından əhəmiyyətli rol oynamışdır.

İl ərzində “Şuşa – mədəniyyət paytaxtı”, “Xarıbülbül – dirçəlişin simvolu”, “Şuşanın tarixi abidələri” kimi nəşrlər çap olunaraq ictimaiyyətə təqdim edilmiş, şəhərin mədəni irsini əhatəli şəkildə sənədləşdirən qiymətli mənbələr kimi dəyərləndirilmişdir. Eyni zamanda, Milli Arxiv İdarəsi tərəfindən Şuşa ilə bağlı tarixi sənədlərin sərgisi təşkil edilmiş, arxiv materialları üzərindən bu şəhərin keçmişi barədə ictimai məlumatlılıq artırılmışdır.

Bu dövrdə həmçinin “Şuşa və Qarabağ mədəniyyəti” mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Bakı, Gəncə, Naxçıvan və Şuşa şəhərlərində baş tutan elmi tədbirlərdə tarix, memarlıq, mədəni irs və musiqi sənəti sahələrində aparılan araşdırmalar təqdim olunmuş, diskussiyalar və tematik

sessiyalar təşkil edilmişdir. Bununla yanaşı, Türkiyə, Fransa, Almaniya, Rusiya və digər ölkələrdə Azərbaycan diaspor təşkilatlarının təşəbbüsü ilə “Şuşa İli”nə həsr olunmuş sərgilər, musiqili tədbirlər və təqdimatlar keçirilmişdir.

Musiqi sahəsində də yeni təşəbbüslər reallaşdırılmışdır. **Gənc bəstəkarlar üçün təşkil olunan müsabiqələr**də “Şuşa” və “Qarabağ” mövzusuna həsr edilmiş yeni əsərlər dinlənilmiş və qaliblər mükafatlandırılmışdır. Bu layihələr istedadlı gənclərin milli ruhda yaradıcılığını təşviq etməklə yanaşı, Qarabağ mövzusunun çağdaş musiqidə ifadəsini də stimullaşdırmışdır.

2022-ci ilin “Şuşa İli” elan olunması yalnız simvolik xarakter daşımırdı. Bu qərar, bir xalqın mədəniyyətini azad edilmiş torpaqlarda yenidən dirçəltmək əzminin təcəssümünə çevrildi. İl ərzində keçirilən saysız-hesabsız tədbirlər – musiqi festivalları, poeziya axşamları, elmi simpoziumlar və beynəlxalq təqdimatlar – Azərbaycan mədəniyyətinin zənginliyini və yaşarlığını nümayiş etdirdi. Musiqi, teatr, poeziya, memarlıq və elmi fəaliyyət bir amal ətrafında cəmləndi: Şuşanın tarix boyu daşıdığı mədəniyyət paytaxtı statusunu bərpa etmək və gələcək nəsillərə ötürmək. Bu ümumi iradə və yaradıcılıq enerjisi bir daha sübut etdi ki, **“Şuşa – Azərbaycanın mədəniyyət paytaxtıdır və əbədi olaraq belə qalacaq.”**

**Nəticə:** 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər Azərbaycan xalqının yalnız siyasi və hərbi qələbəsi ilə məhdudlaşmır, eyni zamanda ölkənin mədəni-mənəvi həyatında yeni bir mərhələnin əsasını qoymuşdur. Qələbə sonrası keçirilən musiqi festivalları, teatr nümayişləri və digər bədii tədbirlər ictimai şüurda zəfər ruhunu dərinləşdirməklə yanaşı, Qarabağın mədəniyyət beşiyi kimi yenidən dirçəlməsinə zəmin yaratmışdır. Bu tədbirlərdə ifa olunan əsərlər – istər xalq musiqisi, istər simfonik kompozisiyalar, istərsə də müasir estrada janrında olan nümunələr vasitəsilə ictimai emosional yaddaşda müharibənin mənəvi yükü və qəhrəmanlıq salnaməsi musiqi vasitəsilə ifadə edilmişdir. “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı və “Zəfər Günü” konsertləri kimi mədəni layihələr, həm milli kimliyin bədii təcəssümünü, həm də mədəni diplomatiyanın gücləndirilməsi istiqamətində əhəmiyyətli rol oynamışdır. Beləliklə, mədəniyyət sahəsində atılan bu addımlar Azərbaycanın postmüharibə dövründə milli həmrəyliyinin, qürurunun və ideoloji birliyinin qorunmasında mühüm amilə çevrilmişdir.

## ƏDƏBİYYAT

1. Kamilova N.M. Hərbi vətənpərvərlik tərbiyəsinin müasir şəraitdə öyrənilməsinin əhəmiyyəti”. / Türksoylu xalqların musiqi mədəniyyətinin tətbiqi problemləri. ADMİU XIII Beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı-2014,s.42-44.

2. Kamilova N.M. "Hərbi vətənpərvərlik tərbiyəsi probleminin" Musiqi" proqram-dərsliklərdə və elmi-metodiki ədəbiyyatda qoyuluşu." / ADMİU-Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XV Beynəlxalq elmi-praktik konfransın materialları, 2016, 02 may, s. 181-184
3. Boran Əziz, Xocalı soyqırımı: səbəbləri, həyata keçirilmə üsulları və nəticələri/ Əziz Boran- Bakı, Azərnəşr, 2014, 240 s.
4. Kamilova N.M. Azərbaycan bəstəkarlarının hərbi vətənpərvərlik tərbiyə baxımından əsərlərinin məzmunu və xüsusiyyətləri // Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri. ADPU №1, Bakı, 2016, s.45-47.
5. Musiqi və Mədəniyyət: "Zəfərdən Sonra" (Zəfər Gününə və Şuşa İlinə həsr olunmuş tədbirlər, konsertlər və simpoziumlardan bəhs edən toplu). Bakı: Mədəniyyət, 2023.
6. «Использование азербайджанской музыки в военно-патриотическом воспитании учащихся начальных классов». // «Вектор науки Тольяттинского государственного университета», ISSN 2221-5662, 2015 №1(20), стр. 77-81
7. Кадимова Ж.Г. Методика преподавания музыки. Баку типография АГПУ, 2007, 323 с.
8. Talibzade, Ulkar. The Karabakh Victory in the Works of Azerbaijani Composers. İn Problems of Arts and Culture jurnalı, Vol.18 №1, 2023 p. 70–85.
9. Hess, Michael Reinhard. Shusha's Heritage: History and Development of Azerbaijan's Cultural Capital. Vienna: Austrian Academy of Sciences Press, 2022. 276 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 101-107**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с.101-107**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 101-107**

# TƏLİM VƏ TƏRBİYƏNİN NƏZƏRİYYƏSİ VƏ METODİKASI (MUSİQİNİN TƏDRİSİ METODİKASI)

**UOT 78.06**

**M.T.Əliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
E-mail: m.aliyeva60@gmail.com
ORCİD İD: 0000-0002-2005-6090

## MUSİQİNİN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN YARADICI QABİLİYYƏTLƏRİNİN İNKİŞAFI ÜÇÜN SİNEKTİKA METODUNDAN İSTİFADƏ

***Açar sözlər:*** *musiqi, sinektika,yaradıcı şəxsiyyət, təlim metodları*

Məqalədə şagirdlərin yaradıcı qabiliyyətlərinin inkişafı üçün musiqi dərsləridə sinektika metodunun əhəmiyyəti, mahiyyəti və istifadəsi yolları göstərilmişdir. Burada qeyd olunur ki, cəmiyyətin inkişafının müasir mərhələsində yaradıcı potensialın yüksək inkişaf səviyyəsinə malik, müxtəlif problemləri sistemli şəkildə qoymaq və həll etmək bacarığı olan mütəxəssislərə ehtiyac yüksəkdir. Evristik təlim metodları, o cümlədən sinektika metodu şagirdin yaradıcı şəxsiyyətinin inkişafı, öyrənmə qabiliyyətinin əsasını təşkil edən universal təlim hərəkətlərin formalaşdırılması, uşaqların öyrənmə motivasiyasının inkişafı, özünü təşkil və özünü inkişaf etdirməsi üçün şərait yaratmağa və öyrənənlərin digər problemlərini həll etməyə imkan verir. Sinektika mürəkkəb təhsil və idrak problemlərini həll etmək üçün, həmçinin yaradıcı axtarış prosesinin özünü öyrətmək məqsədi ilə istifadə olunur. Uyğunlaşmanın ən mühüm mexanizmi olan yaradıcılığı insanın sürətlə dəyişən sosial şəraitə uyğunlaşmasına imkan verən zəruri şəxsi keyfiyyət hesab etmək olar. Nəticə etibarı ilə, yaradıcı şəxsiyyətin ən mühüm xüsusiyyəti kimi yaradıcı sistemli təfəkkür yeni dövr insanın zəruri keyfiyyətidir. Bu, həm tədris və tərbiyənin vəzifələrinin formalaşdırılmasına, həm pedaqoji prosesin məzmununun müəyyənləşdirilməsinə, həm də adekvat üsul və vasitələrin seçilməsinə təsir göstərir. Bu məqam məqalənin mövzusunun aktuallığını müəyyənləşdirir.

**М.Т.Алиева**

## ИСПОЛЬЗОВАНИЕ МЕТОДА СИНЕКТИКИ ДЛЯ РАЗВИТИЯ ТВОРЧЕСКИХ СПОСОБНОСТЕЙ УЧАЩИХСЯ В ПРЕПОДАВАНИИ МУЗЫКИ

***Ключевые слова:*** *музыка, синектика, творческая личность, методы обучения*

В статье показаны значение, сущность и пути использования метода синектики на уроках музыки для развития творческих способностей учащихся. Отмечено, что на современном этапе развития общества ощущается острая потребность в специалистах с высоким уровнем творческого потенциала, способных системно ставить и решать различные проблемы. Эвристические методы обучения, в том числе метод синектики, позволяют развивать творческую личность ученика, формировать универсальные учебные действия, составляющие основу учебных умений, развивать мотивацию детей к обучению, создавать условия для самоорганизации и саморазвитие и решение других проблем обучающихся. Синектика используется для решения сложных образовательных и познавательных задач, а также для обучения самому процессу творческого поиска. Креативность, важнейший механизм адаптации, можно считать необходимым личностным качеством, позволяющим человеку приспосабливаться к быстро меняющимся социальным условиям. В результате творческое системное мышление, как важнейшая характеристика творческой личности, является необходимым качеством современного человека. Это влияет как на постановку задач обучения и воспитания, так и на определение содержания педагогического процесса, а также на выбор адекватных методов и средств. Всё это определяет актуальность темы статьи.

**M.T.Aliyeva**

## THE USE OF THE SYNECTICS METHOD FOR THE DEVELOPMENT OF STUDENTS' CREATIVE ABILITIES IN MUSIC TEACHING

***Key words:*** *music, synectics, creative personality, teaching methods*

The article shows the importance, essence and ways of using the synectics method in music lessons for the development of students' creative abilities. It is noted that at the modern stage of society's development, there is a high need for specialists with a high level of development of creative potential, the ability to systematically pose and solve various problems. Heuristic teaching methods, including the synectics method, allow for the development

of the student's creative personality, the formation of universal learning actions that form the basis of learning abilities, the development of children's motivation to learn, the creation of conditions for self-organization and self-development, and the solution of other problems of students. Synectics is used to solve complex educational and cognitive problems, as well as to teach the creative search process itself. Creativity, which is the most important mechanism of adaptation, can be considered a necessary personal quality that allows a person to adapt to rapidly changing social conditions. As a result, creative systematic thinking, as the most important feature of a creative personality, is a necessary quality of a person of the new era. This affects both the formulation of the tasks of teaching and upbringing, the determination of the content of the pedagogical process, and the selection of adequate methods and means. This point determines the relevance of the topic of the article.

Cəmiyyətin inkişafının müasir mərhələsində yaradıcı potensialın yüksək inkişaf səviyyəsinə malik, müxtəlif problemləri sistemli şəkildə qoymaq və həll etmək bacarığı olan mütəxəssislərə ehtiyac kifayət qədər aydın şəkildə ifadə olunur.

Öyrənənlərin yaradıcı təxəyyülünü inkişaf etdirməyin zəruriliyinə hər kəsin inandırılmasına ehtiyac varmı? Çox vaxt dərslərdə öyrənmə vəzifələri həll edilmir, çünki şagirdlər nəyin müzakirə olunduğunu təsəvvür edə bilmirlər. Təxəyyül indi başqalarının təxəyyül etdiklərinin istehlakı ilə əvəz edilmişdir. Bunun sayəsində primitiv nəticələr əldə edilir. Bir sözlə, bilikləri daha səmərəli tətbiq etmək üçün inkişaf etmiş təxəyyül lazımdır.

Evristik təlim metodları, o cümlədən sinektika metodu şagirdin yaradıcı şəxsiyyətinin inkişafı, öyrənmə qabiliyyətinin əsasını təşkil edən universal təlim hərəkətlərin formalaşdırılması, uşaqların öyrənmə motivasiyasının inkişafı, özünü təşkil və özünü inkişaf etdirməsi üçün şərait yaratmağa və öyrənənlərin digər problemlərini həll etməyə imkan verir.

Sinektika – (ing. Synectics – “oxşar olmayan elementlərin birləşməsi”) tapşırığın analoqlarını axtararaq, assosiativ düşüncə yolu ilə alternativlər yaratmaq üçün nəzərdə tutulmuşdur. Beyin həmləsindən fərqli olaraq, burada məqsəd alternativlərin sayının çoxluğu deyil, verilmiş problemi həll edən az sayda alternativin (hətta tək alternativin) yaradılmasıdır. İştirakçıların intuitiv, obrazlı, metaforik təfəkkürünün məqsədyönlü istifadəsinə əsaslanan kollektiv yaradıcılıq fəaliyyəti və tədris tədqiqatı metodu belə adlanır.

Amerikalı psixoloq U.Qordon tərəfindən “beyin fırtınası” adlanan qrup ideyalarının yaradılmasının məşhur metodu əsasında işlənib hazırlanmış sinektika ekspert qruplarının təxminlər, cəsarətli fərziyyələr, “dəli fikirlər” və intuitiv həllərdən istifadə etməklə birgə axtarış fəaliyyəti kimi inkişaf etmişdir.

Uyğunlaşmanın ən mühüm mexanizmi olan yaradıcılığı insanın sürətlə dəyişən sosial şəraitə uyğunlaşmasına imkan verən zəruri şəxsi keyfiyyət hesab etmək olar. Nəticə etibarı ilə, yaradıcı şəxsiyyətin ən mühüm xüsusiyyəti kimi yaradıcı sistemli təfəkkür yeni dövr insanın zəruri keyfiyyətidir. Bu, həm tədris və tərbiyənin vəzifələrinin formalaşdırılmasına, həm pedaqoji prosesin məzmununun müəyyənləşdirilməsinə, həm də adekvat üsul və vasitələrin seçilməsinə təsir göstərir.

Evristik təlimin nəticəsi kimi yaradıcı təfəkkür çıxış edir. Yaradıcı təfəkkür nəticəsində şəxsiyyətin psixi xüsusiyyətlərinin və onun qabiliyyətlərinin formalaşması baş verir. Uşaqda psixi proseslərin, o cümlədən yaradıcı təfəkkürün inkişafı müəyyən ardıcıllıqla baş verir və burada uşağın inkişafında böyüklərin rolu əhəmiyyətlidir.

İctimai şüur hələ E.Kantın "elmi insan sənət adamının davamıdır" fikri ilə aşılanmayıb, reallıq haqqında biliklərin yeni formalarının axtarışında sənət çox vaxt elm və fəlsəfəni qabaqlayır. Bədii təfəkkür inkişaf etmədən insan elm yolunu tuta bilməz. Mühəndisə, alimə fantaziya, intuisiya, təxəyyül, ilham, məkan təfəkkürü lazım deyilmi? Bəs bu keyfiyyətlər hansı fənn sahəsində daha yaxşı məşq edilir? Əlbəttə, bədii yaradıcılıqda. Lakin o halda ki, biz tədris metodlarını sənətin təbiətinə uyğun olanlara dəyişdirsək.

Sinektika heç bir halda yalnız bir-birinə bənzəməyən anlayışların birləşməsi ilə məhdudlaşmır. Beyin fırtınasının bütün mahiyyəti, bütün gücü tənqidin qadağan edilməsindədir. Ancaq onun zəif tərəfi də budur: ideyanı inkişaf etdirmək və dəyişdirmək üçün onun çatışmazlıqlarını tapmaq lazımdır, yəni tənqid lazımdır. Qordon az-çox daimi qruplar yaratmaqla bu ziddiyyətin öhdəsindən gəldi. Bu qrupların üzvləri get-gedə birgə işləməyə öyrəşir, tənqiddən qorxmağı dayandırır və kimsə onların təkliflərini rədd edəndə incimir. Daimi qrupların ümumiyyətlə bir çox üstünlükləri var. Problemlərin həllində təcrübə tədricən toplanır. Qrupun tərkibi yeni üzvlər təqdim etməklə yaxşılaşdırıla bilər. Qarşılıqlı anlaşma artır, ideyalar anında qavranılır.

Sinektika mürəkkəb təhsil və idrak problemlərini həll etmək üçün, həmçinin yaradıcı axtarış prosesinin özünü öyrətmək məqsədi ilə istifadə olunur. Sinektik qrupun lideri həll prosesinə rəhbərlik edir, analogiyaların alternativ istifadəsinə çağırır. Bu, ideyaların yaranmasına təkan verir və axtarış azadlığını məhdudlaşdırmır. Bənzətmədən (analogiyalardan) istifadə etməklə, düşüncə ətalətindən qurtulmaq mümkündür.

Müəyyən bir problemi iki mərhələdə həll etmək tövsiyə olunur: birincisi, qeyri-adi olan adi hala çevrilir, sonra isə əks proses baş verir – adi olanın qeyri-adiyə çevrilməsi. Həllin təsviri dörd analogiya(bənzətmə) növündən birindən istifadə etməklə axtarılır (qurulur):

*Birbaşa bənzətmə* – nəzərdən keçirilən obyekt texnikanın başqa bir sahəsinə aid olan az-çox oxşar obyektlə və ya canlı təbiətdən olan obyektlə,

yaxud musiqi sənətində təsvir və hisslə müqayisə edilir.

*Şəxsi bənzətmə* – duyğular teatrı ilə birbaşa əlaqəli (empatiya metodu), tapşırığa baxmaq, özünüzü obyektlə eyniləşdirmək və onun imicinə daxil olmaq cəhdi; bütün prosesi təsəvvür etməyə, onu daxildən hiss etməyə imkan verir; problemi həll edən şəxs təkmilləşən obyektin obrazına girir, "mən ağacam, rənglənmək istəyən ağ qarğayam, mən bir musiqi əsərinin qəhrəmanıyam" üslubunda yaranan hissləri anlamağa çalışır.

*Simvolik analogiya* – tapşırıq və ya obyektin qısa simvolik təsvirinin tapılması; obrazlı təsvir.

*Fantastik bənzətmə* – problemin nağıllar, miflər və əfsanələr baxımından və anlayışları ilə təqdim edilməsidir.

Sinektika yaradıcı fəaliyyəti stimullaşdırır, burada gözlənilməz və qeyri-stereotipik analogiya və assosiasiyaların inkişafına təkan verən xüsusi şərait yaradılır.

Şagirdlərin əldə etdiyi məhsul (fikir, problem, fərziyyə, diaqram, sxem, təcrübə, mətn) gözlənilməzdir. Müəllim fəaliyyətin texnologiyasını müəyyən edir, mədəni-tarixi nümunələr təqdim edir, tədris prosesinə rəhbərlik edir, lakin nəticəni əvvəlcədən müəyyən etmir.

Başlanğıcda problemin ümumi xüsusiyyətləri müzakirə edilir, bənzətmələrdən istifadə edilir: problemi başa düşmək üçün analogiyalar yaradılır və inkişaf etdirilir, ilk həll yolları irəli sürülür və aradan qaldırılır, alternativlər irəli sürülür, yeni analogiyalar axtarılır və problemə qaytarılır. Beyin fırtınasından fərqli olaraq, sinektika seanslarında qrupun yalnız kreativ qüvvəsi deyil, hamını iştirak edir.

Sinektika metodundan istifadə edərkən problemi (yaradıcı tapşırığı) vaxtından əvvəl aydın formalaşdırmaqdan çəkinmək lazımdır, çünki bu, gələcək həll axtarışını neytrallaşdırır. Müəllim 5-7 uşaqdan ibarət qruplar təşkil edir, onlar mücərrədləşməyi öyrənirlər, zehni olaraq mövzudan uzaqlaşırlar və müzakirə edirlər. Uşaqlar bəzi xassələrdə və ya münasibətlərdə analogiyalar (oxşarlıqlar), obyektlərin (hadisələrin) uyğunluğu tapırlar.

Analogiyalardan bacarıqla istifadə çoxlu sayda obyekti əhatə etməyə, onları öyrənilən obyektlə müqayisə etməyə, oxşar bir şey tapmağa və problemlərin həllində istifadə etməyə imkan verəcəkdir.

Yaradıcı qrupun rəhbərindən, onun məharətindən, nəzakətindən, hazırcavablığından, qrup üzvlərinin yaradıcı təxəyyülünü stimullaşdırmaq bacarığından çox şey asılıdır. O, sual vermək, eyhamlar vermək, aydınlıq gətirmək, izahat vermək, fantaziyanı, təxəyyülü həvəsləndirəcək və stimullaşdıracaq iradlar daxil etmək sənətinə yiyələnməli, yaradıcı problemin həlli üçün axtarış meydanını bəzən daraltmalı, bəzən genişləndirməlidir.

Sinektika metodunun imkanları yaradıcı müəllimə, müəllim-improvizatora pedaqoji fəaliyyət üçün geniş imkanlar verir. Musiqi dərslərində

empatiyapriyomundan istifadə çox uğurludur. Məsələn: uşaqlar D.Kabalevskinin “Klounlar” pyesində kədərli və şən təlxəklərə, Şumanın “Cəsur atlı” pyesində bütün maneələri dəf etmiş cəsur atlıya, P.Çaykovskinin "Lark" əsərində isə sevincli yazqşlarına çevrilirlər. Musiqi bütün bədənə təsir edir və o isə, öz növbəsində, musiqiyə təsir göstərir, çünki musiqi əsərlərinin qavranılması və dərk edilməsi onu səs tellərilə, əzələlərlə, hərəkətlə, nəfəslə hiss etməkdən ibarətdir.

Musiqi dərsinin “Vokal-xor işi” bölməsində simvolik analogiyadan istifadə edərək sxemlər üzrə mahnıların öyrənilməsi və ifa edilməsi üsullarından dərslərdə çox uğurla istifadə olunur. Uşaqlar özləri mahnının müəyyən sözləri ilə assosiasiyalar yaradır və onları asanlıqla xatırlayırlar. Həmçinin musiqiyə qulaq asmazdan əvvəl onlara musiqi parçasına başlıq vermək tapşırığı verilir.

Dərslər zamanı “Yaxşı – Pis”, “Nə kimi?” oyunları maraqlı formada keçirilir. Uşaqlarla, məsələn, payızın yaxşı və ya pis olduğunu müzakirə etmək olar. Pis - niyə? Yaxşı - niyə? Musiqi yüngüldür, nə kimi? Şən, parlaq, nə kimi? və s.

Burada Rusiya psixoloqu və pedaqoqu V.Kanevskinin sözləri yada düşür: “Səslər sözlərdən daha çox şey söyləyəcək...” Bu, həqiqətən belədir. Məktəblilərin musiqiyə marağı və istəyi o qədər güclüdür ki, musiqi yaradıcılığı prosesində aparılan böyük təlim işini uşaqların özləri də hiss etmirlər.

Musiqi dərsində aşağıdakı priyomlardan istifadə etmək olar:

- bunu bizimlə edin;
- bu səslər mənim haqqımdadır – elementar improvizasiya;
- bədənimin musiqisi (psalmofoniya) – səthlərdə səslənən jestlərlə (plastik intonasiya) musiqi ifa etmək; hazırlamaq;
- səsli oyunlar – səs-küydən yaranan musiqi – küylü alətlər intonasiya eşitmə və obrazlı-assosiativ təfəkkürün əsaslarının inkişafında iştirak edir;
- qrafik yazı (psalmoqrafiya) – səsin ayrı-ayrı xassələrinin (dinamikası, yüksəkliyi, uzunluğu, tembri) simvolik təsviri, sadə musiqinin yazılması və qrafik simvollardan istifadə etməklə səsləndirilməsi;
- bir şəkil ilə çıxış etmək;
- “Bəstəkarlar” oyunu;
- “Şairlər” oyunu;
- “Rəssamlar” oyunu;
- assosiativ oyunlar: rəng palitrası, hisslər palitrası;
- bəstə (şeir, nağıl, hekayə, melodiya).

Yaradıcılıq qabiliyyətlərinin inkişafının diaqnostikası üçün assosiativ-məcazi və bədii təfəkkürün inkişafını müəyyən edən tapşırıqlardan istifadə

olunur.

**Nəticə.** Sinektika metodundan istifadə şagirdlərin dərslərdə fəallığını artırır, təlim prosesinin özünə sabit maraq yaranır, musiqi dərslərində iştirak etməyə böyük həvəs yaranır. Eləcə də bu metodun istifadəsi uşaqlarda yaradıcılıq qabiliyyətlərinin inkişafına müsbət təsir edir. Uyğunlaşmanın ən mühüm mexanizmi olan yaradıcılığı insanın sürətlə dəyişən sosial şəraitə uyğunlaşmasına imkan verən zəruri şəxsi keyfiyyət hesab etmək olar. Nəticə etibarı ilə, yaradıcı şəxsiyyətin ən mühüm xüsusiyyəti kimi yaradıcı sistemli təfəkkür yeni dövr insanın zəruri keyfiyyətidir. Bu, həm tədris və tərbiyənin vəzifələrinin formalaşdırılmasına, həm pedaqoji prosesin məzmununun müəyyənləşdirilməsinə, həm də adekvat üsul və vasitələrin seçilməsinə təsir göstərir.

## ƏDƏBİYYAT


1. Axundova G.Ə. Musiqinin tədrisində yeni pedaqoji texnologiyalar. / Metodiki vəsait. Bakı, ADPU, 2019, 55 səh.
2. Qədimova J. Musiqinin tədrisi metodikası. Baku, 2007, 323 səh.
3. Селевко Г.К. “Современные образовательные технологии”, Москва: «Народное образование», 2005, 256 стр.
4. Пуляевская А. Синектика как метод развития творческого мышления. [Электронный ресурс]. – Режим доступа: https://nitforyou.com/sinektika/
5. Гришин И.М. Занимательная «синектика. - СПб., 2005. - 124 с.


**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 108-115**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 108-115**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 108-115**

**UOT 780.8:784.66+784.67:781.7**

**G.Ç.Aslanova**
baş müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: aslanovagulara@mail.ru

# AZƏRBAYCAN BƏSTƏKARLARININ OPERA VƏ BALETLƏRİNDƏ MUSİQİ FOLKLOR NÜMUNƏLƏRİNDƏN İSTİFADƏNİN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *səhnə, opera, əhəmiyyət, balet, mahnı, rəqs, muğam, təhsil, tərbiyəvi*

Təqdim olunan məqalədə Azərbaycan musiqi nümunələrinin Ü.Hacıbəyli, M.Maqomayev, A.Bədəlbəyli, F.Əmirov, Q.Qarayev, S.Rüstəmov, C.Cahangirov, V.Adıgözəlov, S.Ələsgərov, R.Mustafayev, Ş.Axundovanın musiqili səhnə əsərlərində işlənmə problemi müzakirə olunur. Azərbaycan xalq musiqisi çoxəsirli tarixə və zəngin ənənəyə malikdir. Mahnılar, rəqslər, muğamlar, aşıq musiqisi – musiqi folklorunun bütün rəngarəngliyi həmişə professional musiqiçilərin diqqətini cəlb edib. Ancaq məhz milli musiqimizin baniləri Ü.Hacıbəyli və M.Maqomayevin öz səhnə əsərlərində çoxsaylı Azərbaycan xalq mahnılarının, rəqslərinin, muğamlarının, aşıq musiqisinin işlənmələrindən sonra, Azərbaycan bəstəkarları musiqi folklorunun müxtəlif nümunələrini öz opera, operetta və baletlərinə daxil etməyə başladılar. Məqalədə bu nümunələrdən və həmçinin xalq musiqisinin müxtəlif üsullarla bəstəkarlar tərəfindən istifadə edilməsindən danışılır. Musiqi və səhnə əsərlərində musiqi folklorunun olmasının tərbiyəvi əhəmiyyəti və onun ümumi musiqi inkişafına, qavrayışına və tərbiyəsinə təsiri xüsusi vurğulanır.

**Г.Ч.Асланова**

## ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ ИСПОЛЬЗОВАНИЯ ОБРАЗЦОВ НАРОДНОЙ МУЗЫКИ В ОПЕРАХ И БАЛЕТАХ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

***Ключевые слова:*** *сценический, опера, значение, балет, песня, танец, мугам, образование, воспитание*

В представленной статье рассматривается проблема использования образцов азербайджанского музыкального фольклора в музыкальных сценических произведениях У.Гаджибейли, М.Магомаева, А.Бадалбейли,

Ф.Амирова, К.Караева, С.Рустамова, Дж.Джахангирова, В.Адыгезалова, С.Алескерова, Р.Мустафаева, Ш.Ахундовой. Азербайджанские народная музыка обладает многовековой историей и богатыми традициями. Песни, танцы, мугамы, ашыгская музыка – все многообразие музыкального фольклора всегда привлекало к себе пристальное внимание профессиональных музыкантов.

Однако именно после многочисленных использований в своих сценических произведениях азербайджанских народных песен, танцев, мугамов, ашыгской музыки классиками национальной музыки У.Гаджибейли и М.Магомаевым, азербайджанские композиторы стали включать образцы музыкального фольклора в свои оперы, оперетты и балеты. В статье рассмотрены эти примеры, а также различные способы использования народной музыки отдельными композиторами. Особо подчеркнуто воспитательное значение наличия музыкального фольклора в музыкально-сценических произведениях и его воздействия на общее музыкальное развитие, восприятие и образование.

**G.Ch.Aslanova**

## EDUCATIONAL IMPORTANCE OF USING FOLK MUSIC SAMPLES IN THE OPERAS AND BALLETS OF AZERBAIJANI COMPOSERS

***Key word:*** *stage, opera, importance, ballet, song, dance, mugham, education, upbringing*

The article examines the issue of using examples of Azerbaijani musical folklore in the musical stage works of U.Hajibeyli, M.Magomayev, A.Badalbeyli, F.Amirov, G. Garayev, S. Rustamov, J.Jahangirov, V Adigezalov, S. Aleskerov, R. Mustafayev, and Sh. Akhundova. Azerbaijani folk music has a centures-old history and rich traditions. Songs, dances, mugams, ashig music-all the diversity of musical folklore has always attracted the close attention of professional musicians. However, it was after numerous uses of Azerbaijani folk songs, dances, mugams and ashig music in their stageworks by the classics of national music U.Hajibeyli and M.Magomayev that Azerbaijani composers began to include examples of musical folklore in their operas, operettas and ballets. The article examines these examples, as well as the various ways in which folk music has been used by individual composers. Particular emphasis is placed on the educational significance of the presence of musical folklore in musical and stage works, its influence on general musical development, perception and education.

Azərbaycan bəstəkarları musiqili – səhnə əsərlərində xalq mahnı və rəqslərini olduğu kimi və yaxud dəyişilmiş şəkildə yəni əsərin xarakteri, məzmunu ilə əlaqələndirilib istifadə olmasına çox rast gəlmək olar.

Bu təcrübənin əsasını dahi Ü.Hacıbəyli öz səhnə əsərlərində qoyub. Belə ki, hələ milli operanın təməlini qoyan "Leyli və Məcnun" muğam operasında ariya və ariozoları muğam təşkil etməklə yanaşı, milli musiqi folklor materialı da geniş istifadə olunub. Məsələn, operanın birinci pərdəsində qızların və oğlanların xoru Azərbaycan xalq mahnısı "Evləri var xanə-xanə" əsasında yazılıb. Halqın çox sevdiyi Segah mugamında yazılan bu xor o vaxt Azərbaycanda yeni olan opera janrında yazılan əsəri daha doğma edir və dinləyiciləri klassik musiqini mənimsəməkdə kömək edir və bununla onların musiqi savadının inkişafına xidmət edir.

Operanın üçüncü pərdəsində qızların səhnə arxasında oxunan xor "Bu gələn yara bənzər" xalq mahnısının əsasında yazılıb. Bəstəkarın başqa bir operası "Əsli və Kərəm"də də xalq mahnılarına müraciət edilmişdir. Birinci pərdədə Kərəmin çıxışı "Qarabağ şikəstəsi" üzərində yazılmış üçüncü pərdədə səslənən xor "Çal oyna" xalq mahnısına əsaslanır.

Bəstəkar təkcə operalarda yox, həm də operettalarda xalq mahnılarına müraciət edir. Belə ki, "O olmasın, bu olsun" operettasında, Məşədi İbadın "Mən nə qədər qoca olsam da" melodiyası "Uzundərə" xalq rəqsinin melodiyasına əsaslanır. Bundan başqa "Gedin, gedin qazıya deyin" nömrəsinin melodiyası, Azərbaycan xalq mahnısı "Nə baxırsan yanı-yanı"dır. Musiqili folklor nümunələrindən geniş istifadə ümumiyyətlə Üzeyir Hacıbeyli yaradıcılığına xas olan əlamətdir.

Bununla dahi bəstəkar geniş kütlənin musiqi inkişafının, savadının, onun dünya klassik musiqisinin mənimsənilməsilə yanaşı milli ruhun, milli dəyərlərin qorunub saxlanılmasının tərbiyəvi əhəmiyyətin vacibliyini göstərir.

Həmin dövrdə yaşayıb-yaradan bəstəkar Müslüm Maqomayev də xalq mahnılarına öz əsərlərində geniş istifadə edib. Müəllifin "Şah İsmayıl" operasının ikinci pərdəsində Şah İsmayılla Gülzarın dueti "Gözəllərin gözəli" xalq mahnısının melodiyası üzərində qurulmuşdu. "Şah İsmayıl" operasının üçüncü pərdəsində orkestr müqəddiməsi aşıq havası "Kərəmi" nin variantlarından biri ilə başlayır və qəhrəmanlıq abu-havası yaradır.

Bəstəkarın "Nərgiz" operasında xalq musiqisinə müraciət halları daha da çoxdur. Birinci pərdədə səslənən xorun əsasını "Turacı" xalq rəqsinin intonasiyaları təşkil edir. Nərgizin xorla çıxışı "Çıxdım qaya başına" xalq mahnısının mövzusundan istifadə olunub, hətta mahnının variasiya-kuplet quruluşu saxlanılıb. Operada səslənən "Əlyarın ariyası", "Çoban bayatı" ilə ritmik yaxınlığı duyulur [5, s.27].

Birinci pərdənin finalında ifa olunan xor "Gün çıxdı" xalq kəndli mahnısı əsasında yazılmışdır. Üçüncü pərdədə səslənən "Bağçadan gələn səs" xoru lirik

xarakterlidir və xalq mahnısına əsaslanaraq operanın məzmununu tamaşaçılara çatdırır. "Nərgiz" operasında xalq rəqslərindən də istifadə olunub. Belə, operanın birinci pərdəsində "Yallı" rəqsinin variantlarından biridir. Kişilərin rəqsini iki mövzu təşkil edir. Bunlardan biri xalq rəqsi "İnnabı"nın melodiyasıdır.

Ümummilli liderimiz Heydər Əliyev Müslüm Maqomayev haqqında belə söyləyib: ""Şah İsmayıl" operası təkcə sənət əsəri olmaqla bitmir. Müslüm Maqomayev bu mövzuya sadəcə olaraq bəstəkar, incəsənət xadimi kimi deyil, Azərbaycanın tarixini gözəl bilən bir insan kimi müraciət etmişdir.

O dövrdə tarixi keçmişimizdən kimin kim olduğunu söyləmək bizim üçün çətin idi. İndi isə açıq deməyə imkanımız var ki, Şah İsmayıl görkəmli dövlət xadimi, siyasi şəxsiyyət, Azərbaycanı birləşdirən insandır. Azərbaycanın qədim dövlətçiliyi Şah İsmayılın adı ilə bağlıdır. Müslüm Maqomayevin də bu mövzuya müraciət edərək belə gözəl opera yazmasının incəsənət üçün əhəmiyyəti böyükdür, həmçinin böyük tarixi, siyasi əhəmiyyəti var".

Beləliklə, Heydər Əliyev klassik Avropa janrı olan operanın vasitəsilə Azərbaycan xalqını həm mətn, həm də musiqi vasitəsilə vətənpərvərlik və öz tarixinə hörmət hisslərinin tərbiyəsinin əhəmiyyətini vurğuladı və bunu deməklə Azərbaycan incəsənət xadimlərinə işarə verdi.

Tanınmış bəstəkar Əfrasiyab Bədəlbəyli Şərqdə Avropa tipli və sintez tipli ilk baletin "Qız qalası" baletininin müəllifidir. Bu baleti ilə bəstəkar Azərbaycanda balet janrının əsasını qoyub və sonrakı dövrlərdə çoxsaylı baletin yazılmasına bədii zəmin yaradıb.

"Qız qalası" baletində Azərbaycan xalq rəqslərinin ifa tərzini, üslubunu, xarakterini saxlayaraq, onları klassik baletdə olan forma və janrlarla üzvi şəkildə birləşdirmişdir.

"Milli balet" müəllifin qarşısında duran əsas vəzifə klassik xoreografiyanın, ənənəvi balet nömrələrinin xalq rəqsləri ilə üzvi vəhdəti idi. Bəstəkar milli rəqsin klassik xareoqrafiyanın ənənələri ilə qarşılıqlı əlaqəsini uyğunlaşdıraraq, Azərbaycan balet sənətinin qarşısında duran vacib və prinsipial problemin həllinə nail olmuşdur [1, s.40].

Həmçinin, Azərbaycan musiqi tarixində Ə.Bədəlbəyli ilk muğam əsasında yazılan simfonik rapsodiya ("Bayatı-Şiraz") və ilk simfonik muğamın ("Heyratı") müəllifi kimi yer tutur. Ə.Bədəlbəylinin həyatı sıx Opera və balet teatrı ilə bağlı idi. O, həyatının sonuna kimi həmin teatrda dirijor və baş dirijor işləyib.

Bəstəkarın "Qız qalası" baletində süita şəklində yazılan "Qonaqların rəqsində bütün rəqslərdə (gücü rəqslərindən başqa) orijinal xalq melodiyalarından ibarətdir. Kişilərin rəqsində "Şalaxo", "Poladın rəqsində" "Qars xalq rəqsi" (baletin I pərdəsi), üçüncü pərdədə "Azərbaycan qızlarının rəqsində "Mayeyi –Bayatı-Qacar rəngi, "Saray qızlarının rəqsində və " Gülyanağın toy rəqsi"ndə Mayeyi-Bayatı Şiraz rəngi istifadə edilmişdi.

Baletdə həmçinin "Tərəkəmə", "Kikican", "Keçi məməsi" rəqsləri səslənib. Baletin 1-ci pərdəsində "Gəlinin gəlişi" səhnəsində isə xalq mahnısı "Bəri bax"ın melodiyası səslənib. Bəstəkar həm də "Heyratı", "Bayatı-Kürd", "Bayatı-Şiraz", "Şüştər", "Segah" rəng və təsniflərindən istifadə edilib. Gülyanağın və Poladın adajiosu məhz "Şüştər" melodiyasıdır.

Beləliklə, Əfrasiyab Bədəlbəyli Azərbaycan xalq rəqslərinin üslubunu, ifa tərzini, xarakterini saxlamaqla yanaşı, klassik balet və forma və janrlarla uyğunlaşdıraraq birləşdirmiş, sintez yaratmışdı.

Əgər Üzeyir Hacıbeyli və Müslüm Magomayev səhnə əsərlərində daha çox xalq mahnılarından istifadə etmişdilər, Afrasiyab Bədəlbəyli xalq rəqslərinə müraciət edir və burada rəqslə musiqinin vəhdətinin daha güclu təsirinin, bir-birini tamamlamasını müşahidə edirik, musiqinin daha mükəmməl qavrayışı, onu öyrənməsini tamamlayır.

Bəstəkar Fikrət Əmirovun yaradıcılığı millíliklə, xalq musiqisində qaynanmaq, xalq ruhu ilə seçilən musiqisi ilə seçilir. Bu xüsusiyyətlər onun səhnə əsərlərində də qabarıq şəkildə özünü biruzə verir.

Bəstəkarın "Sevil" operasının birinci pərdəsində Sevilin ariozosu "Onu demə zalım yar" xalq mahnısına əsaslanır. Qeyd etmək lazımdır ki, xalq mahnısı sayılan bu mahnının həm musiqisi, həm də mahnısı görkəmli dramaturq və yazıçı Cəfər Cabbarlıya məxsusdur və onun "Sevil" pyesinə yazılıb [6].

Operanın birinci pərdəsində səslənən Valsın orta hissəsində "Uzundərə" xalq rəqsinin intonasiyalarından istifadə olunub.

F.Əmirovun başqa bir əsərində "Gözün aydın" operettasında birinci pərdədə Mehbarə, Telli və qızların səhnəsində xalq mahnısı "Telli", ikinci pərdədə Salyanski və xorun ifasında "Get ay batandan sonra gəl" xalq mahnısı istifadə olunub.

Operettanın birinci pərdəsindəki rəqs "Səni çoxdan sevirəm" (Mahur təsnifi") üzərində qurulub. Operettanın üçüncü pərdədəki "Leylinin mahnısında" "Səndən mənə yar olmaz" xalq mahnısından istifadə olunub.

Dahi bəstəkar Qara Qarayev də yaradıcılığında milli musiqimizin janrlarını özünə məxusus şəkildə göstərmişdir. Qara Qarayevin "Yeddi gözəl" baletinin ikinci pərdəsində "Təlxəklər" rəqsində "Brilyant" xalq rəqsinin başlanğıc ifadələrindən istifadə olunub.

Tanınmış bəstəkar Zakir Bağırov "Aygün" operasında üçüncü pərdədə Məti və Rəfinin duetində melodiyanı və sözləri saxlamaqla "Meyvələrdən üç meyvə var" xalq mahnısını işləyib.

Soltan Hacıbəyov özünün "Gülşən" baletində "Çoban bayatı" xalq havasının transformasiya edilmiş intonasiya əsaslarında qurmuşdur.

Səid Rüstəmovun "Beş manatlıq gəlin" operettasında bir sıra xalq mahnısına müraciət edib. Operettanın ikinci pərdəsində Naznazın mahnısında "Şeyda xanım" xalq mahnısı istifadə olunub. Gülnazla Nadirin duetində isə "Yar neylədin" (mahnı

"Araxçının məndədir" adı ilə də tanınır).

Operettanın üçüncü pərdəsində qonaqların xoru az ifa olunan "Ellərə də ver" xalq mahnısıdır.

Operettanın üçüncü pərdəsində Hüseynəli, Səlbi və Naznazın ifasında "Gəşəngi" və dördüncü pərdəsindəki toy məclisində "Narıncı" xalq rəqslərindən istifadə olunub.

Bəstəkar Ramiz Mustafayevdə "Vaqif" operasında xalq musiqisinə istinad edib. Operanın birinci pərdəsinin birinci şəklində "Qarının çıxışı"nda "Səni yanasan, toyuq aparan" Satirik xalq mahnısı və "Xalabacı" (rəqs həm də "Ceyran bala" və "Qaçay bala" adlanır) xalq rəqsinin musiqisindən istifadə olunub. Əsasən yaşlı insanlar tərəfindən oynanılan bu rəqs komik xarakterə malikdir [1, s.41].

R.Mustafayev olduqca məhsuldar bəstəkar olub. Onun yaradıcılığında daha çox monumental, həcmli, maştablı əsərlərə rast gəlmək olur. Ona görə də musiqili-səhnə əsərləri simfonik və vokal-simfonik əsərlər onun yaradıcılığında mühüm yer tutur.

Bəstəkarın 5 opera, 5 operetta, 9 oratoriya, 8 simfoniya, 5 vokal- simfonik poema, 500 dən artıq mahnı və romansı mövcuddur. Opera və operettalar onun yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir.

Lakin, onların arasında ona daha çox uğur gətirən S.Vurğunun dramına yazılan "Vaqif" operası olmuşdur.

Hətta əsərin yazılışından 2 il sonra 1962-ci ildə Moskvada keçirilən Ümumittifaq müsabiqəsinin laureat adına layiq görülmüşdür.

Cahangir Cahangirov özünün "Azad" operasının üçüncü pərdəsində Azadın ariyasında "Aylı gecələr" xalq mahnısına əsaslanıb.

Bəstəkar Süleyman Ələsgərov "Bahadır və Sona" operasının birinci pərdəsinin birinci şəklində Xanəndənin çıxışında "Qarabağ Şikəstəsi" melodiyasından istifadə edib, ikinci pərdədə xor "Ay dilbər" xalq mahnısına əsaslanıb.

Vasif Adıgözəlovun yaradıcılığı xalq musiqisinə yaxınlığı ilə seçilir. Q.Qarayevin bəstəkarlıq məktəbini keçmiş Adıgözəlov xalq musiqisinin incəliklərini, intonasiyasını, üslubunu, bütün xüsusiyyətlərini qoruyaraq müasir musiqinin qanunları ilə vəhdət yaradıb. Bəstəkarın "Ölülər" operasının birinci pərdəsində İskəndərin mahnısı Çahargah təsnifində səslənir. Natəvan" operasında birinci pərdədə "Qarabağ şikəstəsi"ndən istifadə olunub. V.Adıgözəlovun "Natəvan" operasıda bəstəkarın yaradıcılığında mühüm mərhələ idi. Azərbaycan xalqının böyük şairəsi Xurşudbanu Natəvanın 170 illiyinə həsr olunmuş, "Natəvan" operası XXI əsrin ilk opera əsəri kimi dəyərləndirilir. Operada bəstəkar doğma vətəni vəsf edir. XIX əsrin ikinci yarısında, tarixi yurdu olan Qarabağda olanları, o vaxtlar Xan qızının xalqının azadlığı üçün etdikləri, onun mübarizəsini göstərmiş və bütün bunları çağdaş işğalçı qüvvələrin tapdağı altında olan torpaqlarımızın tezliklə

azad olunmasına işarə vermişdir. Bu əsəri həm də xalqımızın salnaməsi hesab etmək olar. Əsər dinləyicilərdə vətənə sevqi, onun keçdiyi əzablı günlər,onu düçməndən gorumaq hissləri oyadır və böyük tərbiyəvi əhəmiyyəti özündə daşıyır.

Liberetto müəllifi Nazim İbrahimov, şeir mətinlərinin müəllifi Rüzgar Əfəndiyeva olan bu opera Azərbaycan opera sənətinin yeni uğuru oldu. Opera Qarabağ hakimi Mehdiqulu xanın qızı Xurşudbanu Natəvanın həyat və yaradıcılıq yolunu, Qarabağda XIX əsrin ikinci yarısında baş verənlər və bunların Azərbaycanın çağdaş tarixi ilə əlaqəsinə işarə verir. Operanın proloqu "Hümayun" muğamının "Mayə" şöbəsindədir.

Burada qəm-qüssə, kədər, faciyəvi əhval-ruhiyyə hökm sürür.

Gözəl Şuşanı tərənnüm etdikdən sonra xor "Rast"ın "Əraq" şöbəsindən bir parça oxuyur.

Birinci pərdədə Natəvanın şərəfinə bayram şənliyində "Eşq olsun xoru" "Şikəsteyi – fars" da oxunur. Bundan sonra aşıq mahnıları və "Qıtqılıda" xalq rəqsi və sonra "Qarabağ şikəstəsi" (Segah üzərində) səslənir. Ümumiyyətlə bütün opera boyu "Segah" muğamı leytmotiv mənasında işlədilib və şəxsən Natəvana aiddir və bu seçim təsadüfi deyil, çünki Qarabağda XX əsrin dahi xanəndələrinin repertuarlarında "Segah" və muğam dəstgahı və onun variantları: "Xaric segah", "Segah-Zabul", "Mirzə-hüseyn segahı", "Yetim segah" və s. çox əhəmiyyətli yer tutub və onlar bu muğamın ən məhşur ifaçıları olub.

1974-cü ildə yazıçı Süleyman Rəhimovun eyniadlı povesti üzrə İskəndər Coşqunun librettosu əsasında, Şərqin qadın bəstəkarları arasında ilk opera janrına müraciət etmiş, tanınmış Azərbaycan bəstəkarı Şəfiqə Axundova "Gəlin qayası" operasını yazır. Üzeyir Hacıbəylinin muğam operalarından örnək alaraq, Ş.Axundova da öz operasının demək olar ki nömrələrində xalq musiqisinin intonasiyalarından, muğam parçalarından istifadə edir.

Məqalədə milli bəstəkarlıq məktəbimizin bir çox nümayəndəsinin yaradıcılığında xüsusilə də opera və balet əsərlərində, eləcə də operettalarında xalq musiqi janrlarına əsaslanmaları izlənmişdir.

Məqalədə bir sıra Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində xalq mahnı və rəqsləri, aşıq yaradıcılığı, muğam, təsnif, rəng üzərində qurulmuş musiqi nömrələri araşdırılmışdır. Azərbaycan bəstəkarlarının yaradıcılığında milli musiqidən istifadənin bir neçə yolu formalaşıb.

Üzeyir Hacıbəyli öz yaradıcılığı ilə ölməz "Leyli və Məcnun" muğam operası ilə Azərbaycan bəstəkarlarının məqam-intonasiya xüsusiyyətlərindən bəhrələnməyi tövsiyə etmişdir.

Azərbaycan bəstəkarlarının bütün janrlar üzrə yaradıcılıqları əsərlərində məqam-intonasiya xüsusiyyətləri özünü qabarıq göstərir.

Azərbaycan bəstəkarlarının müxtəlif janrlarda yazılan əsərlərdə: Muğam fantaziya və ya süitalarda, simfonik muğamlarda, müxtəlif alətlər üçün yazılan

əsərlərdə xor əsərlərində və s. milli musiqili-intonasiya xüsusiyyətləri özünü göstərir.

Musiqili-səhnə əsərlərində musiqinin melodik quruluş xüsusiyyətlərində, muğamın ritm-intonasiya özəlliklərindən özünü təcəssüm etdirilməsində, harmonik quruluşu və s. milli musiqisinə yaxınlığı göstərir.

Azərbaycan xalq musiqisinin bütün janrlarından: muğam, mahnı, aşıq mahnısı, rəqs və s. bəstəkarların yaratdığı musiqili-səhnə əsərlərində geniş yer tutublar və onları zənginləşdiriblər.

**Aktuallıq.** Təqdim edilən məqalədə Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində xalq mahnı və rəqslərindən, aşıq yaradıcılığından, muğamlardan istifadə edilməsi xüsusiyyətlərindən bəhs edilmişdir. Bütün bunların xalqın musiqi təhsili, musiqi tərbiyəsinin inkişafında böyük rolu, əhəmiyyəti göstərilir.

## ƏDƏBİYYAT

1. İ.Abbasova. Azərbaycan bəstəkarlarının musiqili-səhnə əsərlərində xalq mahnı və rəqslərindən istifadə edilməsinin xüsusiyyətləri. Musiqi dünyası, 3(92), 2022. s. 36-43 (8936-8943).
2. Y.Əsədova. XX əsr Azərbaycan musiqişünaslığında xalq musiqisinin tədqiqi məsələləri. Bakı 2012, 181 s.
3. Azərbaycan xalq musuqisi. Oçerklər. B, Elm, 1981, 198s.
4. Arif M. Xalq oyun və mərasimlərində teatr və tamaşa ünsürləri. Seçilmiş əsərləri. 3 clddə. III cild. Bakı, 1970.
5. M.Maqomayev. Operalardan parçalar (tərtib edən və redaktoru Ə.Abbasov). Bakı "İşıq nəşriyyatı. 1975.45s
6. F.Əmirov. "Sevil" Proloq və epiloqlu "Pərdəli opera". Librettosu T.Əyyubovundur (C.Cabbarlının eyni adlı draması üzrə). Azərbaycan Dövlət Musiqi Nəşriyyatı. Bakı, 1957. 321 s.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78.06**

**Ə.B.Süleymanova**
müəllim
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: afasulejmanova@gmail.com
ORCİD İD: 0009-0000-0575-0052

# MUSİQİ İFADƏLİK VASİTƏLƏRİNİN TƏRBİYƏVİ İMKANLARI

***Açar sözlər:*** *ifadəlilik vasitələri, melodiya, ritm, temp, dinamika, forma, harmoniya, tərbiyə*

Məqalədə qeyd olunur ki, musiqinin bütün elementləri – intonasiya və melodiya, ritm, temp və metr, forma, harmoniya və polifoniya, tembr və dinamik çalarlar, ştrixlər və aksentləşmə bir-biri ilə ayrılmaz şəkildə təzahür edirlər. Musiqi ifadəlik vasitələri bir-birilə vəhdətdə dinləyicilərə güclü təsir göstərərək, məktəblilərin dünyagörüşü, bədii zövqlərinin formalaşdırılması, gözəlliyi duyma bacarığının əldə olunması, təxəyyül və fantaziyalarının inkişafı, təfəkkürlərinin fəallaşdırılması, onlarda insani-mənəvi keyfiyyətlərin tərbiyəsi işində vacib bir vasitə kimi istifadə olunmalıdır. Musiqi əsərlərinin bədii obrazı yalnız musiqi elementlərinin, yəni bütün ifadəlik vasitələrinin vəhdətdə olması ilə yaradıla bilər və yalnız bu zaman dinləyicilərə güclü təsir göstərməyə qadir olar. Musiqi dərslərində məktəblilərin estetik tərbiyəsi üzrə iş üç istiqamətdə aprılır: mahnı oxuma, nəzəriyyə və musiqini dinləmə. Bütün bu üç fəaliyyət növlərinin məqsədi təkcə musiqini qavrama bacarığının əldə edilməsi ilə, müəyyən biliklərə yiyələnməklə kifayətlənmir, əsas məqsəd – musiqi vasitəsilə uşaqları tərbiyə etməkdir. Təlim və tərbiyə işi vəhdət təşkil etməlidir. Musiqi əsərlərinin bədii dərinliyinə bələd olan təcrübəli, savadlı müəllim onların obrazlarına, əsas mövzuların onlarda təcəssümünə, bəstəkarın estetik dünyagörüşünün təsvirinə və onun yaradıcılığının ruh aldığı ideallara da toxunmalıdır. Bununla da tərbiyə işi aşıq-aşkar və həddən artiq dedaktizmə sürüklənməklə deyil, lakin şüuraltı formada şagirdlərə hiss etdirmədən aparılır. Bütün bunlar məqalənin mövzusunun aktual olduğunu müəyyənləşdirir.

**А.Б.Сулейманова**

# ВОСПИТАТЕЛЬНЫЕ ВОЗМОЖНОСТИ СРЕДСТВ МУЗЫКАЛЬНОЙ ВЫРАЗИТЕЛЬНОСТИ

***Ключевые слова:*** *средства выразительности, мелодия, ритм, темп, динамика, форма, гармония, воспитание*

В статье отмечается, что все элементы музыки – интонация и мелодия, ритм, темп и метр, форма, гармония и полифония, тембр и динамические нюансы, штрихи и акцентуация существуют в неразрывной связи друг с другом. Средства музыкальной выразительности, обладающиев своей совокупности мощным воздействием на слушателя, должны использоваться как важное средство формирования мировоззрения, художественного вкуса школьников, средство развития воображения и фантазии, активизации мышления, воспитания у них нравственных качеств и гуманизма. Художественный образ музыкальных произведений может быть создан только единством музыкальных элементов, то есть всех средств выражения, и только тогда он сможет оказать сильное воздействие на слушателей. На уроках музыки работа по эстетическому воспитанию школьников ведется по трем направлениям: пение, теория и слушание музыки. Целью всех трех видов деятельности является не только приобретение умения воспринимать музыку и приобретение определенных знаний, главная цель — воспитание детей посредством музыки. Обучение и воспитание должны быть единым целым. Опытный, грамотный педагог, владеющий художественной глубиной музыкальных произведений, должен также коснуться их образного строя, воплощения в них ключевых тем, раскрытия эстетического мировоззрения композитора, идеалов, вдохновлявших его творчество. Таким образом, воспитательная работа осуществляется не в явной и чрезмерной дидактике, а подсознательно, не давая учащимся ее почувствовать. Все это определяет актуальность темы статьи.

**A.B.Suleimanova**

## EDUCATIONAL POTENTIAL OF THE MEANS OF MUSICAL EXPRESSION

***Key words:*** *means of expression, melody, rhythm, tempo, dynamics, form, harmony, education*

The article notes that all elements of music – intonation and melody, rhythm, tempo and meter, form, harmony and polyphony, timbre and dynamic nuances, strokes and accentuation – exist in an inextricable connection with each other. Means of musical expression, holding in the aggregate a powerful effect on the listener, to be used as an important means of formation of outlook, artistic taste pupils means of imagination and fantasy, activate thinking, educating their moral qualities and humanity. The artistic image of musical works can be created only with the unity of musical elements, that is, all means of expression, and only then it is able to have a strong impact on the listeners. In music lessons, the work on the aesthetic education of schoolchildren is carried out in three directions: singing,

theory and listening to music. The purpose of all these three types of activity is not limited to acquiring the ability to perceive music, acquiring certain knowledge, the main goal is to educate children through music. Training and education should be a unity. An experienced, educated teacher who is familiar with the artistic depth of musical works should also touch on their images, the embodiment of the main themes in them, the description of the composer's aesthetic worldview and the ideals that inspired his creativity. Thus, the work of education is carried out not by being overt and excessively didactic, but subconsciously, without making students feel it. All this determines the relevance of the topic of the article.

Hər bir incəsənət növünün həyatı əks etdirə bilən həmin incəsənətə məxsus ifadə vasitələri vardır. Yazıçı və şairlər bunun üçün sözlərdən, bu sözlərin bu və ya digər ardıcıllıqla müqayisəsindən istifadə edir. Rəssamlar müəyyən bir obrazı əks etdirmək üçün rənglərin çalarlarından istifadə edirlər. Bəstəkarlar isə musiqi əsərlərini yaradarkən səs birləşmələrindən, melodiya, ritm, temp, dinamik nüanslardan, lad və harmoniyadan, müxtəlif registrlərin müqayisəsindən və s.kimi ifadəlik vasitələrindən istifadə edirlər.Musiqinin bütün elementləri – intonasiya və melodiya, ritm, temp və metr, forma, harmoniya və polifoniya, tembr və dinamik çalarlar, ştrixlər və aksentləşmə bir-biri ilə ayrılmaz şəkildə təzahür edirlər.

Musiqi əsərinin canı onun melodiyasındadır. Lakin melodiyanı ritm və tempdən, lad və harmoniyadan, müəyyən tembr və ştrixlərdən kənarda təsəvvür etmək mümkün deyil. Əgər melodiyanı ritmdən məhrum etsək, onda bu melodiyadan yalnız biri-birini əvəz edən və bir məna kəsb etməyən intervalllardan başqa heç bir şey qalmayacaq. Musiqi prosesini yaradan melos, intonasiya ritm ilə elə əsaslı şəkildə bir-birinə bağlıdır ki, ritmsiz melodik inkişaf baş verə bilməz. “Musiqi və onun ifası üçün ritm qədər digər bir təşkiledici qüvvə tapılmaz.” (1; s.39). Ritm öz növbəsində, harmoniya və ladın, dinamika və başqa ifadəlilik vasitələrin qanunauyğunluqları ilə və ən başlıcası isə melodiyanın xarakteri, obrazlı xassələri ilə qarşılıqlı şəkildə bağlı olur.Əsərin ritmi musiqinin inkişafıını, musiqi imkanlarını istiqamətləndirməklə, insanın musiqi barəsində ideyalarına, hiss və əhval-ruhiyyəsinə aktivlik gətirir. Ritm sanki təkanverici emosional cəryandır.

Lakin musiqinin ifadəlilik vasitələri sırasında ritmlə sıx bağlı olan digər bir kəmiyyət də mövcuddur ki, onun da musiqini düzgün anlamasında əhəmiyyətli rolu vardır – bu tempdir. Hər bir hərəkət, o cümlədən də musiqinin hərəkəti müəyyən sürətə malıkdir. Musiqidə bu qanun tempin mövcudliğu ilə ifadə olunur. Əsərin tempindən kənara çıxmaq halları onun bədii məzmununa xələl gətirir. Ona görə də bəstəkarlar əsərin tempini özləri əsərin əvvəlində göstərir.

Əslində temp və ritm biri-birindən ayrılmazdır: musiqi fikrinin melodik uzunluğundan asılı olmayaraq ritm şəkli özünün ifadəsini müəyyən bir tempdə tapır. Məsələn, “Cəngi” xalq rəqsindəki marş tempi və punktir ritmi dəyişərsə onun

yürüş xarakterini əldə etmək mümkün olmaz. Buna görə də musiqi aləmində tempo-ritm anlayışı mövcuddur.

Temp və ritmlə bağlı digər bir ifadəlik vasitəsi mövcuddur ki, bu əsərlərin metrik ölçüsüdür. Metr musiqinin zaman ölçüsüdür. O, musiqi fikrini müəyyən zaman daxilində hissələrə ayıran forma olub, həm də, musiqi prosesi axarında hərəkətdə olan səs parçasını ölçən üsuldur. Musiqi ifaçılığı prosesində metr ayrı-ayrı hissələrin nisbətini müəyyən edir. Musiqidə metr ölçüsü geniş rol oynayır. Onsuz böyük məkan və zaman daxilində əhatə edilən musiqinin hərəkət formasını təşkil etmək qeyri-mümkündür. Hərəkət prosesi nə qədər mürəkkəbdirsə, zaman ölçüsü də bir o qədər dəqiq olmalıdır. Adətən musiqi metri aksentlə qovuşur: musiqi ifaçılığında metrin əhəmiyyətindən söhbət açılanda, nəzərdə əsas etibarilə xanənin güclü və zəif hissələrin növbələnməsi olan metrik aksent nəzərədə tutulur. Əgər güclü hissələri qeyd olunan belə növbələnmə, vaxtlı-vaxtında həyata keçirilirsə, onda o, daima bədii məqsədyönlülük və ifadəlilik kimi qiymətləndirilir.

Hər bir dinləyici musiqinin qəmli və ya şən xarakterini ayırd edə bilir. Bu xarakteri musiqiyə digər bir ifadəlik vasitəsi olan onun ladı – major, minor və yaxud milli ladlar verir. Bəstəkarlar şən əhval-ruhiyyəyə malik olan obrazı yaratmaq istəyirsə majordan, qəmli xarakter üçün isə minordan istifadə edirlər. Məsələn, F.Əmirov özünün “Lirik rəqs” fortepiano pyesində qəmli, həzin obrazı yaratmaq üçün melodiya, ritm, temp ifadəlilik vasitələrindən başqa həm də lad xüsusiyyətlərindən də istifadə etmişdir.

Lakin minor ladında yazılmış bir melodiya rəqsvari 6/8 ölçüsündə və cəld tempdə olarsa onda həmin əsər şən xarakterli olur. Eyni zamanda major ladında yazılmış matəm tipli əsərlərə də rast gəlmək mümkündür. Deməк ki, musiqi əsərlərinin məzmunu onların metr (ölçü) və tempindən çox asılıdır.

Bəstəkarlar müəyyən bir obrazı yaratmaq üçün ona uyğun gələn tembrlərdən də istifadə edirlər. Məsələn, yuxarıda göstərdiyimiz “Lirik rəqs” pyesi üçün F.Əmirov fortepiano alətinin tembrindən istifadə etmişdir. Sözsüz ki, həmin əsərin orqanda və yaxud trombonda ifa edilməsi bəstəkarın yaratdığı obrazın düzgün əks olunmasına maneəçilik törədə bilər.

Ədəbi janrda olduğu kimi musiqi əsərlərində də hadisələrin sadə inkişafına rast gələ bilərik. Belə əsərlərdə bir surət əks olunur. Bəstəkarlar bunun üçün bir hissəli formadan istifadə edirlər. Daha çox və mürəkkəb xarakterli surətlər üçün iki, üç hissəli, rondo, variasiya, sonata və s. formalardan istifadə edilir. Deməli, əsərin forması onun məzmununun düzgün əks olunmasında böyük əhəmiyyət kəsb edir. Yalnız forma və muzmunun vəhdəti nəticəsində mükəmməl bədii əsər ortaya çıxa bilər.

Beləliklə, musiqi əsərlərinin bədii obrazı yalnız musiqi elementlərinin, yəni bütün ifadəlik vasitələrinin vəhdətdə olması ilə yaradıla bilər və yalnız bu zaman dinləyicilərə güclü təsir göstərməyə qadir olar.

Məlumdur ki, ümümtəhsil məktəblərində musiqi dərslərində məktəblilərin estetik tərbiyəsi üzrə iş üç istiqamətdə aprılır: mahnı oxuma, nəzəriyyə və musiqini dinləmə. Bütün bu üç fəaliyyət növlərinin məqsədi təkcə musiqini qavrama bacarığının əldə edilməsi ilə, müəyyən biliklərə yiyələnməklə kifayətlənmir, əsas məqsəd – musiqi vasitəsilə uşaqları tərbiyə etməkdir.

Tərbiyə işinə tədris prosesinin əlavəsi kimi baxmaq olmaz. Tədris və tərbiyə işi vəhdət təşkil etməlidir. Lakin tərbiyə işi açıq-aşkar aparılmamalı, həddən artıq didaktizmdən qaçınmaq lazımdır, çox vaxt hətta şagird onu hiss etməməlidir.

Tərbiyə işi dərs prosesində həyata keçirilir. Bu zaman onun müxtəlif sahələrinə toxunmaq vacibliyi yaranır. Musiqi əsərlərinin bədii dərinliyinə bələd olan təcrübəli, savadlı müəllim onların obrazlarına, əsas mövzuların onlarda təcəssümünə, bəstəkarın estetik dünyagörüşünün təsvirinə və onun yaradıcılığının ruh aldığı ideallara da toxunmalıdır.

Şagirdin bədii zövqünün formalaşması məsələsini qarşısına qoyan yaxşı müəllim nəinki incəsənətdəki gözəlliyə reaksiya verir, həmçinin bu gözəlliyin məğzini anlatmağa çalışır. Estetik dəyərləndirmə bu kimi hallarda müəllif tərəfindən istifadə olunan musiqi iifadəlik üsullarının nəzərdən keçirilməsi ilə möhkəmlənir.

İncəsənət əsərinin dərindən başa düşmək üçün müəyyən hazırlığın olması çox vacib məsələdir. Məktəbli Nizaminin “Sirrlər xəzinəsi” və yaxud “İskəndərnamə” əsərini ilk dəfə oxuyanda onun dərin mənasını dərhal başa düşə bilməz. Çünki məktəblinin həyat təcrübəsi və inkişaf etmiş zövqü olmadığından həmin əsərlərin dərin mənasını başa düşmür və onun keyfiyyətini dəyərləndirə bilmir. Lakin məktəbli böyüdükcə və onun həyat təcrübəsi artdıqca, o daha diqqətli olur bədii əsərlərin əhəmiyyətini dərk etmək, gözəlliyini duymaq qabiliyyətinə malik olur.

Eləcə də musiqi də öz sirrlərini dərhal dinləyiciyə açmır. Musiqi zövqü, musiqini başa düşmək qabiliyyəti yavaş-yavaş, daha doğrusu, tədricən formalaşır. Musiqi əsərinin məzmununu başa düşmək üçün şagirdin ümumi mədəniyyəti və xüsusi hazırlığı olmalıdır. Bu məsələdə dinləyicinin musiqini dinləyərkən əhval-ruhiyyəsinin əsərin məzmununa uyğun gəlməsindən və dinləyicinin diqqətinin fəallığından çox şey asılıdır. Bəstəkarın yaratdığı əsərdə onun hissləri öz əksini tapır. Dinləyici isə həmin musiqi əsərinidinlədikdə bəstəkarın əks etdirdiyi hissləri keçirməyə başlayır. Bu isə o vaxt baş tutur ki, dinləyici bəstəkar əsərini başa düşməyə hazır olsun.

Qeyd etdiyimiz kimi, hər bir musiqi əsərinin tərbiyəvi təsiri onda istifadə olunan bütün ifadəlik vasitələrinin – intonasiya-melodik quruluş, ritm, metr, temp, lad, tembr, dinamika və kompozisiya quruluşunun (formasının) vəhdətdə olması ilə yaradıla bilər. Məsələn, “Qaçaq Nəbi” xalq mahnısında 6/8 ölçüsü, rəqs xarakteri, yüksək tessitura xalq qəhrəmanının obrazının açılmasında böyük əhəmiyyətə malıkdir. Göstərdiyimiz ifadə vasitələrinin biri dəyişərsə, onda istənilən obraz alına

bilməz. Bütün bu ifadə vasitələri lazımi əhval-ruhiyyə yaradaraq uşaqlarda qəhrəmanlıq, cəsurluq, vətənə sevgi hisslərini tərbiyə edir.

Yuxarıda dediyimiz kimi, formasız məzmun, məzmunsuz formanın mövcudluğu mümkün deyildir. Ona görə də uşaqlar musiqi əsərlərini başa düşmək üçün musiqi formaları haqqında bilikləri qavramalıdırlar. Sonata, simfoniya, konsert və digər mürəkkəb musiqi janrları başa düşmək üçün proqramlı, yəni məzmunu əvvəlcədən dinləyiciyə məlum olan əsərlərin uşaqlara dinlədilməsinin böyük əhəmiyyəti vardır. Məsələn, Ü.Hacıbəylinin "Yaxşı yol", "Cəngi", Q.Qarayevin "Uşaq pyesləri", F.Əmirovun "12miniatür" fortepiano pyesləri, "Nizami" simfoniyası, S.Hacıbəyovun "Sülh uğrunda" simfonik poeması və s. proqramlı musiqi nümunələri dərsin musiqini dinləmə hissəsində istifadə edilə bilər. Bütün bu əsərlər yüksək bədii ilə fərqlənərəq, uşaqların zövqünü formalaşdırmaqla bərabər onlarda müxtəlif insani keyfiyyətlərin tərbiyəsi üçün də faydalıdır.

Bir sıra vətəni, onun gözəl təbiətini əks edən və məktəblilərin vətənpərvər hisslərini oyadan musiqi əsərləri, məsələn F.Əmirovun "Azərbaycan" simfonik süitası, S.Hacıbəyovun "Karvan" simfonik şəkli proqramlı musiqi janrına aid etmək olar.

Uşaqlarda musiqinin qavrama proseslərini fəallaşdırmaq üçün onlara musiqini dinlədikdən sonra bir sıra suallar verilməlidir: Əsəri yazmaqla bəstəkar nə demək istəmişdir? Dinlədiyiniz musiqi əsərindəki məzmun sizin təsəvvürünüzdə yaranan surətə uyğun gəlirmi? Dinlədiyiniz musiqi əsərində sizin hələ dərk etmədiyiniz problem varmı? Bəstəkar nəüçün bu əsəri yazmış vədövrünün hansı cəhətləri onun gözləri önündə canlanmışdır? və s. buna oxşar suallar. İlk baxışdan o qədər də çətin görünməyən bu suallara cavab vermək üçün musiqi əsərini təkrar-təkrar dinləmək, musiqi haqqında biliklərə malik olmaq lazımdır. Məhz bu halda musiqi janrları uşaqlar tərəfindən qavranıla bilər.

Musiqi heç bir söz istifadə etmədən, yalnız musiqi ifadəlik vasitələrilə dinləyicidə istənilən hissləri yarada bilir və bununla da onu tərbiyə edir. Məsələn, 1-ci sinif uşaqlarına Q.Qarayevin həzin, lirik melodiyaya malik olan "Fikrə dalma" pyesini dinlətdikdə, onlara sualla müraciət edilmişdir: bu musiqi nədən bəhs edir? Əsər minor ladında, asta tempdə, piano nüansında və legato səsaparıcılığında olduğu üçün uşaqların əksəriyyəti onun kədərli xarakterini qeyd etmişdir. Lakin bu pyesin ortasında 4 xanə müddətində dinamikanın və hərəkətin canlanması ilə paralel majora kənarlaşma baş verir. Bunu isə yalnız iki uşaq duya bilmişdir. Onların fikrincə, bəstəkar əvvəl nəyəsə qüssələnir, əsərin ortasında isə yaxşı bir şeyi yada salaraq sevinmişdir.

Lakin qəlbin dili olan musiqi çox şeyi deyə bilsə də konkret bir məhfum deyil və onun məzmununu başa düşmək üçün çox zaman fantaziyanın köməyindən istifadə etmək lazım gəlir. Musiqiyə ən yaxın olan incəsənət növü poeziyadır. Söz əvvəl əqlə, ondan sonra isə hisslərə təsir edir. Musiqidə isə bunun tam əksi baş verir. İntonasiya musiqi və danışıq səslərini daxildən işıqlandırır. İntonasiya insan

fikirlərinin və hisslərinin düzgün ötürülməsində böyük imkanlara malikdir.D.Kabalevski musiqi intonasiyasını ondan melodiya yaranan toxum adlandırır. Bu toxumdan yaranan melodiya musiqinin qəlbi, musiqi əsərinin əsas fikridir. Vokal-xor əsərlərində, mahnılarda musiqi və söz vəhdət təşkil edərək əsərlərin təsir qüvvəsini daha da artırır. Buradan da belə nəticəyə gəlmək olar ki, hər bir incəsənət növünün sərbəstliyi nisbi xarakter daşıyır və müxtəlif incəsənət növlərinin qarşılıqlı əlaqəsi ilə daha da möhkəmlənir. Buna görə də mahnılar vasitəsi ilə uşaqların tərbiyələn-dirilməsi prosesi daha tez və asan olur. Bu iş musiqi dərsinin mahnı oxuma bölməsində həyata keçirilir.

**Nəticə.** Beləliklə, musiqi ifadəlik vasitələri bir-birilə vəhdətdə dinləyicilərə təsir göstərərək, məktəblilərin dünyagörüşünün, bədii zövqünün formalaşdırılması, gözəlliyi duyma bacarığının əldə olunması, təxəyyül və fantaziyalarının inkişafı, təfəkkürlərinin fəallaşdırılması, onlarda insani-mənəvi keyfiyyətlərin tərbiyəsi işində güclü bir vasitə kimi istifadə olunmalıdır. Təlim və tərviyə işi vəhdətdə və açıq-aşkar şəkildə yox, dolayısı yollarla aparılmalıdır.

## ƏDƏBİYYAT

1. Dadaşova E., Əliyeva M. Dirijorluq və onun tədrisi metodikası. B., 2013, 219 s.
2. Hidəyətova F. Musiqi və vətəndaşlıq tərbiyəsi. Bakı, 2009, 188 səh.
3. Kabalevski D.B. «Müasir dünyada musiqi tərbiyəsi», Moskva,1970
4. Qədimova J. Musiqi pedaqogikası: tarixilik və müasirlik. Bakı, 2012, 224 səh.
5. Rəcəbov O., Məmmədova G. Pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdə musiqi tədrisinin metodikası. Bakı, 2009, 204 səh.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 78:373.3:37.015.3**

**N.Ə.Vəliyeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: veliyevanigar901@gmail.com

# MUSİQİ DƏRSLƏRİNDƏ KİÇİK YAŞLI MƏKTƏBLİLƏRİN MOTİVASİYASININ FORMALAŞMASI

***Açar sözlər:*** *motivasiya, musiqi, kiçik yaşlı məktəbli, dərs, formalaşma*

"Musiqi dərslərində kiçik yaşlı məktəblilərin motivasiyasının formalaşması" mövzusu pedaqoji tədqiqat sahəsində böyük əhəmiyyətə malikdir, çünki musiqi təhsili yalnız uşaqların əqli inkişafını deyil, həm də onların yaradıcılıq qabiliyyətlərinin, emosional intellektinin və sosial bacarıqlarının inkişafını təmin edir. Kiçik yaşlı məktəbli şagirdlərin musiqi dərslərində motivasiyasının formalaşması onların tədris prosesində uğurlu olmaları üçün əsas amillərdəndir. Musiqi dərsləri uşaqların ümumi inkişafına, xüsusən yaddaş qabiliyyətinə, diqqətini yönəltmək bacarığına və emosional intellektin inkişafına müsbət təsir göstərir. Bu səbəbdən motivasiyanın effektiv şəkildə təşviqi və formalaşdırılması musiqi təhsilinin keyfiyyətinin yüksəldilməsi baxımından vacibdir.

Musiqi, həmçinin uşaqların sosial bacarıqlarının inkişafında mühüm rol oynayır; bu, əsasən musiqi dərslərinin çox vaxt qrup şəklində təşkil olunması ilə bağlıdır. Qrup şəraitində keçirilən dərslər uşaqların əməkdaşlıq etməyə, birlikdə işləməyə və sosiallaşmağa alışmalarına şərait yaradır. Bundan əlavə, musiqi təhsili uşaqlarda estetik zövqün formalaşmasına töhfə verir və onlara mədəniyyətin bir parçası olmağı öyrədir. Kiçik yaşlı uşaqların motivasiyasının yüksəldilməsi üçün müsbət, dəstəkləyici və yaradıcı tədris mühitinin yaradılması vacibdir. Hər bir uşağa fərdi yanaşma tətbiq etmək, onları təşviq etmək və nailiyyətlərini qiymətləndirmək motivasiyanın artırılmasında əsas amillərdəndir. Müəllimlərin, valideynlərin və cəmiyyətin bu sahədə göstərdiyi davamlı dəstək uşaqların öyrənməyə olan həvəsini və marağını daha da gücləndirir.

**Н.А.Велиева**

# ФОРМИРОВАНИЕ МОТИВАЦИИ МЛАДШИХ ШКОЛЬНИКОВ НА МУЗЫКАЛЬНЫХ ЗАНЯТИЯХ

***Ключевые слова:*** *мотивация, музыка, младший школьник, урок, формирование*

Тема «Формирование мотивации у младших школьников на уроках музыки» имеет большое значение в области педагогических исследований, поскольку музыкальное образование способствует не только интеллектуальному развитию детей, но и развитию их творческих способностей, эмоционального интеллекта и социальных навыков. Формирование мотивации у младших школьников на уроках музыки является одним из ключевых факторов их успешности в учебном процессе. Музыкальные занятия положительно влияют на общее развитие детей, особенно улучшая их память, способность сосредотачиваться и эмоциональный интеллект. Поэтому эффективное стимулирование и формирование мотивации является важным условием повышения качества музыкального образования.

Музыка также играет важную роль в развитии социальных навыков детей, что связано с тем, что музыкальные уроки часто проходят в групповой форме. Групповые занятия создают условия для того, чтобы дети привыкали к сотрудничеству, совместной работе и социализации. Кроме того, музыкальное образование способствует формированию эстетического вкуса у детей и учит их быть частью культуры. Для повышения мотивации младших школьников необходимо создавать позитивную, поддерживающую и творческую образовательную среду. Индивидуальный подход к каждому ребенку, поощрение и оценка его достижений являются основными факторами повышения мотивации. Постоянная поддержка со стороны учителей, родителей и общества дополнительно укрепляет у детей желание и интерес к обучению.

**N.A.Veliyeva**

## FORMATION OF MOTIVATION OF YOUNGER SCHOOLCHILDREN IN MUSIC LESSONS

***Key words***: *motivation, music, junior schoolboy, lesson, formation*

The topic of "The Formation of Motivation in Young Schoolchildren during Music Lessons" holds great significance in the field of pedagogical research, as music education not only fosters children's intellectual development but also promotes the growth of their creative abilities, emotional intelligence, and social skills. The formation of motivation in young schoolchildren during music lessons is a key factor for their success in the learning process. Music lessons positively impact children’s overall development, particularly enhancing their memory capacity, ability to concentrate, and emotional intelligence. Therefore, the effective encouragement and development of motivation are essential for improving the quality of music education.

Music also plays a significant role in the development of children's social

skills, primarily because music lessons are often conducted in group settings. Group lessons provide opportunities for children to become accustomed to cooperation, teamwork, and social interaction. Additionally, music education contributes to the formation of aesthetic taste in children and teaches them to be part of a culture. Creating a positive, supportive, and creative learning environment is essential for enhancing the motivation of young children. Applying an individual approach to each child, encouraging them, and recognizing their achievements are key factors in increasing motivation. The ongoing support from teachers, parents, and society in this area further strengthens children's enthusiasm and interest in learning.

Motivasiya – uşağın hər hansı bir fəaliyyət sahəsində marağını, istəyini və iradəsini müəyyən edən daxili və xarici amillərin məcmusu kimi dəyərləndirilir. Musiqi təhsili kontekstində motivasiya, uşaqların musiqini öyrənməyə, musiqi alətlərində ifa etməyə və ümumilikdə musiqi fəaliyyətinə maraq göstərməyə yönəlmiş istək və həvəsini əhatə edir. Musiqi dərslərində motivasiya, uşağın şəxsiyyətinin formalaşması, özünüinkişafı və təlim prosesində aktiv iştirakının təmin olunması baxımından mühüm pedaqoji amil hesab olunur. Uşaqlarda motivasiyanın gücləndirilməsi, onların musiqiyə olan marağını artırmaqla yanaşı, təlim prosesinə maraq və həvəsini də stimullaşdırır ki, bu da nəticə etibarilə daha səmərəli təhsil göstəricilərinə səbəb olur. Motivasiya, şagirdlərin konkret təlim məqsədlərinə çatmaq istiqamətində enerji və təşəbbüs nümayiş etdirmələrinə şərait yaradan əsas psixoloji mexanizmlərdən biridir. Musiqi dərslərində uşaqların motivasiyasının artırılması məqsədilə onların maraq dairəsinə uyğun yanaşmalar tətbiq olunmalı, dərslər interaktiv və əyləncəli şəkildə təşkil edilməlidir. Ümumiyyətlə, tədris prosesində motivasiya daxili və xarici motivasiya növlərinə bölünür:

➢ ***Daxili motivasiya:*** Uşaqların musiqiyə maraq göstərməsi, musiqi ifasına həvəsli olması, müəyyən musiqi məqsədləri qarşısına qoyması kimi hallar, əsasən onların şəxsi maraqları və əvvəlki təcrübələri əsasında formalaşan daxili motivasiya ilə izah olunur. Bu tip motivasiya uşağın fərdi maraqlarına, emosional təcrübəsinə və musiqi ilə olan şəxsi əlaqəsinə əsaslanaraq yaranır və tədris prosesində davamlı marağın formalaşmasında mühüm rol oynayır.

➢ ***Xarici motivasiya:*** Müəllim və ya valideyn tərəfindən uşağın təşviq edilməsi, mükafatlandırma, təşəkkür, qiymətləndirmə və digər xarici stimullar vasitəsilə dəstəklənən motivasiya növü xarici motivasiya kimi xarakterizə olunur. Bu cür motivasiya uşağın fəaliyyətə yönəlməsini və davamlı iştirakını təmin etmək üçün kənar təsirlərlə formalaşır və əsasən nəticəyə görə verilən dəyərləndirmə ilə bağlı olur. Xarici motivasiya, xüsusilə təlim prosesinin başlanğıc mərhələlərində uşağın fəallığını artırmaq və onu tədrisə cəlb etmək baxımından əhəmiyyətlidir.

*Kiçik yaşlı uşaqların motivasiyasını artıran üsullar*

➢ ***Təşəkkür və Tariflər***

Uşaqların motivasiyasının artırılması məqsədilə onların hər bir kiçik nailiyyətinin dəyərləndirilməsi mühüm pedaqoji əhəmiyyət daşıyır. Xüsusilə musiqi ifası zamanı və ya verilmiş tapşırıqların yerinə yetirilməsində göstərilən kiçik uğurlar belə təşəkkür və müsbət geribildirimlə qarşılanmalı, şagirdin səyi diqqətdən kənarda qalmamalıdır. Bu cür yanaşma uşaqlarda özünəinam hissini gücləndirir, onların öz bacarıqlarını dərk etməsinə və növbəti mərhələlərdə daha yüksək nəticələr əldə etmək üçün təşəbbüs göstərməsinə səbəb olur. Təbrik və tərifin ardıcıl, səmimi və müsbət formada ifadə olunması, uşağın daxili motivasiyasının inkişafını təşviq edən əsas amillərdən biri hesab edilir.

➢ ***Yaradıcılığı təşviq etmək***

Kiçik yaşlı uşaqlar üçün özünü ifadə etmək və yaradıcılıq potensialını nümayiş etdirmək təlim-tərbiyə prosesinin əsas istiqamətlərindən biridir. Musiqi dərslərində yaradıcılığın stimullaşdırılması, uşaqların tədrisə marağını artırmaqla yanaşı, onların fərdi inkişafına da müsbət təsir göstərir. Uşaqlara sərbəst improvizasiya etməyə, yeni musiqi ideyaları yaratmağa və ya öz musiqi əsərlərini – mahnı və melodiyalarını – formalaşdırmağa şərait yaradılması, onların özünəinamını gücləndirir, şəxsiyyətin formalaşmasına xidmət edir və tədris prosesində aktiv iştiraklarını təşviq edir. Bu yanaşma musiqi təhsilində yaradıcı düşüncə və estetik zövqün formalaşması baxımından da mühüm əhəmiyyət kəsb edir.

➢ ***Dəstəkləyici və Pozitiv Müəllim Yanaşması***

Şagirdlərin motivasiyasının formalaşmasında və inkişaf etdirilməsində müəllimlərin rolu xüsusi əhəmiyyət kəsb edir. Müəllimin müsbət, təşviqedici və anlayışlı yanaşması şagirdlərin dərsə marağını artırır, onların öyrənmə prosesinə fəal şəkildə qoşulmasına şərait yaradır. Tədris zamanı müəllim şagirdləri heç bir halda tənqid və ya təhqir etməməli, əksinə, onların səhvlərini düzəltmələri üçün konstruktiv imkanlar yaratmalı, hər zaman dəstək və motivasiya ilə müşayiət etməlidir. Şagirdlərin özlərini rahat hiss etdiyi, uğursuzluqdan qorxmadan sərbəst ifadə olunduğu müsbət və təhlükəsiz təlim mühiti yaradılması motivasiyanın güclənməsinə və uşaqların akademik və emosional inkişafına zəmin yaradır.

➢ ***Məqsəd Qoyma və Kiçik Addımlar***

Kiçik yaşlı uşaqlar üçün abstrakt və uzaq məqsədləri dərk etmək və onlara çatmaq bəzən çətin ola bilər. Buna görə də tədris prosesində məqsədlərin daha konkret, real və əldə edilə bilən şəkildə qurulması daha səmərəli nəticə verir. Bu yaş dövrü üçün qısa müddətli və mərhələli məqsədlərin müəyyən edilməsi uşaqların həm öyrənmə prosesini mənimsəməsini, həm də motivasiyasının sabit qalmasını təmin edir. Məsələn, uşağa dərs zamanı bir musiqi parçasının yalnız bir hissəsini ifa etmək tapşırıldıqda və bu kiçik uğur dərhal müsbət geribildirim və ya sadə bir mükafatla qiymətləndirildikdə, o, özünü dəyərli hiss edir və növbəti tapşırıqlara daha yüksək həvəslə yanaşır. Belə yanaşma, həmçinin məqsədə çatma hissini uşağa aşılayaraq onun özünəinamını və dərsə olan marağını gücləndirir.

➢ ***Oyunlar və İnteraktiv Yanaşmalar***

Kiçik yaşlı uşaqların təlim prosesinə maraqla qoşulması üçün dərslərin interaktiv, əyləncəli və uşaq psixologiyasına uyğun şəkildə təşkili mühüm əhəmiyyət daşıyır. Musiqi dərslərində oyun elementlərinin tətbiqi – məsələn, musiqi ritmlərini tanıma, səs mənbələrini tapma, "musiqi tapmacaları" həll etmə kimi fəaliyyətlər – uşaqlarda həm maraq, həm də öyrənməyə yönəlik daxili motivasiyanı gücləndirir. Oyunlar vasitəsilə şagirdlər musiqi elementlərini daha rahat və təbii şəkildə mənimsəyir, tədris prosesi isə onların yaddaşında müsbət emosiyalarla müşayiət olunur. Belə yanaşma öyrənməni sadəcə məlumat ötürülməsi deyil, həm də yaradıcı və əyləncəli prosesə çevirərək uşaqlarda musiqi təhsilinə davamlı marağın formalaşmasına xidmət edir.

➢ ***Fərdi Yanaşma və Həvəsləndirici Fəaliyyətlər***

Hər bir şagirdin fərdi öyrənmə tərzi, maraqları və qabiliyyət səviyyəsi bir-birindən fərqli olduğu üçün təlim prosesinin diferensiallaşdırılması və şagirdin şəxsi xüsusiyyətlərinə uyğunlaşdırılması pedaqoji baxımdan zəruridir. Musiqi dərslərində müəllim hər bir şagirdin maraq dairəsini və yaradıcı potensialını düzgün şəkildə müəyyən etməli, fərdi yanaşma əsasında tədris metodlarını seçməlidir. Məsələn, əgər bir şagird mahnı bəstələməyə maraq göstərirsə, onun bu marağını təşviq edəcək yaradıcı fəaliyyətlərə yer verməк, digər bir şagird isə musiqi alətində ifaya meyillidirsə, ona praktiki məşğələlər təklif etmək motivasiyanın yüksəlməsinə səbəb olur. Bu cür fərdiləşdirilmiş yanaşma şagirdlərin təlim prosesinə fəal və maraqla qoşulmalarını təmin etməklə yanaşı, onların öz bacarıqlarını inkişaf etdirmələrinə də geniş imkan yaradır.

➢ ***Valideyn Dəstəyi***

Valideyn dəstəyi, uşaqların motivasiyasının formalaşması və davamlılığında mühüm rol oynayan psixoloji və sosial amillərdən biridir. Valideynlərin uşaqlarının musiqi təhsilinə maraq göstərməsi, onların dərslərdə əldə etdikləri nailiyyətləri qeyd etməsi və maraqlı fəaliyyətlərlə təşviq etməsi, şagirdin özünəinamını və dərsə olan münasibətini müsbət istiqamətdə formalaşdırır. Ev mühitində dəstəkləyici münasibət görən uşaqlar musiqi fəaliyyətlərinə daha yüksək həvəs və təşəbbüslə yanaşır, tədris prosesində fəallıqları artır. Bundan əlavə, valideynlərin musiqi təhsili ilə müntəzəm maraqlanması – dərslərin məzmunu, uşağın irəliləyişi və çətinlikləri ilə bağlı müəllimlərlə əlaqə saxlaması – uşaqlarda musiqi öyrənməyə qarşı ciddi münasibətin formalaşmasına və təhsilə daha dərindən cəlb olunmalarına şərait yaradır.

Uşaqlara musiqi öyrətmək məqsədilə müxtəlif oyunların tətbiqi onların dərslərə marağını və iştirak səviyyəsini əhəmiyyətli dərəcədə artırır. Musiqi ilə bağlı tapmacalar, interaktiv oyunlar, rəqs və musiqili əyləncələr uşaqların təlim prosesinə marağını yüksəldir və onları dərslərdə daha fəal edir. Bundan əlavə, uşaqların bir-birinə dəstək verməsi və birlikdə fəaliyyət göstərməsi musiqi dərslərində motivasiyanın güclənməsinə səbəb olur. Qrup şəklində təşkil olunan fəaliyyətlər uşaqların özünüifadə qabiliyyətini inkişaf etdirir və musiqidə birgə ifa bacarıqlarını

formalaşdırır. Musiqi təhsili, həmçinin uşaqların sosial bacarıqlarının inkişafına da töhfə verir; çünki qrup şəraitində onlar əməkdaşlıq etməyi, musiqi vasitəsilə ünsiyyət qurmağı və ətrafdakıları dinləməyi mənimsəyirlər. Eyni zamanda, müəllimlərin uşaqlara göstərdiyi davamlı dəstək və müsbət münasibət motivasiyanın yüksəlməsində əsas amillərdəndir. Müəllimlər şagirdləri daima təşviq etməli, hər hansı çətinlik və ya uğursuzluq zamanı onları ruhlandırmalı və dəstəkləməlidirlər.

Məşhur psixoloq A.K.Markova hesab edir ki, təhsil fəaliyyətində uğur əldə etmək üçün motivasiya öyrənmə fəaliyyətinə daxil olan, həvəsləndirən, şagirdin fəallığına səbəb olan, onun fəaliyyətinin istiqamətini müəyyən edən xüsusi motivasiya növüdür [6, s 53].

Müvəffəqiyyət motivasiyası adətən yüksək özünə hörmət və liderlik meyilləri olan şagirdlərdə daha çox müşahidə olunur. Bu motivasiya növü şagirdi sinif yoldaşlarından üstün olmaq, seçilmək və birinci yerə sahib olmaq üçün səylə çalışmağa sövq edir. Əgər şagirdin qabiliyyətləri bu tələblərə uyğun inkişaf etmişdirsə, müvəffəqiyyət arzusu onun ən yaxşı təhsil nəticələrinə nail olması üçün güclü daxili mühərrik funksiyasını yerinə yetirir və əla tələbənin formalaşmasına səbəb olur. Lakin, müvəffəqiyyət motivasiyasının orta səviyyədə qabiliyyətlərlə birləşməsi vəziyyətində, uşağın özünə inamında dərin, bəzən isə özü tərəfindən belə tam dərk edilməyən şübhələr yaranır. Bu hal şişirdilmiş arzularla birgə təsir edərək, uğursuzluq qarşısında affektiv, emosional reaksiyaların meydana gəlməsinə gətirib çıxarır və təhsil prosesində mənfi nəticələrə səbəb ola bilər.

Beləliklə, musiqiyə emosional reaksiya və uğurlu ifa, musiqi fəaliyyəti ilə musiqi qabiliyyətinin vəhdətindən ibarət olub, bu vəhdət subyektin psixomotor, hissiyyat-emosional və rasional funksional xassələrinin sistematik təzahürüdür [6, s. 41]. Uşaqların musiqi qabiliyyətlərinin inkişafına dəstək vermək, eyni zamanda onların motivasiya sahəsinin formalaşmasına, bilik motivasiyasının inkişafına və oriyentasiyasına müsbət təsir göstərməklə musiqi tərbiyəsinin məqsədinə çatmaq mümkündür.

İbtidai musiqi təhsilinin tədris prosesinin optimallaşdırılması məqsədilə musiqi ilə məşğul olan kiçik məktəblilərin motivasiya sferasının təhlili vacibdir. Kiçik yaşlı məktəbli şagirdin şəxsiyyətinin inkişafı birbaşa təhsil fəaliyyəti ilə bağlıdır. L.S. Viqotski qeyd edir ki, bu dövr uşağın özünə hörmətinin formalaşması baxımından xüsusi əhəmiyyət daşıyır. Özünə hörmətin inkişafı pedaqoji fəaliyyətlərdə özünü göstərir və bu, uşağın şəxsi uğur və ya uğursuzluğunu qavraması, müəyyən məqsədlərə çatmaq istəyinin ilkin şərti kimi çıxış edir. Uşağın özünə hörməti onun davranışına, həmyaşıdları və böyüklərlə münasibətlərinə, fəaliyyətinə və ümumi inkişafına birbaşa təsir edir.

Bu yaş dövründə uşaqlara təsir edən əsas amillərdən biri təkcə ailə tərbiyəsi və ailədə formalaşan dəyərlər deyil, həm də müəllimlərin qiymətləndirməsidir. Uşaqlar müəllimin onlara verdiyi qiymətləndirməni qəbul edir və onun əsasında özlərini və həmyaşıdlarını müqayisə edirlər. Xüsusilə sinifdə çox sayda şagird olduqda,

müəllim tərəqqini müqayisə etməyə başlayır ki, bu da uşaqların sosial mövqeyinin formalaşmasına təsir göstərir.

Müvəffəqiyyət motivasiyasının formalaşmasının ən vacib şərtlərindən biri təhsil uğuru vəziyyətlərinin yaradılması və həvəsləndirmə metodlarının məqsədyönlü tətbiqidir. İbtidai sinif şagirdləri müəllimin tərifinə və rəğbətinə həssasdırlar, ona görə də müəllimin onların üzərindəki təsiri böyükdür; müəllimin kiçik məktəbliləri davamlı olaraq həvəsləndirməsi onların ruh yüksəkliyini artırır, daha yaxşı nəticələr əldə etməyə təşviq edir və nailiyyət motivasiyasının inkişafını dəstəkləyir. Həvəsləndirmə zamanı müəllim təkcə tədris fəaliyyətində yüksək nəticələr göstərən şagirdləri deyil, zəhmətkeş və davamlı çalışan, lakin yüksək nəticə əldə etməyən şagirdləri də qiymətləndirməlidir. Özünəinamı zəif olan, geridə qalan şagirdlərin uğurlarının təsdiqlənməsi onların inamını artırmaq, qətiyyət və müstəqillik hisslərini formalaşdırmaq, eləcə də çətinliklərin öhdəsindən gəlmək motivasiyasını gücləndirmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan zəif şagirdlər üçün müvəffəqiyyət situasiyalarının yaradılması vacibdir [5, s. 71].

Musiqi öyrənmə prosesində uşaqlar əldə etdikləri nailiyyətləri və ya uğursuzluqları əvvəlcədən təxmin edə və qiymətləndirə bilirlər, lakin müvəffəqiyyətin və ya uğursuzluğun səbəblərini müxtəlif yollarla araşdırmaq və şərh etmək zəruridir. Müvəffəqiyyət məqsədyönlü və motivasiyalı fəaliyyətin nəticəsi kimi qəbul olunur və bir çox tədqiqatçılar bu yanaşmanı dəstəkləyir. Tələbənin şəxsi uğur və uğursuzluqlarının qiymətləndirilməsi (atribusiya prosesi) motivasiya ehtiyaclarının səviyyəsi, istəklərin dərinliyi və özünə hörmət hissi ilə sıx bağlıdır.

Uğur və ya uğursuzluğun şərh edilməsində tələbənin ümumi oriyentasiyası mühüm rol oynayır. Nəticə yönümlülük — nailiyyət motivasiyası və prestij motivasiyası — uğur və uğursuzluğun daxili atributlarına aid edilməsinə kömək edir. Həm xarici, həm də daxili uğur və uğursuzluqların izahı isə proses oriyentasiyası, yəni musiqiyə olan maraq və iştirakla bağlıdır.

Bu yaş qrupundakı şagirdlər uğur və uğursuzluqları əsasən daxili səbəblərlə — məsələn, musiqi qabiliyyətlərinin inkişaf səviyyəsi ilə əlaqələndirməyə meyillidirlər. Eyni zamanda, yüksək musiqi qabiliyyətlərinə malik olan tələbələr daha çox uğursuzluqları daxili dəyişənlərlə (az çalışmaq, kifayət qədər səy göstərməmək və s.) əlaqələndirmə meylinə malikdirlər.

Məqalədə musiqi dərslərində kiçik yaşlı məktəblilərin motivasiyasının formalaşmasının əhəmiyyəti və bu prosesə təsir edən əsas amillər ətraflı şəkildə təhlil olunmuşdur. Tədqiqat göstərir ki, musiqi təhsili uşaqların zehni, emosional və sosial inkişafına ciddi təsir göstərir və bu inkişafın əsas təkanverici amili məhz motivasiyadır.

Motivasiyanın artırılması üçün müəllimlərin dəstəkləyici və pozitiv yanaşması, fərdi yanaşmaların tətbiqi, tədris mühitinin təhlükəsiz və yaradıcı olması, valideyn dəstəyi və interaktiv metodların tətbiqi vacibdir. Daxili və xarici motivasiya

növləri nəzərə alınaraq uşaqların maraq dairəsinə uyğun dərs metodlarının seçilməsi onların dərsə həvəsini artırır, öyrənməyə olan istəklərini gücləndirir.

Əldə olunan nəticələrə əsasən demək olar ki, musiqi dərslərində uğurlu motivasiya strategiyaları tətbiq olunduqda, uşaqların özlərinə inamı, yaradıcılığı və musiqiyə olan maraqları daha da inkişaf edir. Bu isə yalnız onların musiqi təhsili sahəsində deyil, ümumi şəxsiyyət və sosial bacarıqlarının inkişafında da mühüm rol oynayır.

## Ədəbiyyat

1. Qədimova J. Musiqinin tədrisi metodikası. Bakı, 2007, 323 s
2. Həsənova A. Musiqi və onun ibtidai siniflərdə tədris metodikası. Bakı: ADPU, 2011.
3. Rəcəbov O., Hidayətova F. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası. Bakı, 2013, 258 s.
4. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı, 1982, 381 s.
5. А.В. Матюхина. Мотивация учения младших школьников [Текст]. – М.: Просвещение, 1984. – 137 с.
6. А.И. Муха. Принцип программности в музыке. Автореферат. Л., 1965.
7. Матюхина М.В. Мотивация учения младших школьников [текст] / А.В. Матюхина. – М.: Просвещение, 1984. – 137 с.
8. Бонфельд М.Ш. Введение в музыкознание: учеб. пособие для студ. высш. учеб. заведений [Текст]. – М.: Владос, 2001. – 224 с.
9. Калинина Т.В. Мотивационные тенденции учащихся 8–9 лет с разным уровнем развития музыкальных способностей [Текст] / Т.В. Калинина, Н.И. Константинова // Дифференциальная психология и дифференциальная психофизиология сегодня: материалы конференции, посвященной 115-летию со дня рождения Б.М. Теплова, 10–11 ноября 2011 г. / под ред. М.К. Кабардова. – М.: Смысл. – С. 167–169.
10. Константинова Н.И. Мотивация младших школьников при различных музыкальных способностях [Текст] / Н.И. Константинова // Актуальные проблемы гуманитарных и естественных наук. – М., 2011. – №4. – С. 254–256.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 131-136**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 131-136**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 131-136**

**UOT 78:373.3**

**F.İ.Babayeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail:firababayeva21@gmail.com

# XALQ MAHNILARININ PEDAQOJİ PROSESDƏ ROLU

***Açar sözlər:*** *mahnı, xalq mahnıları, musiqi mədəniyyəti, musiqi dərsləri, təhsil tərbiyə*

Azərbaycan xalq mahnılarının tədrisdə rolu və onların şagirdlərin musiqi mədəniyyətinin formalaşmasında oynadığı əhəmiyyətli rol təhlil edilmişdir. Musiqinin insan duyğularına və tərbiyəsinə təsiri vurğulanaraq, xalq mahnılarının milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsindəki funksiyası izah olunmuşdur. Xalq mahnıları nəinki şagirdlərin musiqi duyumunu inkişaf etdirir, həm də onların estetik zövqünü, nitq bacarıqlarını, sosial və emosional ünsiyyət bacarıqlarını gücləndirir. Məqalədə, xalq mahnılarının məzmunu və onların müxtəlif janrlara bölünməsi haqqında məlumat verilmiş, həmçinin bu musiqi nümunələrinin məktəb təhsilində istifadəsi və tədris metodikası ətraflı izah olunmuşdur.

Xalq mahnılarının didaktik və pedaqoji əhəmiyyəti kontekstində, onların şagirdlərin bədii-estetik dünyagörüşünün formalaşmasında oynadığı rol araşdırılmışdır. Müəllimlərin xalq musiqisini tədris edərkən istifadə etməli olduqları metodlar, yaş qruplarına uyğun yanaşmalar və mahnıların şagirdlərə daha effektiv çatdırılması yolları nəzərdən keçirilmişdir. Bununla yanaşı, musiqi fənnində xalq mahnılarının digər fənlərlə inteqrasiyası məsələsinə də toxunulmuş, şagirdlərin tarixi və ədəbi biliklərini zənginləşdirmək üçün xalq musiqisindən istifadə imkanları qeyd olunmuşdur. Məqalədə, həmçinin müasir texnologiyaların xalq mahnılarının tədrisində istifadəsinin əhəmiyyəti və bu sahədə innovativ yanaşmaların tətbiqi vurğulanmışdır.

**Ф.И.Бабаева**

# РОЛЬ НАРОДНЫХ ПЕСЕН В ПЕДАГОГИЧЕСКОМ ПРОЦЕССЕ

***Ключевые слова:*** *песня, народные песни, музыкальная культура, уроки музыки, воспитание*

Проанализирована роль азербайджанских народных песен в обучении и их значительная роль в формировании музыкальной культуры учащихся.

Подчеркивалось влияние музыки на человеческие эмоции и воспитание, объяснялась функция народных песен в сохранении и передаче национально-духовных ценностей будущим поколениям. Народные песни не только развивают музыкальное чутье учащихся, но и укрепляют их эстетический вкус, речевые навыки, навыки социального и эмоционального общения. В статье представлена информация о содержании народных песен и их подразделении на различные жанры, а также подробно описано использование этих музыкальных образцов в школьном образовании и методика их преподавания.

В контексте дидактико-педагогического значения народных песен исследована роль, которую они играют в формировании художественно-эстетического мировоззрения учащихся. Были рассмотрены методы, которые учителя должны использовать при преподавании народной музыки, подходы, соответствующие их возрастным группам, и способы более эффективного донесения песен до учащихся. Наряду с этим в музыкальном предмете затронут вопрос об интеграции народных песен с другими предметами, отмечены возможности использования народной музыки для обогащения историко-литературных знаний учащихся. В статье также подчеркивается важность использования свременных технологий в обучении народных песен и применение инновационных подходов в этой области.

**F.I.Babayeva**

## THE ROLE OF FOLK SONGS IN THE PEDAGOGICAL PROCESS

***Key words****: song, folk songs, musical culture, music lessons, education, upbringing*

The role of Azerbaijani folk songs in teaching and their important role in the formation of musical culture of students were analyzed. The impact of music on human emotions and education was emphasized and the function of folk songs in the protection of national and spiritual values and their transfer to future generations was explained. Folk songs not only develop students ' sense of music, but also strengthen their aesthetic taste, speech skills, social and emotional communication skills. The article provides information on the content of folk songs and their division into different genres, as well as the use of these musical samples in school education and the teaching methodology.

In the context of the didactic and pedagogical significance of folk songs, their role in the formation of the artistic and aesthetic worldview of students was investigated. The methods that teachers should use when teaching folk music, approaches suitable for age groups and ways to more effectively convey songs to students were considered. At the same time, the issue of integration of folk songs

in music with other subjects was also touched upon, the possibility of using folk music to enrich the historical and literary knowledge of students was noted. The article also highlighted the importance of using modern technologies in teaching folk songs and the application of innovative approaches in this area.

Musiqi insan duyğularına güclü təsir göstərmək qabiliyyətinə malikdir və qayğı və nəvazişin mühüm mənbəyi hesab olunur. Musiqi insan həyatını, onun münasibətlərini və daxili hisslərini parlaq şəkildə əks etdirir. Bədii səslər vasitəsilə insan təcrübələrini və hisslərini ifadə edir. Musiqinin ideoloji və bədii məzmunu onu gənc nəslin tərbiyəsində vacib bir faktor halına gətirir və onların keçmişi, milli mədəniyyəti daha dərindən anlamalarına yardım edir.

Musiqi insan həyatında mühüm rol oynayır. Əl-Fərabi, İbn Sina və digər Şərq filosofları musiqinin insana təsiri və onun tərbiyəvi əhəmiyyəti barədə dəyərli fikirlər söyləmişlər. Onların məqsədi insanın inkişafına töhfə vermək idi.Mahnı yaradıcılığı mənsub olduğu xalqın tarixini, mənəvi cəhətdəj böyüklüyünü əks etdirir. Xalq mahnıları hər bir xalqın musiqi mədəniyyətinin ayrılmaz hissəsidir. Azərbaycan xalq musiqisi çox qədim tarixə malikdir və xalqımızın mənəvi dünyasının bir hissəsidir. Tarixi mənbələr və arxeoloji qazıntılar bunun sübutudur.Xalq yaratdığı musiqi əsərlərində,onun bütün keçmiş həyatı,indiki və gələcək arzuları tərənnüm edilir [5, s.143]. Bu mahnılarla körpələrə laylalar çalmış, ağılarla öz kədərlərini bildirmiş, lirik mahnılarla məhəbbət hisslərini ifadə etmiş, qəhrəmanlıq mahnıları ilə isə hələ uşaq yaşlarından övladlarına qəhrəmanlıq,vətənpərvərlik hisslərini aşılamışlar. Əsrlər boyu dildən-dilə, nəsildən-nəslə ötürülərək qorunan bu musiqi nümunələri xalqın həyat tərzini, hisslərini və adət-ənənələrini də özündə əks etdirir.

Azərbaycan xalq mahnıları məzmunca, adətən əmək, epik, məişət, qəhrəmanlıq, lirik və satirik məzmunlu olurlar [5, s.243]. Xalq musiqisinin bizə gəlib çatan ən qədim janrları əmək mahnılarıdır. Mahnının növbəti janrları xalqın yadelli işğalçılara qarşı mübarizəsi ilə bağlı məhəbbət sözləri və qəhrəmanlıq mahnıları olub. Azərbaycanda xalq musiqi mədəniyyətinin daşıyıcıları aşıqlar və xanəndələr olmuşdur. Onların ifasında fraqmentlər recitativ hekayə və mahnı ilə kəsilmişdir. Xalq musiqisi incəsənətin bir sahəsi kimi, hər xalqın dünyagörüşünü, mənəvi aləmini, sosial və fəlsəfi baxışlarını əks etdirir. O, təkcə emosional deyil, həm də əxlaqi tərbiyənin əsas komponentlərindən biridir. Bu səbəbdən, musiqi təkcə bir sənət növü kimi yox, həm də gənc nəslin mənəvi və ideoloji tərbiyəsinin bir vasitəsi kimi qəbul edilməlidir.

Musiqi tarixi boyunca fərqli musiqi janrları və üslubları yaranmışdır. Xalq musiqisi əsasında klassik musiqi inkişaf etmişdir. Musiqi müəllimləri xalq musiqisini tədris edərkən şagirdlərə mahnıların məzmununu anlamağı öyrətməli, onların mənəvi dəyərlərini izah etməlidirlər. Xalq musiqisini tədris edərkən

müəllimlər aşağıdakı tövsiyələrə əməl etməlidirlər:

•Şagirdlərin yaş xüsusiyyətlərinə uyğun uşaq xalq mahnılarını seçmək;

•Hər mahnının məzmununu izah edərək şagirdlərin onu başa düşməsini təmin etmək;

•Mahnıların bədii obrazlarını yaratmaq və onların məzmununu açmaq;

•Şagirdlərə milli musiqinin əsaslarını öyrətmək və onların doğma xalq musiqisini dərindən dərk etməsinə kömək etmək.

Musiqi dərslərində xalq musiqisinin öyrədilməsi şagirdlərin estetik zövqünün formalaşması və milli dəyərlərə bağlılığının artırılması baxımından mühüm rol oynayır. Xalq mahnıları öyrədilərkən şagirdlər musiqinin əsas elementləri – melodiya, ritm, harmoniya və temp haqqında anlayış qazanırlar. Bu, onların musiqi duyumunun inkişafına və ritm hisslərinin formalaşmasına kömək edir. Xalq mahnıları musiqi ilə yanaşı, dildə ifadə tərzini də inkişaf etdirir. Mahnıların ifası zamanı düzgün tələffüz, vurğu və ifadəlilik ön plana çıxır ki, bu da şagirdlərin nitq bacarıqlarının təkmilləşməsinə kömək edir. Bu mahnılar vasitəsilə onlar musiqinin emosional gücünü hiss edir və incəsənətə maraqları artır. Xalq mahnılarının ifası şagirdlər arasında ünsiyyət bacarıqlarını inkişaf etdirir, kollektiv ifa zamanı birgə işləməyi və uyğunlaşmağı öyrədir. Bu, onların sosial və psixoloji inkişafına müsbət təsir göstərir. Xalq mahnılarının ifası və onların üzərində aparılan işlər şagirdlərin yaradıcılıq qabiliyyətlərini artırır. Onlar mahnıların melodik quruluşunu analiz edərək öz musiqi düşüncələrini formalaşdıra bilirlər.Yayılmış mahnı nümunələrinin gənc nəsillərə çatdırılması tədrisimizdə əsas rol oynayır. Bir çox xalqlarda olduğu kimi Azərbaycan xalq musiqisi də üç qrupa bölünür: instrumental,vokal və vokal instrumental. Vokal xalq mahnıları yalnız insan səsi ilə ifa olunur və əsasən müşayiətsiz və ya sadə musiqi alətləri ilə oxunur. İnstrumental xalq mahnıları yalnız musiqi alətləri ilə ifa olunan əsərlər daxildir. Onların əsas xüsusiyyəti sözsüz olması və melodiyanın alətlər vasitəsilə təqdim edilməsidir. Vokal-instrumental xalq musiqisi həm vokal (səs), həm də musiqi alətləri ilə müşayiət olunan xalq musiqiləridir. XX əsrdən etibarən xalq mahnıları üzrə O.Rəcəbov, N.Bağırov, İ.Əfəndiyeva,T.Məmmədov bir sıra tədqiqatlar aparmışlar. Bütün bu tədqiqatlar nəticəsində musiqi məktəblərində və ümümtəhsil məktəblərində uşaqların musiqi tərbiyəsinə təsir etmişdir. Musiqi məktəblərində şagirdlərin az bir qisminə təsir edirdisə, ümümtəhsil məktəbləribdə bu geniş bir miqyası əhatə edir.

Azərbaycan xalq musiqisinin dərs kimi aparılmasının əsas aspektlərindən biri - vokal, melodiyalıqdır [2, s. 381]. Ümümtəhsil məktəblərində musiqi tərbiyəsi iki yolla keçirilir. Bunlardan biri şagirdlərin öz fəaliyyət kollektivləridir digəri isə musiqi dərslərində keçirilən məşğələlərdir. Ümümtəhsil məktəblərində keçirilən musiqi dərsləri vasitəsilə şagirdlər dahi Üzeyir Hacıbəyovu, rus bəstəkarlarından Çaykovski,Mosart kimi bəstəkarların əsərləri ilə yaxından tanış olurlar.

Xalq mahnılarının ifasında müasir texnologiyalardan da istifadə olunur. Audiovizual materiallardan istifadə edərək bir çox xalq mahnıları şagirdlərə dinlənilir. Virtual musiqi alətləri vasitəsilə şagirdlərə xalq mahnılarını müşayiət etmə imkanı yaradılır. Xalq mahnılarının tədrisdə effektiv istifadəsi üçün multidisiplinar yanaşma tətbiq edilə bilər. Bu yanaşma müxtəlif fənlərin bir-biri ilə əlaqələndirilməsinə və şagirdlərin biliklərinin daha geniş kontekstdə formalaşmasına imkan yaradır.Musiqi dərslərində biz digər fənlərə də inteqrasiya etmək mümkündür. Xalq mahnılarının tarixini öyrənərək tarix fənninə, xalq mahnılarının məzmununa uyğun rəsmlər çəkərək incəsənətlə əlaqələndirə bilərik. Ümumtəhsil məktəblərində musiqi dərsi əsasəm kollektiv şəkildə keçirilir. Məktəblərdə təşkil edilən xorlarda şagirdlər kollektiv olaraq xalq mahnılarınımızın xor üçün işləmələrini ifa edirlər. Bəzən isə xalq mahnılarımız solo şəklində də ifa olunur. Xalq mahnılarımızın melodik quruluşunu anlamaq üçün musiqi dərslərində dinləmə dərsləri də keçirilir. Şagirdlərin daha yaxşı mənimsəməsi üçün yaxşı olar ki müəllim musiqi alətində xalq mahnılarımızdan ifa edərək şagirdlərə dinlətsin.

Məşhur musiqi mütəxəssisi Xelle Lukk “V-VII siniflərdə xorla işləmənin təcrübəsində adlı məqaləsində yazır: “ Biz çalışırıq ki, ilk növbədə şagirdlər öz musiqilərini bilsinlər. Məhz öz xalqının yaradıcılığını bildikdən sonra onlar başqa xalqların da musiqi yaradıcılıqlarını qiymətləndirə bilərlər [1, s. 197]. Şagirdlərin peşəkar musiqi ilə yanaşı Azərbaycan xalq musiqisini də öyrənmələri üçün II sinif proqramında “Bənövşə” , “Quzum” uşaq xalq mahnısı,IV sinif proqramına isə “Bağçada gül” Azərbaycan xalq mahnısını əlavə etmişlər. V sinif musiqi dərsliyində “ Şuşanın dağları”, “bizim ölkə” “beşik nəğməsi”, “ Qaçaq nəbi” xalq mahnıların şagirdlərin vətənpərvərlik və qəhrəmanlıq hisslərinin yaranmasına kömək edir. Bundan əlavə VI sinif musiqi proqramında “sarı bülbül”, “Laçın”, “Hüsnü bağında” xalq mahnılarından istifadə edilmişdir. Bununla da şagirdlərə hələ uşaq yaşlarından Azərbaycan xalq musiqinin ən yaxşı nümunələri ilə onları tanış etmişlər. VII sinif musiq proqramında “Qubanın ağ alması”, “ çal oyna” xalq mahnı rəqsinə,VIII sinif musiqi proqramında “Küçələrə su səpmişəm” , “Aman ovçu”, “bu gün ayın üçüdür”, “evləri var xana-xana”, “ bu gələn yara bənzər”, “gəldim” xalq mahnılarına rast gələ bilərik. IX sinif musiqi dərsliyin də isə “Sarı gəlin” , “Çayımızın adı var”, “Bülbüllər oxur”, “Babanın yolu daşdı”, “Əlində sazın qurban” kimi bir sıra xalq mahnıları var. Bir məsələmi diqqət yetirsək görərik ki, biz burada birinci sinif dərsliyindən heç bir xalq mahnısı adı çəkmədik və dördüncü sinfə qədər olan dərsliklərdə isə xalq mahnılarının sayının azlıq təşkil etdiyini görə bilərik. Bu dərsliklər üzərində işləyərək uşaqlar üçün olan xalq mahnılarının daha çox əlavə edilməsinə uşaqların musiqi duyumuna, tarixi irsimizi daha dərindən mənimsəməklərinə kömək olur.

## ƏDƏBİYYAT


1. Rəcəbov O., Kazımov N. və b. Azərbaycan xalq musiqisi və musiqi müəlliminin hazırlığı. Bakı 2012.
2. Qədimova J., Bağırova T. Etnomusiqişünaslıq. Bakı, 2009
3. Abdullayeva Z. Azərbaycan Xalq musiqi yaradıcılığı. Bakı: Elm və təhsil 2011
4. İsmayılov M. Azərbaycan xalq musiqisinin janrları. Bakı,Mütərcim 2023. 136s
5. Rəcəbov O., Hidayətova F. Ümumtəhsil məktəblərində musiqi tədrisi və tər biyəsi metodikası. Bakı
6. Qasımova S., Abdullayeva Z. Azərbaycan musiqi ədəbiyyatı. Dərslik Bakı: Elm və təhsil, 2011. 192 s.
7. Hidayətova F. Musiqi və tərbiyə // " Musiqi Dünyası" 2/55 Bakı 2013



**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Firəngiz Hidayətova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

**UOT 372.878**

**A.R.Babayeva**
magistrant
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: aytenbabayeva99@gmail.com

# ŞAGİRDLƏRİN MUSİQİ ZÖVQÜNÜN FORMALAŞMASINDA MÜƏLLİMİN ROLU

***Açar sözlər:*** *klassik musiqi musiqinin təsiri, müasir musiqi, estetik tərbiyə, şagirdlər*

Məqalədə musiqinin şagirdlərin həyatına və estetik dünyagörüşünə təsiri araşdırılır. Musiqi yalnız sənət növü deyil, həm də insanın duyğularını ifadə etməsi üçün güclü vasitədir. Gənclərin klassik və xalq musiqisindən uzaqlaşaraq bayağı musiqiyə yönəlməsi probleminin həlli üçün müəllimlərin rolu vurğulanır. Müəllimlər şagirdlərin musiqi zövqünü inkişaf etdirməli və musiqidən estetik və emosional zövq almağı öyrətməlidirlər. Bunun üçün müəllimlər müxtəlif metodlardan istifadə etməli, musiqi tədrisini şagirdlərin maraq və tələbatlarına uyğun təşkil etməlidirlər. Musiqi dərsləri yalnız nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmamalı, şagirdlərdə yaradıcı düşüncə və emosional qavrayış formalaşdırmalıdır. Şagirdlər musiqinin müxtəlif janrlarını öyrənməli, onların fərqli xüsusiyyətlərini dərk etməli və musiqi dünyasının zənginliyini hiss etməlidirlər. Müəllimlər uşaqların fərdi xüsusiyyətlərini nəzərə alaraq dərs keçməli, onların musiqiyə fərqli yanaşmalarını anlamalıdırlar. Hər bir şagirdin musiqini qavrama tərzi fərqlidir və müəllim bu fərqliliyi nəzərə alaraq fərdi yanaşmalar tətbiq etməlidir. Belə yanaşma musiqi təhsilinin daha effektiv olmasına və şagirdlərin musiqi dünyasını genişləndirməsinə imkan yaradır.

**А.Р.Бабаева**

# РОЛЬ УЧИТЕЛЯ В ФОРМИРОВАНИИ МУЗЫКАЛЬНОГО ВКУСА УЧАЩИХСЯ

***Ключевые слова:*** *классическая музыка, влияние музыки, современная музыка, эстетическое воспитание, ученики*

Статья рассматривает влияние музыки на жизнь учащихся и их эстетическое мировоззрение. Музыка – это не только вид искусства, но и мощное средство выражения человеческих эмоций. Подчеркивается роль

учителей в решении проблемы отхода молодежи от классической и народной музыки в пользу примитивных музыкальных жанров. Учителя должны развивать музыкальный вкус учащихся, учить их получать эстетическое и эмоциональное удовольствие от музыки. Для этого необходимо использовать различные методы и адаптировать преподавание музыки к интересам и потребностям учащихся. Музыкальные занятия не должны ограничиваться теоретическими знаниями, а должны формировать творческое мышление и эмоциональное восприятие. Учащиеся должны изучать различные музыкальные жанры, понимать их особенности и осознавать богатство музыкального мира. Учителя должны учитывать индивидуальные особенности детей, их разные подходы к восприятию музыки. Индивидуальный подход делает музыкальное образование более эффективным и расширяет музыкальный кругозор учащихся.

**A.R.Babayeva**

## THE ROLE OF THE TEACHER IN SHAPING STUDENTS' MUSICAL TASTE

***Key words:*** *classicl music, influence of music, modern music, aesthetic education, pupils*

The article explores the impact of music on students' lives and aesthetic worldview. Music is not only an art form but also a powerful tool for expressing emotions. The role of teachers in addressing the issue of young people drifting away from classical and folk music towards superficial music is emphasized. Teachers should develop students' musical taste and teach them to appreciate music aesthetically and emotionally. To achieve this, they should use various methods and adapt music education to students' interests and needs. Music lessons should not be limited to theoretical knowledge but should also foster creative thinking and emotional perception. Students should learn about different musical genres, understand their characteristics, and appreciate the richness of the musical world. Teachers must consider students' individual characteristics and understand their unique approaches to music. Since each student perceives music differently, teachers should apply personalized approaches. Such a method enhances the effectiveness of music education and broadens students' musical perspectives.

Hər bir insan, o cümlədən uşaqlar, musiqini özünəməxsus şəkildə hiss edir, ifadə edir və dərk edir. Musiqi, əslində, fərqli duyğu və düşüncələri özündə birləşdirən bir sənət formasıdır və hər bir fərd musiqi ilə ünsiyyət qurarkən öz şəxsi

təcrübəsini, hisslərini və həyati vəziyyətini ortaya qoyur. Musiqi gənclərin ən çox üstünlük verdiyi sahələrdən biridir.Ancaq təəssüf olsun ki, klassik və xalq musiqisinin mənəvi zənginliyinə baxmayaraq, gənc nəsil daha çox bayağı musiqiyə meyl edir. Belə bir vəziyytdə isə əsas öhdəlik musiqi müəlliminə düşür.Musiqi müəlliminin əsas vəzifəsi şagirdləri milli və beynəlxalq musiqi mədəniyyətinin qiymətli nümunələri ilə tanış etmək, onların musiqiyə olan ehtiyacını oyandırmaq, musiqi zövqünü inkişaf etdirmək və musiqinin gözəlliklərindən estetik və emosional olaraq zövq almağa yönəltməkdir. Bu, şagirdlərə musiqiyə dərin bir anlayış və hissiyat qazandırmaq məqsədini güdür.

Musiqi müəllimi qarşısında elə tələblər dura bilər ki,onların həlli çox uzun bir dövr üçün nəzərdə tutular.Deməli,musiqi müəllimi üçün ümumi vəzifə şübhəsiz ki,şagirdlərdə musiqi mədəniyyəti tərbiyələndirməkdir.Onun tərkib hissəsini təşkil edən ayrı-ayrı vəzifələr təhsil müddətinin hər bir mərhələsi ilə həll olunur, bu, məktəblilərdə musiqiyə marağın oyadılması,emosional qavrama fəaliyyətinin təşkili yolu ilə musiqinin qavranılmasının müntəzəm inkişafı,onlara musiqi haqqında əsas biliklərin öyrədilməsi, ritm, milli və xarici musiqilərə cəlb olunması ilə bağlıdır [1, s. 50].

İfadə olunan emosiyalar, hisslər və düşüncələr musiqidə ilk dərslərdən etibarən, yəni ilk siniflərdən başlayaraq açıq-aydın özünü göstərir. Bu, musiqinin gücünü və təsirini şagirdlərə erkən yaşlardan hiss etdirmək məqsədini güdür. Müəllimin qarşısında duran ikinci vacib vəzifə isə şagirdlərə müasir musiqi janrlarını və üslublarını tanıtmaq, xüsusilə Azərbaycan musiqisinin ən yaxşı nümunələrini dərslərdə işləmək və eyni zamanda xalq və klassik musiqi irsinin dəyərlərini təqdim edərək onların arasındakı əlaqəni göstərməkdir. Bu yanaşma, şagirdlərin musiqinin müxtəlif sahələrini anlamağa və qiymətləndirməyə kömək edəcəkdir. Musiqi, digər bütün incəsənət növləri kimi, bədii obrazlar üzərində qurulmuşdur və bu obrazlar, bir-birinə paralel olaraq, müxtəlif incəsənət sahələri ilə əlaqə quraraq qarşılıqlı təsirini təmin edir. Musiqinin bu qarşılıqlı əlaqəsi, onu həm təhsil, həm də emosional təcrübə baxımından zəngijmnləşdirir, şagirdlərə dərin bir anlayış və estetik dəyərlər qazandırır.

Musiqi sənəti, insana yalnız duyğularını ifadə etmək üçün bir vasitə təqdim etmir, həm də həyatında əvvəllər hiss etmədiyi emosiyaları yaşamağa imkan verir. Musiqi, insanın daxili aləmini kəşf etməsi, özünü daha dərindən anlamağı və hətta hiss etmədiyi yeni duyğuları yaşaması üçün bir yol açır. Bu sənət forması, insanın özünə, ətrafındakılara və bütövlükdə dünyaya daha dərin və incə münasibət bəsləməsini təmin edir.

Musiqi ilə ünsiyyət, sadəcə eşitməkdən daha dərin bir yaradıcı prosesdir; bu, insanın daxili aləmi ilə birbaşa əlaqə qurduğu və özünü ifadə etmə imkanı tapdığı bir sahədir. Hər kəs musiqi ilə fərqli şəkildə əlaqə qurur: bəziləri musiqidə harmoniyanın gözəlliyini hiss edir, digərləri isə obrazlı assosiasiyalar yaradır, beləliklə musiqi onlara fərqli mənalar, hisslər və təəssüratlar təqdim edir. Üçüncü

bir qrup insan isə musiqi ilə ünsiyyətdə özünü daha dərindən ifadə etmə və özü ilə barışma vasitəsi tapır. Bu səbəbdən musiqi müəlliminin şagirdlərin musiqiyə olan fərqli münasibətlərini, zövqlərini, maraq və tələbatlarını başa düşməsi olduqca vacibdir. Yalnız bu halda müəllim, hər bir şagirdin musiqi ilə əlaqə qurmasını və onu tam mənada dərk etməsini təmin edə bilər. Müəllimin, uşaqların fərdi xüsusiyyətlərini nəzərə alaraq dərs keçməsi, onların musiqi təhsili prosesində daha effektiv inkişaf etmələrini təmin edər. Bu şərtlər daxilində musiqi təhsilinin məqsədləri gerçəkləşə bilər və şagirdlər musiqidən yalnız estetik və emosional zövq almaqla qalmayacaq, eyni zamanda onun vasitəsilə öz daxili dünyalarını zənginləşdirəcək və inkişaf etdirəcəklər.

Eyni zamanda, cəmiyyətdə baş verən sosial dəyişikliklər nəzərə alındıqda, musiqi ilə bağlı yeni tendensiyaların ortaya çıxdığı aydın olur. Məsələn, müəyyən janrların, xüsusilə elektron musiqinin populyarlığı son illərdə sürətlə artır. Bu inkişaf, müasir nəslin musiqi ilə ünsiyyət formasının dəyişməsinə səbəb olub. Artıq gənclər yalnız ənənəvi musiqi növlərinə deyil, həm də müasir, daha texnoloji əsaslı və eksperimental janrlara maraq göstərirlər. Bu səbəbdən, musiqi müəllimi müasir cəmiyyətdə baş verən yenilikləri və dəyişiklikləri nəzərə almalı, musiqi tədrisinin məzmununa bu yenilikləri daxil etməyə çalışmalıdır. Müasir texnologiyalar, yeni musiqi alətləri və üslublar dərslərdə tətbiq olunduqda, şagirdlər musiqinin müasir dünyadakı inkişafını daha yaxşı anlaya bilərlər.

Musiqi fənninin musiqi dinlənilməsi mərhələsində müəllimin öhdəsinə düşən əsas vəzifələrdən biri də odur ki, o, dinlənilən musiqi əsərinin fərqinin şagirdlər tərəfindən aydınlaşdırılmasına nail olsun.Şagirdlər təyin etməyi bacarmalıdırlar ki, səslənən musiqi əsəri xarici ölkə musiqisinə aiddir, yoxsa Azərbaycan musiqisidir, xalq musiqisinə aiddir, yoxsa bəstəkarın əsəridir [2, s.121].

Bununla yanaşı, musiqi təhsilində yalnız müasir janrlarla maraqlanmaq kifayət deyil. Müəllim, uşaqlarda yalnız klassik musiqiyə deyil, həm də müxtəlif musiqi janrlarına marağı qoruyub saxlamağa çalışmalıdır. Hər bir musiqi janrının özünə məxsus estetik və bədii dəyəri olduğunu nəzərə alaraq, şagirdlərə fərqli musiqi üslublarını dərk etməyə və onlara dəyər verməyə kömək etmək lazımdır. Bu yanaşma, şagirdluərin musiqi zövqünün müxtəlifliyini artıracaq və onlara daha geniş musiqi dünyasını kəşf etməyə imkan verəcəkdir.

Eyni zamanda, musiqi nəzəriyyələri və uşaqların musiqiyə münasibəti ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bəzi tədqiqatçılar, xüsusilə rus musiqi ənənələrinin və onların əsasında formalaşan tərbiyə metodlarının üstünlüyünü vurğulayırlar. Onlar, musiqi təhsilində klassik ənənələrin qorunmasının və bu ənənələrin müasir dövrdəki tətbiqinin vacibliyini qeyd edirlər. Lakin, bəzən bu yanaşmalara qarşı fərqli baxışlar da mövcuddur. Müasir dünyada, qloballaşma və mədəniyyətlərarası qarşılıqlı əlaqələr nəticəsində müxtəlif musiqi janrlarının və yanaşmalarının daha geniş şəkildə tədris edilməsi, daha açıq fikirli və müxtəlif mədəniyyətləri təqdir edən bir təhsil sistemi yaratmağa imkan verir. Bu, uşaqlara

yalnız öz mədəniyyətlərini deyil, digər mədəniyyətləri də daha yaxşı anlamalarına kömək edər və onların musiqiyə daha geniş perspektivdən yanaşmalarını təmin edər.

Musiqi insanın mənəvi dünyasına real təsir göstərə bilməz" baxışının tərəfdarları bu mövqelərini əsaslandırarkən, çox zaman, qəddarlığı ilə tanınan bir çox cinayətkarın klassik musiqinin biliciləri və həvəskarları olduqlarını göstərirlər. Belə faktlar həqiqətən də mövcuddur və bəzən musiqinin, xüsusən də klassik musiqinin insanların mənəvi vəziyyətinə təsir etmədiyi düşünülür. Lakin bu yanaşma, musiqinin özü ilə bağlı bir yanlış anlamağa əsaslanır. Çünki musiqi, onun dinləyicisinin şəxsi həyat təcrübəsi, mənəvi vəziyyəti və ətraf mühitlə qarşılıqlı əlaqəsi ilə bağlıdır. Musiqinin özündə heç bir yaxşılıq və ya pislik yoxdur; onun təsiri, insanın bu musiqiyə necə yanaşması və onunla necə ünsiyyət qurduğuna bağlıdır.

Məhz buna görə də, eyni musiqi bir şəxs üçün müsbət emosiyalar oyada bilər, başqası üçün isə tamamilə fərqli, mənfi təsir yarada bilər. İnsanların musiqiyə fərqli reaksiya verməsi, onların şəxsiyyətindən, həyat tərzindən, psixoloji durumlarından və yaşadıqları mühitdən asılıdır. Hər bir insanın musiqini qəbul etmə və ondan zövq alma tərzi fərqlidir. Bəzi insanlar üçün musiqi bir növ rahatlama və daxili sülhün simvolu ola bilər, bəziləri isə musiqidə öz qorxularını, ağrılarını və mənfi hisslərini hiss edə bilər. Bu, musiqinin özünün deyil, onunla əlaqə qurma tərzinin və fərdi vəziyyətlərin nəticəsidir.

Və nəticə olaraq musiqi insanın daxili dünyasına təsir etmək potensialına sahib olsa da, bu təsir hər zaman müsbət və ya mənfi ola bilməz. Hər bir insan musiqiyə fərqli şəkildə reaksiya verir və musiqinin təsirini formalaşdıran əsas faktor, insanların həyat təcrübəsi və dünyaya baxış tərzidir.

Lakin bu, musiqi əsərlərinə ehtiyatla yanaşmaq üçün əsas deyil. Yaxşı məlumdur ki, əsas funksiyası fizioloji təsir olan çoxlu musiqi obrazları mövcuddur ki, bu da xüsusilə uşaqlar üçün travmatik ola bilər. Buna görə də musiqi müəlliminin əsas vəzifəsi ilk növbədə uşaqlarda yüksək keyfiyyətli musiqi ilə ünsiyyət əsasında müsbət estetik emosiyalar tərbiyə etməkdir. Bu musiqi uşaqlarda mehribanlıq hissi oyatmağa qadirdir. Bu mövqe musiqi müəlliminin bütün peşəkar fəaliyyətinin təşkilində əsas prinsiplərdən biri olmalıdır.

Musiqinin məktəbdəki rolunu D.B.Kabalevski vurğulayır: "O, bütün dərs prosesindən keçməli və təkcə musiqi və təsviri incəsənət fənlərində deyil, digər fənlərdə də öz əksini tapmalıdır. Beləliklə, o, məktəblilərin düşüncə tərzinə təsir edərək onların mənəvi dünyasında rol oynayır."

Musiqi təhsilində "əbədi" məsələlərdən biri isə keyfiyyət məsələsidir: biz uşaqlara hansı musiqini təqdim edirik və musiqi materialının hansı keyfiyyət səviyyəsini təmin edə bilirik? Adətən üstünlük daha yüksək səviyyəni təmin etməyə verilir, lakin bu həmişə mümkün olmur.

Müasir pedaqogika, şagirdlərin müəllim rəhbərliyi altında bir neçə musiqi əsərini birlikdə yaratmasına imkan verən metodlar təqdim edir. Burada nəzərə almaq lazımdır ki, uşaqlar yalnız zövq və sevinc aldıqları yerdə yaradıcı olurlar. Beləliklə, onlar öz ürəklərinə ən yaxın olanı musiqidə ifadə edirlər.

Musiqi dərslərində uşaqlar arasında qarşılıqlı ünsiyyət prosesi formalaşır ki, bu da onların əminliyi və qarşılıqlı anlaşması üçün vacibdir.Bütün bunlar musiqinin uşaqların mənəvi inkişafına mühüm təsir göstərdiyini aşkar edir. Musiqinin təhsil prosesində daha geniş istifadə olunması onun tərbiyəvi potensialını daha da gücləndirə bilər.

Tədqiqatlar göstərir ki, musiqi şagirdlərdə gözəlliyi duymaq və ona reaksiya vermək bacarığını inkişaf etdirir, onların estetik zövqünü formalaşdırır və yaradıcı düşüncələrini stimullaşdırır. Dərs prosesində uşaqların maraqlarını nəzərə almaq, onların musiqiyə yaradıcı yanaşmasını təmin etmək və interaktiv metodlardan istifadə etmək pedaqoji məqsədlərə çatmaqda mühüm rol oynayır.Beləliklə, musiqi dərslərinin düzgün təşkili şagirdlərin təkcə musiqi savadını artırmır, həm də onların fərdi inkişafına, sosial ünsiyyət bacarıqlarına və incəsənətə olan marağına mühüm töhfə verir. Musiqi dərsləri təkcə bilik vermək deyil, həm də insan ruhunu zənginləşdirmək missiyasını daşıyır.

## ƏDƏBİYYAT


1. Əsgərova S. Musiqi müəllimi 1993,184s
2. Qədimova J. Musiqi fənnin tədrisi metodikası,Dərslik, Bakı 2023,482 s
3. Кенгерлинская Т.Ф. Музыкальная педагогика: Учебное пособие для студентов высших учебных музыкальных заведений. Баку, 2004, 251 s.
4. Абдуллин Э.Б., Николаева Е.В. Теория музыкального образования, Москва, 2004
5. Mehrabov A.O. Səriştəli müəllim hazırlığının problemleri. Bakı, Elm və təhsil 2015
6. Абдуллаева Р.Г. Проблемы художественного стиля в информацион ной культуре. Баку, Элм, 2003.
7. Dadaşova M. Musiqi müəllimi hazırlığının metodikası-dərs vəsaiti, 2010, 256 s.



**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**pedaqogika üzrə fəlsəfə doktoru, dosent Mədinə Tuayeva**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2025, **s. 143-148**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2025, **с. 143-148**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2025, **p. 143-148**

# MƏKTƏBƏQƏDƏR TƏLİM, TƏRBİYƏ

**UOT 372.878**

**A.H.Qəribova**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail:qaribova.arifa@gmail.com
ORCİD ORQ: 0000-0001-8059-5566

## MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ MUSİQİ TƏRBİYƏSİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *məktəbəqədər təhsil, musiqi tərbiyəsi, milli musiqi, emosiyalar, duyğular, estetik zövq*

Məqalədə məktəbəqədər yaşlı uşaqların musiqi tərbiyəsinin onların hərtərəfli inkişafında, şəxsiyyət kimi formalaşmasında əhəmiyyəti açıqlanır. Həmçinin uşaqların psixoloji xüsusiyyətlərini nəzərə alaraq musiqi məşğələlərin müasir tələblərə uyğun və səmərəli şəkildə keçirilməsinin bu məqsədlərə nail olmaqda rolu haqqında danışılır. Burada qeyd olunur ki, məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsi təhsilin ümumi sistemində ilkin pillə olub uşaq şəxsiyyətini formalaşdırmaq, bağça yaşlı uşaqların musiqi tərbiyəsini təkmilləşdirmək kimi mühüm vəzifələri həyata keçirir. Musiqi uşaqların daxili aləmlərini zənginləşdirir, onların əxlaqi, əqli qabiliyyətini və təfəkkürünü inkişaf etdirir. Məqalənin sonunda belə nəticə çıxarılır ki, məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsi təhsilin ümumi sistemində ilkin pillə olub uşaq şəxsiyyətini formalaşdırmaq, bağça yaşlı uşaqların musiqi tərbiyəsini təkmilləşdirmək kimi mühüm vəzifəni həyata keçirir. Bütün bunlar məqalənin mövzusunun aktuallığının göstəricisidir.

**А.Г.Гарибова**

## ПРОБЛЕМЫ МУЗЫКАЛЬНОГО ВОСПИТАНИЯ В ДОШКОЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Ключевые слова:*** *дошкольное образование, музыкальное воспитание, национальная музыка, эмоции, чувства, эстетический вкус*

В статье обосновывается значение музыкального образования детей дошкольного возраста в их всестороннем развитии и становлении как

личности. Также обсуждается роль проведения музыкальных занятий современным и эффективным способом, с учетом психологических особенностей детей, в достижении этих целей. Здесь отмечается, что музыкальное образование в дошкольных учреждениях является начальным этапом в системе общего образования и решает такие важные задачи, как формирование личности ребенка и совершенствование музыкального образования детей дошкольного возраста. Музыка обогащает внутренний мир детей, развивает их нравственные, интеллектуальные способности и мышление. В конце статьи делается вывод о том, что музыкальное образование в дошкольных учреждениях являясь начальной ступенью в системе общего образования, выполняет важную задачу формирования личности ребенка и совершенствования музыкального образования детей детсадовского возраста. Все это указывает на актуальность темы статьи.

**A.H.Garibova**

## PROBLEMS OF MUSIC EDUCATION IN PRESCHOOL INSTITUTIONS

***Key words:*** *preschool education, musical education, national music, emotions, feelings, aesthetic taste*

The article substantiates the importance of musical education of preschool children in their comprehensive development and formation as a person. It also discusses the role of conducting musical classes in a modern and effective way, taking into account the psychological characteristics of children, in achieving these goals. It is noted here that music education in preschool institutions is the initial stage in the general education system and solves such important tasks as the formation of the child's personality and the improvement of music education of preschool children. Music enriches the inner world of children, develops their moral, intellectual abilities and thinking. At the end of the article, it is concluded that musical education in preschools, being the first step in the general education system, fulfills the important task of forming a child's personality and improving the musical education of children of kindergarten age. All this indicates the relevance of the topic of the article.

Təhsil sahəsində gedən inkişaf prosesi onun məzmununun dünya standartlarına uyğun aparılmasını, milli və ümumbəşəri dəyərlərə, xalqımızın tarixinə, mənəviyyatına, milli ənənələrinə uyğun şəkildə qurulmasını tələb edir. Artıq təhsil sisteminin bütün mərhələlərində struktur islahatlar aparılmış, yeni tipli təhsil müəssisələri yaradılmış, təlimin məzmunu yeniləşmiş, müasir

tələblərə cavab verən standart, proqram və dərsliklər hazırlanmış, xeyli elmi-metodik ədəbiyyat çap olunmuşdur.

Bildiyimiz kimi, təhsil sisteminin bünövrəsini məktəbəqədər təhsil təşkil edir. Danılmaz faktdır ki, ölkəmizdə məktəbəqədər tərbiyə müəssisələrində uşaqların təlim və tərbiyə məsələləri həmişə dövlətimizin diqqət mərkəzində olmuşdur. Gələcək cəmiyyətdə yaşayacaq vətəndaşların bir şəxsiyyət kimi formalaşmasının, hərtərəfli inkişafının əsası məktəbəqədər illərdə qoyulur. Bu illərdə uşağın hansı formada tərbiyə olunması onun sonralar bir vətəndaş kimi formalaşmasını müəyyən edir. Məktəbəqədər müəssisələrdə təlim-tərbiyə işinin yaxşılaşdırılması, uşağın məktəbə hazırlanması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Uşağın bir şəxsiyyət kimi hərtərəfli inkişaf etməsi üçün onun estetik cəhətdən formalaşması, yüksək bədii zövqə və mədəni vərdişlərə yiyələnməsi əsas şərtlərdən biridir. Uşaqların tərbiyəsinə xidmət edən estetik tərbiyənin qüdrətli təsir gücünə malik vasitələrindən biri də musiqidir. Musiqi insan həyatında mühüm yerlərdən birini tutur. İnsan dünyaya gəldiyi gündən musiqi ilə hər addımda rastlaşır. Musiqinin qeyri-adi qüvvəsi insanların düşünməsinə və ürəyinə təsir edərək, onda müvafiq hissiyyat, əhval-ruhiyyə yaradır, ən çətin anlarda belə adamlara kömək edir, qəm-qüssəsinə şərik olur. Digər tərəfdən musiqi ədəbiyyat və rəsm kimi bizim dünyagörüşümüzü genişləndirir, həyatı daha dərindən qavramağımıza kömək edir. İnsanın şəxsi psixologiyasının formalaşmasında musiqi heç də ədəbiyyatdan, teatrdan, kinodan, rəssamlardan az rol oynamır.

İncəsənətin başqa növlərindən fərqli olaraq musiqi hisslərə birbaşa təsir göstərir. Ecazkar qüvvəyə malik olan musiqi həmişə insanlara ən gözəl bir nemət, yaxın sirdaş və yoldaş olmuş, onların tərbiyəsində mühüm rol oynamışdır. Musiqi dinləyərkən orqanizmdə bioloji dövrlərinin ritmi dəyişə bilər. Həzin, lirik musiqi dinlədiyimiz halda biz daha sakit və daha dərin nəfəs almağa başlayırıq. Bu halda insanlar sakit olur, öz emosiyalarına nəzarət edir və dərin düşüncə qabiliyyətinə malik olurlar. Templi və uca səsli musiqi əks effekt yaradır, insanın nəfəsi tezləşir və kəsilməyə başlayır. Belə musiqi dalğın düşüncəyə, impulsiv davranışa və hətta səhv qərarların qəbuluna səbəb ola bilər. Musiqi və səs dalğaları qan dövranına, əzələlərə, bədən temperaturuna da təsir edir. Bu təsir zamanı sakit musiqi sakitləşdirici effektə malikdir, orqanizmin bərpasına imkan yaradır və yaxşı əhval ruhiyyənin yaranmasına köməklik edir. Lakin enerjili və uca səsdə olan musiqi əks effekt yaradır.

Musiqi həmçinin beyinə təsir edir. O beyini "xoşbəxtlik hormonu" olan endorfinin yaranmasını stimullaşdırır. Endorfin ağrı hissini zəiflədir, stressin səviyyəsini aşağı salır və orqanizmin immun reaksiyasını gücləndirən kimyəvi birləşmələrin yaranmasına imkan yaradır. Anestezioloqların müşahidələri təsdiq edir ki, sakit, həzin musiqiyə müntəzəm olaraq qulaq asdığımız zaman qanda

stress hormonlarının konsentrasiyası azalır. Deməli, musiqi tərbiyəsi, hər şeydən əvvəl, insan tərbiyəsidir. İnsan təbiətin, mənəvi münasibətlərin, əməyin gözəlliyini musiqi vasitəsilə görür, duyur. İnsanda ətraf mühitdəki və özündəki ucalıq, əzəmət, gözəllik haqqında təsəvvür musiqi sayəsində yaranır.

Uşaq bağçalarında keçirilən musiqi tərbiyəsini düzgün qurmaqla uşaqlarda musiqiyə olan marağı vaxtında tərbiyə edib, istiqamətləndirmək olar. Uşaq bağçalarının bir qismində musiqi rəhbərləri fəaliyyət göstərir. Onların xeyli hissəsi bu vacib məsələnin öhdəsindən layiqincə gələ bilmir. Zənnimizcə, bunun başlıca səbəblərindən biri məktəbəqədər tərbiyə müəssisələrində çalışan musiqi rəhbərlərinin əksəriyyətinin məşğələlərdə səmərəli və müasir iş metodlarından istifadə etməməsi, uşaqların musiqi zövqlərinin inkişafına kömək göstərəcək musiqi nümunələrindən, musiqili-didaktik oyunlardan bəhrələnə bilməmələridir. Bunun nəticəsidir ki, uşaqlar proqramın tələbinə uyğun musiqi savadına yiyələnə bilmirlər. Buna görə də məktəbəqədər müəssisələrin üzərinə daha böyük məsuliyyət düşür.

Musiqinin əvəzsiz rolu uşaqların tariximizə, milli adət-ənənələrimizə məhəbbət ruhunda tərbiyə edilmələrindədir. Musiqi tərbiyəsi uşaqların bədii zövqünün formalaşmasında əhəmiyyətli rola malikdir. Məktəbəqədər tərbiyyə müəssisələri ailə istisna olunarsa, mənəviyyatı zəngin, mədəni səviyyəsi və bədii zövqü yüksək olan, varlığın estetik keyfiyyətlərini – musiqini, sənət əsərlərini həssaslıqla qavrayıb, gözəl bədii zövqə yiyələnməyi bacaran şəxsiyyətlər yetişdirməkdir. Yüksək zövqlü kamil gənclər yetişdirilməsinin bünövrəsi ailədən başlasa da, sistemli şəkildə bünövrəsi məktəbəqədər müəssisələrdə qoyulur. Məktəbəqədər yaşlı uşaqlar gerçəkliyin musiqi əsərlərində necə əks olunduğunu dərk etdikdə onların gözəllik haqqında təsəvvürləri daha da təkmilləşir.

Məktəbəqədər müəssisələrdə uşaqların musiqi tərbiyəsinin təşkilində Azərbaycan musiqisi müstəsna imkanlara malikdir. Incəsənətin başqa növləri kimi musiqi də ətraf aləmi əks etdirir, cəmiyyət həyat barədə musiqi dili ilə söhbət açır. Azərbaycan musiqisi çoxəsrlik tarixə malikdir. Xalqımızın tarixi boyu sevdiyi mahnılar, rəqslər, onun həyatı, əməyi və məişəti ilə bağlı olmuşdur. Bu mənada, istər xalq musiqisi, istərsə də bəstəkarlar tərəfindən yaradılmış musiqi əsərləri Azərbaycan xalqının mənəvi sərvətinin qiymətli tərkib hissəsidir. Azərbaycan musiqisi öz milli zəmini üzərində yüksəlmiş, qabaqcıl dünya mədəniyyətinin ən gözəl ənənələrindən bu və ya digər dərəcədə bəhrələnmiş, daha da inkişaf edərək müasir şəklini almışdır. O, öz incəliyi ilə eyni zamanda dünyanın mütərəqqi musiqi mədəniyyəti xəzinəsini də zənginləşdirmişdir.

Milli musiqi nümunələrində xalqın yüksək mənəviyyatı, arzu və istəkləri, ümidi, gələcəyə inamı, əhval-ruhiyyəsi tərənnüm edilir. Belə zəngin tərbiyəvi imkanlara malik olan Azərbaycan musiqisi, sözsüz, məktəbəqədər yaşlı

uşaqlarda gözəl hisslər yaradır, onlara nəcib mənəvi keyfiyyətlər aşılayır, nəticə etibarılə onlarda bədii zövqün təşəkkül tapıb, formalaşmasına imkan verir. Uşaq bağçalarında çalışan musiqi rəhbərlərinin və tərbiyəçilərin xeyli hissəsi bu vacib məsələnin öhdəsindən gələ bilmirlər. Nəticədə uşaqlar proqramın tələblərinə müvafiq musiqi savadına yiyələnmirlər.

Müasir uşağın psixi inkişafının xüsusiyyətlərinin musiqi incəsənətinin inkişaf xüsusiyyətləri ilə müqayisə etsək, bir neçə prinsipial müddəalar formalaşdırmaq mümkündür:

- şəxsiyyətin sosial tələbi haqqındakı psixoloji anlayış, musiqi incəsənətində ictimai faktorun rolu haqqında musiqi – estetik anlayışda olduğu kimi, pedaqoji, psixoloji və musiqi elmlərinin vahidliyini əks etdirir;
- müasir psixologiya musiqisinin emosional qavranılmasını təfəkkürlə vəhdətlə götürür;
- emosionallıq və şüurluluğun vəhdəti musiqi incəsənətinin əsasını təşkil edir;
- uşaq şəxsiyyətinin inkişafında emosiyalar onların həyatında hadisələrin dəyərləndirilməsi kimi büruzə verir.

Musiqidə də müxtəlif emosiyalar ifadə olunurlar. Bu emosiyalar yaradılan əsərdə sənətkarın həyati hadisələrə münasibətini, onun ideya mövqeyini ifadə edirlər. Böyük təsir gücünə malik olan musiqi məktəbəqədər yaşlı uşaqların hiss və duyğularına hakim kəsilir, onları gələcək həyata hazırlamaqda möhkəm təməl rolunu oynayır. Bu baxımdan Azərbaycan musiqisinin imkanları daha böyükdür.

Uşaqlarda, əsasən, estetik zövqü yaradan iş musiqi məşğələləridir. Bu eyni zamanda bütün kollektivi nəzərdə tutan təşkiledici təhsildir. Bu təhsil formasının da öz müsbət cəhətləri vardır. Uşaqlar həm tərbiyəçinin, həm də yoldaşlarının göstərdiyini həm görür, həm də eşidir. Belə məşğələlərdə uşaqlarda kollektivçilik, yoldaşlıq və qarşılıqlı əməkdaşlıq hissi yaranır. Bu məşğələlər 3 növdə olur: frontal məşğələlər, ayrı-ayrı qruplarda məşğələ, fərdi məşğələ.

Müasir musiqi pedaqogikasında musiqi təliminin yekun məhsulunun, nəticəsinin musiqi mədəniyyətinin formalaşdırılması olduğundan və bu prosesdə qavrama, emosionallıq kimi psixoloji anlayışlardan istifadə olunduğu üçün musiqi təliminin məqsədi də pedaqoji baxımından vəhdət şəklində əsaslandırılmalıdır.

Uşaqlarda milli musiqimizi, müasir musiqini dinləmə**,** ondan zövq alma vərdişi yaranarsa, onlarda musiqi anlama, onu qiymətləndirmə bacarığı inkişaf edərsə, onlar sadə musiqi janrlarını fərqləndirə bilərlərsə, musiqi tərbiyəsinin əsası elmi şəkildə qoyular.

Uşağın məktəbə hazırlanması problemi həmişə pedaqoqların, psixoloqların, metodistlərin, həkimlərin, loqopedlərin diqqətini cəlb etmişdir. Bu isə məktəbəqədər dövrdə uşaqların sağlamlığı, nitqi, əqli və fizioloji hazırlığı, onların psixologiyasında baş verən nöqsan və çatışmazlıqlarla bağlıdır.

Uşağın məktəbə hazırlanması təhsil sisteminin əsas məsələsidir. Bu mərhələni lazımi səviyyədə keçirməyən uşaq 1-ci sinifdə təlim prosesində müvəffəqiyyət qazana bilməz. A.Məmmədova bunun haqqında belə yazır: "Uşaq məktəbə hazırlanarkən müxtəlif təlim əməliyyatlarını yerinə yetirmək: sual vermək, suala cavab vermək, dinləmək, anlamaq, müqayisə etmək, tutuşdurmaq, mücərrədləşdirmək, ümumiləşdirmək və əqli nəticə çıxarmaq kimi ümumpedaqoji keyfiyyətlərə yiyələnməlidir." [2, s.13]. İ.A.Məmmədova uşağın məktəbdəki müvəffəqiyyətinin bağça yaşı dövründə məktəb təliminə necə hazırlaşmasından asılı olduğunu göstərərək qeyd edir ki, məktəb təliminə sistemli hazırlıq işini orta qrupdan başlamaq və onu proqram tələblərinə uyğun şəkildə təşkil etmək, məktəbə hazırlıq qrupunda surətləndirib tamamlamaq lazımdır.

Beləliklə, məktəbəqədər müəssisələrdə musiqi tərbiyəsi təhsilin ümumi sistemində ilkin pillə olub uşaq şəxsiyyətini formalaşdırmaq, bağça yaşlı uşaqların musiqi tərbiyəsini təkmilləşdirmək kimi mühüm vəzifəni həyata keçirir. Musiqi uşaqların daxili aləmini zənginləşdirir, onların əxlaqi, əqli qabiliyyətini və təfəkkürünü inkişaf etdirir. Görkəmli Rusiya alimi, Tatyana Çerniqovskaya [5] dünyanın qabaqcıl ölkələrində aparılan tədqiqatlara əsaslanaraq, belə fikrə gəlmişdir ki, uşaq yaşlarından musiqi ilə məşğuliyyət insanın gələcəkdə istənilən peşə və elm sahəsində uğurlar əldə etmək üçün çox mühüm vasitədir, çünki belə insanın beynində çoxsaylı qeyri-adi neyron əlaqələr əmələ gəlir və bunun nəticəsində belə insan qeyri-standart, yaradıcı düşüncəyə malik olur. Bu isə ona istənilən situasiyada çıxış yolunu, məsələnin qeyri-standart həllini tapmağa imkan verir.

## ƏDƏBİYYAT

1. Qəribova A. Musiqi və onun tədrisi metodikası / Dərslik. Bakı, 2021, 163 s.
2. Məmmədova A. Uşaq bağçalarında 5 yaşlıların məktəbə hazırlanması. Bakı, 2007. 159 s.
3. Məmmədova İ.A. Azərbaycan musiqisinin böyük məktəbəqədər yaşlı uşaqların bədii zövqünün inkişafına təsiri, dissertasiya, Bakı, 1994. 165 s.
4. Выготский Л.С. Психология искусства. Москва, Искусство, 1986. 573 с.
5. https://www.pryamaya.ru/tatyana_chernigovskaya

**Məqalənin redaksiyaya daxil olma tarixi: 30.03.2025**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.05.2025**
**Məqalənin çapa qəbul olunma tarixi: 27.05.2025**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Həsənova**
**ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.**

# QAYDALAR

Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri» jurnalında məqalələr Azərbaycan, rus və ingilis dillərində çap olunur. Məqalənin əlyazmasını kompüterdə Microsoft Word redaktorunda Azərbaycan, rus və ingilis dillərində, Times New Roman şrifti ilə, 12 ölçüdə, 1 intervalla, A4 formatlı ağ vərəqdə tərtib etmək lazımdır. Məqalənin həcmi 4-5 səhifədən az olmamalıdır.

Məqalənin başlanğıcında məqalənin UOT indeksi, müəllifin soyadı, adı, atasının adı, işlədiyi müəssisə və onun ünvanı, vəzifəsi, elmi adı, elmi dərəcəsi və ya fəxri adı, e-mail ünvanı, daha sonra, məqalənin adı, məqalə hansı dildə yazılmışsa həmin dildə qısa xülasəsi (120-150 söz) və açar sözlər (6-10 söz) verilməlidir. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair aydın şəkildə verilməlidir.

Daha sonra digər iki dildə xülasə (müəllifin adı və məqalənin adı həmin dillərdə göstərilməklə) («Резюме» və «Summary») və həmin dillərdə açar sözləri («Ключевые слова» və «Keywords») verilməlidir. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımından ciddi hazırlanmalıdır.

Məqalədə verilən ədəbiyyat siyahısı əlifba ardıcıllığı ilə deyil, istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllığı ilə nömrələnməli və məsələn, [1] və ya [1, s. 119] kimi işarə olunmalıdır.

**Kitab və jurnallara istinad aşağıdakı qaydada verilməlidir:**

1. Müəllifin soyadı və inisialı. Kitabın adı. Cildin nömrəsi. Şəhər: nəşriyyat, nəşr ili, ümumi səhifələrin sayı;
2. Müəllifin soyadı və inisialı. Məqalənin adı // Jurnalın adı, nəşr ili, buraxılış nömrəsi, başlanğıc-son səhifələr.

**Məqalənin quruluşu:**

- Məqalənin UOT indeksi;
- Müəllifin soyadı, adı, atasının adı;
- İşlədiyi müəssisənin adı, vəzifəsi, elmi adı və elmi dərəcəsi, fəxri adı (və ya doktorant və ya dissertant olduğu təşkilatın adı, təhsilin forması);
- İşlədiyi müəssisənin (və ya doktorant olduğu təşkilatın) ünvanı (poçt nömrəsi göstərilməklə);
- Müəllifin e-mail ünvanı;
- Məqalənin yazıldığı dildə qısa xülasəsi (120-150 söz) və açar sözlər (6-10 söz);

- Baş hərflərlə məqalənin adı;
- Məqalənin mətni;
- İstinad olunmuş ədəbiyyat siyahısı;
- Digər iki dildə məqalənin adı və müəllifin adı və soyadı göstərilməklə qısa xülasəsi və açar sözlər (6-10 söz).

**Məqalə aşağıdakı hissələrdən ibarət olmalıdır:**

- Giriş;
- Məsələnin qoyuluşu;
- Məsələnin həlli;
- Nəticə (elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və sair);
- Ədəbiyyat.

**Məqalənin redaksiyaya təqdim olunması:**

- Məqalənin çap olunmuş əlyazması (1 nüsxədə) və onun elektron variantı Compact Diskdə (CD və ya CD-RW) və məqalənin çap olunması üçün müəssisə tərəfindən təsdiq olunmuş müvafiq sənədlərlə (məqaləyə 2 rəy və təşkilatın (kafedranın) iclas protokolundan çıxarış) birlikdə jurnalın məsul katibinə (AZ 1000, Bakı, Üzeyir Hacıbəyli küçəsi 68, ADPU) təqdim edilməlidir.
- Ayrıca vərəqdə müəllif haqqında anket-məlumat əlavə olunmalıdır. Məlumatda müəllifin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi adı, müəssisənin adı, müəssisənin ünvanı, ev ünvanı, e-mail ünvanı və telefon nömrəsi göstərilməlidir.
- Məqalə n_s_q@mail.ru elektron ünvanına göndərilə bilər.
- Lazım gəldikdə jurnalın redaksiyası məqalənin nəşri üçün əlavə sənədlər tələb edə bilər.
- Məqalənin əlyazması və CD geri qaytarılmır.

***Qeyd: Qaydalar Ali Attestasiya Komissiyasının tələblərinə uyğun tərtib olunub.***

# ПРАВИЛА ОФОРМЛЕНИЯ СТАТЕЙ

В журнале «Актуальные проблемы музыкальной науки, культуры и образования» Азербайджанского Государственного Педагогического Университета статьи публикуются на азербайджанском, русском и английском языках. Рукопись статьи должна быть набрана на компьютере в программе Microsoft Word на азербайджанском, русском и английском языках шрифтом Times New Roman, размером 12, интервалом 1, форматом А4. Объём статьи должен быть не менее 4-5 страниц.

В начале статьи даётся индекс УДК, фамилия, имя, отчество автора, место работы (адрес учреждения), должность, учёное звание, учёная степень или почётное звание, e-mail, затем даётся название статьи, краткое резюме (120-150 слов) и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья. В конце нужно четко и ясно показать новизну, практическую значимость и эффективность работы в соответствующей области науки.

Далее даётся краткая аннотация на двух других языках (указать автора и название статьи) («Резюме» и «Summary») и ключевые слова («Ключевые слова» и «Key words») на этих языках. Все резюме должны отражать содержание и подготовлены очень строго с научной и грамматической точки зрения.

В статье список литературы даётся не по алфавитному порядку, а по порядку цитат, например, [1] или [1, с.119].

**Цитаты из книг и журналов даются в следующем порядке:**

1. Фамилия и инициалы автора. Название книги. Том. Город: издательство, год издания, количество страниц.
2. Фамилия и инициалы автора. Название статьи // Название журнала, год издания, номер издания, начальная и последняя страницы.

**Последовательность оформления (структура) статьи:**

- Индекс УДК;
- Фамилия, имя, отчество автора;
- Название учреждения, место работы, должность, учёное звание, учёная степень или почётное звание (или название организации докторанта или диссертанта, форма учебы) адрес учреждения (или организации докторанта), где работает (указать почтовый номер);
- e-mail автора;

- Краткое резюме (120-150 слов) и ключевые слова (6-10 слов) на том языке, на котором написана статья;
- Название статьи прописными буквами;
- Текст статьи;
- Список использованной литературы;
- Краткое резюме на двух других языках (с указанием автора и названия статьи) и ключевые слова (6-10 слов) на этих языках.

**Статья должна состоять из следующих частей:**

- Введение;
- Постановка проблемы;
- Решение проблемы;
- Выводы (новизна, практическая значимость и эффективность работы в соответствующей области науки);
- Литература.
- **Представление статьи в редакцию:**
- Рукопись статьи (1 экземпляр) и её электронный вариант на Compact Disk (CD или CD-RW) и соответствующие документы для публикации статьи, утвержденные учреждением (2 рецензии и выписка из протокола заседания организации (кафедры)) должны быть представлены ответственному секретарю журнала (AZ 1000, г. Баку, ул. Узеира Гаджибейли 68, АГПУ).
- Анкета-справка об авторе представляется отдельно. В справке нужно указать фамилию, имя, отчество автора, ученое звание, ученую степень, название и адрес учреждения, домашний адрес, e-mail и номер телефона.
- Статью можно послать на e-mail: n_s_q@mail.ru
- В случае необходимости редакция журнала может потребовать дополнительные документы для публикации статьи.
- Рукопись статьи и CD не возвращаются.

***Примечание: Правила составлены в соответствии с требованиями Высшей Аттестационной Комиссии.***

# RULES

In the journal of «Actual problems of the science, culture and education of music» of Azerbaijan State Pedagogical University articles are published in Azerbaijani, Russian and English languages. Articles must be written on the computer in Microsoft Word with Times New Roman type of 12 size, l interval and on a white paper of A4 format. Pages of the article must be not less than 4-5.

At the top of the article it must be noted UOT index of article, name and surname of the author, his place of work and post address, scientific degree, honorary title, e-mail, title of the article, its short summary (120-150 words) and key words (6-10). At the end of the article it must be clearly written about scientific novelty of the article, importance of its research, economical benefit etc.

At the end of the article it must be noted list of references, in two languages title of the article, name of the author summary and keywords.

Content of the summaries in two languages must be same and suit to the content of the article. Summaries must be written grammatically and scientifically. List of references must not be given in alphabetical order but in the order of their place in the article, for example, [1] or [1, p. 119].

**Reference to books and journals must be given as below:**

1. Surname and initials of the author. Title of the book. Number of the volume. City: edition, publication year, number of pages.
2. Surname and initials of the author. Title of the article// Name of the journal, publication year, issue number, the first and the last pages.

**Structure of the article:**

- UDC index of the article;
- Name and surname of the author;
- Place of work and post, scientific degree, honorary title (it must be noted name of the institution where one is a candidate for a degree or a doctor for a degree);
- Address of work (or institution where one is a doctor for a degree);
- E-mail of the author;
- A short summary (120-150 words) and key words (6-10 words) of the article in the same language that was the article written in;
- Title of the article in capital letters;
- Text of the article;
- List of references;
- Short summary (120-150 words) and key words by indicating the

name of article, name and surname of author in other two languages (6-10 words).

**The article must consist of the following parts:**

- Introduction;
- Putting of task;
- Solution of task;
- Conclusion (scientific innovation, applied significance, economic benefit of the work conforming to character of the scientific field and article, etc.);
- Literature.

**Submission of the article to revision:**

- The printed manuscript of the article (in 1 copy) and its electron variant is to be submitted to the responsible secretary of the journal in Compact Disc (CD or CD-RW) together with proper documents certified by institution for printing of the article (2 references to the article and extract from meeting protocol of the organization (department)) (68, Uzeyir Hajibayli str., Baku, AZ 1000, ASPU).
- Information form about author is to be attached in separate sheet. Surname, name, father's name, scientific degree, scientific title of author, name of institution, address of institution, home address, e-mail address and phone number is to be indicated in the information.
- The article may be sent to e-mail: n_s_q@mail.ru.
- If necessary, revision of the journal may require further documents for publication of the article.
- Manuscript of the article and CD is not returned.

***Note: The rules framed in accordance with the requirements of the Higher Attestation Commission.***

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmış: 27.05.2025.
Kağız formatı $70\times100^{1/16}$. Şərti 9,75 ç.v.
Sifariş 165. Sayı 200.

---

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli küçəsi, 68
Tel.: 493-74-10